# ZƏRİFƏ ƏLİYEVA







Hüseynbala Mirələmov

GÖRKƏMLİ ADAMLARIN HƏYATI

# GÖRKƏMLİ ®
# ADAMLARIN
# HƏYATI

*Biografiq silsilə*

Əsası 1890-cı ildə
F.Pavlenko tərəfindən qoyulmuş
və 1933-cü ildə M.Qorki
tərəfindən davam etdirilmişdir.

**BURAXILIŞ**

**1455**
**(1255)**

56.7г(5Азе)
М66

Hüseynbala Mirələmov

# ZƏRİFƏ ƏLİYEVA

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 73344

AZƏRBAYCAN
NƏŞRİYYATI
BAKI – 2013

56,4Г(5Aze)
M 66

Z08(13)

Tərcümə edəni: **Kifayət Əhmədqızı**

**Hüseynbala Mirələmov**
Z08(13) Zərifə Əliyeva (GAH (ЖЗЛ) Bioqrafik silsilə). - Bakı, "Azərbaycan" nəşriyyatı, 2013. - 208 s.

**Z $\frac{4804000000 - 008(13)}{M670(07) - 2013}$ Sifarişlə**

ISBN 9952-33-009-x

© Mirələmov H.F., 2010
© "Azərbaycan" nəşriyyatı, 2013.

*Hökm edir dünyada ölümlə zaman,*
*Amma onlar deyil sahibi-fərman,*
*Dövr edib zülmətə qərq olur hər şey*
*Nur saçır hələ də eşqin günəşi.*

Poliksena Solovyova

## DASTANIN[1] ƏVVƏLİ

Dövlət təhlükəsizliyi zabiti, gənc Heydər Əliyevlə rastlaşanda Zərifə xanımın iyirmi beş yaşı var idi.

Onun tərcümeyi-halı Naxçıvanın uzaq Şahtaxtı kəndindən başlayır: 28 aprel 1923-cü ildə, Azərbaycanın sovetləşməsi günündə (bunu rəmzi təsadüf kimi də yozmaq olar) o dünyaya gəlmişdir. Sonra - məktəb, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu (həmin instituta bir zamanlar onun atası rəhbərlik etmişdi), Moskva Həkimlərin Təkmilləşdirilməsi İnstitutu.

İstedadlı təbib-alimin və gələcəyin görkəmli dövlət xadiminin şəxsi həyatının müqəddəratını həll edən tanışlıq 1948-ci ildə baş verdi. Məhz həmin vaxt böyük əfsanəvi məhəbbətə çevrilən qarşılıqlı rəğbət qığılcımları iki gənc qəlbdə işartı verməyə başladı... Və burada önəmli olan odur ki, bu rəğbətin sirli "kimyagərliyi" hər ikisinə gen-bolluqla nəsib olmuş nəhəng cazibənin - ağlın, istedadın və mənəvi saflığın cazibəsinin təsiri altında baş verirdi. Onları maddi qazanc və ya hesab birləşdirmirdi - bu iki qəlbin arasında mənəvi qəlb bağı var idi, həmin bağı onlar bütün həyatları boyu qorumuş və mən inanıram ki, elə indi də həmin bağla səmada bir-birinə bağlıdırlar...

Bu son dərəcə gözəl qadının həyat kitabını vərəqləyərkən, qeyri-iradi olaraq Dostoyevskinin "İdiot" romanında knyaz Mışkinin ilk dəfə Anastasiya Filippovnanın portreti üzərindəki düşüncələri olan sətirlər yada düşür. Həqiqətən,

---

[1] D a s t a n - Şərq xalqlarının ədəbiyyatında və folklorunda qəhrəmanlıq poeması və ya romantik poema. Şeirlə və ya şeir əlavələri ilə nəsrlə yazılır *(burada və bundan sonra bütün qeydlər müəllifindir).*

gözəllik böyük qüvvədir, dünyanı çevirə bilər, lakin knyazın qeyd etdiyi yeganə bir şərtlə ki: "Bircə bunu bilmirəm ki, safdır, ya yox? Kaş, saf olaydı! Hər şey nicat tapardı!" Bizim qəhrəmanımızın obrazında daxili və xarici gözəlliyin ahəngdar bir şəkildə vəhdəti vardır, bu da onun hər bir hərəkətində və arzusunda, dünyaya və insanlara münasibətində tam təzahür olunmuşdur...

***

Ömrünün son anlarında Heydər Əliyev qızı Sevilə etiraf etmişdi ki, əgər onun anasına rast gəlməsəydi, heç vaxt ailə qurmayacaqdı...

Görüş, eşqin yaranması qədim zamanlardan məşhur süjetdir. Biz də bu süjeti qəhrəmanımızın müasirlərinin təəssürat və xatirələri ilə zənginləşdirərək, hadisələrin şərhi kimi kiçik bir rolu da müəllifin öhdəsinə qoyaraq davam etdirək.

1948-ci il. Gənc əks-kəşfiyyat zabiti Heydər Əliyev Leninqrada təhsil almağa gedir. Zərifə xanım Moskvada həkim-oftalmoloq kimi ixtisasını artırır. Zərifənin atası, artıq tanınmış dövlət rəhbəri Əziz Əliyev İctimai Elmlər Akademiyasında təhsil alır və Azərbaycan KP MK-da işləyir. Gələcək ürəkaçan tonlarla təcəssüm olunurdu. Ölkə Böyük Qələbənin nuru ilə işıqlanmışdı. Qocalan rəhbər növbəti partiya qurultayında nikbin sözlər dedi: "Yoldaşlar, daha yaxşı, daha şən yaşamağa başlamışıq!" Əlbəttə, döyüş meydanlarından qayıtmış, ölüm-dirim savaşında faşizmi darmadağın etmiş, dinc əmək üçün, doğma ocaq üçün darıxmış, müharibənin vurduğu yaraları sağaltmağa, doğma şəhər və kəndlərini xarabazarlıqdan təmizləyib bərpa etməyə çalışan insanların ruh yüksəkliyi və həvəsi barədə danışmamaq olmaz...

Amma rejim üzünü göstərəcək. Sistemin təbiəti dəyişməmişdir. Bu, gənclərin - Zərifə Əliyevanın və adı Azərbaycanın tarixinə daxil olacaq sevgilisinin də həyatında özünü göstərəcəkdir. Lakin bütün bunlar sonra olacaq...

Hələlik isə - qarşıda müharibə var...

*Birinci fəsil*

# HİPPOKRAT VƏ OFTALMOLOGİYA

*... Bütün bilik və qüvvələrimi sağlamlığın müdafiəsinə və yaxşılaşmasına, insanların şəfa tapmasına və xəstəliklərin qabaqlanmasına sərf edəcək, harada olmağımdan asılı olmayaraq cəmiyyətin rifahı üçün vicdanla və ləyaqətlə çalışacağam;*

*... xəstənin mənafeləri tələb etdiyi hallarda məsləhət üçün peşə yoldaşlarıma müraciət edəcək və özüm də həmişə həmkarlarıma məsləhət verməyə və kömək etməyə hazır olacağam...*

**"Hippokrat andı"ndan**

... Faşist Almaniyasının Sovet İttifaqına hücumu bütün həmyaşıdları kimi, gənc Zərifənin də dinc həyat nəşəsinə son qoydu, arzu və planlarını alt-üst etdi. Bakının demək olar ki, bütün məktəbləri, ali məktəb binaları və yataqxanalar hərbi hospitala çevrildi. Respublikanın arxa hospitallarında milyondan çox yaralı döyüşçü müalicə olunurdu, onların da yetmiş faizi yenidən cəbhəyə dönürdü.

**Tarix elmləri doktoru, professor Püstəxanım Əzizbəyova** öz xatirələrində qeyd edirdi ki, müharibə illərində onlar Zərifə Əliyeva ilə birlikdə tez-tez Kommunist (hal-hazırda burada İqtisad Universiteti yerləşir, küçənin adı isə "İstiqlaliyyət"dir) küçəsindəki Azərbaycan Dövlət Universitetinin o zamankı binasında yerləşmiş hospitalda yatan xəstələrə baş çəkirdilər.

"Biz bir palatanı hamiliyə götürmüşdük, - Püstəxanım Əzizbəyova xatırlayır. - Zərifə o vaxta qədər bizə məlum olmayan mühitə çox tez alışdı. Mən yalnız indi başa düşürəm ki, ən ürəkbulandıran işdən belə çəkinməyərək yaralılara

qulluq etmək üçün bu məktəbli qızdan nə qədər böyük qüvvə və iradə tələb olunurmuş..."

Palatamız yadımdan çıxmır. Pəncərənin yanında üzü yanmış, çoxlu sınıqları olan bir təyyarəçi yatırdı. O, yeməkdən imtina edir, demək olar ki, gözünü açmırdı. Ətrafda baş verən hər şeyə qarşı tamamilə biganə idi. Zərifə vaxtının çoxunu bu xəstə ilə keçirir, ondan ailəsi haqqında soruşur, cəbhədən gələn sevindirici xəbərləri birinci ona verirdi. Öyrənmişdi ki, təyyarəçinin bizim yaşda bir qızı var. Əzizlərini darıxdırmamaq üçün yaralanması barədə onlara xəbər verməmişdi. Bir müddətdən sonra ürəyi yumşaldı və Zərifəyə ilk məktubunu yazdırdı. Və biz həmin məktubu dərhal poçt qutusuna atdıq. Beləliklə, Zərifə öz üzərinə bir vəzifə də götürmüş oldu: yaralıların diktəsi ilə onlar üçün məktub yazır və qohumlarına göndərirdi.

Bir dəfə evə gedəndə Kommunist küçəsindən düşüb Zevin küçəsinə döndüyümüz yerdə biz qəşəng bir gənc qadın gördük. O, qeyri-təbii şəkildə düz durmuş, başını dik tutub ehtiyatlı addımlarla divar boyu irəliləyirdi. Zərifə duruxdu və əsən əlləri ilə məndən tutaraq dedi: "Gördün? Gördün? O kordur..." Və bir az gözləyib əlavə etdi: "Bilirsən, mən çoxdandır həkim olmaq barədə düşünürəm. Axı, ailəmizdə hamı həkimdir - atam da, anam da, böyük bacım da, Tamerlan da. Mən göz həkimi olmağı qət etmişəm. İndi isə həyat mənim qərarımın son və qəti nöqtəsini qoydu: mən insanlara ən mühüm, ən əvəzsiz olan bir neməti - işığı qaytarmaq istəyirəm..." Qəlbində kök salmış bu niyyət, bu arzu barədə Zərifə sonralar da dəfələrlə söhbət açırdı.

Dövlət imtahanları başlamışdı. Əlaçı şagirdlər də, zəiflər də həyəcanlanırdılar. İmtahan hamı üçün imtahandır. Suallara cavab verdikcə Zərifə hiss edirdi ki, professor Umnisə Musabəyovanın çöhrəsi necə işıqlanır. Gənc tələbə müxtəlif göz xəstəlikləri barədə, onların müalicəsi və profilaktikası barədə elə müfəssəl, ətraflı və həvəslə danışırdı ki, sanki uzun illər bu sahədə çalışmış və təcrübə toplamışdı...

İmtahanlardan sonra professor Zərifəni çağırdı və ona dedi: "Həkimlik, ümumiyyətlə, gözəl, nəcib peşədir. Amma tibb elmləri arasında ən nəcibi oftalmologiyadır. Mən sənin oftalmoloq olmanı istərdim".

Professorun istəyi onun arzuları ilə üst-üstə düşürdü. O özü də çoxdan idi ki, yeri, göyü, bütün rəngarəngliyi ilə təbiəti görməyin nə qədər böyük bir xoşbəxtlik olduğunu fikirləşirdi. Gözlərini yumaraq görmə qabiliyyətini itirmiş şəxsin halını təsəvvür etməyə çalışırdı və bu zaman həyat onun üçün dözülməz bir həsrətə çevrilirdi. Evlərinin yaxınlığındakı küçədə hər gün gördüyü, əlindəki çubuğu yerə vura-vura gedən qocanı yadına salırdı. O, kiçik idi və qocaya çox yazığı gəlirdi. Səs-küylü rəfiqələrindən ayrılar, rəhmli nəzərlərlə qocanın ardınca baxardı. Qayğısız təbəssüm üzündən çəkilər, baxışlarına kədər kölgəsi çökərdi.

Həmin uzaq illərin belə təəssüratlarının təsiri ilə onun gənc qəlbində mərhəmət, şəfqət, başqasının ağrı və acısına ürək yanğısı rişələri boy atdı, böyüdü. Nəticədə əyninə ağ xalat geyib həyatını insanların sağlamlığının müdafiəsinə həsr etdi. Fitrətdən gələn qayğıkeşliyi xəstələrlə qəlb bağları qurmağa kömək edirdi, bunsuz isə həqiqi həkim olmaq ağla belə gələ bilməz. Xəstələr də bu gənc qızın mərhəmətini, onların dərdinə ürək yanğısını dərhal hiss edir, ona etimadla yanaşır, ən çətin anlarında ona ümid bəsləyirdilər.

İllər keçirdi. Hər bir uğur, hər bir gözlərinə yenidən işıq gəlmiş insan onun üçün mükafat idi, qanadlandıran sevinc mənbəyi idi.

Üzərində əməliyyat apardığı xəstə Zərifə xanımın həmişəlik yadında qaldı. Orta yaşlı qadın tam kor olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Əməliyyat yeganə ümid idi. Qadın tamam ruhdan düşmüş, başına gələn bəladan özünə qapanmışdı. Suallara həvəssiz və qısa kəlmələrlə cavab verirdi. Əməliyyatı Zərifəyə tapşırdıqları zaman o, çox həyəcanlanmışdı. Atasının sözləri tez-tez yadına düşürdü: "Xəstə həkimə inanmalıdır, yoxsa həkim onu heç yüngül soyuqdəymədən də sağalda bilməz". Burada isə söhbət adi naxoşluqdan deyil, peşəkar təcrübə tələb edən mürəkkəb hadisədən gedirdi. Ruhdan düşmüş, ümidini itirmiş bir qadın gənc cərraha inanacaqdımı? O, xəstəni əməliyyatı qəbul etməyə razı sala bildi.

Nəhayət, ən məsul an yetişdi. Gənc qadın-cərrah şəxsən xəstənin gözlərindən sarğını açdı. Dərin sükut yarandı. Xəstə nəzərlərini bir nöqtəyə zilləmişdi. "Yəni görmür?" - uğursuzluq ehtimalı Zərifə xanımı elə sarsıtmışdı ki, hətta ayaqları taqətdən düşdü.

Və birdən o, xəstənin əvvəl inamsız:

- Deyəsən... görürəm... - Sonra isə sevinclə: - Həkim, mən görürəm! - səsi eşidildi.

Həkim isə qeyri-iradi gələn göz yaşlarını gizlətmək üçün artıq palatadan çıxırdı..."

Belə həyəcanlı, çətin, unudulmaz anları o qədər yaşadı ki! Hər dəfə də xəstəsi üçün həyəcan keçirir, narahat olurdu. İnsan ağrısına öyrəşə bilmirdi. Heç istəmirdi. Qəlbində bircə meyil var idi - yardım etmək.

Təcrübə öz qaydası ilə gedirdi. Zaman keçdikcə Zərifə xanım kifayət qədər təcrübə toplamışdı və düşünürdü ki, bu təcrübəni ölkə səhiyyəsinin aktual vəzifələrini hədəf götürərək ümumiləşdirmək lazımdır. Elmi tədqiqatın mövzusunu təyin edərkən o, respublika səhiyyəsi üçün böyük əhəmiyyətə malik olan bir sahəni seçdi. Onun namizədlik dissertasiyasının mövzusu oftalmologiyanın sosial baxımdan aktual olan probleminə - traxoma ilə mübarizəyə aid idi. Ümumdünya səhiyyə təşkilatının məlumatına görə, bu xəstəlikdən dünyada 400 milyon adam əziyyət çəkirdi, 80 milyon nəfər bu səbəbdən kor olmuşdu. Görmə qabiliyyətini itirmənin ən geniş yayılmış səbəblərindən biri olan traxoma həmin illər Azərbaycanda sosial bəlaya çevrilmişdi. Dissertasiya üzərində işləyərkən Zərifə yüzlərlə, minlərlə xəstəni sağlamlığına qovuşdurmuş, uşaq evlərindən çox sayda yetim uşağa şəfa vermişdi.

**Tibb elmləri doktoru Həcər Nəsrullayeva** xatırlayır:

"Altmışıncı illərin əvvəlində respublika hökuməti Azərbaycanda traxomanın kökünün kəsilməsi barədə qərar qəbul etdi. Bununla əlaqədar olaraq, biz respublikanın rayonlarına gedir, orada on-on beş gün qalır, profilaktik iş aparır, traxoma xəstələrini aşkar edir, onların müalicəsi ilə məşğul olurduq. Adətən xəstəxanalarda gecələyirdik. Bir dəfə rayon mərkəzindən yetmiş kilometr kənarda yerləşən bir kəndə getdik və axşama qədər orada işlədik, geri qayıdanda çox ac idik. Qaldığımız otaqda isə iki ədəd toyuq yumurtasından başqa heç nəyimiz yox idi. Onları bir qaba qoyub üstünə su tökdük və qaynaması üçün sobanın üstünə qoyduq. Ancaq yorğunluq güc gəldi və bizi yuxu apardı. Bir də səhər ayıldıq. Qazançadakı su qaynayıb qurtarmış, yumurtaların isə cızdağı çıxmışdı..."

"İnstitutumuzda işlədiyi ilk günlərdən etibarən Zərifə xanım peşəkarlıq və insani xüsusiyyətləri ilə diqqəti cəlb edirdi, - **Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunun direktoru Kərim Kərimov:** - Həmin illər Azərbaycanın rayonlarında traxoma xəstəliyi baş qaldırmışdı və çox sürətlə yayılırdı. Kəndlərdə, qəsəbələrdə traxomaya düçar olmuş bütöv ailələr kor olurdu. Məhz həmin dövrdə Zərifə xanım tərəddüd etmədən könüllü briqadalara qoşuldu. Bu xəstəliyin ona da yoluxa biləcəyi təhlükəsini belə unudaraq o, xəstələri müalicə edir, əhali ilə görüşür, profilaktik tədbirlər görürdü... Azərbaycanda traxoma üzərində qələbə çalınmasında onun da ləyaqətli payı vardır".

Bundan əlavə, Zərifə xanım qlaukoma və yaxından görmənin qabaqlanması ilə əlaqədar profilaktika aparılması məqsədilə respublikanın regionlarına dəfələrlə səfər edirdi. Uzun illər ərzində o, qlaukomaya tutulmuş xəstələri aşkar etmək üçün Əli-Bayramlı (indiki Şirvan) şəhərinin sənaye müəssisələrində ciddi diaqnostika işi aparmışdır. Bu xəstəliyə yoluxma təhlükəsi olanları Zərifə xanım dərhal dispanser qeydiyyatına götürür, stasionar müayinəyə və müalicəyə göndərirdi. Bundan başqa o, uşaqlarda yaxından görməni aşkar etmək üçün bu şəhərin məktəblərində böyük iş aparırdı.

Zərifə xanım tibbə inam və sevgi ilə xidmət edirdi. Bu qulluq həm çətin, həm də fərəhverici idi. Tanınmış təyyarəçi-kosmonavt German Titovun dediyi kimi, "gücü çatan bir peşəyə yiyələnə bildisə, zəhmət sevinc gətirəcək". Zərifə xanımı seçdiyi sahədə əldə etdiyi uğurlar ilhamlandırır, ən kiçik uğursuzluq isə darıxmağa, həyəcanlanmağa, amma bununla birlikdə təslim olmamağa və problemi daha diqqətlə araşdırmağa sövq edirdi. Təbiəti etibarilə o, böyük tədqiqatçı potensialına malik idi və buna görə də nəzəri problemlərin işlənməsinə həvəslə girişirdi, lakin bununla yanaşı o, elmi nəticələrin praktik tətbiqinə, tibbi biliklərin populyarlaşmasına çoxlu vaxt və əmək sərf edirdi. Yüksək peşəkarlıq və bilik dairəsinin genişliyi onda ədəb, insanpərvərlik və qayğıkeşliklə ahəng təşkil edirdi. Bu xüsusiyyətlər Zərifə Əliyevanı ən humanist peşəyə fədakarcasına qulluğun nümunəsi hesab etməyə əsas verir. Bütün çətinliklərə baxmayaraq, bu, onun üçün yalnız iş deyil, həm də bitib-tükənməyən ilham mənbəyi idi. Zərifə Əliyevanın iştirakı həmkarları və pa-

sientləri arasında xüsusi etimad və mehribanlıq atmosferinin yaranmasına kifayət edirdi.

Bununla yanaşı, o heç vaxt seçilməyə çalışmır, "publika"-ya işləmirdi. Ordinatorluqdan tanınmış həkimliyə, akademik-alimliyə qədər zəhmətlə və şərəflə dolu bütün həyat yolunda o, öz təvazökar təbiətinə sadiq qalmışdır.

Bu epizod 1962-ci ilə aiddir. Azərbaycanın ucqar kəndlərindən birində sadə bir kənd zəhmətkeşinin ailəsində bədbəxtlik baş vermişdi: yeddinci sinif şagirdi Nazilə görmə qabiliyyətini itirmişdi - onun hər iki gözü kor olmuşdu. Anası taleyin bu hökmünə boyun əyməyərək qızını da götürüb Bakıya, Göz Xəstəlikləri İnstitutuna yollandı. Kişi həkim gənc pasienti müayinə edərək ümidsiz halda əllərini yanına saldı. Ondan gözünü çəkməyən ana hönkürdü və göz yaşı içində yalvardı: "Allah rizasına, qızıma kömək edin!"

Həkim yerindən qalxdı, kədərlə başını yellədi və dedi: "Təəssüf ki, sizin qızınız ömürlük kor qalacaqdır..." Bu sözlər bıçaq kimi ananın qəlbinə saplandı və o, özünü saxlaya bilməyib qışqırdı: "Yox! Həkim, ola bilməz!" On dörd yaşlı Nazilə ayağa durdu, divardan tuta-tuta qapıya tərəf yönəldi. Göz yaşını güclə gizlədərək pıçıldadı: "Ağlama, anacan, gəl burdan gedək!"

Bu dramatik səhnədən qəmlənmiş həkim dediyinə peşman olsa da, artıq gec idi, ana qızı ilə kabineti tərk etmişdi. Dəhlizdə bir-birini qucaqlayaraq kədər mücəssəməsi kimi donub qalmışdılar. Qonşu kabinetdən çıxan ağ xalatlı suyuşirin bir qadın onların yanında dayandı. Nazilənin saçlarına toxunub soruşdu:

- Sənin adın nədir, qızım?
- Nazilə, - o çox çətinliklə cavab verdi.
- Gedək mənimlə! De görüm, sənə nə olub?..

Qadın onları öz kabinetinə apardı. Onlara çoxlu suallar verdi, qızın gözlərini müayinə etdi və ürək-dirək verərək dedi: "Bir az su için, sakitləşin. Heç vaxt ümidini itirmək lazım deyil..."

O, hər yerdən əli üzülmüş ana üçün Allahın göndərdiyi bir mələk kimi idi. Bir azdan kabinetin qapısında baş həkim Nazim Əfəndiyev göründü:

- Zərifə xanım, burda nə baş verib?

- Professor, xahiş edirəm, bu qızın gözlərini müayinə edəsiniz. Mənə belə gəlir ki, cərrahi müdaxilə imkanı var.

Əfəndiyev xəstəni müayinə etdikdən sonra dedi:

- İbtidai terapiya aparmaq lazımdır... Altı ay... Bundan sonra isə əməliyyat etmək. Onun görmək şansı var.

Altı - çox uzun, qurtarmaq bilməyən ay... Bu müddət ərzində Zərifə xanım bir gün də olsun, onları diqqətdən kənarda qoymurdu. Bakıda nə bir qohumu, nə də bir tanışı olan ana ilə qızı Zərifə xanıma rast gəldiklərinə görə şükür edirdilər. Onun ürəyiyananlığı şəfalı məlhəm kimi təsir edirdi. Nəhayət, çoxdan gözlənən gün gəlib çatdı. Əməliyyatdan sonra sarğını açdıqda Nazilə artıq sağalmış gözlərini açıb inamsız və ürkək baxışlarla xilaskarını, əvvəllər heç vaxt üzünü görmədiyi, görə bilmədiyi o mübarək qadını - həkimi axtardı... və tanıdı.

- Bu sizsiniz... mənim gözlərimi siz sağaltdınız!

- Gözünüz aydın olsun! - hamı onları təbrik edirdi.

Zərifə xanım bununla öz işini bitmiş hesab etmədi - uzun illər o, Nazilə və onun anası ilə əlaqələrini kəsmədi və onlara gücü çatan bütün köməyi etdi.

Homerin "İliada"sında belə bir kəlam var: "İstedadlı təbibin həyatı bir çox həyatdan dəyərlidir"... Yəni bir yaxşı həkim xeyli insana yeni həyat bəxş edə bilər.

**Fərhad Məmmədovun** xatirələrindən:

"1973-cü ilin payızı idi, mənim on doqquz yaşım var idi. Uşaqlıqda ağır ağciyər soyuqdəyməsi keçirmişdim. Çox çətinliklə sağaldım, amma nəticəsi gözlərimdə fəsad yaranmasına gətirib çıxardı. Ən kiçik gərginlikdən onlar tədricən qızarır, sancı, əziyyət verirdi, mən özümü adam arasında narahat hiss edirdim... Məsləhət gördülər, Oftalmologiya İnstitutuna müraciət edim və mən gün seçib oraya getdim. Qapıda yaşlı bir kişi mühafizəçi dayanmışdı. Mən ona öz dərdimi danışdım və nə üçün gəldiyimi dedim. Bu zaman pilləkənlərdən ağır addımlarla bir xanımın endiyini gördüm. Xanım təbəssümlə mənə tərəf baxdı və gözümdəki qırmızılığı görüb nə olduğunu soruşdu. Düzdür, onun iş vaxtı qurtarmışdı və o, evlərinə getməyə hazırlaşırdı. Amma mənimlə kabinetinə qayıtdı, diqqətlə gözlərimi müayinə etdi, keçirdiyim xəstəliklər haqqında soruşdu. Sözümü kəsmədən diqqətlə axıra qədər dinlədi. Onun sadəliyi, mülayimliyi və xoşrəftarlığı

məni mütəəssir etmişdi. Hansı diyardan olduğumu soruşdu. Qubadan olduğumu bildikdə qubalılara böyük ehtiramını bildirdi. Söhbət əsnasında atası Əziz Əliyevi xatırlayaraq qüssə ilə ah çəkdi, səsi titrədi. Sonra yenə də mənim xəstəliyimə başı qarışdı. Dərman almaq üçün resept yazdı, lakin israrla tövsiyə etdi: "Əgər gözlərin çox narahat etməsə, ağrıya dözmək mümkün olsa, çalış bu dərmanlardan istifadə etməyəsən". Həmçinin tünd müdafiə eynəyi taxmağı tövsiyə etdi və təbəssümlə əlavə etdi: "Toya qədər sağalar..."

Həqiqətən də otuz yaşıma qədər mənim gözlə əlaqəli bütün problemlərim yox olub getdi. O vaxtdan çox zaman keçib, amma mən hələ də eynəksiz keçinə bilirəm, xırda şriftləri rahatlıqla seçirəm. Və həmişə o qayğıkeş qadını və gözəl insanı təşəkkür hissi ilə xatırlayıram..."

Azərbaycan yazıçısı və maarifçisi Məmməd Tağı Sidqi demişdir: "Xoşbəxtlik dörd əsasdan ibarətdir: təmiz nəsil, saf ürək, təmiz əllər və niyyətin dürüstlüyü". Bu sözlər Zərifə xanımın şəxsiyyətinə tam uyğun gəlir.

Türkiyənin dahi oğlu və dövlət xadimi Mustafa Kamal Atatürk belə bir əxlaqi nəsihət qoymuşdur: "İnsanlar həmişə yüksək, saf və müqəddəs ideallara doğru can atmalıdırlar". Bizim hekayəmizin qəhrəmanı həkimlik fəaliyyətinin mənəvi məzmununa xüsusi əsər həsr etmişdir. Əgər bu əsəri sosial kontekstə daxil etsək, söhbət sağlam, sivil cəmiyyətin humanist dəyər və əxlaqından gedər.

"Möhkəm etiqad" - Zərifə Əliyevanın əsəri belə adlanır. Bu kitabda müasir dünyada həkim etikası məsələləri və prinsipləri nəzərdən keçirilir və o, insaniyyət kredosunun ayrılmaz hissəsi kimi, öz peşəkar dünyagörüşünü açıqlayır: "Vicdan bizim baş hakimimizdir. Çətin anlarda və xoş günlərdə sən onunla baş-başa qalanda o soruşur: sən ağ xalatda gəzməyə layiqsənmi? Sənin əllərin əziyyət çəkən insana təkcə sənin elmini deyil, həm də qəlbinin narahatlığını, ürəyinin istisini çatdıra bilmişdirmi? Düzünə qalsa, öz vicdanının ciddi məhkəməsindən keçmək böyük xoşbəxtlikdir. Həqiqi həkim xəstə ilə birlikdə hər şeyi hiss edir, çünki xəstənin ağrısı, onun şəxsi ağrısıdır. Əgər sağlamlığını itirmiş şəxs yenidən o sağlamlığa qovuşarsa, deməli həkim də həyata yenidən qayıdır. Bizim peşəmizin mənəvi əsası bundadır. N.A.Semaşko

yazırdı: "Həkimlikdən nəcib sənət yoxdur; xəstə təkcə sağlamlığını deyil, bütün həyatını həkimə etibar edir".

Tez-tez "Sağlam bədəndə sağlam ruh" qədim kəlamı xatırlayan Zərifə xanım deyirdi ki, hər birimiz həyatımız boyunca səhiyyə işçiləri ilə bu və ya digər şəkildə bağlıyıq. Həkim yeni doğulacaq körpənin gəlişini gözləyir, ilk addımlarını atmağa ona həkim kömək edir, bütün rəngarəngliyi və ənginliyi ilə dünyanı onun gözləri qarşısında açır, qayğı və bacarığı ilə onun fiziki və mənəvi sağlamlığını möhkəmləndirir. Milyonlarla insanın əhval-ruhiyyəsi, fəaliyyətinin səmərəliliyi səhiyyə xidmətinin vəziyyətindən və effektivliyindən asılıdır.

Hələ eramızdan doqquz əsr əvvəl qədim hindistanlı həkim Çaraka "Çaraka-Supxeta" traktatında həkim etikasının bir sıra tezislərini şərh etmişdir. Bu, həkimin xəstə qarşısında peşə borcunun ilk mənəvi məcəlləsi, fədakar və təmənnasız zəhmət üçün nəsihət idi. Çaraka, insanların sağlamlığının qorunmasını, yaxşılaşdırılmasını və lazım gələrsə, xəstənin xilas olması üçün öz həyatından belə keçməyə hazır olmağı həkimin vəzifəsi hesab edirdi.

Qədim Elladanın görkəmli təbiblərindən olan Hippokrat bu günə qədər peşəkar həkim etikasının əsasını təşkil edən bir sıra davranış qaydası və əxlaqi göstəriş tərtib etmişdir; həmin müddəalar məcmuəsi bu gün bütün dünyada "Hippokrat andı" kimi məşhurdur. Hippokrat təmənnasız olmağı, vicdanlılığı, dürüstlüyü, bütün mümkün qüsurlara ikrahla yanaşmanı, xurafatlar qarşısındakı qorxunun rədd edilməsini həkimin vacib xüsusiyyətlərindən hesab edirdi.

Təbabət sahəsində bütün fəaliyyəti ərzində Zərifə xanım insanlara təmənnasız xidmətin nümunəsi olmuşdur. Yüksək peşəkarlıq onda təbii şəkildə insanpərvərliklə və xeyirxahlıqla, borc hissi və vətənpərvərliklə birləşirdi.

O, tez-tez dahi rus yazıçısı və həkimi Anton Pavloviç Çexovun nəsihətlərini yada salardı: "Həkim peşəsi fədakarlıq deməkdir. O, həqiqi fədakarlıq, geniş ürək və təmiz niyyət tələb edir. Buna isə heç də hamının qabiliyyəti çatmır".

Niyyətlərin saflığına gəlincə. Beyrutun "Ən-Nida" qəzetinin məlumatına görə, Misirin keçmiş prezidenti Camal Əbdül Nasirin ölümündə İsrail kəşfiyyatının agenti, həkim massajist, prezidentin ürəyinin dayanmasına səbəb olmuş xüsusi

bir preparat istifadə etmiş Uteyfl adlı bir şəxsin əli olmuşdur. Bu, kriminal hadisədir və cinayət törətmək üçün tibb işçisi adından şirma kimi istifadə edilməsi ürəkağrıdıcıdır. Amerika qəzetlərindən birinin verdiyi məlumata görə, Baton-Ruj şəhərində (Arizona ştatı) xüsusi klinikaya avtomobil qəzasında ağır yaralanmış iki gənc gətirilir, lakin sığorta polisləri olmadığına görə xəstəxananın həkimləri onları qəbul etməkdən imtina edirlər. Klinikanın sahibi riyakarcasına demişdi: "Əlbəttə, bizim ürəyimiz daş deyil. Amma nə etmək olar, biz hər şeydən əvvəl biznesmenik".

Bu, Hippokrat andı ilə necə uyğun gəlir? Həkim əməyinin əsasına qoyulmuş əbədi və dəyişməz xeyirxahlıq və şəfqət dəyərləri ilə necə uzlaşır?

Zərifə Əliyeva tez-tez təkrar edərdi: "Həkim üçün xəstənin maraqları hər şeydən üstündür". Gözəl bir psixoloq kimi o, başa düşürdü ki, xəstə ilə məhrəmanə kontakt həkimin ən yaxşı müttəfiqidir. Qarşılıqlı anlaşma, həkimlə xəstənin səmimi dialoqu orqanizmin müqavimətinin, onun gizli resurslarının artmasına, iradəsinin sağalma üçün səfərbər olunmasına yardım edir. Əksinə, yersiz bir söz, kəskin hərəkət, yol verilmiş nəzakətsizlik, kobud, qaba rəftar xəstənin vəziyyətinin korlanmasına səbəb ola bilər.

XIII əsrdə yaşamış suriyalı həkim Əbul Fəradis xəstəyə müraciət edərkən deyərmiş: "Biz üç nəfərik - sən, xəstəlik və mən. Əgər sən xəstəliklə ittifaq bağlasan, mən təklikdə qalacağam və siz mənə üstün gələcəksiniz. Əgər mənimlə əl-ələ versən, onda bizim gücümüz ikiqat artacaq, xəstəlik isə tək qalacaq, biz də birlikdə ona qalib gələ bilərik..."

Müalicə prosesinə müxtəlif profilli həkimlər cəlb olunur, lakin əsas məsuliyyət müalicə edən həkimin çiyinlərinə düşür. Xəstə üzərində qayğını iş gününün reqlamenti ilə məhdudlaşdırmaq primitiv məmur davranışıdır. Burada "siz çox, mən tək" tipli bəhanələr yalnız və yalnız əxlaqsızlıqdır. Bəlkə də, xoş bir kəlmə, xəstənin çarpayısının yanında bir neçə dəqiqə keçirmək, təbəssüm, səmimi söhbət təyin olunmuş dərmandan və ya proseduradan az əhəmiyyətli deyil. Rəsmiyyətçilik ("məşğulam, başqa vaxt gəlin" və s.) yolverilməzdir və ən ağlagəlməz, faciəvi nəticələrə gətirib çıxara bilər.

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 73344

Təcili tibbi yardım xidmətinə də Zərifə xanım çox əhəmiyyət verirdi. "Təcili yardım o deməkdir ki, hesab dəqiqələrdən, hətta ola bilsin ki, saniyələrdən gedir. Vaxtında özünü çatdırmaq, vəziyyəti tez anlamaq, düzgün diaqnoz qoymaq və müvafiq xilasetmə tədbiri seçmək burada başlıca amildir. Söhbət insan həyatından gedir. Təəssüf ki, bəzən yalançı, əsassız emosiyalara qapanmış adamlardan da çağırışlar olur. Məsələn, Bakı təcili yardım stansiyasına ildə üç yüzə qədər bu cür çağırış daxil olur. Bu isə tibb xidmətlərini həqiqətən təcili yardıma ehtiyacı olan adamlara qulluq göstərməkdən yayındırır... İçib sərxoş olmuş bəzi şəxslərin də məzələnmək və əylənmək üçün guya "dəli" dostunun tutmasının tutduğunu xəbər vermək üçün zəng etdikləri hallar da olur... Bu cür şəxsləri qatı dələduz kimi cəzalandırmaq lazımdır.

Yada salmaq yerinə düşərdi ki, müdrik Hippokrat həkimin mütləq təmənnasız olması barədə danışmışdır. Təəssüf ki, elə müasir eskulaplar var ki, xəstəni növbəti qazanc mənbəyi kimi görür. Daha yaramaz və utandırıcı yanaşma təsəvvür etmək çətindir. Rüşvətxor həkimlə həqiqi həkimin arasında çox böyük məsafə vardır. Həqiqi həkim "necə edim ki, bir az da çox qamarlayım" kimi həyasız və merkantil düşüncələrdən uzaqdır, o xəstəyə qarşı qayğıkeşdir, xəstənin sağalma sevincini onunla birlikdə bölüşdürür, o, hər şeydən əvvəl, qazanc və mənfəət uğrunda deyil, həyat uğrunda mübarizə aparır. Bəli, hər bir zəhmət kimi, həkimin zəhməti də qiymətləndirilməlidir, o cümlədən də maddi mənada. Hal-hazırda pullu səhiyyə mövcuddur və əlbəttə ki, pulsuz sovet təbabətini unutmamış yaşlı nəslin buna alışması çətindir. Sosial dəyişikliklərdən asılı olmayaraq "insan tək çörəklə yaşamır" həqiqətinin köhnəlmədiyini qəbul etsək də, əbədi əxlaqi nəsihətləri, insanın xeyir törətmək kimi ali məqamını da heç kəs ləğv etməmişdir.

**Tibb elmləri doktoru, tibb xidməti polkovniki V.İ.Vaynşteyn** Zərifə Əziz qızı Əliyevanı ehtiramla xatırlayır:

"Onun son dərəcə gözəl xarakteri var idi. O, yüksək vətəndaşlıq şüuru və professional prinsipiallığı ilə seçilirdi. Həm danışıqlarında, həm də məqalələrində o, həkimin dürüst niyyət sahibi olmasını xüsusi qeyd edir, canı-dildən

məhz bu cür yanaşmanı dəstəkləyirdi. Həmişə qeyd edirdi ki, elmi-texniki proqres əsrində əxlaqi-mənəvi xüsusiyyətlər əskilməməli, əksinə daha da artmalıdır. Mənəviyyatsızlıq, əxlaq rəzilliyi bütün formaları ilə onu qəzəbləndirirdi...

Respublika Oftalmoloqları Elmi Cəmiyyətinin iclaslarından biri indiyə qədər yadımdadır. Biz həmkarlarımızdan birinin işini müzakirə edirdik. O, özünü reklam etməyi çox sevirdi, lakin düşünülməmiş hərəkətləri və tövsiyələri ilə xəstələrin sağlamlığına dəfələrlə zərər yetirmişdi. Bir çox çıxış edənlər tərəfindən ədalətli tənqiddən və danlaqdan sonra iclasın ab-havası xeyli gərginləşdi. Sözü Zərifə xanım aldı və nitqinə bütün peşə sahələrində əxlaqi-etik normalara riayət olunmasının vacibliyindən başladı. Lakin həkimlik elə bir işdir ki, burada ümumi qaydalarla birlikdə şərəf, vicdan, ləyaqət və təmənnasızlıq kimi xüsusi keyfiyyətlər də tələb olunur. Sonra o, həmkarının peşəmizi gözdən salan fəaliyyətini kəskin tənqid etdi. Bu zaman həmin şəxsin ünvanına kəskin ifadələr zaldan da səslənməyə başladı. Zərifə xanım vəziyyətin hansı istiqamətdə inkişaf etdiyini hiss edib bir anlığa nitqinə ara verdi; onun mülayim təbəssümü, sanki, zalı nura qərq etdi. Həmkarının belə bir nüfuzlu yığıncaqda səslənən tənqiddən özü üçün nəticə çıxaracağına əmin olduğunu bildirib çıxışlara son verilməsini təklif edərək dedi: "Əminəm ki, əlavə tədbirlərə ehtiyac olmayacaq".

Başqa bir hadisə də yada düşür. Bir dəfə məni yoldaşımla birlikdə A.Safronovun "Ürək əməliyyatı" pyesinin premyerasına dəvət etmişdilər. Tamaşaya Heydər Əliyev, Zərifə xanım və pyesin müəllifi də gəlmişdi. Bizim Rus Dram Teatrının aktyorları tamaşaçılar qarşısında həqiqi möcüzə yaratdılar. Onlar öz rollarını böyük ruh yüksəkliyi ilə oynayırdılar və həyatı bahasına xəstəni xilas edən dünyaca tanınmış cərrahın fəaliyyət və qəhrəmanlıq epizodlarını canlandıra bildilər. Biz bu tamaşada Zərifə xanımın səhnədə baş verən hər şeyə ürəklə, səmimi reaksiya verdiyinin şahidi olduq. Antraktda o, pyes barədə razılıq hissi ilə danışdı və artistlərin oyununun onu çox həyəcanlandırdığını etiraf etdi".

**Professor A.N. Dobromıslov** Zərifə xanımın zəngin həkim təcrübəsinə və həyat müdrikliyinə əsaslanan tövsiyələrini yüksək dəyərləndirir. Bu mənada o, həkimin "sözlə" müalicə bacarığını xüsusilə qeyd edir. Zərifə xanımla həm-

rəy olan professorun fikrinə görə, səhiyyə işçisinin əxlaqının əsasını səmimilik, xəstəni başa düşmək bacarığı, mehribanlıq, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir. Dobromıslov Zərifə Əzizqızının xəstələri necə qəbul etdiyinə şahid olduğunu xatırlayır. Müayinədən və müalicə təyin olunduqdan sonra xəstələr professor Əliyevanın kabinetini təbəssümlə, ümidlə, minnətdarlıqla və ona möhkəm inam hissi ilə tərk edirdilər.

"Zərifə Əliyevadan aldığım dərslər, - professor yada salır, - sonralar həkimlik praktikamda mənim çox karıma gəldi. Mən əməkdaşlarıma və tələbələrimə onun metodikasını çatdırmağa cəhd edirdim. Beləliklə, Zərifə Əliyevanın zəngin təcrübəsi, bəlkə də o özü də hiss etmədən "zəncirvarı reaksiya" kimi digər həkimlərə də ötürülürdü".

**Tibb elmləri doktoru, professor Məmməd Sultanovun** dediklərindən:

"Zərifə xanım həmkarlarının hətta ən kiçik uğuruna belə ürəkdən sevinirdi. Mən bunu doktorluq dissertasiyamın müdafiəsində şəxsən hiss etmişəm. O, laboratoriyada tez-tez çay süfrəsi təşkil edirdi, çay, konfet, şirniyyat gətirirdi. Belə məclisdə, sərbəst şəraitdə görülən işə yekun vurur, qarşıda duran işlərin planlarını cızırdıq.

Zərifə xanım həmkarlarının xatirələrində təmkinli və nəzakətli bir insan kimi qalmışdır. O, heç vaxt nöqsana görə danlamazdı, heç bir acı söz, sərt ifadə işlətməzdi. Amma insanları da yaxşı tanıyırdı və kadr seçimində səhvə yol verməzdi".

**Baş tibb bacısı Nigar İsmayılova** deyir:

"Zərifə xanım xəstələrlə çox nəvazişlə davranırdı. Heç kəsi ümidsiz qoymazdı. Şirin bir sözlə, sadə bir söhbətlə xəstənin halını yüngülləşdirə bilərdi. İnsanlara kömək etməyi özünə borc bilirdi. Biz birlikdə iyirmi bir il işlədik və mən bu müddət ərzində ondan "qurban olum", "xahiş edirəm" kimi ifadələrdən başqa şey eşitmədim. Bəzən xəstələrə başı o qədər qarışırdı ki, elmi işlə məşğul olmağa vaxtı qalmırdı. Klinikanın bazası bölünəndə bizi 4-cü klinikaya keçirdilər və biz dəhşətli darlığa düşdük. Otaqlardan birini pərdələrlə qapayıb diaqnostika üçün ayırmalı olduq. Bu qədər narahatlığa baxmayaraq, Zərifə xanım şikayətlənmədən öz işini qüsur-

suz yerinə yetirirdi. O, təbii bir sadəliyin, səmimiliyin və xeyirxahlığın mücəssəməsi idi".

Tibb bacısı Nigar İsmayılova Zərifə xanımın xəstələrlə rəftarını nə gözəl sözlə ifadə etmişdir: nəvaziş! Bu söz çoxölçülüdür, onda istilik, həlimlik, diqqət, xeyirxahlıq var. İnsana (üstəlik də xəstəlikdən əziyyət çəkən insana) belə yaxınlaşma təkcə gərginliyi aradan götürmür, xəstəni həkimə meyilləndirir. Bu, həkimə xəstəliyin gedişi barədə daha dəqiq informasiya almağa və düzgün diaqnoz qoymağa kömək edir.

Zərifə xanım haqqında **professor T. Hüseynova** isə bunları xatırlayır:

"O, fövqəladə intizamlı adam idi. Özünə qarşı çox ciddi və tələbkar idi və digərlərindən də bunu gözləyirdi. Mənəvi borc və məsuliyyət hissi bir an da olsun onu tərk etmirdi. Verdiyi vədə əməl etməmək onun qaydalarında yox idi. Həmkarlarının və xəstələrin ehtiramını qazanmış, kifayət qədər nüfuzlu şəxsiyyət olmasına baxmayaraq, özünü çox təvazökar aparırdı. Başqasının vaxtını qiymətləndirməyi bacarırdı, münasibətdə olduğu insanlarda ancaq yaxşı cəhətlər görməyə çalışırdı".

Bu həssas qadın müəllifin yaddaşında nadir istedad - çətin anda yardım əlini uzatmaq bacarığı sayəsində qalmışdır. Mən müşkülə düşdüyüm bir zamanda ona müraciət etməli olmuşdum. O, diqqət və səbirlə məni dinləmiş, dəyərli məsləhətlər vermiş və məni inandırmışdı ki, həlli mümkün olan məsələlərə görə narahat olmağına dəyməz. Beləcə o, məni sakitləşdirmiş, ruhlandırmışdı...

Onun barəsində fikirləşərkən, qeyri-iradi bu ifadə yada düşür: "Hörməti pulla almaq olmaz, onu yalnız səxavətlə, xeyirxahlıqla və şəfqətlə qazana bilərsən".

*İkinci fəsil*

# ƏVƏZSİZ İNSAN

*Tərbiyə böyük işdir. Onunla insanın taleyi həll olunur.*

**V. Belinski**

Daxili azadlıq, ləyaqət, diri ağıl, iradə - bütün bunlar Əziz Məmmədkərim oğlu Əliyevin portretinə bircə dəfə baxmaqla bu insanın - elmin misilsiz cəngavərinin, tibb elmləri doktorunun, professorun simasından oxunur. Bizim qəhrəmanımızın həkim peşəsini seçməsində, ilk növbədə, məhz o - ata baş rolu oynamışdır.

Əziz Əliyev sələfləri - N. Nərimanov, S. Əfəndiyev, Q.Musabəyov, M. İsrafilbəyov, T. Şahbazi, M. Vəkilov və başqaları kimi fədakar mücahid və maarifçilər şanlı ənənələrini davam etdirmiş Sovet Azərbaycanında ilk səhiyyə qurucularının nəslinə mənsub idilər. İnqilabaqədərki Rusiyanın ali məktəblərində təhsil almış milli ziyalıların bu görkəmli nümayəndələrindən çoxu sadəcə peşə təcrübəsi ilə kifayətlənmirdilər. Onların vətəndaş kimi formalaşması Rusiya imperiyasının bütün ərazisini ağuşuna almış azadlıq və inqilabi ideyaların, daha çox qabaqcıl, demokratik düşüncəli rus ziyalılarının və doğma xalqının dirçəlişi və müstəqilliyi ümidlərini, cəmiyyətin humanist əsaslarla yenilənməsi ümidini qarşıdakı inqilabi dəyişikliklərə bağlayan milli mədəniyyət liderlərinin təsiri altında baş verirdi.

Məsələn, həkim təhsili almış, uğurlu dramaturq və yazıçı, Qoqolun "Müfəttiş" pyesinin Azərbaycan dilinə tərcüməçisi Nəriman Nərimanov şüurlu şəkildə inqilabi hərəkata qoşuldu və sonralar Sovet dövlətinin görkəmli xadimlərindən biri oldu. Bolşeviklərin idealına səmimi qəlbdən inanan Nəriman

inqilabın gətirdiyi faciəvi və çarəsi mümkün olmayan dərdlərin şahidi və qurbanı oldu. Artıq Sovet Azərbaycanında hakimiyyətdə olarkən o, görkəmli alim-ədəbiyyatşünas və maarifçi Firudin Köçərlini ədalətsiz divandan xilas etməyə can atmışdı. Lakin qırmızı ekzekutorların gülləsi onu qabaqlamışdı, bəlkə də qabaqlamamışdı, sadəcə Azərbaycan İnqilab Komitəsinin sədrinin məktubuna əhəmiyyət verməmişdilər. Yenə də, hər halda o, çar ordusunun generalları, əfsanəvi Port-Artur epopeyasının qəhrəmanları Əliağa Şıxlinskini və Səməd bəy Mehmandarovu ölüm təhlükəsindən xilas edə bilmişdi. O, Leninə məktub göndərmiş və bu şanlı sərkərdələrin bilik və təcrübəsindən Qızıl Ordunun quruculuğunda istifadə etməyi təkidlə tövsiyə etmişdi.

Bu vətənpərvər şəxsiyyətin xeyirxahlığını və eyni zamanda yad düşüncəyə ("bizimlə olmayan bizim əleyhimizədir") qarşı mübarizənin amansızlığını nümayiş etdirən digər epizod bütün müsəlman Şərqində və türk dünyasında məşhur olmuş "Molla Nəsrəddin" jurnalının banisi və naşiri, dahi yazıçı-satirik Cəlil Məmmədquluzadə ilə bağlıdır. N. Nərimanov onu ən xoş niyyətlərlə Təbrizdən Bakıya qayıtmağa razı sala bildi. Amma dahi satiriki Sovet Azərbaycanında "saray bəyənmədi". Jurnal hakimiyyətin əlaltılarından birinin imzası ilə çıxmağa başladı və sonra nəşri tamamilə dayandırıldı. Hətta Cəlil Məmmədquluzadəni jurnalın 1926-cı ildə qeyd edilən yubileyinə də dəvət etmədilər.

Məhz belə bir tarixi fonda ziyalılarımızın yeni şaxəsi, o cümlədən Əziz Əliyev formalaşırdı. Milli qarşıdurmanın bütün dəhşətləri və həmin dövrün geosiyasi ssenarilərinin "bulanıq sularında" qanunsuzluqlar törədən daşnak dəstələrinin qəddarlıqları onun taleyində bilavasitə dərin izlər buraxmışdı.

Birinci Azərbaycan Respublikası iki il mövcudiyyətdən sonra qırmızı ordu süngülərinin zərbələri ilə süqut etdi. Yeni hakimiyyət gəldi. Moskvaya, ÜMİK-nə rəhbər vəzifəyə çağırılan N.Nərimanov 1926-cı ildə çox şübhəli və aydınlaşdırılmamış vəziyyətdə vaxtsız vəfat etdi.

Lakin inqilab eyforiyası və bolşevik mif yaradıcılığı kütləvi şüura çox böyük təsir göstərərək öz işini görürdü. Sinfi mübarizə, "ekspropriatorların ekspropriasiyası" ideyasına pərçim edilmiş işıqlı gələcək, bərabərlik, qardaşlıq, beynəlmiləlçilik və ədalət barədə gözəl ideyalar sadəcə utopik şüa-

ra, arxasında cəmiyyətin parçalanması günü-gündən dərinləşən, qanlı və amansız qarşıdurmanın gücləndiyi pərdəyə çevrilirdi...

Lakin biz XIX əsrin sonuna qayıdaq. 1 yanvar 1897-ci ildə İrəvan quberniyasının Eçmiədzin uyezdinin Hamamlı kəndində Məmmədkərim Əliyevin oğlu oldu, onun adını Əziz qoydular.

Əziz Əliyevin atası Məmmədkərim Kərbəlayi Qurbanəli oğlu xalq arasında çox hörmətli bir ağsaqqal idi. Anası Zəhra xanım İrəvan quberniyasının tanınmış şəxsiyyətlərindən olan İbrahim bəy Süleymanbəyovun ailəsində anadan olmuşdu.

Əzizin əmisi oğlu, Aştarak rayonu, Uşi kəndinin sakini, arıçı Oruc kişinin sözlərinə görə, Məmmədkərim Əliyevin Hamamlı kəndində iki yüz hektardan çox torpaq sahəsi, İrəvan yaxınlığında isə Dalma mərzində üzüm, tut, ərik ağacları olan bağ sahələri var idi.

1905-ci ildə ailə İrəvana köçür. Köhnə İrəvan, inqilabaqədərki Bakı və Tiflis kimi, polietnik mədəni cəmiyyət idi və regionun iqtisadi, təhsil və elmi həyatında mühüm rol oynayırdı. XX əsrin əvvəlində İrəvan Qafqazın mədəni və ticarət mərkəzlərindən biri idi. İrəvan mühitindən çıxmış azərbaycanlılar haqqında danışsaq, burada bir çox görkəmli şəxsiyyətin, maarifçinin, alimin, tacirin, o cümlədən Mirzə Abbas Məmmədzadənin, İbadulla Muğanlının adını çəkmək olar. Mirbabayevlər, Bağırbəyovlar, Topçubaşovlar, İbrahimbəyovlar kimi məşhur soyadların kökləri buradandır...

Akademiklər Mustafa Topçubaşov, Heydər Hüseynov, Əhməd Rəcəbli, görkəmli dövlət xadimləri Maqsud Məmmədov, Həsən Seyidov, Mir İbrahim Seyidov, bəstəkar Səid Rüstəmov İrəvan gimnaziyasının məzunları olmuşlar.

Məşhur İrəvan taciri Məşədi Bağırın oğlu Kərbəlayi Hüseyn İbrahimovun sözlərinə görə, onların Armudlu mahalında məscidin yanındakı evlərinə o dövrün İrəvanın azərbaycanlı ziyalıları, o cümlədən Topçubaşovlar, Bağırbəyovlar gələrdilər. Akademik M. Kərimovun babası Cabbar Kərimov bu qonaqpərvər evdə ailəsi ilə dəfələrlə olmuşdu. Məşədi Bağır bir xeyriyyəçi və mesenat kimi çox gözəl ad və xatirə qoyub getmişdir; şahidlər danışır ki, 1919-cu ilə qədər o, ehtiyacı olanlara kömək edir, onların uşaqlarının oxuması üçün şərait yaradır, müxtəlif məişət problemlərinin həllində ya-

xından iştirak edirdi. Onun oğlanları Həsənağa və Kərbəlayi Hüseyn də İrəvanda təhsil almış, gimnaziya və tibb məktəbini bitirmişdilər.

Elmə meyillilik, oxumaq həvəsi Əzizi lap erkən yaşlarında digərlərindən fərqləndirirdi. Valideynləri onu həmin dövrdə proqressiv təhsil ocağı sayılan rus-tatar (oxu: rus-Azərbaycan) məktəbinə qoydular, sonra isə o, gimnaziyaya daxil oldu.

Birinci dünya müharibəsi, cəmiyyətdə qarşıdurmanın güclənməsi, səfalət... Hərc-mərclik zəmanəsi Məmmədkərim kişinin də ailəsinə öz təsirini göstərmişdi. Əziz Əliyev sonralar xatırlayırdı: "Əla dərs davamiyyətinə görə mən təhsil haqqı ödəməkdən azad edilmişdim. Demək olar ki, ailəmizin vəziyyətinin ağırlığından bizim təhsil haqqını ödəmək gücümüz yox idi. Belə ki, atamın ailəni saxlamaq imkanı azalmışdı, mən şagirdlərlə məşğul olaraq axşamlar işləməyə başladım".

Əziz Əliyevin uşaqlıq dostu, sonralar həmkarlarından biri **akademik Mustafa Topçubaşov** memuarlarında yazırdı ki, Əziz qeyri-adi bir gənc idi, dərsdə, davranışda, ədəbdə, həlimlikdə və xeyirxahlıqda tayı-bərabəri yox idi: "Ola bilsin, tibbin atası Hippokrat öz andını belə insanlara baxaraq yazıb". Doğrudan, gözəl sözlərdir, deyilmi?

Əziz Əliyev nümunəvi gimnaziya təhsili aldı. Amma bununla birlikdə, uşaq yaşından onun başı əlhəd daşına dəydi, kasıblığın nə olduğunu dərk etdi. Bəlkə də, məişət sıxıntıları ilə erkən tanışlıq onun qəlbində mərhəmət hissi yaratdı və bu hiss onun mənəvi kredosuna çevrildi. Gənc Əziz uca və xeyirxah insanlara xidmət ideyası ilə yaşayırdı. Maddi çətinliklər özünü cəmiyyətə həsr etmək cəhdində ona mane ola bilməzdi.

1917-ci ildə gimnaziyanı qızıl medalla başa vurub təhsilini Rusiyada davam etdirmək istəyir. Öz səxavəti, xeyriyyəçiliyi ilə ümumxalq məhəbbəti qazanmış məşhur Bakı neft sənayeçisi Hacı Zeynalabdin Tağıyevə məktubla müraciət edərək arzusunu bildirir. Hacı da bu gənc şəxsə həm maddi, həm də mənəvi dəstək göstərir və həmin dövr üçün az olmayan bir məbləğdə - 300 rubl pul verir. Bu vəsaitin bir hissəsini Əziz anasına verir, qalanını götürüb Peterburqa yola dü-

şür. Ciddi müsabiqədən uğurla keçərək hətta Rusiyadan kənarda məşhurlaşmış Hərbi Tibb Akademiyasına daxil olur.

Və artıq budur, biz gənc Əzizi o zaman insanları sözün hərfi mənasında minlərlə biçən dəhşətli yoluxucu xəstəlik olan səpmə yatalağa qarşı mübarizə edən dezinfeksiya briqadasının tərkibində gənc sanitar kimi görürük...

1918-ci ildə atasının ölüm xəbəri gəldi. İrəvana qayıdan Əziz azərbaycanlı əhalinin başına gətirilən dəhşətli zülm və qırğınların şahidi oldu. Daşnak hökuməti, demək olar ki, genosid siyasəti aparırdı. Mahiyyət etibarilə antitürk və antiazərbaycan siyasəti müəyyən böyük dövlətçilik dairələri tərəfindən dəstəklənirdi. Burada qeyri-insani məqsədlər güdülür və ağlasığmaz vəhşiliklər edilirdi.

Elə həmin il tələbə Əziz Əliyev ailəsi ilə birlikdə qovulmuş didərginlərin cərgəsinə düşür. Daşnak başkəsənlərindən canını qurtaran Əliyevlər ailəsi Naxçıvan diyarının Şərur rayonuna, sonralar isə Şahtaxtı kəndinə yığışır. Lakin bir neçə ildən sonra Naxçıvan torpaqları da avantürist Andronikin başçılıq etdiyi erməni silahlı dəstələrinin hücumuna məruz qalır. Onlar diyarın müsəlman əhalisini məqsədyönlü şəkildə məhv edirdilər. Qırğından sağ çıxmış həmkəndliləri ilə birlikdə Əliyevlər o zamankı İranın ərazisində - Cənubi Azərbaycanın Ərəblər kəndində sığınacaq tapırlar. Sonralar Əziz Əliyev qeyd edirdi ki, Şahtaxtı ilə Ərəblər kəndinin arası cəmi üç kilometrdir, buna görə də onlar sərhəd çayı Arazı keçərək qaçmaq üçün ən qısa yolu seçmişdilər. Həmin dövrdə bütün azərbaycanlılar ucdantutma qırğın təhlükəsi altında idilər.

O hadisələrin içində olmuş **Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Abbas Zamanov** yazırdı: "Naxçıvan camaatı, o cümlədən şərurlular daim təşviş içində idilər; daşnakların hücumlarından canlarını qurtarmaq üçün əhalinin əksəriyyəti Cənubi Azərbaycana qaçırdı. 1918-ci ildə Şahtaxtı kəndinin camaatı da İrana köçməyə məcbur oldu. Anam onda artıq dünyasını dəyişmişdi. Atam, qardaşım İsmayıl və mən Xoy şəhərində sığınacaq tapdıq. Atam bir mülkədarın yanında işləməyə başladı. Həyat şəraitimiz çox ağır idi. Qardaşım İsmayıl bu çətinliklərə dözməyib vəfat etdi... Bir müddət keçəndən sonra biz kəndimizə qayıtdıq".

1926-cı ildə Əziz Əliyevin anası İranda vəfat etdi. Bu, Əziz üçün çox ağır olsa da, məhrumiyyətlər və sərgərdanlıq onu sındıra bilmədi, əksinə xarakterini daha da möhkəmlətdi, ona ən qəliz vəziyyətlərdə belə qətiyyətlə hərəkət etməyi öyrətdi. Təəssüf ki, bu faciəvi hadisələr onu Peterburqa qayıtmaq və orada təhsilini başa vurmaq imkanından məhrum etdi. Amma o, təbabətdən ayrılmadı, müstəqil şəkildə peşə biliklərini artırmağa başladı. O, tibb alimlərinin kitablarını, xüsusi ədəbiyyatı oxuyur, müalicəxanalarda, əczaxanalarda kiçik vəzifələrdən başlayaraq işləyir, əhaliyə tibbi yardım göstərilməsində iştirak edirdi. 1921-ci ildə Şahtaxtı kəndinə qayıtdı və 1923-cü ilin yazına qədər orada işlədi. Sonra Bakıya köçdü və təhsilini davam etdirməyi qərara aldı.

Həmin vaxt artıq Azərbaycan Dövlət Universiteti yaradılmışdı. Və gənc Əziz təhsilini burada davam etdirir. Nəhayət, 1927-ci ildə, tibb fakültəsini bitirib intizarla gözlədiyi həkim diplomunu alır. Bacarıqlı gənci daxili xəstəliklər kafedrasında saxlayırlar. Əziz Əliyev bu sahədə çox sürətlə irəliləyir - ordinator, aspirant, assistent, dosent. O, tamamilə özünü universitetin ictimai və elmi həyatına həsr edir.

1929-cu ildə o, artıq Klinik İnstitutun direktorudur. Burada onun təşkilatçılıq istedadı, idarəetmə qabiliyyəti üzə çıxır. Bir ildən sonra universitetin tibb fakültəsinin bazasında Tibb İnstitutu yaranır. Əziz Əliyevin yaradılmış ali məktəbə rəhbər təyin edilməsi onun parlaq işgüzar və peşəkar xüsusiyyətlərə malik olmasından xəbər verir. Tibb İnstitutunun qarşısında çox çətin vəzifələr və problemlər dururdu: Azərbaycan dilində dərsliklərin və vəsaitlərin yoxluğu, milli pedaqoji kadrların kəskin çatışmazlığı...

Tibb İnstitutunun ilk rəhbərinin nəhəng enerjisinə təkcə bu fakt şahidlik edə bilər ki, cəmi üç ilin içərisində onun köməyi ilə qırx beş dərslik və dərs vəsaiti hazırlanmışdı! Kadr hazırlığı işi də uğurla irəliləyirdi.

Əziz Əliyevin fəaliyyəti tədricən ümumdövlət əhəmiyyəti kəsb etməyə başlamışdı. Onun respublikada səhiyyənin təşkili və inkişafındakı xidmətləri 1930-cu illərdə parlaq şəkildə təzahür edir. O, Xalq Səhiyyə Komissarlığında şöbə rəisi, sonra Bakı şəhər Səhiyyə Şöbəsinin rəisi vəzifəsinə təyin olunur, bu sahədə Xalq komissarının müavini, sonra isə Xalq komissarı olur... Əliyev kabinetlərdə oturmağı xoşla-

mırdı, o bütün Azərbaycanı kəndbəkənd, şəhərbəşəhər gəzir, insanların sağlamlığı ilə bağlı problemlərlə tanış olur və məqsədyönlü şəkildə onların həlli ilə məşğul olurdu.

**Akademik Mustafa Topçubaşov** narkomun parlaq və fədakar fəaliyyətini belə xatırlayır:

"Səhiyyə komissarlığının növbəti kollegiyası keçirilirdi. Kollegiyada qaldırılmış məsələlərdən biri ucqar kəndlərdən birində bir cərrah barəsində idi. Əməliyyat zamanı hamilə qadın qan itkisindən vəfat etmişdi.

Cərrah xəstənin ölümünün əsas səbəbini xəstəxanada qan əvəzedicisinin olmamasında görür və komissarlığı günahlandırırdı. Əziz Əliyev etiraf etdi ki, respublikada bir çox dərman vasitəsi, o cümlədən qanəvəzedicisi çatışmır və qəfildən həmin cərrahdan soruşdu:

- Bəs sizin özünüzün necə, qanınız qaydasındadırmı?

- Hər şey qaydasındadır deyə bilməsəm də, şikayətim yoxdur.

- Mənim isə var.

- Şikayətiniz var?

- Bəli. Deyin görüm, qanköçürmə məntəqəsində indiyə qədər neçə dəfə qan vermisiniz?

- Nə qədər qan vermişəm? - cərrah tutuldu, nə cavab verəcəyini bilmədi.

Xalq komissarı isə davam etdi:

- Siz də soruşa bilərsiniz ki, bəs sən özün nə qədər qan vermişsən? Gəl, burdan birbaşa mərkəzə gedək və öyrənək...

Kollegiyadan sonra biz qanköçürmə mərkəzinə getdik. Girişdə Əziz ağ xalatlı bir şəxsə bizi göstərdi və dedi:

- Buyurun, sizə bir qrup donor gətirmişəm! Prosedura başlayın!...

O özü isə bizdən yüz qram çox qan verdi. Biz orada öyrəndik ki, həqiqətən də, o, donordur. İl ərzində ən azı bir litr qan verirdi. Mənim heç ağlıma da gəlməzdi...

1930-cu ilin əvvəlində Qarabağın Martuni rayonunda qəflətən vəba xəstəliyi yayılmağa başladı. Bu dəhşətli xəstəliyin epidemiyası artıq ətraf rayonlara da keçməyə başlamışdı... Əziz Əliyev ildırım sürətilə bütün səhiyyə qoşununu topladı.

Köməyə böyük mütəxəssis, akademik Lev Aleksandroviçi çağırmışdılar. Epidemiya isə böyük sürətlə yayılırdı. Camaat çaxnaşmaya düşmüşdü. Savadsız, elmsiz adamlar əhali arasında şayiə yayırdılar ki, "cənnətə düşmək üçün ölənlərin qaraciyərini yemək lazımdır" və həmin "qaraciyər taun xəstəliyindən qoruyur". Buna inanan sadəlövh adamlar qurbanların sayını artırırdı. Nəhayət, biz camaatın bütün etirazına və narazılığına baxmayaraq, hərbi dövrələmə qurub cəsədləri yandırmağa başladıq. Yalnız bu yolla epidemiyanın qarşısını ala bildik".

Cavanlığından həmkarları tərəfindən "təcili yardım" ləqəbi almış Əziz Əliyev həmişə ən mürəkkəb və kritik sahələrə can atardı və vəziyyətin düzəlməsi üçün var-qüvvəsini sərf edərdi.

Onun professional səriştəsi, erudisiyası, uzaqgörənliyi, təşəbbüskarlığı, təşkilatçılıq istedadı, fitri həssaslığı və bütün göstərmə məmur şəstindən, ədasından uzaq qəlb açıqlığı ona ictimaiyyətin böyük hörmətini və məhəbbətini qazandırmışdı. 1934-cü ildə o, Bakı Səhiyyə Şöbəsinə rəhbərlik edirdi. Bir ildən sonra onu Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru vəzifəsinə qaytarırlar. 1937-ci ildə bu vəzifə ilə yanaşı ona Azərbaycan Dövlət Universitetinin rektorluğu da həvalə olunur. Mahiyyət etibarilə görünməmiş bir hadisə olan bu əvəzçilik onun peşəkar imkanlarından və nəhəng iş bacarığından xəbər verir. İki ali məktəbin rektoru olmaqla birlikdə o, 1935-ci ildən "Azərbaycan tibb jurnalı"nın redaktoru olmuşdur. Bu günə qədər "Təbib" adı altında nəşr olunan Tibb İnstitutunun çoxtirajlı jurnalı onun təşəbbüsü ilə yaradılmışdır (onda bu jurnal "Tibb kadrları üçün" adlanırdı).

Əziz Əliyev Tibb İnstitutunda Mir Əsədulla Mirqasımov (sonralar Azərbaycan Respublikası EA-nın birinci prezidenti), Mustafa Topçubaşov, Cahangir Hüseynov, Kamil Balakişiyev, Əbülfəz Qarayev (sonradan Azərbaycan Dövlət Universitetinin rektoru, dünya şöhrətli bəstəkar Qara Qarayevin atası) kimi gözəl alimlərlə, tibb elminin böyük simaları ilə çiyin-çiyinə işləmişdir. Həmin illərdə işıq üzü görmüş K. Balakişiyevin "Normal anatomiya", C. Hüseynovun "Patoloji anatomiya", Umnisə Musabəyovanın "Göz xəstəlikləri" və digər elmi əsərlər Azərbaycan tibb elminin dövri hadisələri

olmuşdur. Əlbəttə, belə kitablar sırasında Əziz Əliyevin özünün də kitabları və əsərləri yer almışdır.

O, təkcə istedadlı təşkilatçı və praktik həkim deyil, eyni zamanda güclü nəzəriyyəçi idi. Universiteti başa vurduqdan iki il sonra Əliyev namizədlik dissertasiyasını, səkkiz ildən sonra isə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi. Ə.Əliyevin nəzəri işləri praktik vəzifələrlə sıx bağlıdır. O, klinik və eksperimental səhiyyə sahəsində bir çox əsərin müəllifidir, onlardan - "Həzm etmə zamanı qanda xloridlər", "Eksperimental nefrit", "Naftalan - keçmişdə və gələcəkdə", "Yodun müxtəlif konsentrasiyaları şəraitində olan, üzərində təcrübə aparılan heyvanların daxili orqanlarının və gözlərinin morfoloji və bəzi sırf kimyəvi tədqiqatları" və sair əsərlərini göstərmək olar.

Onun "Klinik analiz" dərsliyi respublikanın tibbi ictimaiyyətinin həyatında hadisə olmuşdur. Bu kitab gənc kadrların hazırlanmasında əvəzsiz rol oynamışdır. Onun "Eksperimental nefrit" adlı doktorluq dissertasiyası isə azərbaycanlı təbiblər tərəfindən müdafiə olunan ilk doktor əsərlərindən biri idi.

Əziz Əliyev tərəfindən işlənmiş kəskin nefrit patogenezi ilə bağlı olan allergiya nəzəriyyəsi bu xəstəliyin diferensiasiyası üçün geniş imkanlar açırdı. Onun doktorluq dissertasiyası SSRİ Tibb Elmləri Akademiyasının və gənc alimlərin ümumittifaq müsabiqəsində ÜİLKGİ MK-nın xüsusi mükafatına layiq görülmüşdü.

Mütəxəssislər qeyd edirlər ki, Əziz Əliyevin bu əsərinin hələ də analoqu yoxdur. Görkəmli alim və dövlət xadimi səksən beş elmi əsər miras qoymuşdur. Onlardan yetmişi səhiyyənin müxtəlif aspektlərinə, qalanları isə tarix və siyasət məsələlərinə həsr olunmuşdur.

1930-1940-cı illərdə respublikada tüğyan edən malyariya və traxomanın kökünün kəsilməsində Əziz Əliyevin misilsiz xidmətləri olmuşdur. Onun təşəbbüsü ilə xüsusi dispanserlər, xəstəxanalar yaradılır. Elə həmin illərdə o, Respublika fövqəladə antiepidemiya komissiyasının sədri seçilir. Başqa sözlə, təhlükəli yoluxucu xəstəliklərlə mübarizə cəbhəsinə başçılığı ələ alır.

Lakin tale onun üçün başqa cəbhə - faşist ordularının xain basqınına qarşı ümumxalq mübarizə cəbhəsini hazırlamışdı.

O, öz doğma torpağını, tarixi kataklizmlərin iradəsilə Cənubi və Şimali Azərbaycan deyə ikiyə bölünmüş, parçalanmış xalqını çox sevirdi. Millətinə, onun dərdlərinə, ümid və maraqlarına bu qan bağlılığı hissi Sovet hökumətinin tapşırığı ilə İrana göndərilən mədəniyyət xadimləri və partiya işçilərinin qrupuna rəhbərlik etdiyi zaman tam şəkildə özünü büruzə verəcəkdi.

Bununla birlikdə Əziz Əliyev Sovet ölkəsinə vicdanla xidmət edir və sərt kommunist rejimi və ideoloji imperativlər şəraitində yüksək vətəndaşlıq davranışı dominantını qoruyub saxlaya bilmişdi. Bundan başqa, o, dünyagörüşü etibarilə humanist idi - o, milli mentalitetə və müxtəlif xalqların nümayəndələrinin xüsusiyyətlərinə hörmətlə yanaşır və anlamağa çalışırdı. Bu həqiqi beynəlmiləlçilik, faşizmlə ölüm-dirim savaşı günlərində Əziz Əliyev Dağıstan vilayət partiya komitəsinə rəhbərlik edəndə də özünü göstərdi.

Azərbaycanın sadiq oğlu qalmaqla yanaşı o, Dağıstan xalqlarının, Arazın o tayındakı bacı və qardaşlarının hörmətini qazanmışdı. Əziz Əliyevi yaxından tanıyan **yazıçı İmran Qasımov** qeyd edirdi ki, ömrünün iyirmi ilindən çoxunu Əziz Əliyev müxtəlif dövlət missiyalarını yerinə yetirərək Azərbaycan hüdudlarından kənarda keçirmişdir və fəaliyyətinin bütün sahələrində vətəndaş, humanist və vətənpərvər adını yüksək tutmuşdur.

1941-ci ilin aprelində Əziz Əliyev Azərbaycan KP(b) MK katibi təyin olundu.

Qərbdə artıq İkinci dünya müharibəsinin tonqalı atəşlənirdi. 22 iyunun mənhus səhərinə çox az qalmışdı...

Bakı Səhiyyə Şöbəsinin rəisi vəzifəsində şəhər səhiyyəsinin keçmiş kuratoru, uzun illər komsomol, partiya və sovet orqanlarında çalışmış **Xosrov Ağayev** o tufanqabağı dövrdə Əziz Əliyevlə görüşlərini xatırlayaraq onun tükənməz enerjisini, prinsipiallığını və Azərbaycan səhiyyəsinin liderinin məhsuldar işini xüsusi qeyd edirdi. 1941-ci ildə Ağayevi Kirovabada (indiki Gəncə) keçirirlər. Burada o, yeni təyinat olmadığına görə Bakı səhiyyəsinə kuratorluğu bir müddət də davam etdirməklə bərabər şəhər komsomol komitəsinə rəhbərlik etməyə başlayır. İyunda müharibə başlayır.

"Biz fövqəladə iş rejiminə keçdik, - Xosrov Ağayev xatırlayır, - artıq ilk xəstələri qəbul etməyə başlamışdıq. Hər şey

cəbhənin ehtiyacları üçün səfərbər edilmişdi. Amma bu cür ağır məqamda belə, barışmaz mübarizə aparılmasına baxmayaraq, biz fırıldaqçılarla, nadürüst adamlarla rastlaşırdıq. ...Əziz Əliyev Gəncəyə gəldi. Şəhər rəhbərliyi ilə görüş zamanı o, müharibə şəraitində səhiyyənin problemlərinin həlli ilə bağlı bir sıra təxirəsalınmaz vəzifələr qarşıya qoydu. Görüşün sonunda Əziz Məmmədkərim oğlu Zilberman familiyalı terapevt həkimin barəsində yazılmış çoxsaylı şikayətlərə yerində baxmaq istədiyini bildirdi..."

X. Ağayev söyləyir ki, şəhər xəstəxanasının adıçəkilən həkimi müalicə adı altında xəstələrdən pul alırdı və onlara naməlum mənşəli dərmanlar verirdi, müalicə effekt vermədikdə isə xəstələrin özünü günahlandırırdı ki, guya onun göstərişlərinə əməl etmirlər. Məlum oldu ki, bu təbib ürək-damar xəstəlikləri sahəsində "ixtisaslaşıbmış". Xəstələrin əksəriyyəti şəhər sakinləri və ətraf rayonların əhalisi idi.

"Biz öyrəndik ki, - Ağayev deyir, - onun arvadı arada bir Moskvaya, Leninqrada (indiki Sankt-Peterburq), Kiyevə gedir, oradan müxtəlif elementar ağrıkəsici vasitələr alıb gətirirmiş... Bundan başqa, məlum oldu ki, onun evində kirayənişin yaşayan adam ətraf rayonlara gedir, hər yerdə bu həkimi tərifləyir və buna görə aybaay muzd alırmış. Camaat onun tövsiyəsi ilə bu həkimin yanına gəlirmiş. Sonra Zilbermanın əmanət kassasında yüz min rubl pulu olduğu məlum oldu - bu, o dövr üçün çox iri məbləğ idi. Əziz Əliyev sadə bir araşdırma ilə kifayətlənmədi. Faktların təsdiq olunması üçün o, zərərçəkmişləri şəxsən qəbul edir, bir çox məqamı aydınlaşdırırdı. Sonra şəhər səhiyyə şöbəsinə bu xəstələrin müalicə edilməsi barədə göstəriş verdi. Ortaya çıxan mənzərə bu başabəla həkimin tam bacarıqsız olduğunu göstərdi. Yalnız bundan sonra Əziz Əliyev onun işdən kənarlaşdırılması barədə qərar qəbul etdi. Müvafiq materiallar isə araşdırma üçün prokurorluğa göndərildi".

**Azərbaycan EA və SSRİ Tibb EA-nın həqiqi üzvü, Sosialist Əməyi Qəhrəmanı Mustafa Topçubaşov** xatırlayır:

"Əzizi İrəvandan tanıyırdım. İkimiz də gimnaziyada oxumuşduq... Ailələrimiz arasında mehriban münasibətlər var idi. Onların ailəsi bizə hətta əksər qohumlarımızdan yaxın idi. Dərdli vaxtımızda, şad günümüzdə onlar həmişə yanımızda idilər. Atam Əzizi kəlləli və bacarıqlı oğlan olduğuna

görə çox sevirdi. Məndən iki sinif aşağı oxuyurdu. Amma mənim dərs tapşırıqlarımı məndən yaxşı həll edirdi. Dərslərdən sonra çox vaxt məhlə uşaqlarına keçdiyimiz dərsi aydınlaşdırardı. Atam həmişə Əzizin çalışqanlığını və dərrakəliliyini mənə nümunə göstərərdi: "Əziz səndən iki yaş kiçikdir, amma səndən iki dəfə artıq bilikldir. Müəllimlərinin dili ağzına sığmır. Bütün şəhər ondan danışır, özü də oxuyur, başqalarına da öyrədir. Bax, beləsi böyüyüb adam olacaq..."

M. Topçubaşov dostunun həyatından, xüsusilə də daha sonrakı dövrlərdən xeyli maraqlı epizodlar xatırlayır:

"Çətinə düşən kimi yanına yüyürürdük. Əzizin yanında mən müxtəlif peşə və maraq sahibi olan çoxlu adama rast gəlirdim. Onun bu adamlarla necə ünsiyyət qurması məni heyrətə gətirirdi. Əzizin yüksək savada malik olduğundan heç kəs şübhələnmirdi, amma hansı ali məktəbi bitirdiyini müəyyən etmək çətin idi, adama elə gəlirdi ki, o bütün elmləri yaxşı bilir...

Artıq AKP MK-da işləyirdi. Bakıda cərrahların müşavirəsi keçirilməli idi. Bununla əlaqədar olaraq, mən onun yanına getdim. Katibə məni tanıdığına görə süründürməçilik olmadan kabinetə daxil oldum. Qapını açdım və onun üç-dörd nəfər ziyarətçi ilə söhbət etdiyini gördüm. Məşğul olduğunu görüb çıxmaq istədikdə o məni çağırdı və yer göstərdi. Mən daxil oldum, əyləşdim. Söhbətdən aydın oldu ki, qonaqları inşaatçı-mühəndislərdir. Onların nə isə mübahisəli bir məsələsi var idi. Əziz onlarla elə söhbət edirdi ki, sanki elə bu sahənin mütəxəssisidir, faydalı məsləhətlər də verirdi. Mən zarafatla soruşdum:

- Əziz, deyəsən, təhsilini mühəndislik institutunda davam etdirirsən?

- Yox, həkim, - o tam ciddi şəkildə cavab verdi. - Tələsmirsən ki? - Elə özü də cavab verdi: - Əlbəttə ki, tələsirsən. Tələsmək yaxşı şeydir. Amma yalnız səhiyyə üçün tələsmək azdır. Bir əsr səhiyyə üçün tələs, bir əsr mühəndislik üçün, bir əsr fəlsəfə üçün, bir əsr aqronomiya üçün... Amma bu qədər ömrü adama kim verər, həkim?

Hamımız kimi, Əzizə də bir həyat payı nəsib olmuşdu, çox yox, cəmi bircə ömür. Ona bu bircə ömür də bəs etdi ki, elmin bir çox sahəsindən faydalana bilsin. Amma heç vaxt bildiyi ilə, öyrəndiyi ilə kifayətlənməzdi..."

Böyük Vətən müharibəsi Əziz Əliyevin bir xüsusiyyətini aşkara çıxardı - onun bacarıqlı hərbi təşkilatçı, istedadlı siyasi rəhbər olduğunu göstərdi.

25 avqust 1941-ci ildə İranda faşist agenturasının fəaliyyətinin qarşısını almaq və sərhəd zonasının təhlükəsizliyini təmin etmək məqsədilə Sovet-İran müqaviləsinə əsasən Zaqafqaziya hərbi dairəsinin hərbi hissələri qonşu ölkənin ərazisinə girdi və Təbriz şəhərinə daxil oldu.

Sovet kontingentinin İrandakı siyasi rəhbəri vəzifəsinə polkovnik Əziz Əliyev təyin olundu.

Təbriz çox gərgin və həyəcanlı günlər yaşayırdı. Şah rejimi qədim "parçala və hökm sür" prinsipi ilə hərəkət edir və etnik qrupların arasına çaxnaşma salırdı. Hər dəqiqə kürdlərlə azərbaycanlılar arasında qardaş qırğını düşə bilərdi. Digər tərəfdən şayiələr yayılırdı ki, Sovet ordusu İranı "şuraviləşdirmək" istəyir. Mülkədar ailələrdən, xan nəslindən olan fars zabitlər Azərbaycan əhalisi ilə Sovet qoşunları arasında toqquşma yaratmaq üçün hər şeyə əl atırdılar.

O zamankı İranda nasist təbliğatın təsiri hiss olunurdu. Bu təbliğatın təsiri altında doqquz min nəfərlik kürd silahlı dəstəsi Sovet qoşunlarının gəlişinə aqressiv münasibət göstərdi. Sovet tərəfinin vəzifələrindən biri də bu qüvvələrin neytrallaşdırılması, daha yaxşısı isə kürdlərlə dostluq münasibətləri qurmaq idi. Bu mürəkkəb, riskli və incə missiya Əziz Əliyevə tapşırılmışdı.

Kürd dəstə başçısının kiçik qardaşının yaxınlarda toyu olacağını öyrənən Əziz kürd adətlərinə uyğun olaraq bəy və gəlin üçün, habelə onların yaxınları üçün hədiyyə hazırlamağı tapşırır. Hədiyyənin toyun hansı məqamında və necə verilməsini də nəzərdən qaçırmır. Toya gedir və həmin ritualı dəqiqliklə yerinə yetirir. Rəisi-şuravinin (Sovet rəhbərinin) bu jesti kürdlərə çox gözəl təsir edir və lazım olan siyasi effekti verir.

Milli azadlıq qüvvələrinin beşiyi, Cənubi Azərbaycanın tarixi mərkəzi olan Təbriz hakim rejim tərəfindən daim blokadaya məruz qalırdı. Şəhərin ərzaqla təminatına məqsədli şəkildə maneçilik törədilirdi: kənd təsərrüfatı məhsulları daşıyan sakinlər diversantlar tərəfindən soyğuna, quldur basqınına məruz qalırdı. Sovet qruplaşmasının siyasi rəhbəri kimi Əziz Əliyev ac və qəzəbli camaatın hər şeyi dağıtmağa hazır

olduğu dramatik səhnələrlə üzləşirdi. Bu qəzəb hər an Sovet qoşunlarına tərəf də yönələ bilərdi. Məhz belə bir zamanda o, cəsarətlə camaatın içərisinə girir və əhaliyə birbaşa müraciət edərək onları Sovet qoşunlarının humanist və dinc missiya ilə gəldiyinə inandırır. Öz tabeliyində olan qüvvələrə də vəziyyəti çox dəqiqliklə izah edir:

- Biz İranın daxili işlərinə qarışmırıq. Lakin ölkədə stabilliyi qoruyarkən heç bir qarşıdurmaların baş verməsinə yol verməməliyik. Biz bu ölkəyə hərb üçün gəlməmişik. Biz xalqa açıq şəkildə çatdırmalıyıq ki, bizim xanlarla, mülkədarlarla, tacirlərlə işimiz yoxdur...

Əhali ilə etimad və əməkdaşlıq mühitinin yaradılmasında, xalqlararası dostluq körpülərinin yaradılmasında, ən başlıcası Arazın o tayında Azərbaycan xalqının mədəni həyatının dirçəlməsində və inkişafında, maarif ocaqlarının və humanitar mərkəzlərin təsis olunmasında, Azərbaycan dilində qəzetlərinin nəşr olunmasında və İranda yaşayan milyonlarla həmvətənlərimizin milli mədəniyyətlə ünsiyyət qurmasında Süleyman Rüstəm, Mirzə İbrahimov, Qılman Musayev, Osman Sarıvəlli, Abbas Zamanov, Cabbar Məcnunbəyov kimi Sovet Azərbaycanı ziyalılarının nümayəndələri, görkəmli ədəbiyyat ustaları, elm xadimlərinin böyük rolu olmuşdur. Onlar İranın Azərbaycan regionlarına tez-tez qonaq gəlir, Təbrizin, Mərəndin, Ərdəbilin, Urmiyanın əhalisi ilə görüşürdülər.

Polkovnik Əziz Əliyev siyasi emissar və rəhbər kimi ona məxsus olan həssaslıq, ədəb və gözüaçıqlıqla bu çoxplanlı işi idarə edir və əhalinin müxtəlif təbəqələri ilə gündəlik ünsiyyətdə hamıya gözəl örnək olurdu. Onun camaatla söhbətləri istiqanlılığı, açıqlığı və səmimiliyi ilə simpatiya və etimad hissi yaradır, etnik qruplar arasında bir-birinə etibarı bərpa edərək qorxu və inamsızlığı aradan qaldırırdı.

Təxribatçıların və antisovet təbliğatçılarının yaydığı şayiələrdən qorxan tacirlər, mülkədarlar asta-asta Təbrizə qayıdırdılar. Şəhərdə həyat sahmana düşürdü.

Əziz Əliyev həm də "21 Azər" milli azadlıq hərəkatının aparıcı liderləri ilə görüşürdü; hərəkatın rəhbəri Seyid Cəfər Pişəvərinin "rəisi şurəvi" Əziz Əliyevə xüsusi ehtiramı var idi.

Əziz Əliyevin təşəbbüsü ilə Təbrizdə əhaliyə pulsuz tibbi xidmət göstərən xəstəxana açıldı; Sovet Azərbaycanının mədəniyyət ustaları şəhərlilər qarşısında çıxışlar edirdilər; opera və balet teatrı da Bakıdan buraya qastrola gəlmişdi.

Həmin hadisələrin iştirakçısı, görkəmli **şair Süleyman Rüstəm** deyirdi ki, Əziz Əliyevin adı Cənubi Azərbaycanda dillər əzbəri idi. Əziz Əliyevin İrandakı fəaliyyətini hərbi kontingentə başçılıq edən **general-polkovnik N. Trufanov** da yüksək qiymətləndirmişdi.

"Hərbi şuranın üzvü Əziz Əliyev İranda işləyərkən özünü dərin siyasi savada malik olan bacarıqlı təşkilatçı kimi göstərmişdir. Mübaliğəsiz demək olar ki, Əziz Məmmədkərim oğlu sözün həqiqi mənasında həqiqi və mərd insan idi".

Lakin İrandakı böyük ictimai-siyasi və humanitar fəaliyyətlə yanaşı, Əziz Əliyev alim-tədqiqatçı olaraq qalırdı. O, həmin diyarda topladığı təcrübəni 1942-ci ildə işıq üzü görmüş "Cənubi Azərbaycanın iqtisadi coğrafiyası" oçerkində ümumiləşdirmişdir (SSRİ EA filialının nəşri).

*Üçüncü fəsil*

# SƏKKİZ İL DAĞLAR ÖLKƏSİNDƏ

*Mən Dağıstanımın və Azərbaycanımın şanlı oğluna ömür boyu minnətdaram.*

**Rəsul Həmzətov**

1942-ci ilin sentyabrında Dövlət Müdafiə Komitəsinin Sədri İ. Stalinin əmri ilə Əziz Əliyev Dağıstan vilayət komitəsinin sədri təyin olunur. Eyni zamanda Mahaçqala Müdafiə Komitəsinin sədri vəzifəsi də ona tapşırılır; Əziz Əliyev 58-ci ordunun Hərbi Şurasına və HHQ Bakı Şurasına üzv seçilir.

Sovet İttifaqına xaincəsinə hücum etmiş Hitler ordusu müvəqqəti üstünlükdən istifadə edərək çox çətin vəziyyətə düşmüş Sovet ordusu hissələrinin qəhrəmancasına müqavimətinə baxmayaraq, Şimali Qafqaza qədər gəlib çıxmışdı. Leninqradın blokada halqasında qan tökülürdü... "Edelveys" nasist diviziyasının dəstələri Qafqazın məğrur zirvələrinə mənfur svastikalı bayrağı sancmışdılar. Dağıstan isə durmuşdu. Dağlar ölkəsi Bakıya, Bakı neftinə can atan Hitler ordularının qarşısında son sipər idi. Qənimət kinoxronika fürerin xəritə üzərində əyilmiş və məftunluqla "Bakı piroquna" barmağını uzatdığı kadrları saxlayacaqdır...

Alman komandanlığı Mahaçqalanı Xəzərdə öz forpostu etmək niyyətində idi.

Dağıstan cəbhəyanı zonanın sərt şəraitində yaşayırdı. Bəzi müəssisələr köçürülmüşdü. Real işğal təhlükəsi yaranmışdı. Amansız düşmənlə mərdliklə vuruşan qəhrəman Qafqaz oğul və qızlarını minnətdarlıqla yada salaraq onu da qeyd etmək lazımdır ki, bəzən gönünü qorumaq üçün təşvişə düşüb qorxan cılız ürəkli adamlar da var idi... Fərarilik halları artmışdı.

Əziz Əliyevin xatirələrindən:

"Vilayət komitəsinin plenumunun iclası çox kəskin keçdi... Yerli partiya və Sovet orqanlarını ayağa qaldırmaq, rəhbərlərin məsuliyyət hissini artırmaq, xalq kütlələrini səfərbər etmək lazım idi. Amma necə, nəyin köməyi ilə? Nədən başlamaq və necə başlamaq lazım idi?

Dağıstanın ərazisi əlli min kvadrat kilometrdən çoxdur. Burada əllidən çox inzibati rayon, bir neçə min kənd, qəsəbə və aul var idi. Onların çoxuna yalnız piyada və ya atla getmək mümkün idi. Elə ilk günlərdən muxtar respublikanın təbii şəraitini, yaşayış məntəqələrinin yerləşməsini, xalqların və etnik qrupların kompakt yaşayış məntəqələrini, Çeçen-İnquş Muxtar Respublikası ilə sərhədyanı zonaların zəif nöqtələrini, dağ aşırımlarını, əsas yolları və dağ cığırlarını müəyyən etmək və onların müdafiəsini təşkil etmək lazım idi.

Dağıstanda otuzdan yuxarı xalq və etnik qrup yaşayır. Onlardan daha çoxsaylı olanı bunlardır - avarlar, ləzgilər, darginlər, kumıklar, laklar, azərbaycanlılar, tabasaranlılar, noqaylar, rupullar, tatarlar. Müxtəlif xarakterə, adət-ənənəyə malik olan bu qədər çox sayda xalqı və etnik qrupu vahid bir ailədə toplamaq, ümumi işin qələbəsi naminə səfərbər etmək lazım idi".

Nədən başlamalı? Vilayət komitəsinin yeni təyin olunmuş rəhbəri dərhal və operativ şəkildə ordu rəhbərliyi ilə, Hərbi Şura üzvləri ilə görüşür, vaxt azlığından Nazirlər Sovetinin rəhbərləri ilə, nazirliklərin nümayəndələri ilə gecə yarısı söhbət edir. Lakin alınan informasiya onu qane etmir; onda o, öz sınanmış taktikası üzrə hərəkət edir: rayonlara, kəndlərə və aullara yola düşür. Məlum olur ki, işğal olunmuş zonalarda faşistlərin vəhşilikləri barədə gəzən söhbətlərdən qorxan bir çox kəndin camaatı meşələrə, əlçatmaz dağlara çəkilmişdir.

Hekayətimizin əsas mövzusunu yaddan çıxarmayaraq belə hesab edirik ki, Zərifə Əliyevanın atasının parlaq fəaliyyəti ilə bağlı olan tarixi ekskurslar oxucu üçün faydalıdır. Üstəlik, Əziz Məmmədkərim oğlu Əliyevin tərcümeyi-halı Sovetlər ölkəsinin tərkibinə daxil olan xalqların tarixindən, onların həyatındakı taleyüklü hadisələrdən, bu gün əhəmiyyətini kiçiltməyə və ya dəyişməyə çalışdıqları tarixi qələbəyə

ümumi paylarından ayrılmazdır. Amma Rəsul Həmzətov demişkən, “əgər sən dünənə tüfənglə atəş açsan, sabah sənə topdan atəş açacaq...”

Bir az da Dağıstan haqqında söz açaq. Gənc oxucuların az bir qismi bilir ki, bu şəhərin tarixi 1722-ci ildən, Pyotr flotunun İrana yürüşü zamanı hərbi gəmilərin Xəzər sahilində Anciar dağının ətəyində rahat liman tapdığı vaxtdan başlayır. Burada Pyotr fortu adını almış bir qala tikilmişdi; sonralar 24 oktyabr 1857-ci ildə qalanın yaxınlığında əmələ gələn yaşayış məntəqəsi Petrovsk adını aldı. Çox keçmədən burada liman tikildi və Vladiqafqaz dəmir yolu çəkildi.

Bir az da tarixin dərinliklərinə nəzər salsaq, gözəl və münasib buxta hələ bizim ulu babalarımızın diqqətini çəkmişdi. Yeddi min il əvvəl burada Tarnair adlı yaşayış məntəqəsi olmuş, sonra bu məntəqə böyüyüb Xəzər diyarının mərkəzi Səməndər şəhəri olmuşdu. X əsr ərəb salnaməçisi Müqəddəsi bu şəhər haqqında yazır: “O, Volqa üzərindəki İtile şəhərindən böyük idi (İtil Volqanın qədim adlarından biridir - H.M.). Onun müdafiə istehkamlarının yaxınlığında dəhşətli müharibələr baş vermişdir və məhz bu müharibələrin gedişində Qafqaz və Cənub-Şərqi Avropa xalqlarının taleyi həll olunmuşdur”.

Rusiyanın Petrovsk şəhəri, belə demək mümkündürsə, günlər içində deyil, saatlar içində böyüyürdü. 1913-cü ildə bu şəhərdə on beş fabrik və zavod var idi. İki il əvvəl isə ilk teatr açılmışdı. 1917-ci ildə Rusiyada inqilab baş verdiyi zaman burada hərbi inqilab komitəsi yaradıldı. Sonralar ağqvardiyaçılar tərəfindən öldürülmüş komissar Mahaç Dadayev bu komitənin tərkibində idi. 1921-ci ildə Dağıstan inqilab komitəsi azadlıq uğrunda mübarizin xatirəsinə ehtiram göstərərək 14 may tarixli əmrlə Petrovsk şəhərinin adını dəyişib Mahaçqala qoydu.

... Əziz Əliyev rayonlara səfərdən axşam gec qayıtdı. Vilayət komitəsi binasının qarşısında onu qoca ləzgi mühafizəçi qarşıladı. Söhbət etməyə başladılar. Qoca birdən belə məsləhət verdi: kəndlərini və doğma ocaqlarını tərk edib getmiş dağlıları kənd ağsaqqallarının, din xadimlərinin köməyi ilə qayıtmağa inandırmaq olar. Dağlıların itaət etdiyi iki qüvvə var: göydə Allah, yerdə ağsaqqal.

Çox keçmədən birinci katib Mahaçqalada ağsaqqalların müşavirəsini çağırır. Ağsaqqallar Şurası yaradılır. Qəsəbə mərkəzlərində və yaşayış məntəqələrində isə ağsaqqal qrupları yaradılır. Bu cür hörmətli münasibətdən mütəəssir olmuş ağsaqqallar əhalini dağlardan doğma ocaqlarına döndərəcəklərinə söz verirlər.

Və camaat asta-asta öz evlərinə, yurdlarına dönməyə başlayır, fəal şəkildə təsərrüfatın dirçəldilməsinə girişir. Bir yandan isə durmadan izahat işi aparılır. Sonralar, həmin günlərin şahidləri - ləzgilər, avarlar, digər millətlərin nümayəndələri nəql edirdilər ki, Əziz Əliyev zamanla hesablaşmayaraq, yorğunluğa fikir verməyərək iki mindən çox kənddə olub, hər yerdə əhali ilə görüşüb söhbətlər etdi, cavanları qayıtmağa, düşmənə qarşı mübarizəyə qoşulub yardımçı olmağa inandırırdı. Birinci katib döyüş mövqelərinə də baş çəkir, blindajlarda, maşınlarda dağlı bürkünə bürünərək gecələməli olurdu...

Onun rəhbərliyi altında operativ surətdə özünümüdafiə dəstələri yaradılır. Muxtar vilayətdə yerləşdirilmiş nizami qoşunlara yerli sakinlərdən bələdçilər təyin olunur. Diversantların aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə qruplar formalaşdırılır.

Təsəvvür etmək olar ki, təxribatçılar tərəfindən və düşmən təbliğatı ilə qızışdırılan mürəkkəb və ziddiyyətli əhvali-ruhiyyəyə məruz qalmış müxtəlifdilli çoxmillətli bir camiəni hərəkətə gətirmək və birləşdirmək üçün nə qədər enerji, qəlb gücü və diplomatik həssaslıq tələb olunur. Hər şeydən əvvəl, vilayət komitəsinin birinci katibi məğrur dağlıların ənənəvi ehkamlarını və şərəf qanunlarını, onların şərəfli əcdadlarının xatirəsini yada saldı...

Müharibə qəddar qanunlar diktə edirdi. İstənilən təlaş və sabotaj təzahürü amansızcasına cəzalandırılırdı. Stalin rejimi isə cüzi qeyri-loyallıq şübhəsi ilə bütöv xalqların köçürülməsindən çəkinmirdi. Dağıstanlılara Krım tatarlarının, volqaboyu almanlarının, balkarların, çeçenlərin, inquşların başlarına gələnlər məlum idi...

**Azərbaycan EA-nın müxbir üzvü, professor Hacı Həmzətovun** xatirələrindən:

“Müharibənin dördüncü ili gedirdi. Həmin ağır illərdə, Əziz Məmmədkərim oğlu vilayət komitəsinə başçılıq etdiyi

vaxtda mən vilayət komitəsinin mətbuat sektoruna rəhbərlik edirdim. Həmin respublikanın bir neçə dağlıq rayonunun sakinləri aran zonalarına köçürülmüşdülər. Köçkünlər aran zonasının havasına uyğunlaşa bilmir, xəstələnirdilər. Malyariya, yatalaq insanları məhv edirdi. Respublika hökuməti səyyar yardım qərargahı təşkil etdi, qida maddələri, dərman preparatları ayırdı, tibb işçilərini briqadalara göndərdi...

Qərargah Binay aulunda, indiki Novolakskoye kəndində yerləşmişdi. Respublikanın səhiyyə komissarının müavini, mənim uşaqlıq dostum Camal Əbdürrəhim oğlu Hacıyev qərargah rəisi təyin olundu. Məni isə bu kəndə siyasi işçi kimi ezam etdilər... Həmin vaxt camaat ruhən sarsılmışdı. Hər gün cəbhədən gələn qara kağızlardan əlavə, yüzə yaxın adamın müxtəlif xəstəliklərdən ölməsi barədə xəbərlər gəlirdi. Kənddə olduğum bir neçə gün ərzində mən bircə təbəssümə belə rast gəlmədim. Hamı qaşqabaqlı, əzgin, gözləri şişmiş halda gəzirdi.

Mən insanların əhvali-ruhiyyəsini necə qaldırmaq üçün baş sındırırdım. Fikirlərimi Camal Əbdürrəhim oğlu ilə bölüşdüm. O diqqətlə mənə qulaq asdı və qəti şəkildə dedi:

- Düzdür, ruh yüksəkliyi çox vacib amildir... Kişen kəndində (1944-cü ildə bu kəndin adı dəyişdirilib Çapayev oldu) Qarakənddən köçmüş çox gözəl müğənni qadın yaşayır... Mən onu Kulində işlədiyim vaxtlardan tanıyıram. Amma belə vəziyyətdə onu narahat etməyin məsləhət olub-olmadığını bilmirəm. İndi hamı güclə dolanır, heç qohum-əqrəba evinə qonaq getməyə adamın üzü gəlmir.

- Gəl, risk edək, - deyə mən təklif etdim. - Sənin ki yardım göstərmək səlahiyyətin var. Özümüzlə undan, yağdan, paxladan bir şey götürək və hər ehtimala qarşı bir şüşə də spirt götürək... Onun ailəsinə baş çəkək və ondan kənd klubunda camaatın qarşısında çıxış etməsini xahiş edək...

Belə də etdik. Həmin konsert insanlara nə boyda sevinc bəxş etdi!

Burada yadıma başqa bir epizod da düşür. O dövrdə mən əsas işimə paralel olaraq SSRİ Yazıçılar İttifaqının Dağıstan bölməsinin məsul katibi vəzifəsini də daşıyırdım... Yazıçıların da yaşayışı çox ağır idi. Kitab, demək olar ki, çap olunmurdu, ərzaq payını isə hamı almırdı.

Yazıçılar İttifaqının xahişi ilə hökumət bütün Yİ üzvlərinə ərzaq payı verməyi qərara aldı. Və elə bir vəziyyət yarandı ki, dövlət qulluğunda olan yazıçılara iki pay düşürdü. Nəzarət komissiyası bu barədə hökumətə məlumat verdi. Bununla əlaqədar olaraq Əziz Əliyev məni çağırtdırdı və izahat tələb etdi. Mən ədəbiyyatçıların yoxsulluğu barədə, onların uşaqlarının başıaçıq-ayaqyalın olduğu, onların doymazlıqdan və xəstəliklərdən əziyyət çəkdiyi, aullardan heç bir yardım almadığı, yazıçıların ikinci paydan məhrum edilməsinin onların ailələri üçün çox kədərli nəticələrə gətirib çıxara biləcəyi barədə məlumat verdim. İki kart alanların sırasında Ənvər Hacıyev, Abutalıb Qafurov, Hacı Zalov və bir çox başqa adam var idi. Mən etiraf etdim ki, anamın mənim üçün tikdiyi kostyumu ehtiyac üzündən bazarda satmışam, başqalarının isə heç satmağa da bir şeyi yoxdur...

Bir müddət keçdikdən sonra Əziz Əliyev bütün yazıçıları vilayət komitəsinə çaya dəvət etdi, onları dinlədi, səmimi söhbət etdi. Sonra onlara maddi yardım göstərilməsi barədə sərəncam verdi".

Başqa bir hadisə haqqında sadə bir dağıstanlı əməkçi rəvayət etdi: "Bir dəfə biz Mahaçqaladan çox uzaq məsafədə yerləşən bir kəndə yola düşdük. Xalam da uşaqları ilə birlikdə mənimlə idi. Yolda leysan yağışa düşdük. Uşaqları qucağımıza alıb leysandan qorunmağa çalışırdıq. Bu zaman bir maşın bizim yanımızda dayandı. Sürücü soruşdu:

- Yolunuz haradır?

Mən kəndin adını dedim. Maşından sanballı bir kişi çıxdı və bizə dedi: "Oturun maşına". Və sürücüyə tapşırdı: "Bunları o kəndə apar, sonra qayıt gəl". Yolda mən sürücüdən soruşdum: "Bu kişi kim idi?" "Vilayət komitəsinin birinci katibi Əziz Əliyev", - deyə sürücü cavab verdi".

Əziz Əliyev çoxmillətli Dağıstanı, onun fədakar, qonaqpərvər sakinlərini çox sevirdi. Çox keçmədi ki, dağlılar da Əziz Əliyevi sevdilər, bütün işlərdə və təşəbbüslərdə ona kömək etməyə başladılar.

Onun ən əsas uğuru Dağıstanın müxtəlif xalqları və etnik qrupları arasında konsolidasiyanın və etimadın yaranmasıdır. Müharibə illərində orada etnik zəmində xırda bir insident belə baş vermədi. Dağıstanlılar arxa cəbhədə vicdanla çalışır, ön cəbhədə də şərəflə vuruşurdular.

Ə.Əliyevin təşəbbüsü ilə Vətəndaş müharibəsi qəhrəmanı Qara Qarayevin adına milli eskadron yaradılmışdı. Süvari döyüşçüləri cəbhəyə yola salarkən o, döyüşçülərə üstündə "Dağıstan Fövqəladə könüllü süvari alayı" yazılmış Qırmızı bayraq təqdim etdi.

Döyüşçülər Vətənin tapşırığını şərəflə yerinə yetirəcəklərinə və bu bayrağı məğlub Berlin üzərində dalğalandıracaqlarına and içdilər və andlarına da sadiq qaldılar. Döyüş yolunu cənubi Mozdok yaxınlığındakı İşşer stansiyasından başlayan eskadron 416-cı Taqanroq diviziyasının tərkibində mühüm döyüş tapşırıqlarını uğurla yerinə yetirərək Berlinə qədər getmişdir.

416-cı diviziyanın komandiri vilayət komitəsinin birinci katibinə yazırdı: "Dağıstanlı döyüşçülər sıralarımızda cəsurluqla və mərdliklə vuruşaraq vətənimizin düşmənlərinə ağır zərbələr endirirlər. Diviziyanın bütün şanlı döyüş yolunda dağıstanlı süvarilər qəfil zərbələrlə, düşmən arxasına qəfil reydlərlə yadda qalmışlar..."

Dağıstanda sonralar Melitopol fəxri adını alan 91-ci atıcı diviziya yaradılmışdı. Əziz Əliyev diviziyanın cəbhə yolları və döyüş uğurları ilə şəxsən maraqlanırdı. Diviziyanın döyüşçüləri Əziz Əliyevə yazdıqları məktubların birində belə xəbər verirdilər: "Biz Dağıstan zəhmətkeşlərinin gündəlik qayğısını daim hiss edirik. Bu qayğı düşmənlə döyüşlərdə bizə qüvvət verir. Dağıstan zəhmətkeşlərinin bizim diviziya ilə sıx əlaqəsi bizi güclü və məğlubedilməz etmişdir".

Vilayət komitəsinin birinci katibi döyüşçü ailələri üzərində hamiliyə çox böyük əhəmiyyət verirdi. Hərbi qulluqçuların ailələrinə nümunəvi köməyə görə təkcə 1944-cü ildə Dağıstan iyirmi beş dəfə Ali Baş Komandanlıqdan təşəkkürnamə almışdı.

Əziz Əliyevə hərbi qulluqçu Penkolun göndərdiyi 14 mart 1944-cü il tarixli məktubdan bir parça: "Mən bu gün kiçik qızımdan məktub aldım. O, məndən bağlama aldığına görə sevindiyini bildirir, bağlamanı isə, əlbəttə ki, mən göndərməmişəm. Həyat yoldaşımın məktubundan öyrəndim ki, mənim ailəmi sizin tapşırığınızla idarənizin bir işçisi hamiliyə götürüb və onlara Qızıl Ordunun yaranmasının 26-cı ildönümü münasibəti ilə hədiyyə verib. Uşaqlar elə fikirləşiblər ki, yoldaş mənim yanımdan gəlib və bundan çox seviniblər. Yoldaş

Yazıçılar İttifaqının xahişi ilə hökumət bütün Yİ üzvlərinə ərzaq payı verməyi qərara aldı. Və elə bir vəziyyət yarandı ki, dövlət qulluğunda olan yazıçılara iki pay düşürdü. Nəzarət komissiyası bu barədə hökumətə məlumat verdi. Bununla əlaqədar olaraq Əziz Əliyev məni çağırtdırdı və izahat tələb etdi. Mən ədəbiyyatçıların yoxsulluğu barədə, onların uşaqlarının başıaçıq-ayaqyalın olduğu, onların doymazlıqdan və xəstəliklərdən əziyyət çəkdiyi, aullardan heç bir yardım almadığı, yazıçıların ikinci paydan məhrum edilməsinin onların ailələri üçün çox kədərli nəticələrə gətirib çıxara biləcəyi barədə məlumat verdim. İki kart alanların sırasında Ənvər Hacıyev, Abutalıb Qafurov, Hacı Zalov və bir çox başqa adam var idi. Mən etiraf etdim ki, anamın mənim üçün tikdiyi kostyumu ehtiyac üzündən bazarda satmışam, başqalarının isə heç satmağa da bir şeyi yoxdur...

Bir müddət keçdikdən sonra Əziz Əliyev bütün yazıçıları vilayət komitəsinə çaya dəvət etdi, onları dinlədi, səmimi söhbət etdi. Sonra onlara maddi yardım göstərilməsi barədə sərəncam verdi".

Başqa bir hadisə haqqında sadə bir dağıstanlı əməkçi rəvayət etdi: "Bir dəfə biz Mahaçqaladan çox uzaq məsafədə yerləşən bir kəndə yola düşdük. Xalam da uşaqları ilə birlikdə mənimlə idi. Yolda leysan yağışa düşdük. Uşaqları qucağımıza alıb leysandan qorunmağa çalışırdıq. Bu zaman bir maşın bizim yanımızda dayandı. Sürücü soruşdu:

- Yolunuz haradır?

Mən kəndin adını dedim. Maşından sanballı bir kişi çıxdı və bizə dedi: "Oturun maşına". Və sürücüyə tapşırdı: "Bunları o kəndə apar, sonra qayıt gəl". Yolda mən sürücüdən soruşdum: "Bu kişi kim idi?" "Vilayət komitəsinin birinci katibi Əziz Əliyev", - deyə sürücü cavab verdi".

Əziz Əliyev çoxmillətli Dağıstanı, onun fədakar, qonaqpərvər sakinlərini çox sevirdi. Çox keçmədi ki, dağlılar da Əziz Əliyevi sevdilər, bütün işlərdə və təşəbbüslərdə ona kömək etməyə başladılar.

Onun ən əsas uğuru Dağıstanın müxtəlif xalqları və etnik qrupları arasında konsolidasiyanın və etimadın yaranmasıdır. Müharibə illərində orada etnik zəmində xırda bir insident belə baş vermədi. Dağıstanlılar arxa cəbhədə vicdanla çalışır, ön cəbhədə də şərəflə vuruşurdular.

Ə.Əliyevin təşəbbüsü ilə Vətəndaş müharibəsi qəhrəmanı Qara Qarayevin adına milli eskadron yaradılmışdı. Süvari döyüşçüləri cəbhəyə yola salarkən o, döyüşçülərə üstündə "Dağıstan Fövqəladə könüllü süvari alayı" yazılmış Qırmızı bayraq təqdim etdi.

Döyüşçülər Vətənin tapşırığını şərəflə yerinə yetirəcəklərinə və bu bayrağı məğlub Berlin üzərində dalğalandıracaqlarına and içdilər və andlarına da sadiq qaldılar. Döyüş yolunu cənubi Mozdok yaxınlığındakı İşşer stansiyasından başlayan eskadron 416-cı Taqanroq diviziyasının tərkibində mühüm döyüş tapşırıqlarını uğurla yerinə yetirərək Berlinə qədər getmişdir.

416-cı diviziyanın komandiri vilayət komitəsinin birinci katibinə yazırdı: "Dağıstanlı döyüşçülər sıralarımızda cəsurluqla və mərdliklə vuruşaraq vətənimizin düşmənlərinə ağır zərbələr endirirlər. Diviziyanın bütün şanlı döyüş yolunda dağıstanlı süvarilər qəfil zərbələrlə, düşmən arxasına qəfil reydlərlə yadda qalmışlar..."

Dağıstanda sonralar Melitopol fəxri adını alan 91-ci atıcı diviziya yaradılmışdı. Əziz Əliyev diviziyanın cəbhə yolları və döyüş uğurları ilə şəxsən maraqlanırdı. Diviziyanın döyüşçüləri Əziz Əliyevə yazdıqları məktubların birində belə xəbər verirdilər: "Biz Dağıstan zəhmətkeşlərinin gündəlik qayğısını daim hiss edirik. Bu qayğı düşmənlə döyüşlərdə bizə qüvvət verir. Dağıstan zəhmətkeşlərinin bizim diviziya ilə sıx əlaqəsi bizi güclü və məğlubedilməz etmişdir".

Vilayət komitəsinin birinci katibi döyüşçü ailələri üzərində hamiliyə çox böyük əhəmiyyət verirdi. Hərbi qulluqçuların ailələrinə nümunəvi köməyə görə təkcə 1944-cü ildə Dağıstan iyirmi beş dəfə Ali Baş Komandanlıqdan təşəkkürnamə almışdı.

Əziz Əliyevə hərbi qulluqçu Penkolun göndərdiyi 14 mart 1944-cü il tarixli məktubdan bir parça: "Mən bu gün kiçik qızımdan məktub aldım. O, məndən bağlama aldığına görə sevindiyini bildirir, bağlamanı isə, əlbəttə ki, mən göndərməmişəm. Həyat yoldaşımın məktubundan öyrəndim ki, mənim ailəmi sizin tapşırığınızla idarənizin bir işçisi hamiliyə götürüb və onlara Qızıl Ordunun yaranmasının 26-cı ildönümü münasibəti ilə hədiyyə verib. Uşaqlar elə fikirləşiblər ki, yoldaş mənim yanımdan gəlib və bundan çox sevinibl ər. Yoldaş

Əliyev, ailəmə göstərdiyiniz qayğıya görə sizə ürəkdən təşəkkür edirəm. Mən bunu heç vaxt unutmayacağam..."

Əziz Əliyev mənzillə, ərzaq təminatı və tibbi qulluqla bağlı məsələləri daim diqqət mərkəzində saxlayırdı. Ticarət komissarlığı və Zaqafqaziya istehlak kooperasiya ittifaqlarının yardımı ilə onun nəzarəti altında cəbhə zonasından evakuasiya edilmiş əhalinin paltarla təmin olunması üçün yardım fondu yaradılır.

Cəbhənin ehtiyaclarına uyğun olaraq Mahaçqalada və digər şəhərlərdə yeni istehsal sahələri yaradılır. Müharibə illəri ərzində Dağıstanda bircə acından ölmə hadisəsi belə qeydə alınmamışdır.

Xəzərdə balıq ovu genişlənir, yeni balıqçı briqadaları və sahələri yaradılırdı. Tutulmuş hər bir ton balıq SSRİ Dövlət Müdafiə Komitəsinin hesabında idi. Məhz onun nəzarəti altında və bölgüsü ilə ildə əlli-altmış ton balıq məhsulu hərbi hissələrə çatdırılırdı.

1944-cü ildə Xəzərdə yaz balıq ovu mövsümü çox uğurla keçirdi, ov illik plandan iki dəfə çox olmuşdu. Nailiyyət balıqçıları ruhlandırmışdı və onlar payız ov mövsümündə də bir illik plan miqdarında balıq tutmağı öhdələrinə götürmüşdülər... Seyneri təmir etdilər, alətləri, torları hazırladılar... Əfsus! Mövsüm ərəfəsində Xəzər tünd xasiyyətini büruzə verdi - tufan qalxdı, dalğaların hündürlüyü beş - on metrə çıxırdı. Bir aydan çox qasırğa ara vermədi, təbii ki, dənizə çıxmaq mümkün deyildi və ov nəzərdə tutulduğundan çox az oldu... Vəd verilən balığı isə cəbhədə gözləyirdilər. Vilayət komitəsinin başçısı Moskva rəhbərliyi qarşısında cavab verməli oldu. İttifaq meteoxidmətinin verdiyi məlumatlar Əziz Əliyevin dediklərini təsdiq edirdi. Beləliklə, Moskvada vəziyyəti anladılar və daha heç bir irad tutmadılar.

Təbib təcrübəsindən istifadə edən Əziz Əliyev hospitalların işinin dəqiq təşkilinə çox vaxt ayırırdı. Partiya komitələri onun tövsiyəsi ilə ağır yaralıların yanında gecə növbəsi təşkil edir, hərbi klinikaları ərzaqla fasiləsiz təmin edirdilər.

Dağıstanda müalicə alan yüz iyirmi beş min yaralıdan yüz iki mini yenidən cəbhəyə qayıtmışdır.

Dağıstan zəhmətkeşləri faşistlərdən azad edilmiş respublikalara, diyarlara və vilayətlərə meyvə, tərəvəz, həmçinin

iyirmi səkkiz min baş qoyun, min baş at, min iki yüz baş iri-buynuzlu mal-qara göndərmişdi.

Stalinqradı xarabalıqlardan qurtaranda dağıstanlılar traktor zavodunun bərpasına iki yüz əlli gənc oğlan və qız göndərdilər. Və birinci katib yola salma mərasimində şəxsən iştirak edirdi. Sonra Sevastopolun bərpasına yardım fondu yaradıldı. Böyük miqdarda ərzaq, beş milyon pul topladılar; həmçinin Sevastopola on iki vaqon tikinti materialı və avadanlıq göndərildi.

Müdafiə Fonduna vəsait toplanmasına görə Dağıstan Ali Baş Komandanlığından yetmiş beş dəfə təşəkkürnamə almışdı. Dağıstanda formalaşan azərbaycanlılar diviziyası, dağıstanlı polkları və digər hərbi birləşmələr öz hərbi borcunu şərəflə yerinə yetirərək cənuba can atan düşmən qoşunlarının yolunda çox güclü sipər yaratdılar, sonra isə əks-hücuma keçərək cəbhə hissələrinin tərkibində Rostov vilayətinin, Taqanroqun azad olunmasında qəhrəmancasına vuruşurdular... Və bu şanlı yol Berlində başa çatdı. Əlli dağıstanlı döyüşçü Sovet İttifaqı Qəhrəmanı adını almış, otuz beş mindən çox döyüşçü orden və medallarla təltif olunmuşdur.

Əziz Əliyevin Dağıstanın yaradıcı ziyalılara, incəsənət ustalarına, gəncliyinə qayğıkeş, heyrətamiz həssas münasibəti barədə xüsusi söhbət açmağa dəyər.

**Xalq şairi Həmzət Sadasa** xatırlayır ki, heç vaxt, heç kimdən Əziz Əliyevin yüksək mədəniyyətinə, xeyirxahlığına və geniş qəlbliliyinə kölgə salacaq bir söz, eyham belə eşitməmişdir. O, həqiqətən gözəl insan idi. 1944-cü ildə Əziz Əliyevin şəxsi təşəbbüsü ilə Dağıstanda Lenin ordeni ilə təltif olunmuş Həmzət Sadasanın yaradıcılıq fəaliyyətinin əlli illiyi qeyd olundu. "Atamı birinci məhz Əziz Əliyev təbrik etdi, - oğlu **Rəsul Həmzətov** xatırlayır. - Üzünü mənə tərəf tutaraq birdən dedi: "Rəsul, gəl biz səni Moskvaya, Qorki adına Ədəbiyyat İnstitutuna göndərək"... Beləcə, Əziz Əliyevin sayəsində gələcəyin məşhur şairinin böyük ədəbiyyata yolu belə başladı. Moskva ədəbi mühitinin, rus ədəbiyyatı ustaları ilə tanışlıq və dostluğun gənc Rəsul Həmzətovun həyatında və yaradıcılığının formalaşmasında nə qədər böyük rol oynadığı hamıya məlumdur.

Amma o zaman Əziz Məmmədkərim oğlunun təklifinə Rəsul belə ruhda cavab verdi ki, şair olmaq üçün Moskvaya

getmək vacib deyil. "Süleyman Stalski institut bitirmədiyi halda şeirlər yazırdı". Amma sonralar şair etiraf etdi ki, "hər şey mənim təsəvvür etdiyim kimi deyilmiş".

Əgər sənin barəndə, sənin gələcəyin barəsində başqaları düşünürsə, bu çox böyük xoşbəxtlikdir. Bu, ağır sınaq günlərində, hamının əlinə silah alıb düşmənlə vətən uğrunda vuruşduğu bir zamanda daha dəyərlidir...

Əziz Əliyevin şəxsiyyətinin cazibədarlığı nədə idi və Dağıstan xalqları onu niyə sevirdi? Burda heç sirr də yox idi, sadəcə o, Dağıstan xalqına qabaqkı illərdə topladığı təcrübəsini və müdrikliyini səxavətlə və təmənnasız olaraq verirdi...

Müəllim Camal Əbubəkirov dağıstanlıların Əziz Əliyevə məhəbbətini sadə, lakin səmimi və həyəcanlı sətirlərdə ifadə etmişdir:

Sən böyük dostusan xalqımın mənim,
Yaşayır işlərin xatirəmizdə.
Dağıstanda çoxdur xidmətin sənin
Əbədi yaşarsan taleyimizdə.

Ey qardaş xalqımın şərəfli oğlu,
Sənin beşiyindir Azərbaycan.
Vətənim qoyduğun izlərlə dolu,
Unutmaz heç zaman səni Dağıstan.

Sən müəllim idin, həkim, dost idin,
Bütün varlığını verdin Vətənə.
O parlaq, işıqlı həyat məktəbin,
Bütün nəsillərə oldu nümunə.

**Görkəmli dövlət xadimi M. Umaxanov** Əziz Əliyevin gənc kadrların tərbiyəsi üçün çəkdiyi zəhməti xüsusi qeyd edir: "Şəxsən mənim həyatımda, həyat yolumu seçməyimdə Əziz Əliyevin rolu çox böyük olmuşdur. Mən bu əvəzsiz insanla il yarım işləmək xoşbəxtliyinə nail olmuşam".

Əvəzsiz insan! Bu təəccübləndirəcək dərəcədə dərin tərif məşhur sosial filosof E. Tofflerin XX əsrin sonlarında dərc olunmuş "Hakimiyyətin metamorfozları" kitabında irəli sürdüyü konsepsiyanın əsas müddəalarından birini qabaqlayır. Deməli, hələ Sovet cəmiyyətində "bizdə əvəz-

edilməz insan yoxdur" postulatı hökm sürdüyü bir zamanda daha uzaqgörən şəxslərin idrakında bu postulatın düz olmadığı düşüncəsi var idi. Üstəlik də, göz qabağında Əziz Əliyev kimi miqyaslı şəxsiyyətlərin fəaliyyəti var. Sənaye inqilabının başlanğıc mərhələsi ilə əlaqəli olan ümumi işə ziyan vurmadan qarşılıqlı əvəz etmə konsepsiyası məhz həmin müharibə illərində həm SSRİ-də, həm də Qərbdə cəmiyyətdə həm sənaye, həm də sosial sahənin inkişafında vəzifələrin mürəkkəbləşməsi ilə əlaqədar transformasiyaya və köklü dəyişikliyə məruz qalırdı. Mexaniki bacarıq yox, elm istənilən fəaliyyətin mahiyyəti olur, məhz bilik insanın səriştəsinin səviyyəsini artırır və buna görə də idarəçi rəhbərin, həkimin, yaxud da mühəndisin iş yeri daha fərdiləşmiş olur.

Əziz Əliyevin fəaliyyətinə ölkənin haqlı olaraq verdiyi yüksək mükafatların adları - iki Lenin ordeni, Vətən müharibəsi ordeni, Qırmızı Əmək Bayrağı ordeni, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", "Böyük Vətən müharibəsi illərində şanlı əməyə görə" medalları onun şanlı və gərgin əməyinin əks-sədasıdır. Amma, əlbəttə ki, Dağıstan xalqının minnətdarlıqla dolu məhəbbəti Əziz Əliyev üçün ən böyük mükafat idi.

Müharibədən sonrakı illərdə, 1948-ci ilin dekabrına qədər o, əvvəlki tükənməz enerjisi ilə muxtar respublikanın rəhbəri vəzifəsində işləməyə davam edir. Akademik mərkəzin maddi-texniki bazasının, sonra isə SSRİ EA-nın Dağıstan filialının yaradılmasında, respublikanın ali məktəblərinin inkişafında onun zəhməti qiymətsizdir. Gənc dağlı qızların təhsilə cəlb edilməsi, qadın mütəxəssis kadrların hazırlanması və onların ictimai və təsərrüfat fəaliyyətinə cəlb edilməsi, Mahaçqalada qadın pedaqoji institutunun və qadın pedaqoji məktəbinin yaradılması da vilayət komitəsinin birinci katibinin xidmətlərindəndir...

1946-cı ildə Əziz Əliyev muxtar respublikadan SSRİ Ali Sovetinin katibi, bir ildən sonra isə Dağıstan Ali Sovetinin deputatı seçilir. Dekabrda Moskvaya təhsil almağa göndərilir, lakin o, Dağıstanla sıx əlaqələrini saxlamaqda davam edir.

Qədirbilən dağlılar bu günə qədər bu qeyri-adi və istedadlı rəhbəri minnətdarlıq hissi ilə xatırlayırlar. "O, şablondan

uzaq şəxsiyyət idi, - **Məhəmməd Qurbanov** xatırlayır. - Dövlət postunda yüksək prinsipiallıq, fədakarlıqla insani işlərdə qayğıkeş iştirak Əziz Əliyevin xarakterində vəhdət təşkil edirdi".

Onun sözlərini **X. Pirsəidova** davam etdirir:

"Dağıstanlılar heç zaman Əziz Əliyevin bizim xalqımızın həyatında oynadığı rolu unutmayacaq. Dağıstan və Azərbaycan uzun əsrlər boyu sülh və mehriban qonşuluq şəraitində yaşamışdır. Bu münasibətlər ümumbəşəri dəyərlərə, mədəniyyətlərimizin, adət və ənənələrimizin eyniliyinə əsaslanan dərin tarixi köklərə malikdir. Biz Azərbaycanın, Dağıstanın və Rusiyanın inkişafı naminə dostluğumuzu möhkəmləndirəcək, iqtisadi, elmi və mədəni əlaqələrimizi həmişə inkişaf etdirəcəyik".

*Dördüncü fəsil*

# İFTİRA

*Həsəd olan yerdə, böhtan da var.*

**Hippokrat**

Əziz Əliyev gözəl və mehriban bir ailənin başçısı idi. Onun həyat yoldaşı Leyla xanım xeyirxahlıq və zəriflik mücəssəməsi idi. Bu mehriban, cazibədar və yaraşıqlı qadın altı uşaq anası idi: iki oğul - Tamerlan və Cəmil və dörd qız - Ləzifə, Zərifə, Dilarə, Gülarə. Onların dördü atasının yolu ilə getdi, həkim oldu, Dilarə mühəndis rabitəçi peşəsini seçdi, kiçik Gülarə isə istedadlı pianoçu kimi tanındı.

Həyatın şanlı Dağıstan səhifələri arxada qalmışdır. İndi Əziz Əliyev Moskvada İctimai Elmlər Akademiyasının dinləyicisi, eyni zamanda ÜKP(b) MK aparatının əməkdaşıdır. O, ən görkəmli ittifaq dərəcəli partiya kadrları sırasına daxildir. 1950-ci ildə o, Bakıya məsul dövlət vəzifəsinə - Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə dəvət edilir.

O dövr qayda-qanununa görə, yüksək vəzifələr üçün kadr rezervlərinin siyahısı əvvəlcədən hazırlanırdı; ittifaq əhəmiyyətli rezervlər Siyasi Büroda nəzərdən keçirilir və siyahı məxfi sənəd kimi saxlanırdı.

Çox mürəkkəb dövr idi. Moskvanın hakim dairələrindən ta respublikaların paytaxtlarına qədər hər yerə izləmə və xəbərçilik nüfuz etmişdi. Vəziyyət elə qəliz idi ki, adam tək vəzifəsini yox, başını da itirə bilərdi. Məhz belə bir zamanda kimsə respublikanın KP(b) MK birinci katibi və hökumət başçısı vəzifələrinə təyin olunma siyahısında Əziz Əliyevin adının olduğunu respublikanın o zamankı "xozeyin"inin qulağına pıçıldamışdı. Və çoxdan Əziz Əliyevin uğurlu yüksəlişini qısqanclıqla izləyən, onu özünə rəqib görən və sürətlə

artan nüfuzuna aqressiv münasibət bəsləyən Bağırov onu siyasi səhnədən uzaqlaşdırmaq qərarına gəldi. Belə bir təcrübə isə "xozeyin"də nə qədər istəsən, vardı. Bu məkrli niyyətini həyata keçirmək üçün o, çoxdankı dostu və hamisi qüdrətli L.P. Beriyaya bel bağlayırdı. Onun iştirakı olmadan Əziz Əliyev kimi məşhur və parlaq bir liderin təmiz adını ləkələməyə Bağırovun cürəti çatmazdı...

Və budur, Respublika Kommunist Partiyası MK bürosunun 12 iyun 1951-ci il tarixli qərarı ilə M.C. Bağırov ilk zərbəsini endirir: "Qohumlarının və yaxınlarının həqiqi sosial vəziyyətini tərcümeyi-halda və digər sənədlərdə gizlətməklə partiyanı aldatdığına görə şiddətli töhmət elan olunsun".

Elə həmin ilin 24 iyununda bu qərarın davamı olaraq Ə.Əliyev Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilir. Motiv eynidir: "Partiya üzvünə yaraşmayan hərəkətlərə yol verdiyinə görə, qohumlarının həqiqi sosial vəziyyətini - bacısının İranda yaşadığını gizlətdiyinə görə, respublika aktivinin qarşısında nüfuzunu itirdiyinə görə..."

Əlbəttə, bütün bu ittihamlar əsassız idi. Əziz Əliyevin tərcümeyi-halında və digər sənədlərdə ailəsi və qohumları barədə dəqiq və doğru məlumatlar əks olunmuşdur. Amma belə bir vəziyyətdə nəyi isə inkar etmək, sübuta cəhd etmək mənasız idi. Nəticəsi lap pis ola bilərdi.

Əvvəlcə Əziz Əliyev Ortopediya və Bərpa Cərrahiyyəsi Elmi-Tədqiqat İnstitutuna direktor təyin edilir. Amma təqiblər zənciri bununla bitmir. Az keçmir ki, ETİ direktorluğundan azad edilmə və Sabunçu xəstəxanasına köçürmə barədə qərar çıxır. Yəqin ki, Bağırov rəqibini tapdayıb alçaltdığını düşünürdü. Aldanmışdı! Əziz Əliyev üçün vəzifənin, yüksək məqamın bir dəyəri yox idi. Əsl cəza o olardı ki, ona hər hansı bir işlə məşğul olmağı qadağan etsinlər. Burada isə vəziyyət başqa idi - ona doğma səhiyyə sahəsində işləmək tapşırılmışdı! Hər gün zəhmətkeş insanlarla birlikdə o, elektrik qatarı ilə (elektriçka) həmin fəhlə qəsəbəsinə gedirdi. Xəstələrlə görüşdükdə "birincinin" düşmən münasibəti, onu görəndə tələsik üzünü başqa tərəfə çevirən köhnə tanışlarının cılızlığı o dəqiqə yadından çıxırdı...

Bir dəfə onun qəbuluna yeniyetmə oğlan uşağı ilə həyəcanlı bir kişi gəldi:

- Həkim, dərdin mənə gəlsin, tək ümidim sənədir...

Həkim təcrübəli baxışlarla xəstə görünüşlü oğlana baxdı. Məsləhətləşmək üçün şöbə müdirini çağırmaq istədikdə qoca onun əlindən tutub dedi:

- Xahiş edirəm, məni başqalarının yanına göndərmə. Mən kimin yanına gəldiyimi bilirəm!

Əziz Əliyev özü xəstəni müayinə etməyə başladı, diaqnoz qoydu, palataya yerləşdirdi və müalicə təyin etdi. İki gündən sonra gəlib yoxladı. Uşağın halı yaxşılaşmışdı, o sağalırdı.

Qoca necə minnətdarlıq edəcəyini bilmirdi:

- Səni bura atan küləyə qurban olum! Sən mənə oğlumu qaytardın!..

"Küləyin" zikr olunması həkimi güldürdü. Hələ indiyədək xəstəxanada baş həkimi belə ürəkdən gülən görməmişdilər. Evdə qocanın təşəkkür etməyini danışdı və ailə üzvlərinin də kefini açdı. Bu reaksiyada bütün ədalətsizliklərin, inciklikl ərin üstünə su səpən bir qürur və sevinc var idi.

Mənəvi terror onu sındıra bilmədi. Hətta onun üçün ağır olan bu günlərdə belə o, öz nikbinliyini və həyat sevgisini itirmədi. Oğlu Tamerlan xatırlayır: "Atam daxilən çox narahat olsa da, bunu büruzə vermirdi. Var-qüvvəsi ilə çalışırdı ki, qəlbində nigarançılığı və narahatlığı biz hiss etməyək. O illər o qədər ağır idi ki, istər-istəməz taleyimizə təsir edir, öz izlərini qoyurdu. Amma atamın əvvəlki şuxluğu, zarafatcıllığı yerində idi..."

Burada biz, bizi qələm götürməyə sövq edən əsas mövzuya - şanlı şəxsiyyətin şanlı qızının həyat tarixinə, Zərifə Əziz qızı Əliyeva haqqında hekayətə qayıdırıq.

*Beşinci fəsil*

## ZƏRİFƏ VƏ HEYDƏR

1949-cu ildə Zərifə Əliyeva Bakıya qayıdır. Bir ildən sonra da - Heydər Əliyev. Ayrılıq onların hisslərini bir az da gücləndirmişdi və Heydər ailə qurmağı qərara alır.

Hər şey yaxşı idi, bircə ev məsələsi problem idi - dövlət təhlükəsizliyi zabiti qardaşları və anası ilə İçərişəhərdə yarımzirzəmi bir evdə yaşayırdı. Zərifə ilə Heydər tez-tez görüşürdülər. Və getdikcə qəlbən daha aydın şəkildə başa düşürdülər ki, onlar öz səadətlərini tapıblar. Xalq arasında belə bir deyim var: "Onların ulduzu qovuşub".

1952-ci ildə mənzil problemi həll olundu: Heydər Əliyev intizarla gözlənilən ikiotaqlı mənzili aldı. Amma... artıq oxucuya məlum olduğu kimi, Əziz Əliyevin ailəsinin üstündən rəzil M.C. Bağırovun "domokl qılıncı" asılmışdı...

İndi anlamaq, təsəvvür etmək çətindir, amma o illər elə illər idi ki, hakimiyyətin özbaşınalığı ilə nəinki insanın xidmətinə, yaradıcılıq və ya elmi karyerasına, hətta şəxsi həyatına istənilən anda son qoyula bilərdi. Öz taleyini Zərifənin taleyi ilə birləşdirməyi qərara almaqla Heydər Əliyev rejimin ən qüdrətli və nüfuzlu əlaltılarından biri olan M.C. Bağırova meydan oxuyurdu. Dövlət təhlükəsizliyi zabitinin belə bir addımının nəticələrini qabaqcadan tam dəqiqliyilə bilmək mümkün idi, lakin o, geri addım atmır. Heydər Əliyev sevdiyi qadının yanında olmaq hüququnu qorumağı qərara alır.

"İşin maraqlı cəhəti bu idi ki, - tanınmış **publisist, Azərbaycan parlamentinin deputatı Elmira Axundova** Heydər Əliyev dövrü və tərcümeyi halı barədə fundamental tədqiqatının birinci kitabında yazır, - gənc zabit o bölmədə işləyirdi ki, gələcək qayınatası üçün kompromatın yoxlanması həmin bölməyə tapşırılmışdı".

Heydər Əliyevin parlaq xidməti siyahısı ilk əvvəl rəhbərliyin ani və kəskin reaksiya verməsinin qarşısını alır. Ona sadəcə olaraq respublikanın "birinci" şəxsinin qəzəbinə gəlmiş dövlət qulluqçusunun qızı ilə görüşməyi məsləhət görmürlər.

Lakin "məsləhət görmürlər" yumşaq ifadədir. Əslində isə məsələ qəti şəkildə qoyulmuşdu: ya xidmət və karyera, ya da məhəbbət... Lakin gənc zabit geri addım atmır və rəhbərliyin "məsləhətinə" qulaq asmır. O, müəyyən "konspirasiyaya" riayət etməklə sevimlisi ilə görüşməyə davam edir. Heydər qıza bu problemlər barədə bir söz deməsə də, həssas Zərifə hər şeyi hiss edir və onun dərin daxili həyəcanı bir dəfə növbəti görüşlərdən birində acı bir ifadə şəklində təzahür edir: "Bilirsən, biz daha görüşə bilmərik, axı, atamı işdən çıxarıblar, əleyhinə də cürbəcür ittihamlar irəli sürürlər. Sən isə dövlət təhlükəsizliyi orqanlarında çalışırsan, bunun sənə zərəri dəyə bilər... Deyəsən, birlikdə olmaq bizə qismət deyil..."

Heydər sevgilisini sakitləşdirərək ona ürək-dirək verir və onlar gizli görüşlərini davam etdirirlər.

Bu arada Əziz Əliyevin ailəsi sıx şəkildə izlənir. Hakimiyyət onu həbsə atmaq üçün bəhanə axtarırdı. Azərbaycanın o zamankı dövlət təhlükəsizlik naziri Yemelyanov Heydər Əliyevi yanına çağırır və ona deyir:

- Sən gənc və bacarıqlı əməkdaşsan. Leninqradda gözəl təhsil almısan, gələcəyin var. Gərək Əziz Əliyevin ailəsi ilə münasibətlərə son verəsən, yoxsa biz səni işdən azad etməyə məcbur olacağıq.

Lakin Heydər sakitdir, onun işinə qarşı hec bir irad yoxdur. Şəxsi həyatı isə onun öz işidir, öz taleyi barədə nə qərar verəcəyi ona aiddir və bu onun hüququdur.

Gənc zabitin, Əziz Əliyevin günahının məhz nə olduğu sualına Yemelyanov utanmadan açıq şəkildə cavab verir:

- Sən hələ cavansan, çox şeyi başa düşmürsən... - qüdrətli general istehza ilə gülümsəyir. - Yoldaş Mir Cəfər Bağırov bizə göstəriş verib, biz də yerinə yetirməliyik...

...Bir il keçir. "Qeyri-leqal" görüşlər davam edir. Peşəkar konspirasiyaçı öz xidmət yoldaşlarına cəsarətlə meydan oxuyur. Bu əhvalatı o özü belə xatırlayır: "Həmin vaxtlar Bakıda küçələr tam işıqlı deyildi, şəhərdə dalda yer çox idi. Mən bir neçə yer seçmişdim, orada bizi görə bilməzdilər. Evimi-

zin yaxınlığında, indiki Azadlıq prospektində park var idi, sonralar oraya Caparidzenin heykəlini qoymuşdular. Üzbəüzdə tramvay dayanacağı var idi. Ətraf isə qaranlıq idi. Mən birbaşa dayanacağın yanında görüş təyin edirdim. Mən kişiyəm, zabitəm, heç kəsdən də qorxum yoxdur, üstəlik də yanımda silahım var idi. O yazıq isə, gənc yaraşıqlı bir qız idi. Belə qızlar həmişə diqqəti cəlb edir. Buna görə də mən düz dayanacağın yanında gözləyirdim. O, vaqondan çıxırdı, mən onu qarşılayır və birlikdə həmin parka gedirdik".

1953-cü ilin lap əvvəlində Yemelyanov tabeliyində olan gənc zabiti yenidən "xalça üstünə" çağırır və bu dəfə birbaşa xəbərdarlıq edir: "Sən niyə mənim sərəncamımı yerinə yetirməmisən? Bilə-bilə ki, bundan sonra orqanlarda qalıb işləməyin böyük sual altındadır..."

Bu söhbətin ab-havası Heydər Əliyev üçün çıxış yolu saxlamırdı, o, artıq anlayırdı ki, "birinci" öz rəqibinə qəti şəkildə divan tutmağa hazırlaşır. Amma, nə baş verirsə versin, Zərifəsiz həyatı təsəvvür edə bilmirdi. Və bircə an belə tərəddüd etmirdi.

Sonralar Heydər Əliyev etiraf edir ki, "...bilirsiniz, necə fikirləşirdim. Mən DTK-da işləyirdim, bilirdim ki, onun atasının ətrafında nələr baş verir, onu necə izləyirlər. Mən bilirdim, eşitmişdim ki, onların ailəsini Qazaxıstana sürgün etmək istəyirlər. Mən fikirləşirdim ki, əgər onları sürgün etsələr, mən də Zərifənin ardınca Qazaxıstana gedəcəyəm. Orada iş tapmaq bəlkə burdan da asan oldu".

Amma ulduzların düzülüşü sevgililərin tərəfinə idi... Necə deyərlər, sən saydığını say...

1953-cü ilin martında Stalin öldü. Artıq iyunda L. Beriya və əlaltıları həbs edilmişdilər. Elə həmin ilin dekabrında SSRİ Ali Məhkəməsi Beriyanı, Merkulovu, Dekanozovu, Kabulovu, Qoqlidzeni, Meşiki, Vlodzimirskini ağır dövlət cinayətlərinə və Vətənə xəyanətə görə ölüm cəzasına məhkum etdi.

Müttəhimlər kürsüsünə Lavrenti Pavloviçin respublikadakı məsləkdaşı, əli çoxlu günahsız qurbanın qanına batmış M.C. Bağırov da oturduldu. Yaxın köməkçiləri ilə birlikdə o da öz layiqli cəzasını aldı.

Beləcə, Əliyevlər ailəsi, elə onlarla birlikdə minlərlə ailə təqiblərdən qurtuldu və dərindən nəfəs aldı. Qeyri-qanuni rep-

ressiyaya məruz qalmış qurbanların bəraət alma dövrü başlandı, günahsız yerə zindanlara salınmış, sürgün edilmiş insanlar kütləvi şəkildə doğma ocaqlarına qayıtmağa başladılar...

Əziz Əliyev ədalətin bərqərar olduğu günədək yaşadı. O, 1956-cı ildə dünən ona zülm edən qəddar şəxsin məhkəmə prosesini gördü. M.C.Bağırovla birlikdə müttəhimlər kürsüsündə general Stepan Yemelyanov da əyləşmişdi. Rütbədən salınmış general iyirmi beş il həbs cəzası aldı. Yetmişinci illərdə cəzasını çəkib Bakıya qayıdan Yemelyanov mənzil probleminin həll olunması ilə bağlı kömək etməsi üçün Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə müraciət etdi... Dünyanın işləri belədir... Ya da tarixin məhkəməsi adildir...

Heydərlə Zərifənin məhəbbəti isə qismətlərinə düşən sınaqlardan alnıaçıq çıxaraq onların ailəsini nurlandırdı. 1954-cü ilin noyabrında gənclər kəbin kəsdirdilər və bu yaxınlarda Heydər Əliyevin DTK-dan aldığı mənzildə sadə bir toy mərasimi keçirdilər.

Əziz Məmmədkərim oğlu Heydər Əliyevi birinci dəfə görərkən onun təkcə qabiliyyətli kürəkən yox, həm də gələcəyin parlaq dövlət xadimi olacağını uzaqgörənliklə bilmişdi: "Ay Leyla, bu Heydər çox böyük adam olacaq..." Ailədə bu gənc və istedadlı zabitin görünməsi taleyin bir mərhəməti idi.

Dövlət təhlükəsizliyi əməkdaşı Heydər Əliyev bu ailənin sevimli qonağı olduğu zaman isə insan tanımaqda nəhəng bilik və təcrübəyə malik olan Əziz Əliyev təkrar etmişdi: "Bu oğlan əsl qızıl külçəsidir, onun parlaq gələcəyi var".

Heydərlə Zərifə anlayırdılar ki, onların görüşü həyatın nadir hədiyyəsidir.

Bu məhəbbətin tarixi haqqında çox şeirlər yazılıb, filmlər çəkilib. Rejissor Vaqif Mustafayev bu mövzuda həyəcanlandırıcı, dramatik "Əsl məhəbbət haqqında" filmini çəkmişdir. Və orada, ekrandan biz əsas qəhrəmanın - Heydər Əliyevin riqqətli etirafını eşitdik: "Mən onu, həqiqətən, çox sevirdim. Onun da məni sevdiyini hiss edirdim. Belə fikirləşirəm ki, bizim bir-birimizə məhəbbətimizin köklərinin nə qədər dərin olduğunu sübut etməyə ehtiyac yoxdur".

"Böyük ömrün dastanı" poemasında xalq şairi Zəlimxan Yaqub Heydərlə Zərifənin sevgisinə ayrıca fəsil həsr etmişdir:

“Çiçəksən, arını sevmə” dedilər,
“Budaqsan, barını sevmə” dedilər.
“Zərifə adında, mələk donunda,
İstəkli yarını sevmə” dedilər,
Qadağa qoydular məhəbbətinə.

“Bir də o tərəfdə izin olmasın,
Bu haqda söhbətin, sözün olmasın,
Bir daha o qızda gözün olmasın,
Sən dövlət adamı, o, bir yad qızı”, -
Qadağa qoydular məhəbbətinə.

Duru bir bulağa “axma” dedilər,
Odlu bir şimşəyə “çaxma” dedilər.
“Duyğusan, durulma, dilsən, danışma,
Gözsən, gözəlliyə baxma” dedilər,
Qadağa qoydular məhəbbətinə.

O gün kök budaqdan ayrılmalıydı,
O gün ət dırnaqdan ayrılmalıydı,
O gün Ay ulduzdan, işıq Günəşdən,
Bərəkət torpaqdan ayrılmalıydı, -
Qadağa qoydular məhəbbətinə.

Bu söz sərt zamanın tapşırığıydı,
Tüstünün, dumanın tapşırığıydı,
Tutqun bir səmanın tapşırığıydı,
Yaxşını yaxşıdan ayırmaq üçün
Tapşırıq yamanın tapşırığıydı.

Şair zəmanənin qeyri-insani qanunlarını və öz şəxsi azadlıq, xoşbəxtlik hüququnu qoruyan insanların cəsarətini ürəkdən gələn sözlərlə açmışdır:

Küləyə “yellənmə” demək olarmı?
Yağışa “sellənmə” demək olarmı?
Ürəyə “tellənmə” demək olarmı?
Gülün budağına qonan bülbülə
“Oxuma, dillənmə” demək olarmı?

Açan çiçəklərə qadağa yoxdu,
Coşan diləklərə qadağa yoxdu,
Uçan mələklərə qadağa yoxdu,
Odlu baxışlara, dolu gözlərə,
Sevən ürəklərə qadağa yoxdu.

Sevdilər, seçdilər, sehrləndilər,
Görüşüb, qovuşub mehrləndilər,
Zamanın hökmüylə ayrılmadılar,
Allahın hökmüylə möhürləndilər.

Tanıdı yaxından, gəldi uzaqdan,
Bir dərya yarandı iki bulaqdan,
Çıxdı imtahandan, keçdi sınaqdan,
İlahi məhəbbət işini gördü,
Özünü yormasın bəndə nahaqdan.

Zamanın bağrından qopdu, yaşadı,
Nur olub torpağa hopdu, yaşadı,
Əbədi ünvanı tapdı, yaşadı,
Zərifə sevgisi, Heydər sevinci.

Qılınca bağlanıb, qından gəlibdi,
Ürəkdən süzülüb, qandan gəlibdi,
Cövhərə çevrilib, candan gəlibdi
Zərifə sevgisi, Heydər sevinci.

Çiçək solasıdı, zər solasıdı,
Vaxtında gülləri dər, solasıdı,
Gələn nəsillərə dərs olasıdı
Zərifə sevgisi, Heydər sevinci.

Ruhu - zərifliyim, nazım olacaq,
Nəfəsi - baharım, yazım olacaq,
Min il bu millətə lazım olacaq
Zərifə sevgisi, Heydər sevinci.

Ömrün ləzzətində, dadında qaldı,
Yazıldı, yaddaşın yadında qaldı,
Göylərin yeddinci qatında qaldı
Zərifə sevgisi, Heydər sevinci.

Qəhrəmanımızın qohumu, bir zamanlar Naxçıvanda kənd xəstəxanasında həkim işləmiş **Möhtərəmə** xanım deyir: "Zərifə Əziz dayının ailəsinin zərif gülü idi. Səmimi, zarafatcıl Zərifəyə hamı "evimizin çiçəyi" deyirdi. Sonra o, İzzət xanımın ocağına köçdü və Heydər Əliyevin ailəsinin gülü oldu".

Yaşının çox olmasına baxmayaraq, İzzət xanım işgüzar və diribaş qadın idi. Bir dəqiqə də işsiz qala bilməzdi. Evdəki

cavanların xahişlərinə əhəmiyyət verməyərək əlinə imkan düşən kimi Ağamalı bulağına su gətirməyə özü gedərdi. Orada yubanmazdı: qonşular vedrələrini doldurar və evə qədər gətirərdilər. Ailəsini, uşaqlarını çox sevirdi. Özü evdar qadın idi, amma var-qüvvəsi ilə çalışırdı ki, uşaqları təhsil alsınlar. Oğlu Heydəri çox sevərdi. Qohum-əqrəbanın sözlərinə görə, Heydər onun istəkli oğlu idi. Heydər ailə qurduqdan və İzzət xanım gəlininin sədaqətinə və nəcibliyinə əmin olduqdan sonra özünü tamamilə xoşbəxt sayırdı. Müqəddəs ana arzusu həyata keçmişdi.

Belə bir Azərbaycan məsəli var: "Gəlin ocağına çəkər". Zərifə qayınanasını çox sevirdi. İzzət xanım bir balaca naxoşlayan kimi, gəlin onun yanından əl çəkmir, qayğısına qalır, qulluq edirdi... O, təkcə sadiq, sevən həyat yoldaşı yox, həm də diqqətli gəlin idi. Dərs, elmi fəaliyyət, tibbi xidmət - bunlar heç biri İzzət xanımın qeydinə qalmağa mane ola bilməzdi. O, həmişə deyirdi ki, qadın ər evində hər şeydən əvvəl gəlindir və buna görə də onun əsas vəzifələrindən biri evdəki "ab-hava"dır. İzzət xanım da öz növbəsində Zərifəni çox sevir, ona ana qayğısı göstərirdi. Zərifə haqqında söhbət düşən kimi deyərdi: "Allah hamıya belə gəlin qismət eləsin".

**Püstəxanım Əzizbəyova** belə bir epizod xatırlayır: "Zərifənin bacısı qızı Svetlananın toyu bu gün də yadımdadır. O, Ləzifənin və Ağaəlinin qızı idi və altmışıncı illərin əvvəllərində ərə getmişdi.

Bu, Leyla xanımın və Əziz müəllimin ilk nəvə toyu idi. Yəqin buna görə idi ki, hamı çox şad idi, rəqs etməkdən yorulmurdular. Toy bugünkü təmtəraqlı, yüz - iki yüz nəfərlik toylar kimi deyildi. Ən yaxın qohumlar və dostlar yığışmışdı və Ağaəli dayının yaşadığı qədimi evin geniş qonaq otağında hamıya gen-bol yer çatırdı.

Biz Zərifə ilə məqam tapıb güzgülü qalereyaya, xəlvətə çəkildik. O özü də təzə ərə getmişdi və biz doyunca söhbət edə bilməmişdik. Zərifəyə birinci sualım bu oldu: "Necədi, xoşbəxtsənmi?" O, sevinclə etiraf etdi: "Bəli, xoşbəxtəm, sevgim də qarşılıqlıdır". Həyat yoldaşının gözəl xasiyyəti barədə mənə danışdı. Ən maraqlısı budur ki, bu söhbətin üstündən uzun illər keçdikdən sonra da o, həyat yoldaşından və ailəsindən həmin razılıq və sevinc hissi ilə danışırdı..."

*Altıncı fəsil*

## XATİRƏLƏR, XATİRƏLƏR...

Yaddaşın izi ilə yenidən geriyə yol alaq, əziz oxucum! İnsanlar bu gözəl xanımın barəsində həvəslə öz xatirələrini bölüşürlərsə, onda müəllifin nə isə əlavə etməyinə ehtiyac qalmır.

**Akademik M. Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həkimi, Alimə Əliyeva** ailəsinin Əziz Əliyevin ailəsi ilə dostluğu barədə həvəslə danışır. Ailə başçısı Əziz Əliyevi, onun həyat yoldaşı Leyla xanımı, Əliyevlərin qızları Ləzifəni, Dilarəni, Zərifəni, Gülarəni, xoş günlərin şirin xatirələrini yada salır.

İnsan əlaqələrinin peşə əlaqəsi ilə üst-üstə düşməsi də çox maraqlıdır: Tamerlan Əliyevin elmi rəhbəri Alimə xanımın qardaşı, Azərbaycanda əczaçılıq elminin banilərindən biri Rüstəm Əliyev olmuşdur.

Alimə xanımın xatirələri:

"Yaşımızdakı fərqə baxmayaraq, Zərifə mənə çox bağlanmışdı, aramızda mehriban münasibət, bir-birimizə möhkəm etibarımız var idi... O, mənimlə hər şeyi bölüşürdü, ən gizli sirrini, arzusunu mənə danışırdı.

Bizim ikimizin də uzun hörüklərimiz var idi. Çox vaxt mənə "saçlı qız" deyərdi, cürbəcür lentlər hədiyyə edərdi. Anam Zərqələm xanım Şuşanın tanınmış ziyalı ailələrindən idi. Gözəl qadın idi, xoş xasiyyətli idi. Mehriban, səxavətli, nəcib... Həm də Azərbaycan mətbəxinin sənətkarlarından idi, çox ləzzətli Qarabağ təamları bişirirdi. Bu məziyyətlərinə görə onu hamı, xüsusilə də Əziz Əliyevin ailəsi çox sevirdi. Əziz Əliyev anamın kulinariya qabiliyyətini dərhal qiymətləndirmişdi, - onun bişirdiyi plovun ətrini həyətə girməmiş hiss eləmək olur, - deyirdi.

Tanınmış Azərbaycan ziyalılarının, dövlət xadimlərinin çoxu bizə gəlib-gedirdi. Adətən, şənbə günləri toplaşardılar. Əziz Əliyev, Həsən Əliyev (akademik, Heydər Əliyevin qardaşı - H.M.), akademiklər Yusif Məmmədəliyev, Mustafa Topçubaşov, Abdulla Qarayev, xalq şairi Səməd Vurğun, tanınmış yazıçı İlyas Əfəndiyev, SSRİ xalq artisti Bülbül, tanınmış bəstəkarlar Fikrət Əmirov, Süleyman Ələsgərov, səhiyyə naziri Fəxri Vəkilov, Tamerlan Əliyev bizim əziz qonaqlarımız idi...

Sentyabrın birində, mənim ad günümdə qonaq həmişə çox olardı, Zərifə xanım bacıları ilə mütləq gələrdi. Piano çalar, rəqs edər, şənlənərdik. Biz də, öz növbəmizdə Əliyevlərin ad günlərini qeyd edərdik. Yay aylarında ailəliklə istirahət etməyə gedərdik.

Bir dəfə, belə görüşlərdən birində Zərifə mənə balaca bir mücrü bağışladı və dedi: "Alimə, mən orta məktəbi bitirəndə anam mənə qədimi saat bağışlamışdı. Mən səni o qədər çox sevirəm ki, həmin saatı sənə bağışlayıram". O saatı indiyə qədər ən qiymətli əşya kimi saxlayıram.

...Uşaqlıqda başıma gələn bir hadisəni heç vaxt unutmaram. Ailəmiz bağ evində istirahətdə idi. Yay idi, hava çox isti idi. Qonaqlarla birlikdə dənizə çimməyə getdik. Yolda anamın əlini ilan çaldı. Aləm bir-birinə qarışdı. Anamı dərhal şəhərə, xəstəxanaya apardılar. Xəstəxanada ilkin tibbi yardım göstərib evə gətirdilər. Bakıda elə bir mütəxəssis həkim qalmamışdı ki, gəlib anamı müayinə etməsin, ona baş çəkməsin. Ancaq vəziyyəti get-gedə pisləşirdi. Mən anamı çox sevirdim, onun həyatı üçün qorxduğumdan dayanmadan ağlayırdım. Həmin günlərdə Əliyevlər ailəsi tez-tez gəlib anama baş çəkir, ürək-dirək verirdilər. Anamın müalicəsi ilə Əziz müəllim şəxsən məşğul olmağa başladı və ən çox onun sayəsində anam sağaldı..."

**Akademik P. Əzizbəyova** bağ günlərindən belə bir maraqlı epizod xatırlayır: "Bizim hasarın o biri üzündə hansısa idarənin istirahət evi yerləşirdi. DİN-in idi, ya sərhədçilərin, bilmirəm. Həmin bağın lap divarının dibində çileyi üzüm meynələri əkilmişdi. O meynələrdə üzüm yetişəndə bizim kollar hələ yamyaşıl olurdu. Bizim yaşımızdakı uşaqlar üçün isə o cür ağız sulandıran kəhrəba kimi üzümə əhəmiyyət verməmək, əlbəttə ki, mümkün deyildi.

Bir dəfə bizdən bir az böyük uşaqlar bir-iki salxım dərmək fikrinə düşdülər. Mən də onlara qoşuldum. Ancaq qarovulçu bizi gördü. Oğlanlar divardan atlanıb aradan çıxdılar, mənsə ilişdim. Kişi bərk-bərk qolumdan tutdu, mən də qışqırıb kömək çağırırdım. Bu vaxt hasara baxan balkonda Zərifə xanım göründü. O, işin nə yerdə olduğunu dərhal anladı və qarovulçudan məni buraxmağını xahiş etdi. Qarovulçu isə inadkar adam idi. Onda Zərifə evə qaçıb atası Əziz dayını çağırdı. Əziz dayının bir neçə sakitləşdirici sözündən sonra qarovulçu inadından əl çəkdi və məni hasarın yanına gətirdi. Zərifə artıq orada idi. Mənə hasardan aşmağa yardım etdi. Mən bu yana keçən kimi var gücümlə götürülüb aradan çıxdım. Tut ağacının təpəsində xəlvəti yerim var idi, ora çıxıb gizləndim. Məni çox axtardılar, amma tapa bilmədilər. Ancaq bərk acmışdım. Axşam Zərifənin pıçıltısını eşitdim: “Zina! (uşaq vaxtı o məni belə çağırardı), düş aşağı, sənə yemək gətirmişəm”. Mən qəti əmin idim ki, o məni ələ verməyəcək, buna görə də ağacdan düşdüm. Yadımdadır, Zərifə mətbəxdən nə gətirmişdisə, hamısını yedim. O isə gülümsəyə-gülümsəyə mənə baxırdı. Sonra sakitcə dedi: “Atam sənin atana hər şeyi danışıb. Onlar nigarandırlar, səni gözləyirlər, gedək evə...”

Püstəxanımın yadına 1945-ci il düşür: “Bakı qələbə sevinci içində idi. Əhvali-ruhiyyəni sözlə ifadə etmək mümkün deyil. Hər yerdən şadlıq sədası, gülüş səsləri, ümumxalq şadyanalığı yüksəlirdi. “Zina, Zina! - balkondan Zərifənin cingiltili, şaqraq səsi gəldi. - Gedək bulvara! Biz qalib gəlmişik! Eşidirsən, qələbədir!” Əl-ələ tutub Dənizkənarı bulvara qaçdıq. Elə bil, bütün Bakı bura tökülmüşdü. Bir-birini tanımayan adamlar sevinc içində qucaqlaşır, bir-birini təbrik edir, yaxınlarını, əzizlərini xatırlayır, ağlayırdılar. Çox sevdiyimiz bir ağac var idi, onun yanına gəldik. O ağac indiyə qədər Kukla Teatrının yanında durur. Orada tam qara geyinmiş, başında qara kəlağayı olan bir qadın dayanmışdı. Bir əlini ağaca söykəmişdi, o biri əlində isə dəsmal var idi. Zərifə adətən tanımadığı adamlarla danışmağa utanardı, amma indi ürəklə həmin qadına yaxınlaşdı, qucaqlayaraq pıçıltı ilə dedi: “Anacan, bu yaylığı daha başından aç, bu gün bayramdır, axı”. Yaşlı qadın hönkürtü ilə ağlamağa başladı. Zərifə onu daha möhkəm qucaqladı: “Əriniz?..” Qadın hıçqırıqlarına güclə ara verib: “Yox... oğlanlarım... üç oğulcuğazım...” Həmin

gün evə qayıdanda Zərifə yumruqlarını düyünləyərək öz-özünə deyirdi: “Nifrət edirəm müharibəyə. Nifrət edirəm! İnsanların əzab çəkdiyini görəndə ürəyim davam gətirmir...” Bir-birimizi tanıyandan bəri ilk dəfə onu gözü yaşlı görürdüm...

İki dəfə valideynlərimiz Moskvaya gedərkən bizi də özləri ilə götürmüşdülər, birinci dəfə yay idi. Mən məktəbi təzə bitirmişdim, Əziz dayı isə artıq Moskvada idi, orada SSRİ Ali Sovetinin sessiyası keçirilirdi. Biz Leyla xanım, Zərifə və mənim atamla yola düşdük. Azərbaycan Elmlər Akademiyasının prezidenti akademik Mirəsədulla Mirqasımov da bizimlə gedirdi. Üç gün yol getdik, yolda çoxlu söhbətlər etdik.

Zərifə mənim harada oxuyacağımla maraqlandı. Mən cavab verdim ki, babam Məşədi kimi mühəndis elektrik olacağam[2]. Zərifə mənə diqqətlə baxıb bir az fikirləşdi, sonra isə dedi: “Mənə belə gəlir ki, sən düz eləmirsən. Babanın yolunu davam etdirmək üçün mütləq mühəndis olmağın lazım deyil. Mənə elə gəlir ki, sən tarixçi olmalısan və onun haqqında, onun dostları, məsləkdaşları, zəmanəsi haqqında yazmalısan”. Mən təəccübləndim: “Mən hara, tarixçilik hara? Elə tarixdən dörd aldığıma görə qızıl medal yox, gümüş medal aldım...”

Amma atamla akademik Mirqasımov Zərifənin sözünə qüvvət verdilər. Akademik dedi: “Dörd almaq boş şeydir, əsas odur ki, sənəti sevəsən, yaxşı mütəxəssis olasan. Sənin tarixə meylin var, Zərifə düz deyir, sənədlərini tarix fakültəsinə ver”.

Moskvadan qayıtdıqdan sonra mən onların məsləhəti ilə sənədlərimi universitetin tarix fakültəsinə verdim...

Moskvada keçirdiyimiz günlərdən yaddaşımda çox gözəl xatirələr qalıb. Orada biz çoxlu söhbətlər edir, gördüklərimizi, oxuduqlarımızı müzakirə edirdik, öyrəndiklərimizi bölüşürdük. Günlərimiz muzeylərdə, rəssamlıq qalereyalarında keçirdi, teatra gedirdik.

Zərifə incəsənət dünyasına sanki gözləri ilə deyil, bütün qəlbi ilə daxil olurdu və hər hansı ədalətsizlik və ya zülm təzahürü[3] onu qəzəbləndirirdi. Yadımdadır, bir dəfə Tretyakov

---

[2] *Məşədi Əzizbəyov* - Bakı kommunasının rəhbərlərindən və 26 Bakı komissarından biri

[3] Çox güman ki, söhbət bədii əsərlərin bu və ya digər epizodlarından gedir.

qalereyasında Repinin "İvan Qroznı və oğlu İvan 16 noyabr 1581-ci ildə" tamaşasına baxandan sonra o, uzun müddət özünə gələ bilmirdi və elə hey deyirdi: "Ata öz oğlunu, öz doğma övladını necə öldürə bilər?!"

Sonralar başa düşdüm ki, artıq onun qəlbində müqəddəs analıq duyğuları baş qaldırırmış...

Bir dəfə biz Böyük Teatra "Karmen" tamaşasına getdik. Karmen rolunu Davıdova ifa edirdi. Möhtəşəm, təmtəraqlı zalda nəfəsimizi tutub oturmuşduq. Birinci akt başa çatanda Zərifə mənə dedi: "Yadına gəlir, bir dəfə mən demişdim ki, həyat nağıldır. Bax, bu gün biz səninlə böyük bir nağıla düşdük". Mən elə bil ki, bir anlığa böyüdüm və yaşlı adam kimi ciddi-ciddi soruşdum: "Bəs sənin yadındadır, mən balaca olan vaxtı sən nağıl haqqında arzulardın?" "Hə, yadımdadır, - fikirli-fikirli cavab verdi. - və yenə də təkrar edirəm: biz qəlbən elə yanmalıyıq, elə yaşamalıyıq ki, həyatımız nağıla çevrilsin. Hər şey əla olsun, gözəl olsun, hər şey asanlıqla düzəlsin mənasında yox, sadəcə içimizdəki xeyirlə şərə qalib gələ bilmək mənasında..."

Yayda biz Kislovodskda istirahət edərdik. Mən qəfildən Tofiq Quliyevin "Üzüyümün qaşı firuzədəndir"[4] mahnısını eşitdim. Zərifə bu mahnını zümzümə etməyi çox xoşlayardı. Fikirləşdim ki, yenə də Zərifədir, musiqi gələn səmtə tərəf getməyə başladım. Sanatoriyanın divarının yanına gəldim, hasardan aşdım və qovaqlıq olan bir talaya çıxdım. Səhv etməmişdim. Orada otun üstünə sərilmiş süfrənin ətrafında Zərifənin anası Leyla xanım, bacısı Ləzifə əri Ağaəli ilə birlikdə, kiçik bacısı Gülarə, qardaşı Tamerlan oturmuşdular. Zərifə akkordeon çalırdı. Mənim orada görünməyim o qədər qəfil olmuşdu ki o, çalmağını saxladı, amma mən yalvardım: "Davam et! Sənin çalmağından ötrü darıxmışam...."

**Professor, tibb elmləri doktoru S. İsmayılov** keçmiş gənclik illərini, qanlı-qadalı 1942-ci ili yada salır: "Qrupumuzda otuz cavan oğlan var idi. Ölkə o dəhşətli müharibənin ikinci ilində idi. Bizə "qırmızı bayraqlı qrup" adı vermişdilər,

---

[4] Bu mahnı Rəşid Behbudovun gözəl ifasında məşhurluq qazanmışdır.

çünki biz çox yaxınlarda əsgər olacaqdıq. Məşğələlər təzə başlamışdı. Qrupda və bölümdə liderlər təyin olunmuş, qrup rəhbərləri seçilmişdi...

Anatomiya bizim ən çətin hesab elədiyimiz fənn idi. Belə oldu ki, biz Zərifə ilə eyni qrupa düşdük. Axşamlar tez-tez Əliyevlər ailəsinin o vaxtkı Zevin küçəsində yerləşən evinə qonaq gedərdik. Əziz müəllimin qonaqcanlı ailəsi var idi. Böyük oğlu Tamerlan bizdən bir kurs yuxarı oxuyurdu, imkan düşən kimi də bizə kömək edirdi. Xoş görkəmli, ürəyiaçıq, alicənab qadın olan Leyla xanım bizi həmişə gülərüzlə qarşılardı. Müharibə illəri idi, qıtlıq idi və biz çox vaxt gözümüzü qazandan çəkə bilmirdik... O da bizi yedizdirmədən heç vaxt buraxmazdı. Ərzaq isə çatışmırdı. Müharibədən uzun illər sonra biz Tamerlanla ötən günləri xatırladığımız zaman Leyla xanımın bizi o zamanlar "hərbi ərzaq" sayılan şprota qonaq etdiyi yadıma düşdü. Tamerlan bu sözlərdən sonra bir xeyli fikrə getdi və dedi: "Bilirsən, həmin gün hamı dağılışandan sonra anam xəlvət bir küncə çəkilib həmin şprotun yağına quru çörək batırıb yedi..."

Bu qadının, bu ananın nə boyda ürəyi varmış! "Dədə Qorqud" kitabını oxuduqca görürsən ki, sevən ana hansı mənəvi qüvvəyə malikdir. Mən altı övlad böyütmüş Leyla xanımı məhz belə xatırlayıram.

Nəhayət, biz ilk imtahanları verdik. Artıq ilk nəticələri çıxarmaq olardı. Təkcə dərsdə deyil, qrup rəhbəri məsələsində də bəxtimiz gətirmişdi. Ən çətin anımızda Zərifəyə müraciət edərdik. Belə bir epizod yadıma düşür: qrupumuzdan bəzi uşaqlar tez-tez intizamı pozurdular, dərsləri buraxır, mühazirələrə gecikirdilər. Biz özümüz onların barəsində tədbir görməyə hazırlaşırdıq, amma kimsə bizdən qabaq artıq dekanata çatdırmışdı. Diqqətli araşdırmadan sonra informatoru tapdıq və kişi kimi dərsini verməyi qərara aldıq. Amma əvvəlcə Zərifəyə məsləhət etdik. O dedi ki, özüm o oğlanla söhbət edəcəyəm. İndiyə qədər bilmirəm ki, Zərifə ona nə dedi, amma həmin oğlan çox çəkmədi ki, qrupumuzdan çıxdı. Zərifənin nüfuzu, əvvəl qrupun daxilində, sonra isə bütün institutda ildən-ilə artırdı. Biz oğlanlar isə onu istənilən çətin məqamda dadımıza çatacaq bacımız sayırdıq.

Nəhayət, institutla, yoldaşlarımızla, müəllimlərimizlə ayrılmaq vaxtı gəlib çatdı. Bölümümüzün məzunları bütün öl-



Zərifə xanım Əliyeva, *1941-ci il.*





Zərifə xanım uşaqlıqda,
*1924-cü il.*

Zərifə xanım qardaşı ilə,
*1926-cı il.*

Zərifə xanımın valideynləri Əziz Əliyev və Leyla Əliyeva,
*1931-ci il.*





Əziz Əliyevin ailəsi. Zərifə xanım - ikinci sırada mərkəzdə, *1932-ci il.*

Əziz Əliyev ailəsinin əhatəsində. Zərifə xanım - ikinci sırada, *1936-cı il.*





Zərifə xanım (sağdan ikinci) sinif yoldaşları ilə,
*6 yanvar 1937-ci il.*

Zərifə xanım istirahətdə, *Yalta, 1938-ci il.*



Əziz Əliyev
oğlu Tamerlan
və qızı Zərifə ilə,
*1938-ci il.*



Zərifə xanım Əliyeva
sinif yoldaşları ilə,
*1941-ci il.*





Leyla xanım -
Zərifə xanım Əliyevanın anası,
*1945-ci il.*

Zərifə xanım Azərbaycan Tibb İnstitutunda kurs yoldaşları ilə (birinci sırada soldan dördüncü),
*1943-cü il.*





Əziz Əliyevin ailəsi,
*1947-ci il.*

Gülarə xanım, Leyla xanım, Zərifə xanım, Əziz Əliyev,
*1948-ci il.*





Zərifə xanım (soldan üçüncü) doğmaları ilə, *1948-ci il.*

Zərifə xanım və Heydər Əliyev bağda, *1955-ci il.*



Zərifə xanım,
*1948-ci il.*



Zərifə xanım
(soldan ikinci
dayanıb)
iş yoldaşları ilə,
*1951-ci il.*





Zərifə xanım Əliyevə,
*1952-ci il.*

Zərifə xanım (soldan birinci əyləşib) kafedra yoldaşları ilə,
*1951-ci il.*





Zərifə xanım Əliyeva (soldan beşinci) Oftalmologiya İnstitutunda, *1957-ci il.*



Zərifə xanım Əliyeva ailəsi ilə, *1966-cı il.*



Zərifə xanım Əliyeva,
*1968-ci il.*

Zərifə xanım Əliyeva
ailəsi ilə,
*1968-ci il.*



Zərifə və Heydər Əliyevlər, *1968-ci il.*



Zərifə xanım Əliyeva ailəsi ilə, *1968-ci il.*





Zərifə xanım atası ilə,
*1948-ci il.*



Professor-oftalmoloq
Zərifə xanım Əliyeva
əməliyyatxanada,
*1970-ci il.*



Zərifə xanım Əliyeva
və Heydər Əliyev
oftalmoloqlar
konfransında,
*oktyabr 1977-ci il.*



Zərifə xanım Əliyeva
ailəsi ilə,
*1972-ci il.*



Zərifə xanım Əliyeva Azərbaycan Respublikası Dram Teatrının 100 illiyinə həsr olunmuş tədbir iştirakçıları ilə, *31 may 1974-cü il.*

Zərifə xanım Əliyeva XTNS-də, *Moskva, may 1977-ci il.*



kəyə yayıldı. Tale isə məni yenə də Əziz müəllimlə rastlaşdırdı. O, Travmatologiya, Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutuna rəhbərlik edirdi. İlan zəhərindən intoksikasiyanın müalicəsinə həsr olunmuş dissertasiya işim Əziz müəllimin müsbət rəyi və xeyir-duası ilə müdafiəyə buraxıldı.

Dissertasiya Şamaxı rayon xəstəxanasının materialları əsasında hazırlanmışdı. Paytaxt klinikasında işləyən Zərifənin qeydləri çox faydalı oldu və bir neçə məsələni aydınlaşdırmaqda mənə çox kömək etdi. Mənim işlədiyim klinikaya tibb institutunun Oftalmologiya kafedrasının müdiri Umnisə xanım Musabəyova müalicəyə gəlmişdi. Növbədən sonra asudə vaxtımda biz onunla tez-tez söhbətlər edərdik. O, öz tələbələrini xatırlayar və həmişə də Zərifə xanımdan söz açardı. Professor Musabəyova onun istedadlı alim və həkim, həssas yoldaş və zəhmətsevər bir insan olduğunu qeyd edərdi. Deyərdi ki, Zərifə xanımın çox qiymətli bir xüsusiyyəti var: onun öz pasientlərinə ürəyi yanır; özgə dərdinə qarşı həssaslıq onun insanlarla ünsiyyətində daim özünü büruzə verir.

Əslində, Zərifə xaraktercə ucdantutma hamını sevənlərdən deyildi. O, insanları tanıyırdı, xeyirxah əməllə riyakarlığın, ikiüzlülüyün arasında sərhədi çox dəqiq ayırd edirdi.

Onun şəxsi düşməni yox idi, çünki ünsiyyətdə olduğu hər bir xəstənin, yardımına ehtiyacı olan hər bir şəxsin ürəyinə yol tapa bilirdi. Xarakteri və ətrafdakılara mənəvi təsir gücü sayəsində o böyük nüfuz qazanmışdı. Lakin heç vaxt bundan sui-istifadə etməz, elmi ilə heç kəsin qarşısında qürrələnməz, öz fikrini məcburi başqalarına qəbul etdirməzdi.

Cəsarətlə demək olar ki, onun ən böyük düşməni biganəlik, qəlb tənbəlliyi idi. Zərifə həmişə buna qarşı mübarizə aparırdı.

Bir dəfə xəstə bir qadın mənə belə bir yazı verdi: "Əgər bu qadının sənin cərrahi müdaxilənə ehtiyacı yoxdursa, mütləq konsilium keçir və qoy, bununla başqa mütəxəssislər məşğul olsunlar. Amma sən nəzərini axıra qədər üstündən çəkmə..."

Zərifə xanım tez-tez deyərdi: xəstələr həkimin yanına ümidlə gəlib ondan yardım gözləyəndə anlayırsan ki, sən insanlara nə qədər lazımsan.

Mən Zərifə Əliyevanı belə diqqətli və həssas bir həkim olaraq tanıyırdım..."

*Yeddinci fəsil*

# ...YAXŞILIQ ETMƏYİ BACARAN

*Həqiqətən mərhəmətli olmaq üçün qeyri-adi rəhmdillikdən azca çox rəhmli olmaq lazımdır.*

**Akademik Y.V.Tarle**

Azərbaycan dastanları əcdadlarımızın, o cümlədən də yadelli işğalçıların hücumundan vətənimizi müdafiə edərkən ərlərindən zərrəcə geri qalmayan cəsur nənələrimizin qəhrəmanlığı, əməksevərliyi və vətənpərvərliyi haqqında rəvayətlərlə doludur.

Eramızdan əvvəl 65-ci ildə məşhur Pompey legionları Azərbaycana hücum etdiyi zaman onlar qoşunlarına qarşı qəhrəman müdafiədə əlində silah qadınlar da iştirak etmişlər. Qədim Roma tarixçisi Appian yazır: "Yaralı döyüşçülər arasında qadınlar da var idi".

Millətimizin, dövlətçiliyimizin formalaşmasında bizim görkəmli qadın həmvətənlərimizin - Herodotun barəsində qeyd etdiyi əfsanəvi hökmdar Tomrisin, Dədə Qorqud kitabında adı çəkilən, Qazan xanın cəsur və şücaətli həyat yoldaşı Burla xatunun, Nizami poemalarında tərənnüm olunmuş Nüşabənin və Şirinin, "Gəncəli müdrikin" və Məhəmməd Fizulinin əsərlərində əbədiləşmiş incə və yüksək eşq duyğularının təcəssümü olan gözəl Leylinin adı ilə bağlı olan şanlı səhifələr mövcuddur... Azərbaycan tarixində belə adlar az deyil: əfsanəvi Koroğlunun yol və həyat yoldaşı Nigar, xalq qəhrəmanı Qaçaq Nəbinin silahdaşı və arvadı Həcər... orta əsr Azərbaycanının hökmdarı Uzun Həsənin anası və Şah İsmayıl Xətainin nənəsi, yüksək diplomatik qabiliyyətə malik olan və avropalı səfirləri heyran qoymuş Sara xatun. Qarabağın əfsanəvi hökmdarı Natəvan...

Rusiya tarixi və incəsənəti də qadın fədakarlığı, qəhrəmanlığı, sədaqəti, dövlətçilik müdrikliyi nümunələri ilə zəngindir. Təkcə Sibirə sürgün olunmuş dekabristlərin həyat yoldaşlarını - N. Nekrasovun tərənnüm etdiyi Volkonskaya, Muravyova və digər qadınları, Puşkinin Tatyanasını, Turgenyevin qəhrəmanlarını yada salmaq kifayətdir...

Müqəddəs Quranda deyilir: "Sizlərdən yaxşılıq edənlər, saleh əməl sahibi olanlar və günahlardan çəkinənlər həqiqətən nicat tapanlardır".

Bu möhtərəm kəlamları oxuyarkən biz həmişə düşüncələrimizlə qəhrəmanımıza üz tuturuq. Onun həyatında və davranışlarında dinimizin mənəvi əsasları ilə ümumbəşəri əxlaqi dəyərlər, layiqli vətəndaş anlayışı, insan və cəmiyyət müdafiəsi dəyərləri üst-üstə düşür.

Həzrət Məhəmməd peyğəmbərin hədislərindən birində buyurulur: "İki nəfərə həsəd aparmaq olar: biri o kəsdir ki, Allah ona nemət verir və öz ölümünün sahibi edir, ikincisi isə o kəsdir ki, ona müdriklik verir və öz həyatının sahibi edir". Bu dərin mənalı kəlamın hikməti budur ki, ilahi üstünlük müvəqqəti dünya malına, mülkünə sahib olanlara ("həsəd etməli" adamlara) deyil, insanın həyat yolunda ən dəyərli xəzinə olan müdrikliyin daşıyıcılarına verilir.

Zərifə Əliyevanın insani, peşə yüksəlişinə baxarkən biz ictimai əhəmiyyətli xidmətin, insanların sağlamlığı naminə, intellektual proqres naminə əməyin əbədi dəyərliliyinə bir daha əmin oluruq.

Zərifə xanımla uzun illər çox yaxın ünsiyyətdə olmuş **professor Zəhra Quliyeva** onun hər şeydə təkrarsız, qeyri-adi şəxsiyyət, həyat yoldaşı, ana, həkim, alim olduğunu yada salır. "Bilirsiniz, eyni zamanda həm yaxşı həkim olmağın, həm də yaxşı insan olmağın xüsusi bir mənası var. Onu tanıyanlar, ona müraciət edən pasientlər təsdiq edə bilərlər ki, onun nə qədər geniş qəlbi var idi və nə qədər sadə insan idi. Bəlkə də xəstələrin çoxu bilmirdi ki, o, respublikanın rəhbəri Heydər Əliyevin yoldaşıdır. Heç özünün də bunu nəzərə çarpdırmaq meyli yox idi. Bütün xəstələr onu, hər şeydən əvvəl, bir şəxsiyyət kimi sevir və hörmətini tuturdular. İnanın, o, dünyada ən təvazökar qadın idi..."

**Alimə Əliyeva** yada salır: "Zərifə xanım adamı təəccübləndirəcək qədər alicənab qadın idi. Tərifdən zəhləsi gedir-

di, boşboğazlığa qəti imkan verməzdi. Son dərəcə nəzakətli idi. Mən bircə dəfə də olsun onun kimə isə səsini qaldırdığını görmədim. Yerini bilən, üzügülər, açıq qəlbli, sadə və xoşrəftar idi. Hətta xoşu gəlməyən adamlarla belə bunu hiss etdirmədən davranardı, belə adamlara qarşı nəzakətli olardı. Mənə də bunu tövsiyə edərdi. Kiminsə ona ehtiyacı olduğunu bilən kimi həm sözlə, həm də əməllə yardım etməyə tələsərdi. Onun kabineti heç vaxt boş olmazdı. Ziyarətçilərin heç birini ümidsiz və yardımsız yola salmazdı, adamlar arasında heç vaxt fərq qoymazdı. Onun insanlara çox böyük məhəbbəti var idi. Bu, qəlb genişliyindən, səxavətdən, müdriklikdən irəli gəlirdi.

...Təbiətən təvazökar olan bu qadın respublikanın birinci xanımı "birinci ledisi" olduğunu heç vaxt hiss etdirməzdi. Təmtəraqdan, özünüreklamdan, hər hansı bir dəbdəbədən zəhləsi gedirdi. Onun haqqında yazı yazmaq istəyən jurnalistlərə rədd cavabı verdiyinin mən şəxsən şahidiyəm.

...Məktəbi uğurla bitirib sənədlərimi Neft və Kimya İnstitutuna verdim. İctimai və dövlət xidmətində işləmək mənim arzum idi. Seçimimin səbəbi də bu idi, bu institutu bitirən şəxslərin çoxu mənim arzu etdiyim sahədə çalışırdılar.

Həmin vaxtlar ailəmiz Kislovodskda istirahət edirdi, mən isə imtahanlara hazırlaşmaq üçün bütün yayı Bakıda qaldım. Mənim niyyətimi biləndə Zərifə xanım məsləhət gördü ki, həkim təhsili alım: "Mən səni ağ xalatda görmək istərdim. Sən mütləq Tibb İnstitutuna qəbul olmalısan. Həkim gözəl və nəcib peşədir, qızım... Sən elə bir ailədə böyümüsən ki, mən əminəm, həkim andına sadiq qalacaqsan..."

Mənim ona hörmətim o qədər böyük idi, sözündən çıxa bilməzdim və planlarımı dəyişdirib 1954-cü ildə Tibb İnstitutunun müalicə-profilaktika şöbəsinə daxil oldum...

Zərifə xanım həmişə arzu edirdi ki, mən onun cavan qohumlarından biri ilə ailə qurum, amma qismət belə gətirdi ki, mən bibim oğluna ərə getdim. Zərifə xanım onu tanıyırdı və hörmətlə yanaşırdı. Mənim yoldaşım da onun xətrini çox istəyirdi.

...Zərifə Əliyevanın anası Leyla xanım vəfat edəndə mən bacım Yaqutla yas mərasiminə getdik. Zərifə xanımın bizi necə qarşıladığı indiyə qədər yadımdadır: göz yaşlarını güclə saxlayaraq məni yanında əyləşdirdi, əlimdən tutmuşdu, sı-

ğallayır, üzümdən öpürdü... Ordakı qadınlar pıçıldaşaraq bizim kim olduğumuzla maraqlanırdılar. Nəhayət, səhiyyə naziri Kübra xanım Fərəcova Zərifə xanımdan bizim kim olduğumuzu soruşdu və o, bizi təqdim etdi və dedi: "Yaqut mənim bacımdır, Aliməcan isə (o məni həmişə belə çağırardı) mənim sevimli qızımdır..."

Heydər Əliyevlə Zərifə xanımın sevgisi haqqında onu deyərdim ki, bu, çox təmiz, saf və müqəddəs bir duyğu idi. Mən buna şahid idim. Onlar evlənəndə mən həm sevinmişdim, həm də... kədərlənmişdim ki, daha Zərifəni görə bilməyəcəyəm, onu mənim əlimdən aldılar. Amma tamamilə əksi oldu. Biz Bakıda, Əziz Əliyevin evində tez-tez görüşürdük. Necə deyərlər, həm şad günümüzdə, həm bayramlarda, həm ad günlərində, həm də kədərli günlərdə orada yığışardıq... Dostluğumuz davam edirdi. 1955-ci ildə Zərifə xanımın qızı Sevil, ondan altı il sonra isə oğlu İlham dünyaya gəldi. Zərifə Əliyeva çox gözəl ana idi. Uşaqlarını ilahi bir məhəbbətlə sevirdi, ürəyini çıxarıb onlar üçün verməyə hazır idi. Onlar xəstələnəndə daha çox narahat olurdu. Biz Sevil və İlhamla tez-tez Dənizkənarı parka, indiki Kukla Teatrının yanına gəzməyə çıxardıq. Onlar da mənə isinişmişdilər. İlham sadə, adamayovuşan, mehriban uşaq idi, özünü ağıllı və təmkinli aparar, dəcəllik etməz və ətrafdakıları narahat etməzdi. Təmiz dəniz havasında gəzintidən, məlumdur ki, uşaqların iştahı açılır. Biz evdən götürdüyümüz yeməklərdən, meyvələrdən onlara verərdik. Uşaqlar göz qabağında böyüyürdülər. Zərifə xanım Sevilin həkim olmasını arzulayırdı".

Bu xatirələrdə bir məqam diqqət çəkir: Zərifə xanım öz gənc rəfiqəsinə seçdiyi peşəni dəyişdirməyi tövsiyə edir. Və yadımızdadır ki, Zərifə Əliyeva Püstəxanım Əzizbəyovaya tarix fakültəsinə daxil olmağı tövsiyə edərək onun planlarını dəyişdirmişdi. Bütün bu faktlar heç də Zərifə Əliyevanın avtoritarizmini və ya insanların həyatını öz istədiyi kimi yönləndirmək istəyini göstərmir. Bütün başqa cəhətləri ilə birlikdə, Zərifə xanım həm də uzaqgörən bir insan və gözəl psixoloq idi. O, insanda heç onun özünün ağlına gəlməyən bir çox xüsusiyyəti görə bilirdi. Həmkarlarından birinin dediyi kimi, "kadr seçimində tayı-bərabəri yox idi".

İllər keçirdi... Əziz Əliyevin 1962-ci ildə qəfil ölümü Azərbaycan xalqını kədərləndirdi. Matəm mərasiminə Dağıstandan da çoxlu insan - həmkarları, ziyalıların nümayəndələri, partiya, dövlət xadimləri, mədəniyyət və incəsənət xadimləri, sadə insanlar gəlmişdi...

Qocaman **jurnalist Aydın Vəlixanov** Əziz Əliyevin vəfatının tarixçəsini xatırlayır: "Əziz dayıgilin ailəsinin bir ev qulluqçusu var idi. Tənha rus qadın idi. Səhv etmirəmsə, adı Nina idi. İş belə gətirdi ki, o, təcili Rusiyaya, qohumlarının yanına getməli oldu. Əziz dayı onu yola salmağa özü getdi. Əlbəttə, bu işi kimə isə tapşıra da bilərdi, amma vağzala özü getdi. Ona xas olan alicənablıq və insana hörmət hissi bu işi kimə isə tapşırmağa imkan verməzdi. Özünün şəxsi "Volqa" maşını və çox qabiliyyətli sürücüsü var idi, amma qulluqçunun çemodanlarını vaqona özü şəxsən daşıdı. Vaxt az idi, tələsmək, isti hava və daşıdığı ağır yüklər onda təngnəfəslik əmələ gətirirdi... Qatar hərəkət etdi. Əziz dayı əlini vidalaşmaq üçün qaldırdı və yellədi. Və qəfildən ürəyi möhkəm sancdı. Sinəsini tutub asta-asta perrona oturdu... Nina pəncərədən bu mənzərəni gördü və anladı ki, Əziz Əliyevin halı xarabdır. Bu qadının sadiqliyini təsəvvür edə bilirsinizmi: bədbəxtlik baş verdiyindən şübhələnib Biləcəridə qatardan düşür və geri qayıdır... Və gəlib vağzalda Əziz dayının cansız bədənini görür..."

Dəfn məsələsi həll olunarkən bəzi məmurlar mərhumun ölkə və xalq qarşısındakı böyük xidmətlərinə görə layiq olduğu Fəxri xiyabanda dəfn olunması üçün yer verməkdən imtina edirdilər. Bakı ilə telefon danışığında bundan xəbər tutan, həmin vaxt Truskavetsdə müalicədə olan Azərbaycan SSR KP MK-nın birinci katibi Vəli Yusif oğlu Axundov Əziz Əliyevin Fəxri xiyabanda dəfn olunması barədə göstəriş verir. Azərbaycanın görkəmli oğlu, parlaq elm və dövlət xadimi geniş xalq kütləsinin iştirakı ilə dəfn edilir.

27 sentyabr 1962-ci ildə, Əziz Əliyevin vəfatından iki ay sonra respublika hökumətinin qərarı ilə Həkimlərin Təkmilləşdirilməsi İnstitutuna onun adı verilir.

Otuz il keçəcək, onun qızı Zərifə Əliyevanın da adı uzun illər çalışdığı Oftalmologiya İnstitutuna veriləcək. Sonra müstəqil Azərbaycanın paytaxtının mərkəzi prospektlərindən birinə də Zərifə Əliyevanın adı veriləcək...

Hələlik isə yetmişinci və səksəninci illərə qayıdaq, qəhrəmanımıza onu yaxından tanıyan insanların gözü ilə baxaq, yenə də "Aliməcanı" - **Alimə Əliyevanı** dinləyək: "Mən Füzuli rayonunda yaşayırdım. Bakıya gəlməyimdən xəbər tutan kimi Zərifə xanım arxamca "Volqa" göndərərdi və biz görüşüb saatlarla onun evində oturar, söhbət edərdik. Elə bir əhəmiyyətli tədbir olmazdı ki, o mənim üçün dəvətnamə göndərməsin. "Respublika" sarayında hansı təntənəli mərasim olur-olsun, o, əhatəsindəkilərin yanından ayrılıb məni elə sevinclə və ürəklə qucaqlayıb bağrına basardı ki, oradakılar qeyri-ixtiyari bizə nəzər salar və təəccüblənirdilər ki, görəsən Zərifə Əliyeva kiminlə bu cür ürəkdən görüşür?.."

Onun Piterli həmkarları Dobromıslov cütlüyü ilə dostluğu Zərifə Əliyevanın geniş mədəni maraq spektrini və mənəvi dəyərlərə, tərbiyəyə, ailə əsaslarına ciddi münasibətini müfəssəl şəkildə işıqlandırır. Professor O. Dobromıslova onunla gözəl münasibətlərindən, elm, iş, musiqi haqqında söhbətlərindən söz açır. Belə oldu ki, ikisinin də övladı ata evini eyni vaxtda tərk etdi: Sevil və valideynlərinin onun seçimindən narazı olduğuna baxmayaraq, Dobromıslovların qızı ərə getdi...

Zərifə xanım gənc ailə barəsində ən məhrəmanə hisslərini və nigaranlığını Dobromıslova ilə bölüşür. Ailə möhkəm və xoşbəxt olur. Nəvələri dünyaya gələndə ona sevimli nənənin adını verirlər: Zərifə. Dobromıslovlarda isə heç də hər şey yaxşı alınmır. Qızının öz sevgilisi ilə xoşbəxt olduğunu iddia etməsinə baxmayaraq, çox keçmədən ailəsi dağılır. Zərifə xanım məktubunda rəfiqəsinə ürək-dirək verir: "...Qızınıza görə məyus olduğunuzu başa düşürəm. Mənə belə gəlir ki, o, düz hərəkət edib. Qızınız mütləq yeni ailə qurmalı, həyat yoldaşı seçərkən tələsməməlidir. Yüz ölçüb bir biçməli, onu yaxşı tanımalıdır ki, təkrar səhvə yol verməsin". Bir neçə ildən sonra həmkarının qızının ikinci dəfə ailə qurduğunu eşitdikdə Zərifə xanım ona yazır: "...Qızınıza görə çox sevindim. Səmimi qəlbdən ona xoşbəxtlik arzulayıram". Sonralar **Leninqrad Gigiyena İnstitutunun Göz Xəstəlikləri kafedrasının müdiri professor A. Dobromıslov** Zərifə Əliyevanın pedaqoji əqidəsi və mövqeyini belə xatırlayır: "Mən uşaq tərbiyəsi ilə bağlı diskussiyalarda Zərifə Əliyevanın heç bir güzəştə getmədiyinin şəxsən şahidiyəm... Amma onun bu qəti-

liyi bəzi analarda olduğu kimi, inadkarlıq əlaməti deyildi, o, həmsöhbətinə də öz fikirlərini söyləmək imkanı verərdi".

**Tibb elmləri doktoru, professor Z. Skripçenko** qəhrəmanımızı xarakterizə edərək yazır: "Ailə həkimi, sevimli qadın, qayğıkeş ana! Zərifə Əliyevanı mən belə gördüm". Skripçenko həmkarlarından birinin qonağı olduqlarından və Zərifə xanımın bu yüksək intellektual kampaniyada öz sadəliyi ilə, həyatsevərliyi ilə seçildiyindən söhbət açır: o, məşhur melodiyalar, rəqs musiqisi ifa edərək fortepiano çalır və hamını şənləndirib əhvali-ruhiyyəsini qaldırırdı. Evə qayıdarkən isə yolda şikayətlənirdi ki, ailə, iş qayğıları, gündəlik qaç-qov musiqiyə vaxt ayırmağa imkan vermir...

Bir vaxtlar Zərifənin atası ilə birlikdə nazirlik sanatoriyasının hirsli qarovulçusunun əlindən xilas etdikləri Püstəxanım Əzizbəyova (Zinoçka) artıq görkəmli alim və ictimai xadim olmuşdu. Bir dəfə professor Əzizbəyova iş dalınca piyada gedərkən yol ayrıcında işıqforda gözləyərkən yanında bir maşın dayanır. Zərifə! Maşından çıxıb rəfiqəsi ilə salamlaşır. Bir müddət əvvəl respublikanın qadın fəallarından birinə bədbəxtlik üz vermişdi, ona hər yerdə kömək olunurdu. Zina maraqlanır: bu işin təşəbbüskarı Zərifədirmi? O, cavabdan yayınsa da, P.Əzizbəyovanın bu dəfə də "xilaskar mələyin" kim olduğundan qəti şübhəsi qalmır.

Zərifə xanım rəfiqəsindən eşidir ki, diabet xəstəsi olan anası görmə qabiliyyətini itirir. İki-üç gündən sonra Püstəxanımın qapısı döyülür. Qapını açanda orada Zərifə xanımı görür. "İşə gedirdim, - deyir, - yadıma düşdü ki, sən ananın xəstə olduğundan danışırdın. Bağışla ki, vaxtım azdır, amma İzzət xanımın gözlərini özüm müayinə etmək istəyirəm". İzzət xanım isə çoxdan idi ki, Zərifəni görmürdü. Lakin səsindən dərhal tanıyır. Qonaq hələ dəhlizdə ikən səslənir: "Ay qızım, xoş gəlmisən, səndən nə əcəb?" İzzət xala həkimlərə müraciət etməyi xoşlamasa da, Zərifənin niyyətini biləndə arada ötən günləri, dünyasını dəyişən yaxınları, qohumları yada salaraq həvəslə onun suallarına cavab verməyə başlayır.

Xudahafizləşərkən Zərifə rəfiqəsini qucaqlayıb qəmli-qəmli deyir: "Neyləmək olar, Zinulya, sən möhkəm adamsan, mətin olmaq lazımdır. İşlər xarabdır, İzzət xalaya heç nə ilə kömək edə bilməyəcəyəm. Diabet zəminində dönməz proses baş verir".

İzzət xanım dünyasını dəyişdiyi zaman Zərifə xanım qardaşı Tamerlanla Əzizbəyovların evinə ziyarətə gedir. Camaat çox idi, Zərifə xanım diqqət çəkmədən daxil olur və qapının ağzında divanda əyləşir. Adamlar onu tanıdıqda yuxarı başa dəvət etsələr də, nəzakətlə təşəkkür edir və oturduğu yerdən durmur. Onda Zina onun yanına gəlib əyləşir və onlar sanki valideynlərin nəvazişi və sevgisi ilə dolu uzaq uşaqlıq illərinə çıxıb gedirlər...

**Professor T. Hüseynova** öz xatirələrində görkəmli oftalmoloqun xüsusi musiqi qabiliyyətini qeyd edir (kim bilir, bəlkə də Zərifə Əliyevanın şəfqətli əlləri ona tanınmış bir pianoçu şöhrəti gətirəcəkdi?):

"O, fortepiano sinfində musiqi təhsili almışdı... Mən onun ifasında həm klassik, həm də populyar müasir musiqini məmnuniyyətlə dinləyirdim. Royal çalarkən Zərifə xanım ən zərif hissləri ifadə edir, əsərin mahiyyətini dinləyiciyə çatdırmağı bacarırdı. Onun ifası emosionallığı ilə seçilirdi, sanki musiqi əsərinin mahiyyətini öz şəxsi duyğularından keçirirdi. Onun təkcə musiqi ifa etməyi deyil, həm də musiqiyə qulaq asması da maraqlı idi. Adama elə gəlirdi ki, ifa olunan əsər onun vəcdə gəlmiş, işıq saçan simasında əks olunurdu. Konsert zamanı isə pianoçunun ifasının xoşuna gəlib-gəlmədiyini anlamaq üçün onun üzünə baxmaq kifayət edirdi... Onun gözləri heyranlıq nümayiş etdirirdi, razılaşırdı, gülümsəyirdi, bəzən isə qeyzlənirdi, narazılıq və ya qəti etiraz ifadə edirdi... Amma heç vaxt o gözlərdə laqeydlik görmək olmazdı. Onun "danışan" gözləri vardı. Bir dəfə biz estrada konsertinə getmişdik. Hiss olunurdu ki, müasir ansamblın zalın səsli-küylü reaksiyası ilə müşayiət olunan var gücü ilə, şövqlə çalması, müğənninin gurultulu oxuması onun ürəyincə deyil. Amma təbiət etibarilə təmkinli olduğuna görə musiqi və ifa barədə sərt ifadələr işlətmədi. O, zövqlərin rəngarəng olduğu, belə musiqinin də kiminsə xoşuna gəldiyi barədə kəlmələrlə kifayətləndi".

Zərifə xanımın mehribanlığı, humanistliyi, ziyalılığı əməlli-başlı əfsanəyə çevrilmişdi.

O, bir alim kimi fundamental əsərlər yazmışdır. Onun elmi irsi, nailiyyətləri, pedaqoji təcrübəsi həmişə tədqiqat obyekti olmuşdur.

**Mərkəzi Həkimlərin Təkmilləşdirilməsi İnstitutunun Oftalmologiya kafedrasının professoru, akademik Filatov adına mükafat laureatı V.Şmelyovanın** dediklərindən: "Mənim həyatda bəxtim gətirib. Tale mənə misilsiz bir şəxsiyyətlə ünsiyyətdə olmağı nəsib etdi. Son günümə qədər Zərifə Əliyeva xatirimdə həyatda olduğu kimi - qeyri-adi bir şəxsiyyət olaraq qalacaqdır. Hər şeydən əvvəl o, həyatsevərliyi və geniş maraq dairəsi ilə seçilirdi. O, oftalmoloq peşəsinə vurulmuşdu və elmi axtarışlara çox vaxt sərf edirdi. O, oftalmologiyada yeni, çətin və az tədqiq olunmuş bir sahəni araşdırırdı və bu tip xəstəliklərin profilaktikasına və müalicəsinə öz töhfəsini vermişdir. Həyatda olduğu kimi, elmdə də Zərifə xanım öz yolu ilə getməyi xoşlayırdı...

Həkimləri Təkmilləşdirmə İnstitutunda kafedraya rəhbərlik edərkən o, aktiv şəkildə gənc mütəxəssis oftalmoloqlar yetişdirir, tələbələrinə məhəbbətlə elmin sirlərini öyrədir və bu işə çoxlu əmək sərf edirdi. Tələbələrindən Zərifə Əliyevanın onlara necə qayğı göstərdiyini, kömək etdiyini dəfələrlə eşitmişdim. O, həm həyatda, həm də elmdə səmimi olmağı onlara tövsiyə edirdi. Tələbələr öz aralarında ona "bizim anamız" deyirdilər".

Zərifə Əliyevanın xeyirxahlığını onunla görüşmək xoşbəxtliyinə nail olanlar hamıdan çox bilirlər. Mən isə həyatda rastlaşdığım insanlar arasında qarşısına çıxan hər bir insana bu qədər nəvazişli və mehriban olan ikinci bir adam görmədiyimi qeyd etməyi özümə borc bilirəm.

Onun sadəliyi oxşarsız idi. Zərifə xanımın akademik, əməkdar elm xadimi, müxtəlif mükafatlar laureatı olmasına baxmayaraq, hər bir şəxs ona müraciət edə bilərdi və nə qədər məşğul olursa olsun, mütləq o adama yardım əlini uzadardı.

Əziz və unudulmaz Zərifə xanım ilə şəxsi münasibətlərimizdə biz istər işimizlə, istərsə gündəlik həyatımızla bağlı müxtəlif məsələlərə toxunurduq. O, hər şeylə maraqlanardı. Ailədə o, sadiq yoldaş, qayğıkeş ana, sevimli nənə idi. Və hər şeyə, hamıya onun vaxtı kifayət edirdi...

Zərifə Əliyeva öz vəzifəsinə ciddi və məsuliyyətlə yanaşardı. Biz onunla "Oftalmologiya xəbərləri" jurnalının redaksiyasında əməkdaşlıq edirdik və qəti şəkildə deyə bilərəm ki, mən belə bir ciddi və işə yarayan redkollegiya üzvü - mü-

təxəssisə rast gəlməmişdim. Bütün sifarişləri, rəyləri və digər tapşırıqları Zərifə xanım həmişə yüksək səviyyədə və cəld yerinə yetirərdi. Heç vaxt təkəbbürlülük etməzdi. Vəzifə borcunun yerinə yetirilməsi onun üçün əsas prioritetlərdən biri idi. Adama elə gəlirdi ki, iş xirtdəkdəndir və onun bir saniyə belə boş vaxtı yoxdur, amma o, rəfiqələrinə zəng etməyə, hal-əhval tutmağa, uşaqların vəziyyətini soruşmağa, hətta bəzən görüşməyə, söhbətləşməyə də vaxt tapırdı. Belə görüşlər həmişə bayram əhvali-ruhiyyəsi yaradırdı.

Əgər Zərifə Əliyevanın əsas məziyyətlərini sadalayası olsaq, mən aşağıdakıları xüsusilə qeyd edərdim: əsl insanın bütün üstünlükləri onda var idi. Sadəlik, xoşrəftarlıq, əməksevərlik, qayğıkeşlik, səbir və ömrünün son illərində özünü daha da büruzə verən iradə... O heç vaxt, heç kəsi, hətta ən yaxınlarını belə öz dərdi, çətinliyi ilə narahat etməyi xoşlamazdı. Həmişə ətrafdakıların qeydinə qalardı... Özünü isə unudardı".

Mənə belə gəlir ki, Zərifə Əliyeva şəxsiyyətinin gücü məhz onun daim insanların dərdlərinə, qayğılarına, çətinlik və çatışmazlıqlarına ürəyiyananlığından, fədakar və təmənnasız insan sevgisindən irəli gəlirdi.

Təəccüblüdür ki, bu qədər məşğul olmasına, bu qədər xidməti, elmi, ailə vəzifələri yerinə yetirməsinə baxmayaraq, o, zahirən əhəmiyyətsiz görünən şeylərdən fərəhlənməyi bacarırdı. O, uşaq kimi adi məişət sevincindən ləzzət almaq, həyatı tam dolğunluğu ilə sinəsinə çəkmək qabiliyyətinə malik idi. Quşların cəh-cəhi, dənizin rəngi, yol kənarında açmış bir çiçək, küçədə kiminsə təsadüfi təbəssümü - bunlar hamısı onun tükənməz həyat eşqini, qiymətsiz bir nemətdən - həyatdan ləzzət almaq bacarığını gücləndirirdi.

**Zəhra Quliyeva, Fəridə Nəsrullayeva və Püstə Məlikaslanova** Zərifə xanımın təşəbbüsü ilə təşkil olunan qız məclislərini həvəslə yada salırlar. Kimin evinə yığışacaqlarını təyin etmək üçün adətən püşk atardılar. Zərifə bu görüşlərdə olmayanda hər şeyin mənası itirdi, çünki məclisin canı o idi, hər dəfə nə isə yeni bir şey icad etməkdən yorulmazdı, həm çalardı, həm oxuyardı, həm də şeir deyərdi. Rus, tatar, özbək, ləzgi, avar mahnıları da bilirdi... Yəqin bu, atasının xidməti ilə bağlı olan bir şey idi, ailə bir diyardan başqa diyara köçərkən müxtəlif xalqların mədəniyyətinə təmas edir-

di. Amma bütün bunlara baxmayaraq, onun mənəvi "kosmosunun" əsasını doğma Azərbaycan mədəniyyəti, musiqisi, ədəbiyyatı təşkil edirdi...

Qəhrəmanımızın mənəviyyatının, şəxsiyyətinin formalaşmasında atasının canlı nümunəsi ilə yanaşı barəsində əvvəlki fəsillərdə söhbət açdığımız anası Leyla xanımın da əvəzsiz rolu olmuşdur. Əlavə edək ki, Leyla xanım məişət, geyim, qadın üçün təbii olan bər-bəzəyə münasibətdə fövqəladə dərəcədə sadə idi. Onun cəmi bir bəzəyi var idi - toy hədiyyəsi sırğa və üzük... Ənənəvi şərq ölçülərinə görə bu spartalı zahidliyindən də yüksək bir şey idi.

Onun kulinarlıq məharəti, pal-paltara münasibəti, çalışqanlığı, işində metodik olmağı, vaxtın qədrini bilmək qabiliyyəti kimi xüsusiyyətləri Zərifəyə keçmişdi. Bununla bərabər, dolğun həyat sürmək, gözəllik dünyasından həzz almaq bacarığı, sözə, poeziyaya, musiqiyə meyil ailənin xoş iqlimində, valideynlərinin yaratdığı mühitin təsiri altında inkişaf etmişdi.

Deyirlər, göz qəlbin aynasıdır. Zərifə Əliyevanın oftalmoloq peşəsini seçməsi də, yəqin ki, gözün insan həyatındakı rolunu dərk etməkdən, bizi əhatə edən dünyanın bitib-tükənməyən rəngarəngliyini qavramaqda və insanın heç də az zəngin olmayan daxili dünyasını əks etdirməkdə gözün əvəzsiz bir nemət olduğunu anlamaqdan irəli gəlmişdir.

Qəhrəmanımızın zəngin intellektual, mənəvi potensialı ehtimal etməyə imkan verir ki, onun ictimai və əmək fəaliyyəti sırf tibbi və elmi sahə ilə məhdudlaşmaya bilərdi və daha böyük miqyaslı dövlət və mədəni vəzifələrində öz töhfələrini verə bilərdi. Lakin tale onu gələcəkdə millətin liderliyi missiyasını öz üzərinə götürəcək, nəhəng dövlət qurucusu və cəmiyyətin islahatçısı olacaq bir şəxslə rastlaşdırmışdı. Və bu şəxsin sevimli və sevən həyat yoldaşı olaraq, onun tutduğu yolun miqyasını dərk edərək seçdiyi şəxsə daim silahdaş olmağı özünə borc bildi, qeyri-adi qabiliyyətləri, şəxsi və yaradıcılıq özünügerçəkləşdirməsi isə elmi fəaliyyətində və ailəsində həyata keçdi.

Zərifə Əliyeva haqqında danışarkən oxucunun diqqətinə təqdim etməli bir mühüm aspekt də vardır. Özümüz özümüzə bir sual verək: yüksək hakim vəzifə tutan şəxslərin həyat yoldaşları barədə çoxmu şey bilirik? Təkcə Sovet İttifaqında deyil, demək olar ki, hər yerdə (Şərqdən heç danışmağına dəy-

məz, burada qadınlar qapalı həyat tərzi keçirirlər) əksər dövlət xadimlərinin xanımları cəmiyyət içərisində yalnız seçkilər, xeyriyyə aksiyaları zamanı görünür, yaxud da həyat yoldaşlarının dövlət vəzifələri ilə əlaqədar tədbirlərdə iştirak edirlər. Sovet İttifaqında yüksək vəzifəli rəhbərlərin, Baş katib də daxil olmaqla, MK katiblərinin və ittifaq respublikalarının partiya katiblərinin, nazirlərin, hətta aşağı rütbəli məmurların həyat yoldaşları ümumiyyətlə, heç yerdə işləmirdilər. Bu baxımdan Zərifə Əliyeva çox böyük istisnadır. O, həyat yoldaşına, ailəsinə sədaqətlə qulluq etməyi həkimlik borcu ilə, tibb elmi ilə çox ahəngdar şəkildə birləşdirirdi. Hətta Heydər Əliyev respublikanın rəhbəri, sonra isə SSRİ-nin rəhbərlərindən biri olduğu zaman da o, öz işini buraxmadı. Onun vətəndaşlıq mövqeyi məhz burada idi, vətənə, doğma torpağa məhəbbəti, onun ətrafında olan həyatın gözəl, daha firavan və xoş olması arzusu belə ifadə olunurdu... Öz parlaq həyatını bölüşdürdüyü şəxsin uğurlarında onun da əməyinin, istedadının, ürək atəşinin bir zərrəciyi, qığılcımı var idi...

Dünya incəsənətində analığa böyük əsərlər həsr edilmişdir. Zərifə Əliyevanın həyatı bu müqəddəs duyğunun himni kimidir. O, övladı Allah verən nemət kimi, göy işığı kimi, həyatın ölməz təcəssümünün möcüzəli davamı kimi qəbul edirdi...

**Tibb elmləri doktoru, professor Ofeliya Hüseynova** qəhrəmanımızın qardaşı, professor Cəmil Əliyevlə birlikdə təhsil almışdır, sonradan onlar eyni institutda doktorluq işi yazmışdılar. Ailənin digər üzvlərini də yaxşı tanıyan Ofeliya xanım onların həyatının müxtəlif detallarından həvəslə söz açır. Məsələn, Həkimlərin Təkmilləşdirilməsi İnstitutunun "İnturist" mehmanxanasında keçirilən yubileyində baş verən maraqlı bir hadisə. Bu tədbirdə o, Zərifə Əliyeva ilə eyni stolda əyləşmişdi. Təntənə iştirakçılarından bəziləri ona xüsusi diqqət göstərirdi, stolun üstündəki vazalarda çoxlu meyvə var idi və həmin adam tez-tez onları Zərifə xanıma tərəf çəkir, tez-tez müxtəlif şeylər təklif edirdi. Zərifə xanım bu israrlı diqqət sahibinin təşəbbüsünü hər dəfə "suya salırdı" və təklif olunan yeməkləri və digər şeyləri o biri qonaqlara ötürürdü...

Ofeliya Hüseynova Zərifə xanımla Moskvada, Tibb elmləri Akademiyasının iclasında rastlaşır. Bu iclasda onlar nü-

fuzlu və məsul auditoriya qarşısında, məşhur elm xadimlərinin qarşısında çıxış etməli idilər. Ofeliya xanım möhkəm həyəcanlı idi, bunu hiss edən Zərifə xanım ona ürək-dirək verir və gözlənilməz bir vəziyyət yaranarsa, kömək edəcəyinə söz verir... Auditoriya məruzəni yaxşı qəbul edir. Ofeliya xanım qeyd edir ki, Zərifə Əliyeva təkcə ona deyil, Moskvada yaşayan bütün həmvətənlərinə - həmkarlarına hərtərəfli kömək göstərirdi.

Hələ Napoleon demişdi: "Ən pis günah nankorluqdur". **Professor A. Nəcəfov** qəhrəmanımıza həsr etdiyi məqalədə yazır:

"Minnətdarlıq hissini Zərifə xanımın xarakterinin bir hissəsi kimi xüsusi qeyd etmək istərdim. Bu hiss mübaliğəsiz insan qəlbinin barometridir... Həmçinin yumor hissi, göstərişsiz təvazökarlıq və zəngin fantaziya onun şəxsiyyətinin mahiyyətini təşkil edirdi.

...O, təkcə dərs keçən yox, həm də şəxsi müdrikliyi və peşəkarlığı nümunə olan professorlardan idi. Tələbələrlə, gənc həkimlərlə söhbət edərkən Zərifə xanım onlara həssas münasibət göstərərdi. Onlar üçün bu, vətəndaş kamilliyi dərsləri idi. Mən onun çıxışlarına dəfələrlə qulaq asmışam. O, həmişə məntiqli və eyni zamanda səmimi danışardı, yüksək nitq mədəniyyəti ilə seçilərdi və dinləyicilərdə ruh yüksəkliyi yaradırdı.

... Bayağı olmayan düşüncə tərzi ilə o, həmsöhbətini valeh edərdi, ən sadə məişət həqiqətlərində belə yenilik və humanistlik işığı yandırmağı bacarardı..."

Mənə belə gəlir ki, onda kamil insan haqqında, mənəvi gözəllik haqqında İntibah dövrünün ideallarını yada salmağa məcbur edən daxili harmoniya var idi.

Ağ saçlı müdriklərdən Cəlaləddin Rumi vəsiyyətində deyirdi: "Ya göründüyün kimi ol, ya da olduğun kimi görün". Böyük humanist, şair Nəsiminin müəllimi Fəzlullah Nəimi isə yazırdı ki, kamil insan günəşdən, aydan, ulduzlardan böyükdür, bütün mövcudat insandadır...

"... Mən Zərifə xanımı gənc yaşlarımdan tanıyırdım. Biz onun rəhmətlik anası ilə 1 nömrəli xəstəxanada qonşu palatalarda müalicə olunurduq. Mən tez-tez onun anasına baş çəkir, söhbət edirdim. Qızı Zərifə daim ona qulluq edirdi.

Bir dəfə xəstəxanaya yaraşıqlı bir cavan oğlan gəldi. Zərifənin anası onu bizə təqdim etdi: “Zərifənin yoldaşıdır”. Bu, Heydər Əliyev idi.

...Bəzən camaat arasında kiminsə barəsində deyirlər: “yaxşı adamdır”. Bu, bir nəfərin rəyi deyil, əksinə çox adamın, həmin şəxsi tanıyan yüzlərlə, minlərlə insanın fikridir.

Zərifə xanım barəsində mən həmişə gənclərdən bu sözləri eşidirdim: “O, ana kimi bizdən ötrü narahat olur”. Tələbələrindən biri mənə deyirdi ki, o, qeyri-adi adamdır, o, sadəcə qeyri-adi qadın deyil, o, mələkdir...” **Azərbaycanın xalq şairi Mirvarid Dilbazi** qəhrəmanımızı belə xatırlayır.

**Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri, əməkdar elm xadimi N. Şulpina** öz həmkarı Zərifə Əliyevaya məqalə və həyəcanlı şeirlər həsr etmişdir. O yazır ki, Zərifə Əliyeva çox gözəl nitq mədəniyyətinə malik idi. Onun Azərbaycan və rus dillərində danışığı, elmi tribunalardan səslənən çıxışları, nitqləri öz dəqiqliyi və aydınlığı ilə bütün həmkarlarının diqqətini özünə cəlb edirdi. O, bir qayda olaraq, mətnə baxmadan, möhkəm yaddaşına bel bağlayaraq, mövzunu diqqətlə hazırlanmış rəngli slaydlarla və cədvəllərlə izah edərək çıxış edirdi.

N. Şulpina həmkarının təkcə tibb sahəsində deyil, həm də mədəniyyət, incəsənət, siyasət məsələlərində qibtə ediləcək erudisiyası və səriştəsini xatırlayır... Ukrayna incəsənəti ongünlüyü zamanı onlar birlikdə əfsanəvi Neft Daşlarına getmişdilər və Zərifə xanım orada, Dəniz Neftçilərinin Mədəniyyət Evində parlaq bir çıxış etdi. Sonra rəfiqəsinə müraciət edərək dinləyicilərin reaksiyasını öyrənmək üçün necə çıxış etdiyini soruşdu: “Hə, necədi, alındı?” Gözləri dolmuş N.Şulpina rəfiqəsinin və həmkarının məharətini ifadə etmək üçün söz tapa bilmirdi. Zərifə xanım royal arxasına keçir... Xəzərdə əllə qurulmuş adanın sütunları altında dalğaların rəvan şıppıltısı ilə ahəngdar musiqi səslənir... N.Şulpina deyir: Dunayevskinin milyonlar tərəfindən sevilən filmlərə bəstələdiyi mahnıların melodiyası səslənirdi:

Ürəyim, sən dinclik istəmirsən,
Ürəyim, yaşamaq necə də gözəlmiş.
Ürəyim, nə yaxşı ki, sən beləsən,
Ürəyim, sağ ol ki, sevə bilirsən...

Zərifə xanım rəfiqəsini də səhnəyə dəvət edir. Onlar duet oxuyurlar... Zalın reaksiyasını təsəvvür etmək olar... Belə hadisələr çox olmuşdu.

Oftalmoloqların Səmərqənddə keçirilən V qurultayında ciddi çıxışlardan və məruzələrdən sonra Zərifə xanım hətta ciddi peşəkarların yüksək qiymət verdikləri musiqi istedadı ilə yenə də qonaqlara xoş bir təəccüb bəxş edir.

Şulpina qəhrəmanımızın ailəyə, övladlarına, nəvələrinə münasibətdə qayğıkeşliyini və məhəbbətini də qeyd edir... kimsə xəstələnsəydi, bir həkim olaraq mütləq konsiliumlarda iştirak edər, rejimə, düzgün qidalanmaya riayət olunmasına nəzarət edərdi... Ananın və nənənin mehriban müdaxiləsi tələb olunan epizodlar məgər həyatda azdır?!

"Əgər Zərifə xanımı ailəsinin xoş nəfəsi adlandırsam, səhv etmərəm, - Şulpina yazır. - Həyatda mən müxtəlif peşə sahibləri ilə rastlaşmışdım... Mən ailə münaqişələri də görmüşəm. Amma tam səmimiyyətlə deyə bilərəm ki, Zərifə Əliyeva kimi özünü tamamilə ailəsinə həsr etmiş, onun qayğıları ilə yaşayan ikinci bir adam görmədim.

...Zərifə xanım çətin məqamda hər bir adama kömək etməyə can atan bir insan idi... bu, ona çox uzaq olan adamlara münasibətdə də görünürdü. Belə anlarda o, mümkün olan bütün vasitələrdən istifadə edirdi... Təbii ki, bu da onu hamının sevimlisinə çevirirdi..."

İnsan üçün həyatda ikən xalqının məhəbbətini qazanmaqdan, dünyadan gedəndən sonra isə tarixdə şanlı bir ad qoymaqdan daha gözəl nə ola bilər ki?!

*Səkkizinci fəsil*

# KÖKLƏR

*Bəzi yazılmamış qanunlar yazılmışlardan güclüdür.*
**Kvint Qoratsiy Flakk**

Naxçıvan torpağı... **Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli** "Elmin nuru" kitabında maarifçi ideyaları ilə tanınmış, xeyli milli mədəniyyət və elm xadimləri yetişdirmiş Naxçıvan diyarının mənəvi və mədəni aurası haqqında sevə-sevə yazır. Araz çayının sahilində yerləşən, Zərifə xanımın dünyaya göz açdığı Şahtaxtı kəndindən qədim zamanlardan bəri cənubu və şimalı, qərbi və şərqi birləşdirən karvan yolu keçərmiş. Dahi Cəlil Məmmədquluzadə bu kəndi "görkəmli ziyalılar kəndi" adlandırmışdı.

Əlbəttə, fədakar insanların entuziazmı, canlı tarix yaddaşı, Vətənin qabaqcıl gənclərinin qəlbində yaşayan patriotizm, gerilik və xurafatla mübarizə, həvəskar tamaşalar, milli operanın ilk qaranquşları, get-gedə qüvvə toplayan mülki publisistika (Məmmədağa Şahtaxtinski bu publisistikanın parlaq təmsilçilərindən olmuşdur), Mirzə Ələkbər Sabirin satirik gülüşü, bütün müsəlman şərqində yayılan "Molla Nəsrəddin" jurnalı (banisi Cəlil Məmmədquluzadə idi) - bunlar hamısı yaxın keçmiş, yüksək mənəvi səviyyə, xalqa xidmət etalonu idi...

Bu aura Əziz Əliyevin də vətəndaş olaraq formalaşmasında öz rolunu oynamışdır, onun ailə həyatı yüksək mənəvi ölçülər əsasında qurulurdu, bu isə övladlarının - gözəl ənənələrin ləyaqətli davamçıları və varislərinin formalaşmasına təsir etməyə bilməzdi.

Zərifə Əliyevanın tükənməz enerjisi, mənəvi kredosu öz başlanğıcını buradan götürür, böyük elmə gedən yolunun, pe-

daqoji və həkim xidmətinin, ana qəhrəmanlığının və Azərbaycanın dahi islahatçısı və yeni, müstəqil vətənin qurucusuna silahdaşlığın başlanğıcı buradandır.

**Bakı Dövlət Universitetinin Rus dili kafedrasının müəllimi Elmira Hacıyeva:**

"Bəlkə də anam Leyla xanım Qazıyevanın qədim İrəvan torpağında dünyaya gəlməsi hadisələrin xoş gedişidir. O, akademik Əziz Əliyevin bibisi qızı idi. Onlar barədə, Əziz müəllimin qızı Zərifə barədə tez-tez söhbət edərdi, həyatlarından maraqlı əhvalatlar danışardı. Bir dəfə anam möhkəm xəstələndi. Mən xəstəxanada şöbə müdiri işləyən professor Tamerlan Əliyevə müraciət etdim. Tamerlan anamı həmin xəstəxanaya yerləşdirdi, müayinə etdi və müalicəsi ilə özü məşğul olmağa başladı. Bu klinikanın dördüncü mərtəbəsində göz xəstəlikləri şöbəsi yerləşirdi və Zərifə xanım orada işləyirdi. Anamın gözündən şikayəti olduğundan xəbər tutduqda müalicə prosesinə o da qoşuldu və hər gün nəzarət etməyə başladı. Bizim sıx münasibətlərimiz də o vaxtdan başladı. Onun insanlığı, xeyirxahlığı haqqında nə qədər deyirsən, danışmaq olar. Belə adamlar yüz ildə bir dəfə dünyaya gəlir.

O, son dərəcə ziyalı və tolerant bir şəxs idi, insanları sevərdi və ünsiyyətdə olmaqdan həzz alardı. Həmişə çox sadə və səliqəli, lakin zövqlə geyinərdi. Arada mənim geyimimə nəzər salıb deyərdi: "Çox gözəl görünürsən, geyiminlə tələbələrimizə nümunə göstərirsən". O, çox xırda şeylərə diqqət verərdi və buna xüsusi bir məna verərdi. Yadımda deyil, hansısa bayramlardan birində mən onun üçün böyük gül dəstəsi gətirmişdim. O, bütün gülləri həkimlərə və assistentlərə payladı, yalnız anamgilin bağından gətirdiyim nərgizi özünə saxladı: "Bu güldən doğmalıq ətri gəlir..."

**Azərbaycan Dövlət Tibb Universitetinin Oftalmologiya kafedrasının dosenti Rəfiqə Axundova** qəhrəmanımızı kafedranın ordinaturasında oxuduğu zamandan, 1955-ci ildən tanıyır.

Həmin vaxtlar kafedra müdiri olan **EA-nın müxbir üzvü professor Umnisə Musabəyova** onu həmkarlarına təqdim edərək demişdi ki, o, dosent Ləzifə Əliyevanın (Zərifənin böyük bacısı) rəhbərliyi altında çalışacaq. Onlara yaraşıqlı, isti, təbəssümlü gözləri olan bir qadın yaxınlaşdı və təbrik et-

di. Bu, oftalmologiya ETİ-nin elmi işçisi Zərifə xanım idi; o vaxt o respublika üçün aktual olan traxoma xəstəliyinə qarşı mübarizə ilə məşğul idi.

1961-ci ildə artıq ETİ aspirantı Rəfiqə Axundovaya traxomanın çətin müalicə olunan formaları ilə məşğul olmaq təklif olunur, Rəfiqə xanım Zərifə Əliyeva ilə görüşür və ondan belə xeyir-dua alır: "Sənin xalqa böyük faydan dəyəcək".

**Oftalmoloq - cərrah Əntiqə Ələkbərova** xatırlayır:

"Əvvəl biz Zərifənin böyük bacısı Ləzifə ilə əməkdaşlıq edirdik. Moskvada Həkimləri Təkmilləşdirmə İnstitutunu başa vurub bizim ETİ-yə istəyəni çox olsa da, hələ ərə getməmiş Zərifə gəldi. İstiqanlı və nəzakətli olan bu qız kollektivimizə tez isinişdi. Bir müddətdən sonra eşitdik ki, yaxınlarda onun toyu olacaq. Həmkarlarından məni, Umnisə xanımı və Zəhra xanımı toyuna dəvət etmişdi. Toy mərasimi onun evində, yaxınların dairəsində keçirilirdi. Toyun musiqili hissəsini Gülarə xanım öz üzərinə götürmüşdü. Arada gəlin də ona qoşulur və dörd əllə çalırdılar.

Zərifə xanım həqiqi ocaq qoruyucusu idi. Övladları üçün, yoldaşı üçün canını verməyə hazır idi.

Onun bir məclisdə görünməyi bəs edirdi ki, ora toplaşanların hamısının əhvali-ruhiyyəsi yüksəlsin, bir canlanma əmələ gəlsin. O, zarafatı çox sevirdi. Biz ayda bir dəfə birimizin evində yığışmaq barədə danışmışdıq. Menyu əvvəlcədən sifariş verilirdi. Zərifə xanım bircə dəfə də bu "qız məclislərindən" imtina etməzdi. Umnisə xanım hətta zarafatla xəbərdarlıq edərdi: mənsiz yığışsanız, inciyərəm. Bizdə toplaşanda yoldaşım anlayışla evdən gedərdi ki, gözəl cins narahat olmasın. O biri rəfiqələrimizin də yoldaşları belə nəzakət göstərərdilər. Belə məclislərin canı Zərifə idi. O olanda darıxmaq mümkün deyildi...

Hamının qeydinə qalardı. Onun yaşadığı evin birinci mərtəbəsində təsərrüfat mağazası var idi. Bizim hansımıza nə lazım olduğunu bir-bir yadında saxlar, mağazaya həmin maldan gələn kimi alıb özü gətirərdi.

... Bir dəfə səhər mənə zəng etdi: "Əntiqə, səndə moruq mürəbbəsi qalıbmı? Uşaqlar soyuqlayıb..." Mən dedim: var, işə gələndə gətirərəm. Gətirdim və ona verdim. O isə zara-

fatla dedi: “Qızlar, Əntiqədən nə istəsəniz, səhər istəyin, səhər o xeyirxah olur!”

O, öz peşəsini çox sevirdi. Həmin vaxtlar Azərbaycanda təhlükəli traxoma yayılmışdı. Maştağa qəsəbəsində bu yoluxucu xəstəliyin qarşısını o aldı...

... Sadə, aza qane olan bir qadın idi. Bu, çox qeyri-adi görünürdü - bu cür tanınmış ailədə böyüyəsən, o cür görkəmli şəxsiyyətin həyat yoldaşı olasan və bu qədər təvazökar qala biləsən!

O, Həkimləri Təkmilləşdirmə İnstitutuna keçdikdən sonra biz əlaqələrimizi qırmadıq. Bir dəfə o zəng etdi ki, oğlumun ad günüdür, tort bişir və gəl bizə. Mən də tort bişirib onlara getdim. O vaxt Heydər Əliyev DTK-da yenicə rəhbərlik etməyə başlamışdı. Zərifə xanım qəfildən ona müraciət etdi: “Əntiqəsiz işlərim rahat getmir. Onun mənimlə işləməsini çox istərdim. Kömək edərsənmi?” Mən özümü itirdim: “Yox, Heydər qardaş, narahat olmaq lazım deyil! Mən öz işimdən razıyam və öz qayğılarımla sizi narahat etmək istəməzdim”.

... Yüksək vəzifəli bir şəxsin həyat yoldaşı ilə bir yerdə işlədiyimizi işdə heç birimiz hiss etməzdik. Burada o, “birinci ledi” yox, sadəcə həkim idi. İşə hamı kimi vaxtında gəlir, iş gününün sonuna qədər çalışırdı. Umnisə Musabəyova, Zəhra xanım və mən ən yaxın həmkarları idik. Hamı ilə mehriban rəftar edər, heç kəsə yuxarıdan aşağı baxmazdı. Bütün həyatı boyu işini ailəsinə, ailəsini də işinə görə arxa plana atmadı...”

İş yoldaşları, alimlər, mütəxəssislər və sadə zəhmətkeşlər də onu xoş sözlərlə və minnətdarlıq hissi ilə xatırlayırlar. Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasında uzun illər xadimə işləmiş **Məleykə Sadıqova** deyir:

“Həyatda başıma çox sınaqlar gəlib. Ərim hərbi qulluqçu idi, otuz yeddi yaşında dünyasını dəyişdi... Yeddi uşaq anasıyam. Düzdür, Allah yaratdığını ruzisiz qoymaz. Amma... uşaqlar böyüyürdü. Nə gizlədim, dolanmaq çox çətin idi. Bax həmin günlərimdə Allah mənim köməyimə Zərifə xanımı göndərdi. Mən kim idim ki? Adi xadimə. O isə tanınmış şəxsiyyət, alim adam, həkim. Ancaq bəxtim gətirmişdi. O, bizim xəstəxanaya təzə gəlmişdi. Bir dəfə rəfiqəm mən-

dən soruşdu: "Sən, heç olmasa, bilirsən, kimin kabinetini yığışdırırsan?" Çiyinlərimi çəkdim, hardan bilim? Zərifə xanım ürəyiyanan qadın idi. Bir dəfə məni yanına çağırdı, əyləşdirdi. Bir müddət susdu. Hiss edirdim ki, gözünü məndən çəkmir. Elə bil, iynə üstündə oturmuşdum. Nəhayət sükutu pozdu:

- Təmizliyə, çalışqanlığına görə sağ ol, bacım. Sən səliqəli adamsan... - Yenə də susdu, fikrə getdi. Və yumşaq-yumşaq, nəvazişlə dedi: - Ev-eşik, dolanışıq necədir? Eşitmişəm, yeddi övladın var...

Elə bil lal olmuşdum, bir kəlmə də danışa bilmədim. O, guya kağız-kuğuzla məşğul olurmuş kimi başını aşağı saldı. Ancaq, and içirəm ki, bütün diqqəti məndə idi. Mən yalnız göz altdan ona tərəf baxırdım.

- Məleykə bacı, - o dedi. - Mühasibatda kassirə tapşırmışam, mənim bu aykı maaşımı sənə verəcəklər...

Mənim həqiqətən ehtiyacım var idi. Uşaqlar hamısı xırda-xırda. Maaş da ki, çox cüzi. Çatmırdı...

O, ona müraciət edən hər kəsi öz əzizi, yaxını kimi dinləyir, müayinə edir, resept yazırdı. Kaş biləydiniz, xəstələr ona necə minnətdarlıq edirlər! Vallah o, müqəddəs adam idi... Heç kəsi incitməzdi, naümid yola salmazdı. Heç kəsə kömək etməkdən imtina etməzdi. Allah ona ayrı bir qəlb vermişdi. Bir dəfə o, məni yenə çağırdı. İş-gücün, dolanışığın necə olduğunu soruşdu. Sonra mənə təzə, ütülü bir xalat verib dedi: "Mənə dardır. Sənə bağışlayıram". Bir müddətdən sonra yenə kabinetə çağırdı. Stolun üstünə üç bağlamada müxtəlif rəngli parça qoydu: "Bunu sənin qızların üçün almışam. Maaş alım, dərzi pulunu da verəcəyəm. Qoy qızcığazlar təzə paltar geyinsinlər". Mən həyatımda belə mehriban adam görməmişdim. Mənim acı həyatımı, çətinliyimi bildiyinə görə yükümü yüngülləşdirmək istəyirdi. Geniş ürəkli idi... Mən göydə Allaha şükr edir, yerdə də Zərifə xanıma dua edirdim. Uşaqlarım onun qayğısını az görməyiblər. Sonra həkim qızım Xaçmaza köçdü. Zərifə xanım onun yoldaşına o qədər kömək edib ki! O biri qızım Yardımlıya getmişdi, kürəkənin mənzili çox dar idi. Mən Zərifə xanıma müraciət etdim. Onun sayəsində onlara rayon mərkəzində şəhər tipli binada mənzil verdilər. Yaxşılıqlarını saymaqla bitirmək olmaz...

Zərifə xanım Moskvaya gedəndən sonra da bizim ailəmizi yaddan çıxarmadı..."

Maraqlıdır ki, qayğıkeş və ürəyiyanan qəhrəmanımız oftalmologiyadan tamamilə uzaq olan tarixçəyə də biganə qala bilməmişdi. Bu tarixçə kinematoqrafiya ilə, tarixi-qəhrəmanlıq filminin taleyi ilə bağlıdır. Kütləvi döyüş səhnələri və natura çəkilişləri olan iki seriyalı "Babək" filmi böyük xərc və texniki vəsait tələb edirdi. Filmi "Azərbaycanfilm" kinostudiyasında "Mosfilmlə" birgə çəkmək qərara alınmışdı. Filmin quruluşçu rejissoru Rüstəm İbrahimbəyovun ssenarisinə çəkdiyi "Bir cənub şəhərində" filmi ilə artıq məşhurluq qazanmış Eldar Quliyev idi.

Texniki, maliyyə, nəqliyyat məsələlərinin həll olunması üçün yüksək vəzifəli məmurlardan biri kurator təyin olunmuşdu. Vicdanlı, işə ürəkdən bağlı olan bu şəxs bəzən sırf yaradıcılıq, peşə məsələlərinə müdaxilə edirdi və buna görə də çəkiliş qrupu ilə narazılıqlar, mübahisələr yaranırdı.

Bir neçə il keçdikdən sonra Moskvada filmin son variantına baxış keçirildi. Sonra "Mosfilmin" baş direktoru N.Sizov, Eldar Quliyev və Azad Şərifov *(Azərbaycan KP MK-nın mədəniyyət şöbəsinin müdiri)* filmi Heydər Əliyevə göstərmək qərarına gəldilər. Bax burada kuratorla münasibətlər son nöqtəyə çatdı. Təbii ki, kinoçular Bakıya heç də xoş əhvalla yola düşmədilər. Lakin iş belə gətirdi ki, Azad Şərifov Moskvadan Zərifə Əzizovna ilə eyni reyslə uçurdu. Yolda söhbət etməyə başladılar və Zərifə xanım film haqqında müfəssəl söhbəti dinlədikdən sonra ona baxmaq istədi və qəfildən soruşdu: "Yaxşı, bir şey ki, film hazırdır, bəs niyə kefiniz yoxdur? Nə isə probleminiz var?"

Onu çoxdan tanıyan Azad Şərifov nə var idisə, hamısını danışdı. O, gülümsəyərək dedi: "Hər şey düzələr. Heydər Əliyev Eldar Quliyevin bir rejissor və əməkdaş kimi peşəkarlıq səviyyəsini yaxşı tanıyır".

Səhəri gün "Mosfilmin" baş direktoru da gəldi. Axşam "Qoskino" zalında baxış keçirildi. Heydər Əliyev Sizovu mehriban qarşıladı və film üzərində işdə iştirakına görə minnətdarlıq etdi. Baxışdan dərhal sonra "kurator" söz aldı və filmdə onun təklif və iradlarının nəzərə alınmadığından şikayətləndi. Kuratorun sözlərinə cavab vermədən Heydər

Əliyev baxışın digər iştirakçılarının fikrini dinlədi, sonra yekun vuraraq rejissora uğurlu işinə görə minnətdarlıq etdi və “Mosfilmin” baş direktoruna bir daha təşəkkürünü və gələcəkdə əməkdaşlıq etmək ümidlərini bildirdi...

Zalı tərk edərkən Azadın və Eldarın yanından keçəndə Zərifə Əliyeva bir anlıq ayaq saxladı və onlara baxıb gülümsədi, yəni: “Budur, siz isə narahat idiniz...”

Qeyd edək ki, “Babək” Azərbaycanda çəkilmiş ən yaxşı tarixi film idi və ümumittifaq prokatında əla göstəricilərlə fərqlənirdi.

**Azərbaycan Dövlət Tibb Universitetinin oftalmologiya kafedrasının müdiri Paşa Qəlbinur** Zərifə Əliyeva haqqında danışarkən əziz müəllimələri Zəhra Quliyevanın və Ləzifə Əliyevanın dediyi sözləri xatırlayır. Onlar qeyd edirdilər ki, Zərifə xanım övladlarını fanatikcəsinə sevən bir ana idi. İşdə olduğu zaman evə zəng etməyi, uşaqların nə ilə məşğul olduğunu, əhvallarının necə olduğunu soruşmağı heç vaxt yaddan çıxarmazdı.

Paşa Ləzifə Əliyevanın kiçik nəvəsinin ad günündə iştirak etmişdi. Süfrədə Heydər Əliyevin bu yaxınlarda söylədiyi və televiziya ilə verilən böyük çıxışı barədə söz düşəndə Zərifə xanımın həyəcanlı reaksiyası hamının diqqətini çəkdi. “Mən nəfəs çəkmədən qulaq asırdım” - deyə utana-utana etiraf etdi.

Zərifə xanımın atası Əziz Məmmədkərim oğlu Əliyevin nəhəngliyini dolayısı nümayiş etdirən maraqlı bir epizodu da yada salaq. Ola bilsin, bu epizod barədə hekayətimizin öncəki, respublikanın “hökmdarı” Mir Cəfər Bağırovun Əziz Əliyevə qısqanc münasibətindən söz gedən fəsillərində söhbət açmaq lazım idi. Əziz Əliyev dövlət xidməti ilə bağlı doğma ocağından uzun müddət ayrılmalı olduğu zaman yoldaşı Leyla xanım (öz dediyinə görə) böyük qızı Ləzifənin əlindən tutub M.C.Bağırovun qəbuluna gəlir və Əzizin Bakıya istənilən vəzifəyə, hətta ən adi işə belə olsa, gəlməsini istəyir. “Birinci” isə cavabında deyir: “Leyla xanım, Əziz Azərbaycana qayıdarsa, heç bir iş ona uyğun gəlməz. Onun layiq olduğu yeganə post mənim vəzifəmdir. Bu vəzifəni isə mən tuturam”. Və susdu. Belə qəfil və haradasa qorxulu cavabdan Leyla xanım karıxır, deməyə söz tapmır və sağollaşıb çıxır...

Paşa Qəlbinur anası İlduz xanımın Zərifə Əliyeva ilə çoxdan olmuş söhbətini xatırlayır. Zərifə xanım uşaqlar haqqında danışarkən qızı Sevillə bağlı zahirən xırda görünən, amma rəmzi bir detalı qeyd edir: o, lap kiçik yaşlarından çörəyə ehtiram göstərərmiş (görəsən, çörəyi müqəddəs sayan ənənənin əks-sədası deyilmi?), artıq qalan tikəsini heç vaxt atmazmış: "Sonra yeyərəm..." Çörəyə belə münasibəti indi bir çox böyüklərdə görmək mümkün deyil...

Bir dəfə Zərifə Əliyeva Heydər Əliyevin onun elmi uğurlarını izlədiyini bildirərək gənc həmkarı Paşa Qəlbinuru sevindirir və bir müddətdən sonra Oftalmologiya ETİ-nin təqdimatı ilə Ümumittifaq Komsomolunun elm sahəsində mükafatına layiq görülür.

Heydər Əliyev Moskvadan zəng edib təbrik edir. Sonralar, Heydər Əliyev Bakıya qayıtdıqdan sonra Paşa tədbirlərdən birində onunla görüşür və öz minnətdarlığını bildirir. "Siz məni Moskvadan arayıb təbrik etdiniz, burda isə heç elə bil Kamran Bağırov *(o zamankı KP MK katibi - H.M.)* yox imiş". Heydər Əliyev cavabında gülümsəyir və deyir: "Hər şeyi ürəyinə salma, hamı eyni olmur ki..."

**Göz xəstəlikləri ETİ-nin uşaq oftalmologiyası şöbəsinin həkimi Həyat Əfəndiyevanın** xatirələri də yəqin ki, oxucu üçün maraqlı olar:

"Biz Zərifə Əliyeva ilə iyirmi il bir yerdə işləmişik. O, təbabətdə, elm sahəsində böyük uğurlar əldə etmişdir. İlk dəfə isə biz 1964-cü ildə görüşdük. Mən ordinaturanı başa vururdum, Zərifə xanım mənə çox böyük qayğı göstərirdi. Yadımdadır, bir dəfə o dedi: "Bu peşəni seçib bu yolu tutmuş insan gərək diqqətli, həssas və məsuliyyətli olsun. Ən xırda ehtiyatsızlıq xəstənin ümidini həmişəlik kəsə bilər". Laboratoriya təcrübələrinə o özü rəhbərlik edərdi. Kifayət qədər texniki personal və tibb bacısı olmasına baxmayaraq, sınaq şüşələrini özü yuyardı. Bəlkə də, dünyada onun kimi sadə ikinci bir adam yox idi..."

H. Əfəndiyeva ETİ-yə həyat yoldaşı Nazim Əfəndiyevin rəhbərlik etdiyi vaxtları da xatırlayır: "Məhz Zərifə Əliyevanın təşəbbüskarlığı sayəsində İttifaqın ən tanınmış oftalmoloqları bizim institutla əməkdaşlıq edirdilər. Onların iştirakı ilə Bakıda ümumittifaq və beynəlxalq simpoziumlar, elmi disputlar keçirilirdi. Belə forumların birində biz qonaqları

institutumuza milli mətbəximizin təamları ilə bəzədilmiş məclisə dəvət etdik.

Nazim müəllim bizə, əsasən də qadınlara sərbəst "reqlament" verdi. Hamı özünü bir ailə kimi hiss edirdi. Zərifə Əliyeva isə ürəyiaçıq ev sahibəsi kimi qonaqlara yeməklərdən dadmağı təklif edir, onların gözəl xüsusiyyətlərini tərifləyirdi. Məsələn, Naxçıvandan gətirilmiş ev çörəyi - lavaş haqqında, qoyun südündən hazırlanmış pendir, tərxun barədə danışarkən o dedi: "Belə bir neməti dünyanın başqa heç bir yerində görə bilməzsiniz, - və zarafatla əlavə etdi. - Mən bu nemətləri yetişdirən torpağı bir də ona görə sevirəm ki, mənə bu cür sadiq və qayğıkeş həyat yoldaşı və övladlarımı sevən atanı - Heydəri bəxş etmişdir...

Növbəti bu cür görüş Odessada akademik Puçkovskayanın 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimin rəsmi hissəsindən sonra baş tutdu. Köhnə dostlar toplaşıb ötən günləri yada salır, öz elmi işlərindən, problemlərindən söhbət edirdilər. Mən Zərifə xanıma dedim: "Bəlkə, qonaqlara Azərbaycan musiqisinin gözəlliyini nümayiş etdirək?" O, fortepianonun arxasına keçdi, əvvəl nə isə klassik bir şey çaldı, sonra isə oynaq rəqs havasına keçdi. Sizi əmin edirəm, elə bir adam yox idi ki, rəqsin təsirinə düşməsin, zal musiqinin ritminə girib rəqs edirdi. Demək olar ki, milli mənsubiyyətindən asılı olmayaraq, hamı Azərbaycan musiqisinin cazibəsi altına düşmüşdü. Hamıdan çox isə bu rəqsə Zərifə xanım sevinirdi".

O, çox yaraşıqlı qadın idi. **N. Şulpina** qeyd edir ki, təbiət Zərifə Əliyevaya nadir qadın gözəlliyi bəxş etmişdi. Zərif dərisi, üzünün çevrəsi, açıq alnı, nəhayətsiz qara parlaq gözləri adamı valeh edirdi. Bütün varlığı hərəkətlərində, jestlərində, mimikasında təzahür edərdi. "Mən onu hirsli, qəzəblənmiş görmədim. Həmişə gülərüz, həlim idi. Əlləri xüsusilə gözəl idi. Bu bəstəboy qadının əlləri, cərrah əlləri toxunduğu hər şeyə məhrəmlik əta edərdi, eyni zamanda bu əllərdə ailə qayğılarının, qadın zəhmətinin izlərini görmək olardı. Kübar təbəqəyə mənsub olmasına baxmayaraq, ev işi görməkdən qaçmazdı. Məhz belə qadın obrazını Puşkin öz şeirlərində tərənnüm etmişdir: "Ən saf gözəlliyin saf nümunəsi..."

Bütün qadınlar kimi, o da dəbin qanun və qaydalarına qarşı etinasız deyildi. Amma çox gözəl zövqü var idi və hər şeyin həddini bilirdi. Onun qarderobunda, necə deyərlər, açıq-saçıq, adam çaşdıran bircə paltara belə rast gəlmək mümkün deyildi. Bir qayda olaraq, müasir və rahat tikilmiş paltarlara üstünlük verirdi. Kosmetikadan çox az istifadə edirdi, brilyantlı sırğa, üzük, paltara uyan əl çantası - bundan artıq bir şey olmazdı. Onun əqidəsinə görə, qadının daxili və zahiri gözəlliyinin əlavə bər-bəzəyə ehtiyacı yoxdur.

O, bir dəfə ünsiyyətdə olduqdan sonra unudulması mümkün olmayan bir insan idi...

Heydər Əliyev söhbət edir ki, Azərbaycanda və ümumiyyətlə, bütün İttifaqda idxal mallarının kəskin qıtlığı vaxtı respublikaya çox məhdud miqdarda fransız ətri gətirilmişdi. Ona zəng edib nə qədər lazım olduğunu soruşurlar. O, yoldaşına zəng edir və belə məsləhət olur ki, iki qutu götürsünlər. "Mən bunu paylaşdırıcıya deyəndə o təəccübdən duruxub qaldı: siz nə danışırsınız, camaat on-on beş qutu sifariş verir!"

**Tanınmış Azərbaycan modelyeri Fəxriyyə Xələfova** deyir:

"Zərifə xanım mənim yaddaşımda azərbaycanlı qadının, ananın idealı kimi qalıb. O, eyni vaxtda bir neçə işin öhdəsindən gələ bilirdi, daim hərəkətdə idi. Qismətinə böyük məsuliyyət düşmüşdü. Əvvəla, ailəsi, ikinci də rəhbərlik etdiyi böyük kollektiv, bir sıra ictimai vəzifələr. Bundan başqa, qohumların, yaxınların, hətta köməksiz və naümid qalmayacaqlarına əmin olaraq yardım üçün ona müraciət edən tanımadığı adamların qayğısını çəkmək.

Zərifə xanımın həyat yolu müasir qadının yetkin və kamil simasının formalaşması və gerçəkləşməsi işinə bir növ töhfədir. Onun işində dərin fərdilik və yüksək peşəkarlıq təzahür edirdi. İşgüzar xüsusiyyətləri şəxsi gözəlliyi ilə ahəng təşkil edirdi. Daxili harmoniya, mənəviyyat, peşə mədəniyyəti onun həm davranışında, həm ünsiyyətində, həm də geyimində özünü göstərirdi".

**Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin müəllimi, Əsmətxanım Məmmədova** xatırlayır:

"Sevil Əliyeva da mənim tələbələrimdən idi, o ərəb dili bölməsində təhsil alırdı... Çox sadə, lakin zövqlə geyinərdi,

dərsdə nümunəvi idi. Bütün tələbə yoldaşları ilə yaxşı münasibətləri var idi, müəllimlərinə xüsusi hörmət göstərir və heç vaxt yüksək vəzifəli bir şəxsin qızı olduğunu hiss etdirmirdi.

Onun da, qardaşı İlhamın da geniş dünyagörüşünə sahib şəxsiyyət kimi yetişmələrində, öz istedadlarını, işgüzar qabiliyyətlərini və fəaliyyət enerjilərini gerçəkləşdirə bilməklərində, şübhəsiz ki, ailə mühiti və Zərifə xanımın tərbiyəsinin böyük rolu olmuşdur".

Bəs Zərifə Əliyevanın sirri nədədir? Bu sirr mövcuddur, biz isə onu indiyədək tapa bilməmişik... Mən bu qadında daxili qüvvə, insan imkanlarının sərhəddində yaşamaq arzusu, işdə də, həyatda da, xülasə, harda olursa olsun, orda kamilliyə can atmaq meyli görürəm...

*Doqquzuncu fəsil*

# KONDİSİONERLƏR VƏ... OFTALMOSKOP

Mövzudan azacıq yayınaq və sonradan oftalmoloq Zərifə Əliyevanın diqqət obyekti olacaq Bakı məişət kondisionerləri zavodunun tikintisinin tarixindən söhbət açaq.

1972-ci il. Respublikaların birinci şəxslərinin və SSRİ Baş katibinin özünün iştirakı ilə Daşkənddə pambıqçıların ümumittifaq müşavirəsi.

Səhər Leonid İliç Brejnev Daşkənd aeroportunda qarşılanır, xüsusi olaraq ayrılmış rezidensiyada respublika rəhbərləri ilə söhbət edir. Brejnev Şərəf Rəşidovun yanındakı kresloda əyləşir. Sonralar Baş katib özü bu əhvalatı danışmışdı: "Şərəf Rəşidoviç məni rezidensiyaya gətirdi, necə lazımdırsa, yerbəyer etdi. Hava dözülməz isti idi, mənim isə taqətim qalmamışdı. Gördüm ki, otaqda kondisioner var. Sevinə-sevinə işə saldım. Sərinlik yerinə isti hava otağa doldu, ardınca da toz. Bu nədir, - dedim,- Şərəf Rəşidoviç, siz qonağı belə qarşılayırsızınız?.."

Deyilənlərə görə, Özbəkistanın birinci katibi azərbaycanlı həmkarını göstərir:

- Bu kondisionerləri Bakıda düzəldirlər, mənim bir günahım yoxdur. Qoy Əliyev özü cavab versin.

- Hə, - Brejnev gülə-gülə deyir, - deməli, bütün günahlar Əliyevdədir...

Heydər Əliyev izah etməli olur: Buzovnada aviasənaye zavodu var, 1970-ci illərin əvvəlində bu zavodda kustar üsulla məişət kondisionerlərinin istehsalı başlanmışdır. Bu kondisionerləri əsasən, respublikada istifadə edirdilər, amma kimsə onlardan Özbəkistana ötürüb...

Brejnev deyir:

- Niyə əhalisinin yarıdan çoxu cənub respublikalarında yaşayan ölkəmizdə məişət kondisioneri istehsalına başlamırıq, yoldaşlar?

İdeyanı hamı dəstəkləyir.

- Moskvaya qayıdan kimi mütləq zavodun tikintisinə başlanması üçün sərəncam verəcəyəm, - deyə baş katib söz verir.

Heydər Əliyev də həmin zavodun Azərbaycanda tikilməsinə icazə verilməsini xahiş edir: "Söz verirəm ki, obyekti çox qısa müddətə təhvil verə bilərik".

- Yaxşı, bunu sonra müzakirə edərik, - baş katib söhbətə yekun vurur.

Çox keçmədən Brejnev zavod haqqında məsələni Siyasi Büroda qaldırır. Fikirləşirlər ki, işi kimə tapşırsınlar - presedent olmamışdı, texnologiyanı bilən yox idi. Nazirliklər birbir "qeyri-münasib" sifarişdən imtina edirdilər. Süründürmədən xəbər tutan baş katib tikintini Elektrotexnika Sənayesi Nazirliyinə tapşırır. Nazirliyin məmurları ölçüb biçir və görürlər ki, öz qüvvələri ilə bu işin öhdəsindən gələ bilməyəcəklər, xarici mütəxəssislər dəvət etmək lazımdır. Mərkəzi Komitədən soruşurlar: "Sizə nə qədər vəsait lazımdır?" Cavab: "İyirmi beş milyon dollar". Bu məbləğin verilməsi barədə qərar qəbul olunur. Amma nazir Antonov zavodu Dnepropetrovskda tikməyi qərara alır. Bunu bilən Heydər Əliyev Moskvaya uçur, Antonovun, sonra Kosıginin müavini Novikovun yanına gəlir və bu qərarın səbəbini öyrənmək istəyir. Eşitdiyi motivlər isə bu olur: Bakıda müvafiq ixtisaslı mühəndis-texniki kadrların olmaması, qeyri-kafi inşaat şöhrətinə eyhamlar. Baş katib isə tapşırıb: qısa müddətə təhvil verilsin...

Əliyev bu bəhanələrdə yorğanı ucqar respublikaların yox, sadəcə öz üstünə çəkmək arzusunu görür.

Kosıginə müraciətdən də bir şey çıxmır. Qalır Brejnev. Baş katibin isə ünvan dəyişikliyindən xəbəri yox idi. Görüşdükdə o soruşur: "Hə, necədir, Heydər, sənin zavodunda işlər necə gedir?" Əliyev çiyinlərini çəkir. "Nə olub?" - "Sizin nazirlər bizi aldatdılar və zavodu Dnepropetrovskda tikməyi qərara aldılar". - "Bu necə ola bilər?.." Baş katib dəstəyi götürür, Novikova zəng edir və özbaşınalığa görə danlayır. O da nazir Antonovun üstünə atır. Nazir prosesin mürəkkəbli-

yini, respublikanın buna gücünün çatmayacağını səbəb göstərməyə çalışsa da, öz payını alır. Brejnev isə deyir: "Mən özüm Zaporojyedə işləmişəm, oralar zavodla doludur, yenisini tikməyə ehtiyac yoxdur. İkincisi isə, kondisionerə daha çox cənub respublikalarının ehtiyacı var. Niyə biz kondisionerləri Zaporojyedən Bakıya, Gürcüstana və ya Aşqabada aparmalıyıq? Bakıda daha ucuz başa gələr".

Bir ay keçir, iki ay keçir, Moskvadan səs-səmir çıxmır. H.Əliyev yenə Moskvaya uçur. Sən demə, Elektrotexnika sənayesi Nazirliyinin əməkdaşları amerikalılarla, italiyalılarla, almanlarla danışıqlar aparır, onlar isə çox yüksək məbləğ - təxminən yüz iyirmi - yüz əlli milyon dollar pul istəyirlər. Nazirliyə isə cəmi iyirmi beş milyon pul ayrılıb. Nəhayət, yapon firması "Toshiba" bu sifarişi doxsan milyon dollara yerinə yetirməyə razılıq verir. Üstəlik də onlar amerikalılardan və avropalılardan heç də pis işləmirlər, hətta daha keyfiyyətli iş görürlər. Qalır həmin məbləği Siyasi Bürodan almaq, amma idarələrdən heç biri buna cəsarət etmir. Baybakov Kosıginə müraciət edir, amma baş nazir etiraz edir: "Bundan artıq valyutamız yoxdur". H.Əliyev yenə də baş katibə müraciət etməli olur. O isə xəbər tutanda ki, hələ də heç nə yerindən tərpənməyib, əsəbiləşir və yüksək vəzifəli süründürməçilərə iradını bildirir. "Günü bu gün təklifinizi verin, - telefonda əmr edir, - qərar çıxararıq". Xülasə, doxsan milyonu almaq mümkün olur...

1973-cü ilin ikinci yarısında Azərbaycanda məişət kondisionerləri zavodunun tikintisi başlayır. 1975-ci ilin dekabrında isə təhvil verilir, eyni vaxtda üç yüz nəfər - mühəndis, texnik, fəhlə Yaponiyada təcrübə keçir; beş yüz nəfər Moskvanın, Leninqradın, Ukraynanın elektrotexnika müəssisələrində ixtisasını artırır.

Heydər Əliyev unikal müəssisənin açılışı ilə bağlı təşkil olunmuş mitinqdə çıxış edir.

Brejnev teleqramla inşaatçıları təbrik edir. İllər keçdikdən sonra Heydər Əliyev Mozambikə, sonralar Koreyaya, Vyetnama, Anqolaya səfərləri zamanı Bakı kondisionerlərini o ölkələrdə görür...

Azərbaycanın liderinin iftixarını təsəvvür etmək mümkündür!

**Zəhra Quliyeva** xatırlayır ki, məişət kondisionerləri zavodunun işə salınması Bakıda əməlli - başlı bayrama çevrildi...

- Bir oftalmoloq kimi İttifaqın müxtəlif şəhərlərində olarkən konfranslarda, qurultaylarda, xəstəxanalarda, əməliyyat otaqlarında Bakı kondisionerlərini gördükdə çox sevinirdim. Məndən dəfələrlə xahiş edirdilər ki, zavod işçilərinə onların minnətdarlığını çatdırım.

İndi isə zavod süjetindən hekayətimizin əsas mövzusuna körpü atmaq vaxtıdır. Məsələ burasındadır ki, bundan sonra qəhrəmanımızın elmi fəaliyyəti yüz əlli beş min kvadrat metr sahəni tutan bu nəhəng müəssisənin işçilərinin sağlamlığı ilə birbaşa bağlıdır. Əgər Zərifə Əliyeva öz tibbi fəaliyyətinin birinci mərhələsində traxomanın ləğv edilməsi və profilaktik tədbirlər görülməsində iştirak etməli olmuşdusa (bu, onun elmi məqalələrinin və namizədlik dissertasiyasının mövzusu olmuşdur), indi ümumdövlət və sosial əhəmiyyətə malik olan yeni bir vəzifə ortaya çıxmışdı. Bakı sənaye şəhəridir və peşə xəstəlikləri belə meqapolislər üçün səciyyəvi haldır. Buna görə də yetmişinci illərin əvvəllərində Zərifə xanımın yolu Həkimlərin Təkmilləşdirilməsi İnstitutuna yox, respublika paytaxtının kimya müəssisələrinə tərəf idi. Bu müəssisələrin işçiləri arasında o, aylar, illər keçirirdi. Tezliklə nəhəng yeni tikili - Bakı məişət kondisionerləri zavodu onun elmi axtarışlarının və həmvətənlərinin sağlamlığının təmin edilməsində praktik iştirakı üçün poliqon olacaq.

Demək lazımdır ki, işçilər, xüsusilə də cavanlar heç də həmişə adi insan tənbəlliyindən, oftalmoskoplara, fonendoskoplara və digər tibbi əşyalara səhlənkar münasibətə görə profilaktik tədbirləri, müayinələri, tövsiyələri ciddi və məsuliyyətlə qəbul etmirdilər. Deməli, söhbət tibbi maariflənmədən, zəruri biliklərin təbliğindən, əməyin gigiyenasından və s. gedirdi. Ağ xalatlı, bəstəboy, mülayim, mehriban və sadə rəftarlı mühazirəçinin təbiətən təvazökarlığına görə onun tanınmış familiyaya mənsub, respublikanın birinci şəxsinin həyat yoldaşı olması heç kəsin ağlına belə gəlməzdi. Bəziləri heç inanmırdılar ki, bu statusda olan bir şəxs bu cür gurultulu, səs-küylü sexləri gəzib minlərlə adamın görmə qabiliyyətini araşdırmaqla məşğul olsun.

O isə kimya zavodlarına gedir, unikal sintetik kauçuk hazırlama texnologiyası olan şin zavodunda, Sumqayıtda alüminium zavodunda, oradakı "Neft kimya avtomat" zavodunda, superfosfat zavodunda dəfələrlə olmuşdur...

Zərifə Əliyeva bu işə altı-yeddi il vaxt sərf etdi. Oftalmologiyada sensasiya sayılan "Azərbaycanın bəzi kimya müəssisələrində görmə orqanının vəziyyəti" monoqrafiyası yarandı. 1977-ci ilin yazında bu unikal əsər Moskva göz xəstəlikləri ETİ-nda müzakirədən keçdi və doktorluq dissertasiyasına bərabər hesab olundu.

Zərifə xanım layiq olduğu təbrikləri qəbul edirdi.

- Bu, milli səhiyyədə mənim ilk addımımdır. Yolun böyüyü irəlidədir.

O, çox yaxşı anlayırdı ki, neft kimya sənayesinin sürətli inkişafı günü-gündən onu narahat edən problemlərin aktuallığını artırır və buna görə axtarışları, araşdırmaları davam etdirir, İttifaq və beynəlxalq səviyyəli nəşrlərdə məqalələr dərc etdirir, tədqiqatlarının nəticələri yeni monoqrafiyaların səhifələrinə çevrilirdi.

Onun təşəbbüsü ilə Bakı məişət kondisionerləri zavodunda xüsusi elmi laboratoriya yaradılır. İstehsalat mühitinin görmə orqanına təsirinin analizi əsasında bu laboratoriyada əməli profilaktik tədbirlər görməyə imkan verən unikal material toplanırdı.

Beləliklə, Zərifə xanıma elmlər doktoru dərəcəsini qazandırmış monoqrafiya milli səhiyyənin bu sahədə inkişafını müəyyənləşdirən elmi ixtiraların platsdarmı oldu.

O özü isə əsərlərini "atasının həyatının davamı" hesab edirdi.

Heydər Əliyevin həyat verdiyi zavodun, onun həyat yoldaşının fəaliyyətində mühüm bir mərhələ olması simvolikdir. Elmi axtarışlarla məşğul olduğu laboratoriya Zərifə xanımın həyatında silinməz bir iz qoymuşdur.

O illər **zavodun istehsalat üzrə direktor müavini işləyən Məhərrəm Baxşəliyev** xatırlayır:

"Zavodun direktoru Sənan Axundov Moskvada idi. Azərbaycan KP MK-dan Həsən Seyidov mənə zəng etdi və dedi ki, Zərifə Əliyevanın istehsalat mühitində göz xəstəliklərinin profilaktikasına həsr olunmuş doktorluq dissertasiyası ittifaq

miqyasında rezonans yaradıb və zavodda açılacaq laboratoriyada öz tədqiqatlarını davam etdirmək fikrindədir.

Səhəri gün saat 8:45-də zavodun qarşısında bir maşın dayandı: Zərifə xanım gəlmişdi. Mənə yaxınlaşıb mülayim səslə soruşdu:

- Yoldaş Baxşəliyev sizsiniz?
- Bəli, Zərifə xanım.
- Laboratoriya üçün hansı otaqları və hansı mərtəbəni ayırmaq olar?

Zavod idarəsi üç mərtəbədə yerləşmişdi. Dördüncü, beşinci, altıncı mərtəbələrə baxdıq. O, altıncı mərtəbəni seçdi. Üç-dörd otaq göstərdi, təklifləri dedi. Sonda əlavə etdi: "Sabah gəlib sizə deyərlər, otaqları hansı rəngdə boyamaq lazımdır. Amma sizdən xahiş edirəm, qoy dəbdəbəli təmir olmasın. Vəsaiti israf etməyə ehtiyac yoxdur".

Sözün düzü, bu miqyasda dövlət xadiminin yoldaşından qəti əmr və sərəncam gözlədiyimiz halda onun sadə və mehriban rəftarı, iddiasız davranışı bizim hamımızı mat qoymuşdu. Onda anladıq ki, Heydər Əliyevin sadiq həyat yoldaşı və silahdaşı elə belə də olmalıdır.

Mən laboratoriyanın normal şəraitdə işləməsi üçün bacardığımı elədim. Fikirləşdim ki, zavodda 8500 işçi var və hamının xasiyyəti eyni deyil. Əsas girişlər və dəhlizlər adamla dolu olur, hamıya nəzarət edə bilməzsən, buna görə də laboratoriya üçün birinci mərtəbədə ayrıca girişi olan otaqları ayırmağı daha məqsədəuyğun bildim. Öz fikirlərimi MK-ya bildirdim, sonra Moskvaya Sənan Axundova zəng etdim - o, mənə bütün işləri buraxıb yalnız laboratoriya ilə məşğul olmağı tapşırdı.

Mənim variantım barədə Zərifə Əliyevaya da məlumat verdilər və o, yenidən qardaşı Tamerlan Əliyevlə zavoda gəldi. Otaqlara, şəraitə baxdı və çox xoşuna gəldi. Yüngül kosmetik təmirdən sonra laboratoriya fəaliyyətə başladı".

**Tibb elmləri doktoru Nazim Tağızadənin** xatirələrindən:

"Zərifə Əliyevanın mənim həyatımda böyük rolu olub. Biz 1978-ci ildə tanış olmuşuq. Mən internaturanı bitirdikdən sonra Respublika Klinik Xəstəxanasının reanimasiya şöbəsində işləyirdim. Bir dəfə şöbə müdiri məni yanına çağırdı: "Göz xəstəlikləri kafedrasının müdiri professor Zərifə xanım sizin-

lə söhbət etmək istəyir". Səhəri gün təyin olunmuş vaxtda mən Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru akademik M.Cavadzadənin qəbuluna gəldim. Kabinetə daxil oldum. Rektor məni Zərifə xanıma təqdim etdi. O dedi ki, göz xəstəlikləri üzrə elmi-tədqiqat laboratoriyasına rəhbərlik edir və məni ora işləməyə dəvət edir. Təklif gözlənilməz idi. Mən öz gələcək peşəmi reanimatoloq kimi təsəvvür edirdim. Lakin Zərifə xanım bildirdi ki, bir ildən çoxdur mənim fəaliyyətimə göz qoyur və hesab edir ki, mən elmi-tədqiqat fəaliyyətinə meylliyəm. Amma mənə fikirləşmək üçün vaxt verdi.

Tezliklə biz yenə də görüşdük, mən bir qədər götür-qoydan sonra razılıq verdim və 1978-ci ilin oktyabrında görmə qabiliyyətinin fiziologiyası və peşə xəstəlikləri laboratoriyasına qəbul olundum. Beləliklə, mən Bakı məişət kondisionerləri zavodunda Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun laboratoriya şöbəsi olan laboratoriyada işə başladım. Məndən başqa bura həkim S.Talışinskayanı da götürdülər.

Zərifə Əliyeva ilə birlikdə ilk dəfə zavoda gələndə bizə bir neçə boş otaq göstərdilər. Təxminən, yarım ilə laboratoriya ən müasir cihazlarla təmin olundu.

Z. Əliyeva bu laboratoriyaya elmlər doktoru M. Sultanovu (baş elmi işçi) və T. Mirzəyevi (kiçik elmi işçi) də dəvət etdi. Onlardan başqa da iki laborant götürüldü. Sistemli iş başladı. Aydındır ki, bu işi Zərifə Əliyeva koordinasiya edirdi. Yadımdadır, çox adam bu fəaliyyətin uğuruna şübhə edirdi. Təəccüb edirdilər ki, bu cür yeni texnologiyanın insan sağlamlığına nə zərəri ola bilər ki? Lakin Zərifə xanım əmin idi ki, kimyəvi maddələr istifadə edilən istənilən müəssisədə insan sağlamlığına təsir qaçılmazdır. Bu nəticə onun Bakı müəssisələrində bundan əvvəl apardığı araşdırmalara əsaslanırdı.

Zərifə xanım öncə işçilərin şikayətlərindən başlayan diaqnostik xəritə hazırladı. Həmin xəritədə göz diaqnostikasının bütün müasir metodları verilir və mütəxəssislərin araşdırmalarının elmi nəticələri şərh olunurdu.

Zərifə xanım bizim peşəkar kimi formalaşmamıza xüsusi diqqət yetirirdi. Biz kafedra ixtisaslaşma kursu keçirdik. Onun oxuduğu mühazirələr digər bir çox mühazirədən məzmunluluğu və yanaşma genişliyi ilə fərqlənirdi. Bu gün də, özüm mühazirə oxuduğum zaman müəlliməmin tərzi gözü-

mün qarşısındadır. Həmin vaxtlar onun laboratoriyasında ən müasir diaqnostika metodları tətbiq edilirdi. Zərifə xanım bizi müntəzəm olaraq Moskvanın, Leninqradın, Odessanın və digər şəhərlərin oftalmologiya mərkəzlərinə ezamiyyətə göndərirdi. Biz həmkarlarımızın təcrübəsini öyrənir və öz işimizdə onlardan istifadə edirdik.

Zərifə Əliyeva hər dəfə görülən işləri analiz edər, nöqsanların aradan qaldırılmasına və səmərəliliyin artırılmasına kömək edərdi. Bir müddət sonra onun təşəbbüsü ilə xüsusi cərrahiyyə şöbəsi də yaradılmışdı. Burada təkcə bizim zavod işçilərinə deyil, həm də qonşu müəssisələrin işçilərinə yardım göstərilirdi. O dövrdə ambulator şəraitdə müalicənin təşkili özü özlüyündə proqressiv yenilik idi. Bu gün göz xəstəlikləri bu üsulla müalicə olunur".

**Tibb elmləri doktoru, professor Rasim Hacıyev:**

"Mən Zərifə xanımla BK zavodunun nəzdində laboratoriyada tanış olmuşam. O, bu sahədə işləyən mütəxəssislər barədə maraqlanar və tanışlarından onlar barədə məlumat əldə edərdi. Məni öz yanına dəvət etdi. Müsahibədən, deyəsən, pis keçmədim və o, məni işə qəbul etdi. Bir müddət keçdikdən sonra mənim elmi axtarışlara meyilimi görüb "Göz bəbəyində diabetik retinopatiya" mövzusunu təklif etdi. O zaman bizim kafedramız 4 saylı şəhər xəstəxanasının binasında yerləşirdi. Zərifə xanım məni təcrübəli həkimlərə tapşırdı və onlar mənə oftalmologiyanın incəliklərini öyrətməyə başladılar. Mən zavodun nəzdindəki laboratoriyada isə diaqnostikanı davam etdirərək elmi iş üçün material toplayırdım. Nəhayət, 1982-ci ildə Azərbaycan tibb jurnalında akademik Zərifə Əliyevanın həmmüəllifliyi ilə mənim "Miopiyada diabetik retinopatiyanın ləngiməsində şüşəyəbənzər maddənin rolu" adlı məqaləm dərc olundu. Qeyd edim ki, diabetik retinopatiya oftalmologiyanın əsas və ümdə problemlərindən biridir. Onun əlamətləri damarlarda pozulma şəklində təzahür edir və kor olmaya gətirib çıxarır. Bu mövzuda dissertasiyanın müəllifi Zərifə Əliyeva idi. Bu əsər çoxsaylı təcrübə və axtarışların nəticəsi idi. Sonralar mənə Zərifə Əliyeva ilə həmmüəllif olaraq, Moskva nəşrlərində, "Oftalmologiya xəbərlərində", xarici mətbuatda çıxış etmək şərəfi nəsib oldu.

İrəliyə baxmaq bacarığı ona çox kömək olurdu. İstedadlı elm fədaisi olan bu qadın səriştəli kadrlar hazırlanmasına,

respublikada elmə yeni nəslin gəlişinə yardım edir, həmkarlarının normal fəaliyyətini təmin etmək üçün yüksək texnoloji avadanlıq alınmasına nail olurdu.

Bizim iş otağımıza onun adından tort, piroqlar, hər cür şirələr gətirilərdi. Zərifə xanım bir ana kimi bizim üçün narahat olurdu, biz də öz sevincimizi, kədərimizi onunla bölüşürdük. Həmişə bizə yardım edərdi, təkcə məsləhətlər verməz, eyni zamanda kimin nə dərdi olsaydı, yoluna qoyardı. Əlindən gələn hər şeyi edirdi".

**Məhərrəm Baxşəliyev** danışdıqlarına əlavə edir:

"Bəzən zəng edərdi: "Yoldaş Baxşəliyev, mənim yanıma gəlməyə vaxtınız varmı?" Deməli, ona istehsalat prosesləri barədə informasiya lazımdır.

Bir dəfə mən ona dedim: zəng vurub narahat olmayın, personaldan kimə isə tapşırın, mən dərhal gələrəm. O isə mənə belə cavab verdi: "Sizin işiniz başınızdan aşır, nəhəng kollektivdə işləmək asan iş deyil, vaxt çatdırmaq olmur. Buna görə istəyirəm ki, sizin üçün münasib olan vaxtda gələsiniz".

Bir dəfə mən qəribə bir əhvalat barədə eşitdim: Mustafa adında cavan bir oğlan həkimin qəbuluna növbə gözləyərkən öyrənir ki, həkim Heydər Əliyevin həyat yoldaşıdır, özünü elə itirir ki, sonra onu tapmaq mümkün olmur... Əlbəttə, çox az baş verən hadisədir. Amma diaqnostikadan keçənlər hamısı başqalarına xəbər verirdilər ki, qorxmalı bir şey yoxdur: bu xanım - gözəl insandır.

Bir müddətdən sonra mən başqa zavoda direktor təyin olundum. Xudahafizləşməyə onun yanına gəldim; o, mənə xeyir-dua verdi, uğurlar arzuladı və telefon nömrələrini verdi: əgər bir şey lazım olsa, utanma, zəng elə.

Xeyli vaxtdan sonra biz 4-cü klinikada görüşdük. O dəqiqə tanıdı, əl verib görüşdü: "Yoldaş Baxşəliyev, necəsiniz?" Mən təşəkkür etdim, ayaqüstü qısaca söhbətləşdik. Onun haqqında xatirələr silinməzdir.

Əsl qadın, ziyalı, geniş ürəkli, təvazökar, nümunə götürməyə layiq bir insan".

**Jurnalist Telman Qafar:**

"Mən onun barəsində çox eşitmişdim. Hətta gözlərini sağaltdığı adamların Zərifə xanım üçün necə dua etdiklərini də görmüşdüm. Amma bir jurnalist kimi onunla görüşüb söhbət etmək nəsib olmamışdı. Nəhayət, 1979-cu ildə belə bir şans

əlimə düşdü. Mən AzTV-də xəbərlər proqramında çalışırdım. Zərifə xanımın BMKZ nəzdində yeni açdığı görmə qabiliyyətinin peşə patologiyasının tədqiqi laboratoriyası barədə eşitdim. Bu, SSRİ-də belə tipdə ilk laboratoriya idi. Kinooperatorla zavoda getdik və burada elmi araşdırmalarla yanaşı gözdən şikayəti olan xəstələri də müalicə edirlər. Hətta əməliyyat da keçirirlər. Laboratoriyanın rəhbəri Zərifə Əliyeva bizi o qədər mehriban və gülər üzlə qarşıladı ki, adamı ancaq anası və bacısı bu cür qarşılayar. Biz gəlişimizin səbəbi barədə məlumat verdik: bu yenilik haqqında müsahibə almaq istəyimizi bildirdik. O gülümsədi: "Günortadır, əvvəl nahar edin, laboratoriya barədə sonra söhbət edərik". İşçilərdən kimi isə çağırdı və o, bizi zavodun yeməkxanasına apardı. Bizdən pul almadılar. Yeməkxana müdiri bir şey lazım olub olmadığını soruşmaq üçün iki dəfə yanımıza gəldi... Geri qayıtdıq.

"Biz müsahibə almağa hazırıq", - dedik. Zərifə xanımın isə vacib işi çıxdı: "Bu dəfəlik müsahibəni təxirə salaq. Ola bilsin, gələn dəfə..." Biz nə qədər israr etdiksə, bir nəticə vermədi. Onda mən son üsluba, bir sentimental metoda əl atdım: "Zərifə xanım, sizin babanız Məmmədkərim kişi mənim babamla keçmiş İrəvanın Dalma mahalında qonşu olub... Bəlkə..." O qəti şəkildə dedi: "Yox... başqa vaxt baxarıq..." Öz məğlubiyyətimdən başımı itirmişdim, amma ümid edirdim ki, gələcəkdə müsahibə almaq mümkün olar. Tezliklə Bakıda oftalmologiya üzrə Beynəlxalq konfrans keçirildi. Amma təəssüf, təkcə mənə deyil, heç Mərkəzi Televiziya müxbirlərinə də müsahibə almaq nəsib olmadı.

**Tanınmış jurnalist Svetlana Nəcəfova** "Təsirli xatirə" məqaləsində yazır:

"Növbəti nömrə üçün materialları hazırlayırdım. Telefon zəngi məni işimdən ayırdı. Dəstəyi qaldıran kimi onun səsini tanıdım.

- Necəsiniz? - onu qabaqlayaraq soruşdum. - Sevil, İlham necədirlər?

- Çox sağ ol, - mehriban səslə cavab verdi. - Sizin qızlarınız necədirlər? Bir az fasilə verib:

- Bir şey haqqında soruşmaq istəyirəm. Əgər mümkündürsə, məni tərifləməyin. Və bir də mənim şəklimi jurnalın üz qabığında verməyin. Nəyə lazımdır, axı?

Mən etiraz etdim və dedim ki, oftalmologiyanın inkişafında onun xidmətləri hamıya məlumdur, o ki, qaldı, şəklin üz qabığında verilməsinə, bu da başqa niyyətlə deyil, jurnalımızın çoxdan belə bir ənənəsi var - biz respublikamızın tanınmış və məşhur qadınlarının fotoportretlərini dərc edirik.

Pauza bu dəfə uzun oldu. Mən elə fikirləşdim ki, onu inandıra bilmişəm. Amma səhv etmişəm. O, çox yumşaq tərzdə öz dediyində israr etdi:

- Siz mənə qulaq asın. Belə lazımdır. - Sonra əlavə etdi: - Gəlin, belə danışaq, vaxtınız olanda görüşək və şəkilləri bir yerdə seçək.

Elə həmin gün arxamca maşın göndərdi. Onlarda görüşdük. Bizim fotomüxbirin çəkdiyi, redaksiyada bəyənilmiş və çapa hazırlanan şəkillərdən yalnız ikisinin dərc olunmasına razılıq verdi. Şöbənin işçiləri ilə çəkdirdiyimiz şəkillərdən bir neçəsini seçdi və mənə yadigar olaraq bağışladı.

...Bu mənim professor Zərifə Əliyeva ilə üçüncü və son görüşüm idi.

Birinci görüşüm isə bir müddət bundan əvvəl 4-cü klinikanın göz şöbəsində olmuşdur...

Yer və vaxt barəsində onunla mənim çalışdığım "Azərbaycan qadını" jurnalının baş redaktoru Xalidə Hasilova razılaşmışdı. Əminəm ki, razılıq çox çətinliklə əldə edilmişdi.

... Mən necə başlayacağımı bilmirdim. Həyəcanlandığımı hiss edib köməyimə gəldi və birinci sualı özü verdi:

- Çoxdan jurnalda işləyirsiniz?

Sonra neçə uşağım olduğu, hansının hansı yaşda olduğu ilə maraqlandı, yoldaşımın harada işlədiyini soruşdu. Aramızda isti, məhrəmanə kontaktın necə əmələ gəldiyini heç özüm də hiss etmədim. İş məsələləri ilə bağlı söhbət ailə, məişət qayğıları barədə, uşaqları böyütməyin nə qədər çətin olduğu barədə, xülasə, qadınların öz aralarında danışa biləcəyi hər şey barədə söhbətə yer verirdi. Mən onun ailə həyatının ilk illəri barəsində, həmin illərin çətinlikləri və qayğıları barədə sual vermək istədikdə o, sakitcə əlini çiynimə qoyub dedi: "Bu lazım deyil. Kimin çətinliyi olmayıb ki?"

Yadımdadır, həmin ərəfədə Sevil xəstələnmişdi və Zərifə xanım çox nigaran idi. "Cavanlar öz sağlamlıqlarının qeydinə qalmırlar" - deyə gileyləndi. Sonra üzr istəyərək evə

zəng etdi, Sevilin vəziyyəti ilə maraqlandı və sağalmağa doğru olduğunu bilib bir az sakitləşdi.

...Laboratoriya haqqında (zavodun nəzdindəki - *H.M.)* həvəslə danışırdı. Hiss olunurdu ki, yaradılmasına çox böyük zəhmət sərf etdiyi (təkcə zəhmət deyil, həm də ürəyini qoyduğu) bu laboratoriya onun iftixarı idi. Mütləq oraya baş çəkməyimizi məsləhət gördü. İki gündən sonra birlikdə kondisioner zavoduna getmək barədə razılaşdıq. Təyin olunan vaxt görüşdük. Fotoqraf maşının qabaq oturacağına, sürücünün yanına, biz isə arxa oturacağa əyləşdik... Mən Sevilin səhhətinin necə olduğu ilə maraqlandım. "Yaxşıdır... Məni çox qorxutdu. - Və gülümsədi: - Əslinə qalsa, qorxulu bir şey yox idi. Sadəcə, bir balaca burunları axan kimi əsməcəyə düşürəm..." - "Bütün analar belədir". İşə gedəndə uşaqları kimin yanında qoyduğumu soruşdu. "İndi böyükdürlər, - dedim, - işim bir az yüngülləşib".

...Ən son elmi cihazlarla təchiz olunmuş səliqəli laboratoriyada bizi elmi əməkdaşlar Tahir Mirzəyev və Nazim Tağızadə qarşıladı. Zərifə xanım onlarla söhbət etdiyi və bəzi tapşırıqlar verdiyi müddətdə kiçik elmi işçi Svetlana Talışinskaya təkcə Azərbaycanda deyil, bütün İttifaqda yeganə olan laboratoriyanın işi barədə məlumat verdi. Laboratoriyanın əməkdaşları zavodun işçilərinə sistemli şəkildə tibbi yardım göstərirdilər. Bir il ərzində 1200-dən çox adam müayinədən keçmişdi... Profilaktika, müalicə və elə buradaca, laboratoriya şəraitində cərrahi kömək...

Mənim oçerkim "Azərbaycan qadını" jurnalında dərc olundu. Zərifə xanım zəng edib mənə təşəkkür etdi və oçerki bəyəndiyini bildirdi. Etiraf edim ki, müəllif kimi yazı mənim özümün xoşuma gəlməmişdi. Bloknotumda yazılmış maraqlı faktlara, ünsiyyətimizdəki mehribanlığa və səmimiliyə baxmayaraq, quru və rəsmi alınmışdı. Üzündən xeyirxahlıq yağan, xoşrəftar və istiqanlı bir qadının əvəzinə soyuq, ciddi bir alim obrazı yaranmışdı. Amma nə edə bilərdim? Zərifə xanım hər addımını, hətta dediyi hər bir kəlməni təkcə öz ləyaqətinin plankası ilə deyil, həm də həyat yoldaşının tutduğu yüksək mövqe ilə uyğunlaşdırırdı. Buna görə də bir çox faktı və onun həyatını oxucuya həddən artıq səmimi təqdim edə biləcək məqamların təfsilatı ilə verilməsinə icazə vermirdi..."

*Onuncu fəsil*

## MƏHƏBBƏT ƏFSANƏSİ

*Əgər eşq bir daş yığınında yaransa,*
*daş qızıla çevrilər.*

**Nizami**

Məhəbbət! Məhəbbət! Onun adına nə qədər alovlu mahnılar, heyrətamiz sənət əsərləri yaranıb!

Eşq əvvəlin əvvəli, xilqətin təməlidir,
Ömür yolu insanın eşq vadisindən keçir.

Məhəbbət sınaqdır, bəladır, İlahi nemətdir, qəlbə dolan nurdur, həyatdır...

Qədim türk eposu, klassik poeziya onun sehrli gücünü İlahi fitrətlə, hikməti-ilahiyyə ilə bağlayır. Yada salaq: Petrarka və Laura, Dante və Beatriçe, Tristan və İzolda, Romeo və Cülyetta, Leyli və Məcnun...

"Xosrov və Şirin" Nizaminin tamamilə məhəbbətə həsr etdiyi poemalarından birincisidir. Şair burada təkcə qəhrəmanların məhəbbət münasibətlərinin çalarlarını deyil, həm də sevgi duyğusuna şəxsi baxışını birbaşa təqdim edir:

Eşqi vəsf etməkdir amalım mənim,
Nə qədər ki varam, budur nəsibim.
Yox dünyanın dəyəri, yoxsa eşqin bəlası,
Kölə ol sevgiyə - budur əlası.
Qəlbi olan bilir nədir bu ümman!
Eşqdir bu dünya, qalanı yalan.
Eşqdən başqa hər şey bir oyun...

Lakin orta əsr müsəlman cəmiyyətində daha çox duyğu həzzi hökmranlığı var idi, Nizaminin tərənnüm etdiyi məna-

da məhəbbətə yox, sərfəli nikaha üstünlük verilirdi. Duyğularında müstəqil olan Nizami qəhrəmanları çox vaxt cəmiyyətlə konfliktə gedir. Məhəbbətin həyatverici əzabı varlığın əsas hərəkətverici qüvvəsidir. Məhəbbət həyat yaradıcılığıdır, o, bütün təbiətə nüfuz edir. “Əgər eşq bir daş yığınında yaransa, daş qızıla çevrilər” - dahi Nizami eşqə bu cür heyrətamiz obraz verir. Onun üçün məhəbbət şəxsiyyətin mənəvi yaşayışının zirvəsidir, insanlar arasında yadlığın dəf olunmasıdır, insanın həqiqi dəyərlərinə və Allaha tərəf, mənəvi saflaşmaya və... əbədiyyətə gedən yoldur.

Bizim zəmanəmiz də fədakar qəlb vəhdəti nümunələri ilə bir cərgədə dayanmağa layiq olan bir məhəbbət, incəsənətdə artıq tərənnüm olunmuş bir sevgini bizə təqdim etmişdir.

Əvvəlki fəsillərdə biz iki qəlbin, iki gəncin - perspektivli zabitin və qəzəbə gəlmiş siyasi xadimin qızının ittifaqına kömək edən, daha doğrusu əngəl olan hallar barədə, gənc zabiti faktiki olaraq ya karyera, ya da sevgi seçimi qarşısında qoyan rəhbərliyin xəbərdarlıqları barədə danışmışdıq.

Xidmətdə uğurla irəliləmək fikrini beynindən atmaq, kənarda qalmaq kimi bir riskə girmək, üstəlik də “etibarsız” varlığı qazanmaq üçün qeyri-adi cəsarət və fədakar məhəbbət sahibi olmaq lazım idi...

Vaqif Mustafayevin bu səhifələrdə yada salınan filmi qəhrəmanın vasitəsilə, şahidlərin, Əziz Əliyevin ailəsini yaxından tanıyan adamların - xalq rəssamı Kamil Əliyevin, akademik Cəlal Əliyevin (Heydər Əliyevin qardaşı), Zərifə xanımın qohumu Sona Ələsgərovanın xatirələri həmin dövrün təhlükəli və faciəli mühitini canlandırır.

**Kamil Əliyev:**

“Hər gün bu evə gəlib-gedən adamlar yox oldular. Əziz Əliyevin yaxın dostları dərhal get-gəli kəsdilər. Hətta qohumlar da üz döndərdilər. Çünki təqibdən, izlənməkdən, həbsdən qorxurdular”.

Stalin - Bağırov - Beriya dövrünü çəkmiş sənədli arxiv kino kadrları, kütləvi “zombiləşdirmə” və qüdrətli rəhbər, onun əlaltıları qarşısında qorxu atmosferini göz qabağına gətirirlər. Mir Cəfər Bağırovun qəzəbini öz canında hiss etmiş ailənin başına gələn ağır problemləri sadaladıqca totalitar rejimin dağıdıcı və qeyri-insani mahiyyətini dərk edirsən.

Gənc zabit Heydər Əliyevin qəzəbə gəlmiş ailəyə yaxınlıq etməsinin nəzarət altına alınmasını DTK-nın keçmiş əməkdaşı Kamal Əliyev təsdiq edir.

Bir-birini sevən iki gəncin gizli görüşləri (rəhbərliyin göstərişlərinin əksinə olaraq) barədə təqdim olunan epizodlar həmin illərin populyar "Şampan damcıları" tanqosunu kölgədə qoyur. Bu romantik, lirik kino rəvayətinin arxasında öz silahdaşlarına belə rəhm etməyən "rəhbərin" qorxunc iradəsi hiss edilir...

Otuzuncu illərdə Azərbaycanda da yaradıcı ziyalıların bir çoxu terrorun qurbanı oldular. Dahi şair Hüseyn Cavid İrkutsk sürgünündə can verdi, istedadlı şair Mikayıl Müşfiq gənc yaşlarında ikən Bakı yaxınlığında bir adada güllələndi...

1952-ci il. Zabit Heydər Əliyevi öz sevimlisindən imtina etməyə inandırmağa çalışan general Yemelyanov ondan belə bir cavab eşidir: "İş ayrı, şəxsi həyat ayrı. Mən öz işimi sevirəm və siz də məni bir işçi kimi qiymətləndirirsiniz. Amma mənim həyatımın digər tərəfi, bəlkə də, ən zəruri tərəfi mənim ailəmdir... Mənim gələcək ailəm! Şəxsi duyğularım. Sevgim. Mən o qızı sevirəm. O da məni sevir. Biz bir-birimizdən necə ayrılaq?.. Mən ona nə deyim? Bu, qəribə bir şey olar... Həm də təkcə qəribə yox. Ona "Mən səndən ayrılıram" demək çox çətin olar... Səbəbini izah etməliyəm... Durub deməyəcəyəm ki, təhlükəsizlik orqanlarında işlədiyimə görə səndən ayrılıram?!"

Heydər Əliyevin xarakterini açan dramatik səhnə, onun ali hisslərə sadiqliyi (qəlbin, sevginin səsinə sədaqət!) və bu ciddi idarədə subordinasiyanı nəzərə alsaq, cəsarət.

Amma ali ədalət deyilən bir şey var, o, gec-tez öz hökmünü verir. Məhz hadisələrin bu cür gedişi sayəsində iki qəlbin yaranmaqda olan ittifaqının, münasibətlərin, sadiqliyin, xalqa, vətənə, millətə xidmətin təəccübləndirici harmoniyasının nümunəsi ola biləcək ailənin başı üzərindən buludlar çəkildi...

Müstəqil Azərbaycanın prezidentinin, akademik oftalmoloqun, görkəmli şərqşünasın adı bu ailə ilə bağlıdır. Bu ailənin başında milli lider dururdu. Təkcə Sovet Azərbaycanının inkişafı deyil, həm də yeni, müstəqil, suveren Azərbaycanın triumfal quruculuğu bu şəxsin xidmətidir.

Bu, hətta tələffüzü də eyni olan iki familiyanın - Əziz Əliyevin və Əlirza Əliyevin mənəvi ailə aurasının xoş izləri idi. Biz Heydər Əliyevin valideynləri haqqında ona həsr etdiyimiz kitabda[5] təfsilatı ilə danışmışıq, Əziz Əliyev və onun ailəsi barədə isə oxucu Zərifə Əliyevaya həsr olunmuş bu hekayətdə məlumat almışdır.

Hekayəmizə əlavə olaraq, bu şanlı ailə ilə bağlı bir neçə epizod barədə də söhbət açaq: Zərifə xanımın qardaşı tibb elmləri doktoru Tamerlan Əziz oğlu Əliyev haqqında danışaq.

**Jurnalist Zərifə Bəşirqızı** xatırlayır:

"...O, ağır xəstəlikdən sonra təzə ayağa qalxmışdı. Hər görüş zamanı biz yalnız beş-on dəqiqə söhbət edə bilirdik. "Onu çox yormaq olmaz", - deyə yoldaşı Tamilla xanım xəbərdarlıq edirdi. Həqiqətən, elə mən özüm də hiss edirdim ki, Tamerlan müəllim danışanda çətinlik çəkir.

İş hazır olduqda şəkil almaq üçün mən onlara getdim. Ev güllə dolu idi, stolun üstündə böyük tort var idi. Həmin gün Tamerlan müəllimin yetmiş beş yaşı tamam olurdu. Kafedradan həmkarları onu təbrik etməyə gəlmişdilər. Redaksiyaya qayıtdıqdan sonra mən materialın sabahkı nömrədə verilməsini xahiş etdim - bu, bizim yubilyara hədiyyəmiz idi. O, çox sevinmişdi, həm onun atasından söhbət getdiyinə görə, həm də bizim onu ad günü münasibətilə təbrik etdiyimizə görə hətta gözləri dolmuşdu".

Z. Bəşirqızının materialında Tamerlan Əliyevin tərcümeyi-halı və elmi fəaliyyəti barədə məlumat verilir. Tamerlan Əziz oğlu Əliyev 1921-ci ildə Naxçıvanın Şahtaxtı kəndində anadan olmuşdur. Ailəsi sonradan Bakıya köçmüşdür. Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib elmi-tədqiqat institutlarından birində, sonra isə klinika ordinatorluğundan professora və daxili xəstəliklər kafedrasının müdiri vəzifəsinə qədər yol keçərək doğma institutunda işləmişdir.

Onun məhsuldar elmi-pedaqoji fəaliyyətinə aşağıdakı faktlar əyani sübut ola bilər: o, iyirmi beş elmlər namizədi, beş elmlər doktoru hazırlamışdır; praktik həkim olaraq yüzdən çox pasientin minnətdarlığını qazanmışdır; o, iki yüzdən

---

*Andrianov V. İ., Mirələmov H.F.* Heydər Əliyev. II nəşr. M.: Molodaya qvardiya, 2006.

çox elmi əsərin, onlarla monoqrafiyanın müəllifidir. Tamerlan Əliyev bir çox orden və medala, Respublikanın dövlət mükafatına layiq görülmüşdür; onun fəaliyyət diapazonuna Tibb İnstitutu Elmi Şurasının sədrliyi, Səhiyyə Nazirliyinin baş terapevti vəzifələri də daxil idi...

Jurnalist Z. Bəşirqızı Tamerlan Əliyevin gözəl insani xüsusiyyətlərini, onun pedaqoji istedadını və peşə bacarığını, tələbkarlığı ilə mehriban ürəyiyananlığını qeyd edir.

T. Əliyevin həmkarı **Əlfəddin Abdullayev** onu lakonik və tutarlı formada xarakterizə edir: "Tamerlanın qarışqanı belə tapdamağa ürəyi gəlməzdi, o, əsl insan idi - mehriban, qayğıkeş, təmənnasız".

1997-ci ildə Tamerlan Əliyev dünyasını dəyişdikdə **prezident Heydər Əliyev** vida sözündə dedi: "Tamerlan Əliyevin vəfatı ailəmiz üçün, şəxsən mənim üçün ağır itkidir. Eyni zamanda Tamerlanın vəfatı Azərbaycan səhiyyə elmi üçün, Azərbaycanda ali təhsil üçün, elm dünyası üçün böyük itkidir.

Tamerlan uzun illər mənim yaxın dostum olmuşdur. Mən onunla əlli il bundan əvvəl tanış olmuşam, sonra da qohum olduq. Bütün bu illər ərzində o, mənim sadiq dostum idi... O, anadangəlmə istedadlı adam idi... Bununla yanaşı, çox fədakar, zəhmətkeş, işgüzar insan idi. Seçdiyi peşəsini həmişə sevmişdi, həmin məhəbbətlə o peşəyə, insanlara xidmət edirdi və cəmiyyətdə öz layiqli yerini tutmuşdu... O, Azərbaycanda tibb elminin inkişafına öz töhfəsini vermiş, minlərlə, on minlərlə insana şəfa vermiş, onların ömrünü uzatmışdır.

Tamerlan Azərbaycan ziyalılığının görkəmli nümayəndəsi idi. Və son dərəcə təvazökar insan idi. Böyük bəsirəti, mədəniyyəti, sülhsevərliyi ilə fərqlənirdi... Həmişə insanlar arasında mehriban münasibətlər qurulmasına çalışırdı, daim yaxşılıq edirdi, yaxınlığı sevərdi.

Onun bir fərqli cəhəti də bu idi ki, təmənnasız insan idi.

Yüksək adlar almış, xeyli elmi əsər yazmış, böyük xidmətləri olmuşdur. Amma heç vaxt heç bir vəzifəyə göz dikməzdi, mənsəb barədə düşünməzdi. Nəinki göz dikməsi, hətta dəfələrlə ona təklif olunan vəzifələrdən imtina etmişdir. Bu, mənim yadımdadır. O, yalnız öz işi ilə məşğul olmaq istəyirdi. Yenə də qeyd edirəm: ona bir neçə dəfə institutda, səhiyyə sahəsində vəzifə təklif etmişdilər, o isə hamısından

imtina etmişdi. Ona görə yox ki, bacarmazdı, ona görə ki, o, peşəsini, sənətini sevirdi və başqa sahəyə keçmək istəmirdi.

Geniş ürəkliliyi ilə, ziyalılığı ilə, sadəliyi və insansevərliyi ilə rəhmətlik atası Əziz Əliyevə oxşayırdı.

Mənim üçün isə onun ən böyük üstünlüyü dostluğa etibarlı olmağı idi. İnsanlar həyatlarının müxtəlif anlarında müxtəlif sınaqlara məruz qalırlar. Bu əlli ildə o sınaqlardan mənim də başıma gəlib. Tamerlan həmişə etibarlı, mərd dost olaraq qalıb. Mən belə hesab edirəm ki, insan mənəviyyatının ən yüksək göstəricisi səmimiyyət və sədaqətdir. Tamerlanda bu xüsusiyyətlərin ikisi də var idi. Hətta deyə bilərəm ki, bu xüsusiyyətləri ilə o, çox gözəl nümunə idi".

Qəhrəmanımızın aid olduğu bu iki tanınmış ailəyə mənsub olan insanların xarakteristikalarında və portretlərinə ştrixlərdə eyni mənəvi keyfiyyətlər - insansevərlik, təvazökarlıq, təmənnasızlıq, sədaqət anlayışlarının mövcud olduğunu görmək çətin deyil. Ona görə də belə hesab edirəm ki, yüksək mənəvi dəyərlərə bağlılığın irsi olduğunu düşünmək olar.

Biz isə qəhrəmanımıza dönək və onun simasını tamamlayan digər xatirələrə müraciət edək.

**Rafiq Qəmbərov** klinikada, anesteziya və reanimasiya şöbəsində həkim işləyən xalası oğlu Nazim Tağızadənin Zərifə xanım Əliyeva ilə rastlaşmasını xatırlayır. Zərifə xanım gənc mütəxəssisi BMKZ nəzdində yaratdığı göz fiziologiyası və peşə xəstəliklərinin tədqiqi laboratoriyasına dəvət edir. Seçim Nazim Tağızadənin fəaliyyətinə və araşdırıcılıq meyillərinin dəyərləndirilməsinə əsaslanırdı və bu seçimin doğru olduğu gənc həmkarın elmi uğurları ilə parlaq şəkildə təsdiqini tapdı. Bu uğurlar Zərifə xanım Əliyevanın peşə dəstəyi və insani qayğısı sayəsində əldə edilmişdi. Nazim Tağızadə namizədlik, sonra isə doktorluq dissertasiyasını müdafiə etdi, professor oldu. Çox təəssüf ki, istedadlı alim həyatdan erkən getdi - onun cəmi qırx doqquz yaşı var idi...

R. Qəmbərov Nazimin öz müəllimləsi və elmi rəhbəri barədə necə ehtiramla və məhəbbət hissi ilə danışdığını xatırlayır. "Görmə nöqtələrində və kanallarında cərrahi patologiyalar və cərrahi müalicə" adlı monoqrafiyasını N. Tağızadə bu sözlərlə başlamışdı: "Əziz müəlliməm və elmi rəhbərim Zərifə Əziz qızı Əliyevanın xatirəsinə həsr edirəm".

R.Qəmbərov deyir: "Həmin vaxtlar mən peşəkar kinooperator idim. Boş vaxtlarımda həmin laboratoriyaya (zavoddakı - H.M.), Nazimin yanına tez-tez gedirdim... İş təcrübəsi ilə, yeniliklərlə maraqlanırdım. Zərifə xanımın təşəbbüsü ilə zavodda xüsusi cərrahi şöbə açılmışdı və orada zavod işçilərinin ambulator müalicəsi aparılırdı, bu isə özü-özlüyündə proqressiv yenilik idi.

Mənə Zərifə Əliyeva ilə tanış olmaq şərəfi nəsib olmuşdur. 1984-cü ildə rejissor Eldar Quliyev "Gümüş gölün əfsanəsi" filmini çəkirdi, mən quruluşçu operator idim. Filmə baxdıqdan sonra Eldar müəllim məni Zərifə Əliyeva ilə tanış etdi. O, sadə və nurlu bir insan idi və onun sadəliyində şəxsiyyət böyüklüyü hiss olunurdu. Gözləri səmimiyyət və alicənablıq saçırdı. O, filmə görə bizə təşəkkür etdi və işi çox bəyəndiyini bildirdi.

Xatirəmdə dərin iz buraxmış bir əhvalata diqqətinizi çəkmək istəyirəm. 1992-ci ilin payızı. Çox çətin dövr idi. Azərbaycanın ən yeni tarixinin məlum ictimai-siyasi hadisələri ildırım sürəti ilə kinoxronika kadrları kimi bir-birini əvəz edirdi. Bütün fəaliyyət sahələrində olduğu kimi, kinoindustriyada da durğunluq hökm sürürdü. Bir dəfə dostum Tofiq İsmayılov mənə xəbər verdi ki, "Azenerqo" İB-nin sifarişi ilə Azərbaycan energetikasının yubileyinə həsr olunmuş tammetrajlı filmin çəkilişinə başlayır və məni də çəkilişlərə dəvət etdi. Mən razılıq verdim. Həmin dövrdə bu sahəyə Müslüm İmanov rəhbərlik edirdi. Çəkilişlə əlaqədar tez-tez onun yanında olmalı olurduq. O, bizə məsləhət gördü ki, Naxçıvana gedək və qeyd etdi ki, bu sahəni çox dərindən bilən iki nəfər varsa, biri Heydər Əliyevdir. Onda artıq Heydər Əliyev Moskvadan qayıtmış və muxtar respublikanın Ali Məclisinin sədri seçilmişdi.

Naxçıvan çox ağır blokada şəraitində yaşayırdı. Əhali arasında çaşqınlıq, ruh düşkünlüyü var idi, ərzaq, qaz, elektrik enerjisi çatmırdı... Biz "Təbriz" mehmanxanasında yerləşdik... Heydər Əliyevlə axşamdan xeyli keçmiş görüşə bildik. O, bizi çox mehriban və isti qarşıladı, vizitin məqsədini biləndə əvvəl tərəddüd etdi. "Sonra sizi incidərlər", - dedi və bizim üçün narahat olduğunu gizlətmədi. Amma biz israr etdik. Axırda razılıq verdi. Üç aya yaxın biz Naxçıvana gedib-gəldik. On beş gün çəkiliş edir, sonra Bakıya qayıdıb çəkilən

materiala baxırdıq və sonra yenidən Naxçıvana. Qeyd edim ki, əla film alınmışdı, indiyə qədər də saxlanılır.

Bir dəfə çəkilişlər arası fasilədə mən filmimizin qəhrəmanına dedim: "Heydər Əliyeviç, mənim bir xalam oğlu var idi, Zərifə xanımın ən yaxşı tələbələrindən biri idi..." O, diqqətlə mənə baxdı: "Kim?" - "Nazim Tağızadə". Əliyev bir neçə saniyə fikrə getdi: "Hə... Zərifə xanım onu çox tərifləyirdi. Onlar iki nəfər idilər, o birinin adı Rasim idi... Rasim Hacıyev. Bir dəfə Zərifə xanım mənə dedi ki, onun iki aspirantı var və onlara Moskvaya gedib göz xəstəlikləri İnstitutunda müdafiə etməyə imkan vermirlər. Mən həmin institutun rektoruna zəng etdim. Məsələ dərhal həll olundu. Hər ikisi müdafiə etdilər"...

Onun yaddaşı məni valeh etdi. On beş il bundan əvvəl olan bir epizodu elə müfəssəl yadında saxlamışdı ki, hətta Zərifə xanımın xahişi ilə kömək etdiyi o iki gəncin adını və familiyasını da yadından çıxarmamışdı.

Zərifə Əliyeva bir çox insanın qəlbində dərin iz qoyub getmişdir, bəzilərinə yardım etmiş, digərlərinə elmi inkişafda dayaq olmuş, bir başqalarına görmə qabiliyyətini, onunla da birlikdə həyat eşqini və sevincini qaytarmışdır..."

**Milli Məclisin deputatı, Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli** xatırlayır:

"...Lənkəranda Talışxanovlar ailəsindən Asəf müəllimin ailəsi bizimlə qonşu idi. Anamın xalası qızı Mirxanım Asəf müəllimin yoldaşı idi. İsti iyun günlərinin birində evimizin qabağında iki minik maşını dayandı. Birindən hündür, qamətli bir polkovnik və bəstəboy yaraşıqlı bir xanım düşdü. Bu, həmin vaxtlar dövlət təhlükəsizliyi orqanlarında işləyən Heydər Əliyev və həyat yoldaşı Zərifə xanım idi. O biri qonaqlar isə DTK Lənkəran şöbəsinin rəisi Qasımov və həyat yoldaşı - Heydər Əliyevin bacısı, Lənkəranın 1 nömrəli məktəbində kimyadan dərs deyən Şəfiqə Əliyeva idi. Biz də, yerli uşaqlar gözümüzü boy-buxunlu zabitdən çəkə bilmirdik.

Zərifə xanım nə haqdasa yoldaşı ilə həyəcanla danışırdı, hiss olunurdu ki, ona məftundur və onunla fəxr edir. Mirxanım həkim qonaqları qarşılamağa məxmər (o zamana görə bahalı) paltarda çıxdı.

1963-cü il idi. Bu gözəl cütlüyün qəlb istiliyi, səmimiliyi o zaman onuncu sinifdə oxuyan əyalətli oğlanın yaddaşında

həmişəlik qaldı. Mən onları özümə bir ideal olaraq görürdüm və həmişə onlara oxşamağa çalışırdım...

İkinci dəfə Zərifə xanımı mən Bakıda Ali partiya məktəbində oxuduğum vaxt gördüm. Bizi, dinləyiciləri Bakı məişət kondisionerləri zavoduna, zavodun partiya təşkilatının işi ilə tanış olmaq üçün gətirmişdilər. Partiya komitəsinin katibi Çingiz müəllim bizə rəhbərlik edirdi. Gündəlikdə işçilərin sosial müdafiəsi məsələləri də var idi. Peşə xəstəliklərinin profilaktikasına zavodda böyük əhəmiyyət verilirdi. Tibbi xidmət kabinetlərindən birinin yanından keçərkən mən oradakı adamların sakit və aram davranışına diqqət etdim. Qəfildən qapı açıldı və on dörd il bundan əvvəl gördüyüm həmin xoş görünüşlü, üzü nurlu qadını ağ xalatda qarşımda gördüm. Bu, Zərifə xanım idi, mən onu çoxdan tanıdığım doğma bir insan kimi gördüm və izahı mümkün olmayan bir hisslə ona yaxınlaşıb salam verdim. O da mehriban bir səslə salamımı aldı.

Sonradan bildim ki, respublika rəhbəri Heydər Əliyevin həyat yoldaşı burada, zavodda göz xəstəlikləri ilə bağlı elmi axtarışlarla məşğuldur və zavod işçilərinin əmək şəraitinin yaxşılaşması və sağlamlığının qorunması üçün fədakarcasına xidmət göstərir. O, gözucu mənə baxıb dedi: “Mən sizi haradasa görmüşəm, mənə tanış gəlirsiniz...” Mən onların xeyli əvvəl həyat yoldaşı ilə Lənkərana gəlişlərini və orada ev sahiblərinə qonşu kimi kömək etdiyimi xatırlatdım... Zərifə xanım uzun illər bundan əvvəl olmuş o hadisəni təbəssümlə yada saldı.

Qeyd edim ki, möhtərəm Heydər Əliyev və ailəsi Lənkəran diyarını çox sevirdi. Bir dəfə respublikanın başçısı Lənkərana yoldaşı və oğlu İlhamla birlikdə gəlmişdi. O, əvvəlki vaxtlarda, respublikaya başçı təyin olunmazdan qabaq olduğu kimi, şəhərdə, onun küçələrində, meydanlarında, parklarında piyada gəzmək, ətrafdakı meşələrə və gözəl mənzərələrə baxmaq, o yerlərin valehedici təbiətindən ləzzət almaq istəyirdi. Xanbulançay su hövzəsində katerlə gəzmək daha çox xoşuna gələrdi”.

Bu gün biz milli mənəvi dəyərlərimizin qorunması barədə danışırıq, dünya təcrübəsindən modellər axtarırıq, tariximizi, adət-ənənələrimizi təhlil edirik, ailə əsasları barədə fikir yürüdürük... Amma müasir həyatımıza, Heydər və Zərifə

Əliyevlərin ailəsinə, onların qarşılıqlı münasibətlərindəki harmoniyaya, övladlarına və yaxınlarına, onların insanlara xidmətinə və Vətənə məhəbbətinə nəzər saldıqda anlayırsan ki, məhz belə insanlar, bu cür ailə bizim üçün parlaq nümunə ola bilər və onlara oxşamağa çalışmağına dəyər.

Ailə müqəddəsdir. Ailə mahiyyətdir. Ailə cəmiyyətin özəyidir. Ailənin ən etibarlı dayağı isə Zərifə xanım kimi ana və məhəbbət simvolu olan ocağın qoruyucusu, həyat yoldaşıdır.

Amma o, necə deyərlər, Heydər Əliyevin təkcə həyat yoldaşı yox, həm də silahdaşı idi. O özü bu barədə belə deyir:

"Mənim işim çətin və narahat, amma əvəzində ailə həyatım çox uğurlu idi. Həyat yoldaşım çox mənəviyyatlı və məni anlayan bir qadın idi. Mən onu çox sevirdim. Atası kimi Zərifə də həkim təhsili aldı, göz xəstəlikləri üzrə professor oldu. O, mənim həyatımın ən böyük və ən müdrik dayağı idi. O, 1985-ci ildə Moskvada vəfat etdi. Ölümü məni çox sarsıtdı və bir müddət sonra infarkt keçirdim, uzun müddət xəstəxanada yatdım. Ölümünə az qalmış Zərifə uşaqların ailə qurması üçün çox israr edirdi. Elə hey deyirdi: "Tezliklə toylarını görsəydim". Elə bil tezliklə öləcəyini hiss edibmiş. Gəlinimizi də özü gözaltı edib bəyənmişdi. Vəfatından bir az əvvəl Bakıya gəldi, İlhamın gələcək həyat yoldaşı ilə görüşdü, toyu Moskvada etdik. Biz qızım, oğlum və gəlinimlə birlikdə Moskvanın qırx beş kilometrliyində Siyasi Büronun bizim üçün ayırdığı bağ evində yaşayırdıq. Əliyevlər ailəsi xoşbəxt idi..."

Həmin dövrləri **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev** belə xatırlayır və ailəsi haqqında bu sözləri deyir:

"Biz iyirmi beş il bundan əvvəl Bakıda konsertdə tanış olmuşduq. Təxminən bir neçə aydan sonra da evləndik. O vaxtdan da birlikdəyik. Gözəl uşaqlarımız var, onlarla fəxr edirik, çox mehriban ailəmiz var. Mən hesab edirəm ki, ailədə mehribanlıq hər bir insan üçün qiymətsiz nemətdir. Ailə cəmiyyətin əsasıdır. Uşaqların ailədə aldığı tərbiyəni nə məktəb, nə də institut əvəz edə bilər. Uşaqlar valideynlərin mehriban münasibətini, onların arasında sevgini, qarşılıqlı anlaşmanı və zərifliyi göröndə xeyirxah və xoşrəftar olurlar. Mən ailə həyatında çox xoşbəxt adamam, yoldaşımla iyirmi beş ildir ki

evliyəm, adama elə gəlir ki, bu, dünən olub. Amma qızlarımın yaşının artıq iyirmidən çox olduğunu görəndə fikirləşirəm ki, deyəsən, o qədər də cavan deyiləm. Ancaq on yaşlı oğlumu görəndə deyirəm ki, yox, hələ cavanam, oğlumun cəmi on yaşı var! Ailə çox şəxsi olan bir şeydir, mən bu barədə danışmağı çox xoşlamıram. Evə gələrkən əzizlərimin təbəssümünü və gözlərində səmimiyyəti görəndə işimlə bağlı bütün problemləri, çətinlikləri və xoşagəlməz halları unuduram, mehribanlıq və məhəbbət dünyasına daxil oluram".

Oğlu İlhamın ailə sevinci Zərifə xanımı qanadlandırırdı, qaynana və gəlin münasibətlərində xüsusi istilik, zəriflik və həssaslıq var idi. Gənc gəlin, yenicə ailə həyatına qədəm qoymuş Mehriban xanım da müdrik ev sahibəsindən dərs alırdı, belə demək mümkündürsə, böyük məktəb keçirdi. Ümid edirəm ki, Mehriban Əliyevanın "İzvestiya" qəzetinin müxbiri Oleq Seqanova 31 may 2005-ci ildə verdiyi müsahibə oxucularımız üçün çox maraqlı olacaqdır:

*"- Siz ixtisasca həkim oftalmoloqsunuz. Sənətinizi unutmamışsınız ki?"*

- Mən uzun müddət ixtisasım üzrə işləməmişəm, buna görə, təbii ki, çox şeyi unutmuşam. Oftalmologiya təbabətin elə bir sahəsidir ki, fasilə sevmir. Bir-iki ay fasilədən sonra buraxılanların bərpa olunmasını tələb edir.

- *Sizin peşə seçiminizə nə təsir etdi?*

- Anam şərqşünas alim idi. Amma o həkim olmaq istəyirmiş və orta məktəbi bitirdikdən sonra sənədlərini Tibb İnstitutuna verib. Lakin hansı səbəblərdənsə valideynləri bunun əleyhinə olublar və anamın fikrini dəyişdirə biliblər. Nəticədə, o, filoloq olub. Məhz anamın bu baş tutmamış arzusu mənim seçimimi müəyyən etdi. Həm də ixtisas seçimində mənə İlhamın anası - həkim oftalmoloq Zərifə xanımın böyük təsiri olmuşdur. Təəssüf ki, Zərifə xanımla bizim ünsiyyətimiz uzun çəkmədi. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə isə Zərifə xanım vəfat etdi. Bu istedadlı və gözəl qadının xatirələri hələ də mənimlədir".

**Heydər Əliyev adına fondun prezidenti, YUNESKO və İSESKO-nun sülh məramlı səfiri, parlamentin deputatı Mehriban Əliyevanın** 27 aprel 1996-cı ildə "Panorama" qəzetinə verdiyi müsahibəsindən:

"- *Bir az özünüz haqqında danışın. Uşaqlığınız, ixtisasınız haqqında. Sizin valideynləriniz kim olub?*

- Mənim valideynlərim hər ikisi alimdir. Anam filologiya elmləri doktoru, professor idi. Ömrünün son illərində Azərbaycan EA Şərqşünaslıq İnstitutuna rəhbərlik edirdi. Atam fizik idi. Elmlər Akademiyasının müxbir üzvü... Mən məktəbi qızıl medalla bitirib Azərbaycan Dövlət Tibb İnstitutuna daxil oldum. Bir ildən sonra Moskvaya köçməyimizlə əlaqədar Seçenov adına Moskva Tibb İnstitutuna keçdim. Oranı fərqlənmə diplomu ilə bitirib göz xəstəlikləri ETİ-nda həkim işləmişəm.

- *Həyat yoldaşınızla necə tanış oldunuz?*

- Respublika Sarayında bolqar müğənni Lili İvanovanın qastrolu keçirilirdi. O konsertdə tanış olduq.

- *Yoldaşınız ev işlərində, uşaqların tərbiyəsində sizə kömək edirmi?*

- Yox, ev işlərində kömək etmir. Uşaqların tərbiyəsinə gəlincə isə, biz heç vaxt xüsusi şəkildə uşaqların tərbiyəsi ilə məşğul olmuruq, onlara nəsihət vermirik. Mən belə fikirləşirəm ki, ailədəki atmosfer ən gözəl tərbiyə vasitəsidir. Şükür ki, uşaqlarımız da ağıllı və sözə qulaq asandırlar.

- *Bəs siz necə? Yoldaşınıza işdə kömək edirsinizmi? O, sizə problemlərindən danışırmı, məsləhətlərinizə qulaq asırmı?*

- İlham işdə çox yorulur, ona görə də evdə bütün problemlərdən uzaqlaşmaq lazımdır. Bax, bu işdə mən ona kömək edirəm.

- *Boş vaxtınızı necə keçirirsiniz? Konsertlərə getməyi, qonaq getməyi xoşlayırsınız, yoxsa boş vaxtınızı evdə, ailə ilə birlikdə keçirirsiniz?*

- Ailəmlə dincəlməyi çox sevirəm. Amma maraqlı konsertlərdə, sərgilərdə, təqdimatlarda olmağa çalışıram.

- *Yoldaşınız hansı yeməkləri daha çox sevir?*

- İlham yemək məsələsində elə də vasvası deyil, amma daha çox milli yeməklərə üstünlük verir. Plovu çox sevir.

- *Övladlarınızın gələcəyini necə görmək istərdiniz?*

- Hər şeydən əvvəl, övladlarımın sağlam və xoşbəxt olmasını arzu edirəm. Qoy həyatlarında xoş günlər daha çox olsun. Böyüyəndə isə ləyaqətli və yaxşı insan olsunlar..."

**Sevil Əliyevanın** anası haqqında dediklərindən:

"Bilirsiniz, onda qeyri-adi təvazökarlıq var idi. Hətta Lenin adına Sarayda (indiki Heydər Əliyev adına Saray) rəsmi tədbirlərdə anam yarıboş zala hamıdan əvvəl gəlirdi, yaxud da zal dolu olanda biz foyedən yuxarı qalxar və yuxarı cərgələrdən aşağı öz yerimizə gələrdik.

O, qəsdən gecikən və bütün zal boyu aşağıdan yuxarı defilə edən bəzi nazir arvadları kimi özünü publikaya nümayiş etdirməzdi. Həmişə mühafizədən xahiş edərdi: "Televiziya işçilərini xəbərdar edin ki, bizi çəkməsinlər". Atamın bu tədbirlərə anamla getməsi isə onun anama bağlılığından irəli gəlirdi. O, anamsız yaşaya bilmirdi...

Anam övladlarına, həmişə onun üçün birinci yerdə olan ailəyə çox bağlı idi. Atam onun böyük elmi potensiala malik olduğunu bilirdi və elə buna görə də həmişə onu dəstəkləyirdi. Yadımdadır, axşamlar biz hamımız yatandan sonra o, əsərlərini, məqalələrini, monoqrafiyalarını yazmağa başlayardı.

Biz Moskvaya gedəndə o, həmişə həmkarları oftalmoloqlarla görüşürdü. Ancaq ötəri söhbətlər etməyə, şöhrət qazanmağa, başqalarının arasından seçilməyə həvəsi yox idi. Əldə etdiyi nə varsa, gərgin elmi axtarışların, böyük zəhmətin nəticəsidir. Atam onun potensialını bildiyinə görə razı olmazdı ki, bu potensial gerçəkləşməmiş qalsın. Siz fikir ayrılıqları, mübahisələr barədə soruşursunuz. Onların məhz belə şeylərə görə mübahisəsi düşərdi: atam deyərdi ki, dayanmaq olmaz, axtarışları, araşdırmaları davam etdirmək lazımdır. O, həmişə anamı buna həvəsləndirərdi".

Azərbaycan KP MK-nın birinci katibinin vaxtilə referenti işləmiş Respublika Parlamentinin deputatı **Mixail Zabelin** müəllifə aşağıdakıları danışmışdı:

"Ümumiyyətlə, Zərifə Əliyeva qeyri-adi adam idi. Bəzən elə olurdu ki, mən gün ərzində ona beş-altı dəfə zəng vururdum. Heydər Əliyev nadir hallarda evlə əlaqə yaradılmasını istəyərdi. Daha çox Zərifə xanım özü zəng edərdi. "Heydər Əliyev gəldi?" - "Bəli, - mən cavab verirdim, - gəlib". - "Özünü necə hiss edir?" - "Hər şey qaydasındadır" - "Yadınızdan çıxmasın, saat on birdə ona dərman və kök şirəsi verin". - "Unutmaram, Zərifə Əliyeva". Bir stəkan şirəni içib saat on birdə də dərmanını atardı. Bir azdan Zərifə Əzizovna yenə

zəng edirdi: "Qoy orda nahar etməsin. Buğda kotlet bişirmişəm və göndərirəm". Bir az keçdikdən sonra o, yenə də nə üçünsə zəng edərdi. Xülasə, onun qayğısını çəkirdi, onun üçün narahat olurdu. Bu təbəqədən olan kişilərin çoxunu bu, qıcıqlandıra bilərdi. Amma Heydər Əliyeviçi bu qayğı heç vaxt qıcıqlandırmırdı, əksinə xoşuna gəlirdi. Çünki o, yoldaşını çox sevirdi".

**Lidiya Rəsulova** Musiqili Dram Teatrında Rauf Hacıyevin "Yol ayrıcında" operettasının premyerasının antraktı zamanı Zərifə Əliyevadan eşitdiyi çox qəribə bir əhvalatı xatırlayırdı. Operettaya başda birinci katib olmaqla, MK Bürosunun bütün üzvləri gəlmişdilər. Zərifə xanım danışır ki, bir dəfə o, Moskvaya uşaqlarına baş çəkməyə gedir. Bakıya qayıtmağa hazırlaşdığı vaxt Sviqun özünün xidməti təyyarəsində uçmağı təklif edir. Yüksəkliyi götürən kimi nasazlıq ortaya çıxır: şassi kilidlənib, yığılmır. Ekipaj komandiri elan verir ki, problem var. Yanacaq dolu çənlərlə enmək təhlükəli idi. Əvvəlcə, sərnişinlərə bir söz demirlər. Amma illüminatora baxıb dövrə vurduqlarını görürlər. Zərifə xanımın sözlərinə görə, enmə zolağının ətrafında yanğın söndürən maşınlar, "Təcili yardım" maşını var idi. O fikirləşir ki, hər an nə isə baş verə bilər. Və həmin saniyələrdə onu yalnız bir şey narahat edirdi: "Heydər Əliyevə bunu necə xəbər verəcəklər, o, belə xəbərə necə tab gətirəcək?..

Lidiya Rəsulova deyir: "Belə bir çətin vəziyyətdə də qadın özü haqqında deyil, yoldaşının bu mümkün itkiyə necə davam gətirəcəyi barədə fikirləşir..."

**Heydər Əliyevin mühafizəsinin rəisi Aleksandr İvanov** Zərifə xanımla həmin hadisə zamanı o təyyarədə olmuşdur və bu qadının heyrətamiz xüsusiyyətlərini heyranlıqla xatırlayır:

"Təyyarə ilə bağlı hadisə Heydər Əliyev hələ MK-nın birinci katibi olduğu vaxt baş vermişdir. Bir dəfə səhər biz üzgüçülük hovuzundan kottecimizə qayıdarkən Heydər Əliyev mənə zəng etdi: "Saşa, Zərifə Əliyeva ilə qayıtmaq üçün bu gün Moskvaya uçarsan". Belə hallarda müvafiq operativ tədbirlər görülməli idi: təyyarə, pilotlar attestasiyadan keçirilməli idi və s. Mən Moskvaya zəng etdim, özüm üçün bilet sifariş etdim, nahardan sonra yola düşdüm. Məni Moskvada Yuri Kamayev qarşıladı, mehmanxanaya yerləşdirdi, daimi

nümayəndəlik vasitəsilə biletləri sifariş verdi. Axşam Zərifə Əliyeva məni tapdı və xəbər verdi ki, "papa" (öz aramızda biz Heydər Əliyeviçi belə çağırırdıq) deyir ki, Bakıya Sviqunla birlikdə xüsusi reyslə uçacaqlar (Sviqun Bakı müşavirəsində iştirak etmək üçün DTK xətti ilə gedirdi). General-polkovnik kimi Sviqunun xüsusi reysdən istifadə etmək hüququ var idi. Mənim isə əlimdə adi reysə iki bilet var, təyyarənin də ekipajı bizim operativ xəttimizlə attestasiyadan keçmişdi.

Heydər Əliyevin bütün Siyasi Büro üzvləri kimi personal təyyarəsi yox idi. O vaxtlar Siyasi Büro üzvlərində, xarici ölkələrin başçılarına qulluq edən xüsusi "55-ci aviadəstə" var idi.

Qısası, axşam "papa" zəng edib dedi ki, biz "Vnukovo-1" aeroportundan Sviqunla birlikdə uçmalıyıq. Zərifə Əliyeva Sviqunun yanında əyləşdi, mən isə iki cangüdən zabitlə bir az aralıda oturdum. Təyyarədə cəmi beş nəfər idik. Havaya qalxdıq, stüardessa yaxınlaşdı, karamel payladı. Birdən təkərlərdən qəribə səslər gəlməyə başladı. Mən tez-tez təyyarədə uçurdum və bu səs mənim xoşuma gəlmədi, amma narahatlığımı hiss etdirmədim, susdum. Sviqunun mühafizəçilərini tanıyırdım, amma yaxın münasibətim olmamışdı. Gözümün ucu ilə illüminatora baxdım və gördüm ki, dövrə vururuq, yüksəkliyi yığa bilmirik. Təyyarə üçüncü dəfə dövrə vuranda Sviqun nə baş verdiyini öyrənməyi əmr etdi. Mühafizəçi getdi, qayıdanda rəngi ağarmışdı. "Uşaqlar, nə isə olub, stüardessa ağlayır, ekipajsa qapını bağlayıb açmır". Bunu eşidən Zərifə Əliyeva dərhal mənim yanımda oturdu, hiss olunurdu ki, həyəcanlıdır. "Nə olub?"- deyə soruşdu. "Heç nə olmayıb, hər şey qaydasındadır, indi qalxacağıq..." - cavab verdim. "Hara qalxacağıq?" Təyyarə yenə də enişə keçdi. Layner beşinci dəfə idi ki, qalxıb enirdi. Sonra başa düşdük ki, yanacağı bitirmək üçün belə edirlər. İkinci dövrədə enmə zolağına yanğınsöndürən və "Təcili yardım" maşını yaxınlaşdı. Zərifə Əliyeva əlimi tutub, təsəvvür edirsiniz, nə dedi: "Heydər Əliyevlə İlham bunu eşitsələr, onların halı necə olacaq? Bu xəbəri necə qarşılayacaqlar?" Zərifə Əliyeva həmişə özü barədə az fikirləşərdi".

Görkəmli **rəssam Tahir Salahov** Əliyevlər ailəsinin köhnə dostlarındandır. Görüşərkən mən ondan Zərifə xanımla

Heydər Əliyevin bir-birinə münasibəti barədə bildiklərini danışmasını xahiş etdim. "Onlar qəribə şəkildə bir-birini tamamlayırdılar, - deyə Tahir Teymuroviç cavab verdi. - Bizi bir birimizə çoxlu xatirələr bağlayır... Məsələn, Heydər Əliyev Moskvada oxuduğu və təcrübə keçdiyi vaxtlarda görüşlərimiz; Zərifə Əliyeva Bakıdan mənə zəng edərdi və deyərdi: "Tahir, ona diqqət et, tək qoyma, orda o, evindən ayrıdır". Çox qayğıkeş qadın idi..."

Görkəmli **ictimai xadim Svetlana Qasımova:** "Sovet Azərbaycanının altmış illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş ittifaq respublikalarının KP MK birinci katiblərinin xanımlarının Zərifə Əliyeva haqqında necə hörmətlə və sevgi ilə danışdıqlarının şəxsən şahidiyəm.

Biz qonaqları qarşılayanda mən ilk dəfə Zərifə Əliyeva ilə yaxından ünsiyyətdə oldum. Biz istər-istəməz respublikaların birinci katiblərinin xanımlarını müqayisə edirdik. Zərifə Əliyeva çox mədəni, dərin bilikli, geniş dünyagörüşünə malik, eyni zamanda çox sadə və səmimi bir qadın idi. O, öz ətrafında mehriban atmosfer yaradırdı, çalışırdı ki, gələn bütün qonaqlarda Azərbaycan haqqında, Azərbaycan qadını haqqında xoş təəssürat yaransın. O, həqiqətən, nəcib azərbaycanlı xanım idi".

**SSRİ xalq artisti Müslüm Maqomayev** xatırlayır:

"Simfonik konsertlərin birində Heydər Əliyevin həyat yoldaşı Zərifə Əliyeva kiminsə musiqi səsindən yuxuya getdiyini görür və yoldaşına deyir: "Niyə sən insanları konsertlərə gəlməyə məcbur edirsən? Bax, adam artıq yuxuya gedib". Heydər Əliyev də cavabında deyir: "Eybi yox, sabah mənim qəbulumda ayılar..." "Zərərçəkmişlərdən" biri simfonik konsertlərə getməyi "əzab" adlandırmışdı, guya bundan betər cəza düşünmək mümkün deyil. Bu, Heydər Əliyev Moskvaya gedənə qədər belə də davam etdi: deyinirdilər, amma klassik musiqini dinləyirdilər. Onun sayəsində xeyli insan klassik musiqi pərəstişkarı oldu.

Moskvada işlədiyi vaxt Heydər Əliyevə şəxsi kədər də üz verdi - Zərifə Əliyevanı itirdi. O, çox yaxşı qadın, gözəl insan idi. Ağıllı və şən idi, musiqi istedadı var idi, əla royal çalırdı. Əri üçün royal çalmağı xoşlayardı - Heydər Əliyevin ürəyə yatımlı bariton səsi vardı. O, ümumiyyətlə, musiqini çox se-

virdi. Həm də Heydər Əliyevin teatra, səhnəyə sevgisi olduğu hiss edilirdi. Bu yaxınlarda çıxan memuarından öyrəndim ki, artist olmaq istəyirmiş. Əvvəllər biz bunu bilmirdik.

Bir dəfə o, mənə toyunun nə qədər sadə keçdiyini danışdı. Nikah qeydiyyatından sonra həmin vaxtın ən bahalı sayılan konfetindən bir kiloqram alır - gücləri yalnız buna çata bilərdi. Evə gəlirlər və toy çay dəstgahı qururlar. Bahalı qonaqlıq təşkil etməyə gənclərin pulu yox idi...

Biz Tamara ilə tez-tez qonaqpərvər Əliyevlər ailəsinin Bakıda da, Moskvada da evində olurduq. Ən çox da Zərifə Əliyeva ilə ünsiyyətdə olardıq və həmişə də danışmağa sözümüz olurdu. Əsasən o, bizə zəng edərdi, biz narahat edərik deyə zəng etməzdik. Və birdən Zərifə Əliyeva dünyasını dəyişdi...

Biz onun vəfatından qısa müddət əvvəl Əliyevlərin qonağı olmuşduq. Heydər Əliyev onun şərəfinə sağlıq dedi. O, əvvəllər də yoldaşı barədə gözəl danışardı, amma həmişə qısa danışar və hisslərini çox da göstərməzdi, ola bilsin, başqalarının onun xanımı barədə danışması daha xoş idi. Bu dəfə isə Zərifə Əliyeva haqqında, birgə keçdikləri ömür yolu barədə geniş, ətraflı danışmağa başladı... Heydər Əliyev məhəbbətdən danışsa da, mən nədənsə onun səsində kədər hiss etdim. Onun danışıq tərzi özü mənə qeyri-adi gəldi, elə bil ki, vidalaşma nitqi idi. Düzdü, Zərifə Əliyevanın səhhəti barədə bircə kəlmə də demədi. Sonra birdən Zərifə xanım ona xoş sözlər deməyə başladı və göz yaşını saxlaya bilmədi...

Sonralar biz Tamara ilə bu gecəni xatırlayanda ikimiz də dedik ki, nə isə olacaq. İkimizin də ürəyindən keçdi ki, Zərifə Əliyevaya nə isə olub. Amma nə olub, biz güman edə bilmirdik, çünki o, yenə də tez-tez bizə zəng edirdi və həmişəki kimi şən idi. Beləcə, iki ay keçdi. Axırıncı dəfə o, bizə ölümündən təxminən bir həftə əvvəl zəng etmişdi, öyrəşdiyimiz mehriban səs, mülayim tonda söhbət etmişdi. Və birdən - bir zərbə!

Zərifə Əliyeva ilə vida mərasimində mən ilk dəfə Heydər Əliyevi gözü yaşlı gördüm. Mən onu güclü, möhkəm, əsəblərini cilovlamağı bacaran bir şəxs olaraq tanıyırdım, burda isə... Biz ona yaxınlaşanda tamam başqa bir insan gördük - elə bil, tərk edilmiş böyük bir uşaq idi... Bu səhnədən ürəyim

sancdı... O, ayağa qalxdı, bizi öpdü və dedi: "Siz təsəvvür edə bilməzsiniz, o, sizi necə sevirdi. Öz övladları kimi..."

Zərifə Əliyevanın vəfatının ildönümünü qeyd edərkən biz qəbristanlığa getdik. Heydər Əliyev onun qəbri üstündə oxumağımı xahiş etdi. Müşayiət üçün yazı hazırlanmışdı. Bu fonoqramın müşayiəti ilə mən Üzeyir Hacıbəyovun "Sənsiz" mahnısını oxudum - Zərifə Əliyeva bu mahnını çox sevirdi. Beləcə, biz onunla bir daha vidalaşdıq (Sonradan Heydər Əliyev onun nəşini Azərbaycana gətirmiş və dəfn etmişdir).

Mən Zərifə Əliyevaya Nikolay Dobronravovun sözlərinə yazılmış "Elegiya" mahnısını həsr etmişəm. Yadımdadır, ilk dəfə Heydər Əliyev bu mahnını mən televiziyada oxuyanda ona qulaq asmış və mənə zəng etmişdi: "Nə gözəl mahnı idi! Mən ağlaya-ağlaya qulaq asdım". - "Mən onu Zərifə Əliyevanın vəfatının təəssüratı altında yazmışam". Ona həsr olunmuş bir mahnı da var, bu mahnını Sevil Əliyeva bəstələyib, onun gözəl musiqi istedadı var. Ola bilsin, bu qabiliyyət ona anasından keçib. Heydər Əliyev qızının adını Fikrət Əmirovun "Sevil" operasının qəhrəmanının şərəfinə qoyub. Yadımdadır, bir dəfə bizdə qonaq olduğu vaxt Sevil royal arxasına keçdi və nə isə çalmağa başladı. Musiqi çox xoşuma gəldi və mən soruşdum:

- Nə çalırdın? Nə isə mənə tanış melodiya deyil.
- Elə-belə, arada nə isə yazıram...
- Bu sənin öz musiqindir?
- Hə. Anama həsr etmişəm...
- Üstündə işlənsə, əla mahnı alınar. Mən onu oxuyaram.

Biz birlikdə onun üstündə işlədik, sonra mən Nikolay Dobronravovdan bu musiqiyə şeir yazmasını xahiş etdim və "Qayıt, əzizim" adlı çox duyğulu bir mahnı alındı. Mən onu konsertlərdə oxuyurdum. Sonralar mən Sevilin başqa bir neçə mahnısını da ifa etmişəm..."

*On birinci fəsil*

## VİDALAŞMA

*Gedir ömür, bir də dönməz geri*
*Sev insanları - sevilərək yaşa.*

**Aşıq Ələsgər**

Heydər Əliyevdən müsahibə almış rusiyalı jurnalist onun çoxşaxəli fəaliyyətinin miqyasını gördükdə heyrətini gizlədə bilməmişdi: "Nəyin hesabına bu cür uğurlar əldə edirsiniz?" Heydər Əliyevin cavabı sadə oldu: "Öz işini sevmək lazımdır".

Bu lakonik izahı şərh edən jurnalist deyir: "O, fikrini sadəcə tamamlamadan ifadə etdi: "Öz işini sevmək lazımdır, mənim kimi". İş belə olanda, hər şey öz həllini tapır".

Başqa bir səciyyəvi dialoq. **"Jurnalist" qəzetinin baş redaktoru, Rusiya Jurnalistlər İttifaqının katibi Gennadi Malsevin** Heydər Əliyevlə etdiyi söhbət:

- *Gündə neçə saat işləyirsiniz?*
- Bu gün həftənin neçənci günüdür?
- *Şənbə.*
- Əgər mən şənbə günü işləyirəmsə... Siz sabah da mənim yanıma gələ bilərsiniz, mən burada olacağam. Mən necə işləyirəm? Başa düşürsünüz, mənim üçün saat yoxdur. Mənim həyatımda şənbə, bazar deyə bir gün yoxdur. Mən bu günləri işləyirəm. Özü də çox işləyirəm. Çünki, yerinə yetirilməli işlərin çoxu hələ yerinə yetirilməyib. Şənbə günü mən evə gələndə əgər görsəm ki, birinci günə qədər görüləsi təxirəsalınmaz çox iş var, onda mən bazar günü də işləyirəm. Bax belə, həmişə.

Yadımdadır, mən Azərbaycanda işləyərkən rəhmətlik həyat yoldaşım bəzən mənə deyirdi: "Qulaq as, sən ki, respublikanın rəhbərisən, sənin işə gedib-gəlməyini yoxlayan var?"

Mənim yoldaşım göz həkimi işləyirdi, professor, elmlər doktoru idi. Onun iş yerində belə bir qayda var idi: səhər işə gələndə hamı işə çıxma jurnalına imza etməli idi. Təbii ki, o da klinikaya gələrkən həmin jurnala qol çəkirdi. Mənə deyirdi: "Axı səni kim yoxlayır. Bizə nəzarət edirlər, ona görə də işə gecikəndə özümü pis hiss edirəm". Bir şəxsiyyət kimi onun hörmətini saxlayırdılar, üstəlik də mənim həyat yoldaşım idi... O, mənə deyirdi: "Sən niyə belə işə tələsirsən? Bir az sonra da gedə bilərsən. Ümumiyyətlə, niyə gedirsən axı? Axı bazar günü heç kim işləmir". Mən həmişə ona deyirdim: "Vərdişdir, başqa cür mümkün deyil".

Heydər Əliyevin türk **jurnalisti İrfan Ülküyə** verdiyi müsahibədən: "Yorğunluğun nə olduğunu mən bilmirəm. Bu, mənim təbiətimdədir, anadangəlmə olan bir şeydir. Hər gün on səkkiz - iyirmi saat işləyirəm. Mən sosialist iqtisadiyyatını, sosialist quruluşunu inkişaf etdirmək üçün çalışmışam, bu bir həqiqətdir və mən bunu gizlətmək, inkar etmək istəmirəm. Amma bu rejimdən istifadə edərək mən Azərbaycan xalqına çox şey vermişəm".

**Tanınmış yazıçı, jurnalist Elmira Axundova** Heydər Əliyevin həyat və fəaliyyətinə həsr etdiyi, onu yaxından tanıyan insanların çoxsaylı xatirələri və müşahidələrinin yer aldığı bədii-publisist kitabında mühüm dövlət tədbirlərinin təhlükəsizliyini təmin etmiş **Əkrəm Səlimzadənin** diqqətəlayiq bir xatirəsinə yer verir. Onun danışdığı epizodda Zərifə Əliyevanın öz yoldaşına, respublikanın rəhbərinə olan incə qayğısını səciyyələndirən bir ştrix də vardır:

"1980-ci ildə Sovet Azərbaycanının altmış illiyi qeyd olunurdu; ittifaq respublikalarının rəhbərləri - Rəşidov, Maşerov, Şevardnadze və başqaları xanımları ilə Bakıya gəlmişdilər. Təntənəli mərasimlər "Gülüstan" sarayında verilən banketlə tamamlanırdı; qonaqlar "Çayka"larda bir-bir gəlirdilər. Zərifə xanım Əliyeva da gəldi. Mühafizə rəisi Vladimir Bantserova yaxınlaşıb qayğılı halda dedi:

- Heydər Əliyev səhərdən bircə tikə də ağzına almayıb... Hətta səhər yeməyi də yeməyib. Mən çox narahatam.

- Narahat olmayın, yəqin, hardasa ayaqüstü bir şey yeyib.

- Yox, yox, siz onu tanımırsınız, mən əminəm ki, o, heç nə yeməyib..."

Sonra **Ə.Səlimzadə** liderlərin xanımlarından söz açır: "Rəşidovun arvadı qonaqlarla şənlənir, rəqs edir, xanım Şevardnadze "ətrafa gözəllik saçır", Zərifə xanım isə nigaran-nigaran, intizar içində donub qalıb. Nəhayət, Heydər Əliyev "Volqada" gəldi (əldə olan dörd "Çayka" yüksək qonaqların sərəncamına verilmişdi).

"Harda yubandın? Özünü necə hiss edirsən?" xanımının sualına cavab verə bilmir: qonaqlara başı qarışıb, hamı ilə bir-bir salamlaşır, zala dəvət edir... Zərifə xanım Bantserevi qonaqlara təqdim edir: "Bilirsiniz, bu kimdir? O, Heydər Əliyevlə bir kabinetdə oturur". Və xidmət işçiləri ilə mehribancasına sağollaşıb zala tərəf gedir.

Heydər Əliyev ailəsi ilə birlikdə respublikanın hüdudlarından kənara istirahətə getməyi xoşlayırdı. Düzdür, belə bir imkan, xüsusilə də o, DTK-da rəhbərlik etdiyi vaxtlarda nadir hallarda ələ düşürdü. Qızı Sevil xanım valideynləri ilə Leninqrada getdiklərini, oradan da maşınla Pribaltika respublikalarını gəzdiklərini xatırlayır. Bu 1966-cı ildə olmuşdur, onda Heydər Əliyev Moskvada DTK ali rəhbərlik kursunda oxuyurdu.

"Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabında **Elmira Axundova** Əliyevlər ailəsinin istirahəti və boş vaxtı barədə **Sevil xanımın** sözlərindən maraqlı detallar gətirir:

"Qışda bazar günləri biz şəhər kənarına çıxar, Zuğulbaya gedərdik... Yayda ora köçərdik. Yeganə ünsiyyətdə olduğumuz insanlar bağ evi qonşularımız olardı. Vitali Sergeyeviç və Nadejda Alekseyevna Krasilnikovlar *(Krasilnikov o dövrdə respublika DTK rəhbəri idi - H.M.)* bizim ailə dostlarımız idi. Biz tez-tez bir yerə yığışardıq, anam Nadejda Alekseyevna ilə, mən isə onların qızı Aneçka ilə dostluq edirdik. Atamla anam şənlənməyi, zarafatı, qonaqlığı xoşlardılar. Anam piano çalar, atamsa oxuyardı. Hamı şənlənərdi, əhvalımız əla olardı. Sonra çimərlikdə nahar edərdik.

Atam üzməyi xoşlayardı. Qardaşımla mən, demək olar ki, dənizdə böyümüşük. Mənim uşaqlığım DTK-nın Bilgəhdəki İstirahət evində keçib. Atam birinci katib olanda biz Zuğulbaya, onun şəhərkənarı rezidensiyasına köçdük. Əvvəl-əvvəl dostlarım üçün darıxırdım...

Atam məzuniyyət götürəndə biz ailəvi Yaltaya gedərdik. Orada hökumət bağ evləri var idi. Səhər yeməyini yeyib çi-

mərliyə gedirdik. Nahara ancaq qayıdırdıq. Atamın başı kağız-kuğaza qarışırdı, xüsusi rabitə ilə Bakıya zəng edərdi. Axşamlar filmə tamaşa edərdik. Valideynlərim arada Leonid İliçin bağ evinə gedərdilər, anam Viktoriya Petrovna ilə rəfiqə idi".

**Respublikanın Nazirlər Sovetinin keçmiş sədri Həsən Seyidovun Elmira Axundova** ilə söhbətindən şəhərkənarı rezidensiya sakinlərinin məişəti barədə bəzi detalları öyrənirik:

"..Bu bağ evinə biz Mir Cəfər Bağırovun vaxtında MK katibi, sonralar Nazirlər Sovetinin sədri olmuş "Teymur Quliyevin bağ evi" deyirdik.

Çoxlu meyvə ağacı olan böyük bir sahədə ikimərtəbəli bir ev tikilmişdi. Həmkarlarımızdan biri buranı "mədəni həbsxana" adlandırmışdı, çünki burada bir-biri ilə görüşənlər hamısı elə bir yerdə də işləyirdi. Ərazi ümumi idi, evlərin arasında hasar yox idi. Qonaq otağında arada hamımız bir yerdə kinoya baxardıq.

- *Siz Heydər Əliyevin ailəsi ilə qeyri-rəsmi şəraitdə görüşürdünüzmü? Birlikdə hər hansı bir şənlik, ya ad günü keçirirdinizmi? Şefiniz işdən kənarda necə adam idi?*

- Demək olar ki, biz ev şəraitində tez-tez görüşərdik, amma bu, şənlik və ya qonaqlıq olmazdı. Onun belə şeylərdən o qədər də xoşu gəlməzdi.

- *Bəs siz nə üçün görüşərdiniz?*

- Bayram günləri - Yeni il, 7 Noyabr, 1 mayda yığışardıq. O da həmişə yox.

- *Görüşləriniz necə keçirdi? Kiminsə evində qonaqlıqlar təşkil olunardı?*

- Niyə ki... bizim şəhərdə də, Zuğulbada da qonaq evlərimiz var idi. Beş ailə bir yerə yığışardıq. Əlbəttə, Heydər Əliyevin kefi kök olardı. Arada zarafat edərdi, lətifələr danışardı.

- *Nə haqda söhbət edərdiniz? İş haqda, yoxsa başqa mövzularda?*

- İş barədə çox az danışardıq... Çünki Zərifə xanım zarafatla deyərdi: "İşdən danışdınız, bəsdir". Gözəl fortepiano çalırdı. Elə bütün ailələri musiqicanlı idi. Zərifə xanımın bacısı Gülarə "Dan ulduzu" ansamblına rəhbərlik edirdi. Zərifə

xanım şənliyi çox sevərdi və yoldaşını özü müşayiət edərdi. Heydər Əliyeviç isə həvəslə oxuyardı.

- Onun repertuarında hansı mahnılar var idi?

- Ən çox azərbaycan mahnıları oxuyardı, amma rus mahnıları da bilirdi. Yadımdadır, 70-ci illərin ortalarında Bolqarıstan KP MK birinci katibi Todor Jivkov qızı ilə Bakıya gəlmişdi. Banket zamanı onlar ata-bala bir bolqar mahnısı oxudular. Onda Heydər Əliyev dedi:

- Gəlin biz də bir şey oxuyaq.

Və biz xorla "Moskva ətrafının gecələri" mahnısını oxuduq.

Kaş Heydər Əliyevin necə rəqs etdiyini görəydiniz - əsl sənətkar rəqqas kimi, istər milli Azərbaycan rəqsləri olsun, istər vals, istərsə də qərb rəqsləri..."

**Keçmiş Bakı dairəsi HQM qoşunlarının komandanı Anatoli Konstantinova** da Heydər Əliyevlə bir stol arxasında əyləşmək nəsib olub. Anatoli Ustinoviç xatırlayır: "Dostluq qəbullarında, banketlərdə Heydər Əliyev özünü dövlət xadimi kimi yox, sadə vətəndaş kimi aparırdı. Belə mərasimlərdə onlar Zərifə xanımla bir-birini gözəl başa düşürdülər. Zərifə xanım piano çalır, Heydər Əliyev isə bütün xanımlarla rəqs edirdi.

Bəzi rəhbərlər danışmağa başlayanda başqalarına imkan verməzlər. Burada isə hər şey başqa cür idi... Mən də çıxış edə bilərdim, həyat yoldaşım da, o cümlədən, başqa yoldaşlar da. Sağlıq deyər, müxtəlif maraqlı əhvalatlar danışardıq.

Hamı qeyd edirdi ki, onların arasında, həqiqətən, incə və həssas münasibət mövcuddur, Heydər Əliyev onu çox sevir və qiymət verirdi.

Onların çox mehriban ailəsi var idi. Rəqs etmə növbəsi çatanda Zərifə xanım aparıcı olurdu. Gah milli don geyər, gah şlyapa taxar, xülasə oyunu təşkil edərdi. Çox şən, zarafat sevən bir insan idi, Heydər Əliyev də ona qoşulardı.

Zərifə xanım Heydər Əliyevin çətin məqamda söykənə biləcəyi etibarlı arxa idi. Onların münasibətlərinin əsasını bir-birinə və ətrafdakılara hörmət təşkil edirdi. Heydər Əliyev həyat yoldaşının vaxtsız vəfatından sonra da bu prinsiplərə sadiq qalmışdır".

**Müslüm Maqomayev** xatırlayır: “Heydər Əliyev yoldaşına “Zəriş” deyirdi. Zərifə xanım onun ardınca daban-dabana gedərdi. Bizim yanımızda ona adı və atasının adı ilə müraciət edərdi: “Heydər Əliyev, bundan sizin üçün kifayət edər... Bundan sizə olmaz...” Bir dəfə belə bir hadisə olmuşdu. Mən bir məsələ barədə Heydər Əliyevlə danışmaq üçün Bakıya gəlmişdim. Çox da mühüm deyildi, amma mən məsələ barədə Heydər Əliyevlə danışacağıma söz vermişdim. Gələn kimi Rafael Allahverdiyevə[6] zəng etdim və dedim: “Heydər Əliyevə deyin ki, mən Bakıdayam”. - “Baş üstə”.

Mən bir gün, iki gün, üç gün gözlədim, bir xəbər çıxmadı. Axırda Zərifə Əliyevaya zəng etdim ki, Moskvada təcili işlərim var, yubana bilmərəm, amma Heydər Əliyevlə cəmi beşcə dəqiqə danışmaq lazımdır. Bu işdə mənə bir kömək edə bilməzsinizmi?”

“O, hələ səni qəbul etməyib? Bir dəqiqə gözlə”.

Yəqin mənim o biri tərəfdə hər şeyi eşitdiyimi unutmuşdu, o biri telefona Heydər Əliyevə narazılıq etməyə başladı: “Heydər, oğlan zəhmət çəkib ordan bura gəlib, məgər sənin ona beş dəqiqə vaxt ayırmağa imkanın yoxdur?” Bu sözlər elə bir tonda deyilmişdi ki, mən onların bir-birinə nə qədər yaxın olduğunu anladım. Onun tez-tez istifadə etdiyi “Heydər Əliyeviç” ifadəsi isə kənar adamların yanında etiketə riayət etmək üçün idi.

Zərifə xanım şənliyi, zarafatcıllığı sayəsində məclisin canı olardı. Ağıllı və həyatsevən idi, yaxşı musiqi duyumu var idi, qəşəng royal çalardı. Həkim olmasaydı, siyasətçi arvadı olmasaydı, yəqin ki musiqiçi olardı.

Elə Heydər Əliyev özü də yaxşı rəssam, aktyor ola bilərdi. O, əsl artistlərə xas olan qaydalara uyğun olaraq çıxış edirdi”.

**Sevil xanım** danışır:

“Heydər Əliyev plenumlarda, iclaslarda, sessiyalarda iştirak etmək üçün Moskvaya gedəndə Zərifə xanımı və uşaqları da özü ilə götürürdü. Atam bizsiz qala bilmirdi. Biz hər yerə dördümüz gedirdik. 1976-cı ildə o, Siyasi Büroya üzv se-

---

[6] Bakının o vaxtkı meri.

çiləndə biz də onun yanında idik. Elə sevinirdik ki, onunla fəxr edirdik!"

Atasının öz geyiminə, xarici görünüşünə çox ciddi və tələbkar olduğunu xatırlayan Sevil xanım danışır ki, onun üçün köynək seçmək müşkül iş idi, çünki yalnız müəyyən tikişli köynəklər xoşuna gəlirdi. Klassik stilə üstünlük verirdi, köynəyin yaxalığı qalstukun düyününə tam uyğun olmalı idi...

"Onun üçün köynək və qalstukları anam alırdı. O, parlaq, açıq rəngli qalstukları sevirdi, deyirdi ki, onlar sifətə yaxşı rəng verir. Onun üçün qalstuk seçməkdə mən həmişə çətinlik çəkirdim: rəng, naxışlar, düyün - gərək hamısı ürəyincə ola idi. Yadımdadır, Londondan ona bir neçə açıq mavi qalstuk alıb gətirmişdim. O qədər xoşuna gəlmişdi ki, hər gün yenisini taxır və mənə deyirdi: "Görürsən, hər gün sənin gətirdiyin qalstuklardan birini taxıram".

**V.P. Nesterov** və **A.F. Brovkina** yazırlar ki, son günlərinədək Zərifə Əliyeva işdən ayrılmadı. "Ağır xəstəliyə baxmayaraq, vəfatından bir neçə gün əvvəl o, telefonla xəstəxanadan bizimlə danışdı, əsasən ailədən, işdən söhbət etdik. Zərifə Əliyeva kafedra və laboratoriya rəhbəri, istedadlı alim, həkim və pedaqoq olmaqla yanaşı, qayğıkeş qadın, ana, nənə idi.

Biz otuz ildən çoxdur ki, klinikada işləyirik və çox xəstə görmüşük. Xəstəlik zamanı insanın xarakteri daha açıq təzahür edir. Bəziləri özünə qapanır, heç kəslə danışmır, digərləri yalnız xəstəliklərini düşünür, bir qismi naz edir, ətrafdakılara qarşı həddən artıq tələbkar olur.

Ağır xəstə olduğu dövrdə Zərifə Əliyeva öz ləyaqətini və ruh möhkəmliyini tam həcmində göstərdi".

**M. M. Krasnov** da Zərifə Əliyevanın mətanətini və həyatsevərliyini qeyd edir: "O, xəstəliyi ilə necə də mübarizə aparırdı!.. Müalicə ağır idi, əziyyət verirdi. Adamı təkcə fiziki cəhətdən yox, psixoloji cəhətdən də taqətdən salırdı. Ancaq nə mən, nə də tanışlarım bir dəfə də olsun onun kiçik bir şikayətini belə eşitmədik. Son anlarına qədər Zərifə Əliyeva gələcək planları ilə yaşayırdı. Ölümün gəlişini hiss edirdimi? Demək çətindir. Ölümün yaxınlaşmasını hiss edən xəstələrin əksəriyyəti elə bil həyatdan əl götürürlər, naümidliyə düşürlər, hətta özləri ilə insanlar



Zərifə xanım, *1948-ci il.*



Zərifə xanım Əliyeva oftalmoloqlar konfransında çıxış edir, *18 oktyabr 1977-ci il.*

Zərifə xanım Əliyeva oftalmoloqlar konfransının iştirakçıları ilə, *18 oktyabr 1977-ci il.*





Zərifə xanım Əliyeva oftalmoloqlar konfransında,
*18 oktyabr 1977-ci il.*

Zərifə xanım Əliyeva oftalmoloqlar konfransının iştirakçıları ilə,
*18 oktyabr 1977-ci il.*





Professor-oftalmoloq Zərifə xanım Əliyeva
Moskvada kitab sərgisində, *1979-cu il.*

Zərifə xanım Əliyeva həmkarları ilə
"Azərbaycan qadını" jurnalının əməkdaşlarını qəbul edir, *1980-ci il.*





Zərifə xanım Əliyeva piano arxasında. *Fotoportret, 1981-ci il.*





Zərifə xanım Əliyeva SSRİ Ali Sovetinə seçkilər zamanı seçki məntəqəsində, *1977-ci il.*

Zərifə və Heydər Əliyevlər, *1981-ci il.*



Zərifə və Heydər Əliyevlər Rusiyada Azərbaycan musiqi mədəniyyəti xadimlərini qəbul edir, *1981-ci il.*

Zərifə və Heydər Əliyevlər respublika alimləri ilə, *1982-ci il.*







Zərifə xanım Əliyeva Əziz Əliyev adına Azərbaycan Həkimlərin Təkmilləşdirilməsi İnstitutunda Əziz Əliyevin yubileyinə həsr edilmiş təntənəli yığıncaqda, *1982-ci il.*

Zərifə xanım Əliyeva, *1981-ci il.*



İlham Əliyev və Mehriban xanımın nişanı, *1982-ci il.*

Heydər Əliyev və həyat yoldaşı Zərifə xanım,
Arif Paşayev və həyat yoldaşı Aida İmanquliyeva
İlham və Mehribanın kəbin günündə, *22 yanvar 1983-cü il.*





Zərifə xanım Əliyeva ailəsi ilə, *1983-cü il.*



Zərifə xanım Əliyeva ailəsi ilə, *1983-cü il.*

Zərifə və Heydər Əliyevlər ailəsi ilə, *1983-cü il.*





Zərifə və Heydər Əliyevlər nəvələri Zərifə ilə, *1982-ci il.*

Zərifə və Heydər Əliyevlər, *1984-cü il.*





Zərifə və Heydər Əliyevlər nəvələri Leyla ilə, *1984-cü il.*




"... mənim üçün bir sərvətim var - qəlbimi isidən təsvirin sənin".

Mehriban xanım Əliyeva Zərifə xanımın məzarının yanında.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anasının məzarı önündə.

Əliyevlər ailəsinin yaşadığı ev və akademik Zərifə xanım Əliyevaya həsr edilmiş xatirə lövhəsi. *Heykəltəraş Ömər Eldarov.*






... 18 il sonra iki sevən ürək əbədi qovuşdu.
*Heykəltəraş Ömər Eldarov, 1989-cu il.*

arasında görünməz bir xətt çəkirlər. Burada isə vəziyyət tamamilə başqa cür idi. Bəlkə də Zərifə Əliyeva bilirdi ki, xəstəliyinə əlac yoxdur, amma bunu ətrafdakılara göstərmək istəmirdi.

1984-cü ildə Tibb işçisi günü qeyd olunurdu. Bu elə bir vaxt idi ki, Zərifə Əliyeva o məşum xəstəliklə mübarizə aparırdı və bu xəstəliyin sağalmaz olduğunu az adam bilirdi. Mən rəyasət heyətində oturmuşdum. Birdən onu zalda çox sevdiyi rəfiqəsi ilə (o da çox istedadlı, qeyri-adi qadın idi) yanaşı oturduğunu gördüm. İkisi də şirin-şirin söhbət edir, bir-biri ilə danışmaqdan həzz alaraq gülürdülər. Zərifə Əliyeva bu qədər gücü, həyat eşqini haradan alırdı? Vəfatından iki həftə əvvəl uzaq yola ezamiyyətə hazırlaşırdı: “Aspirantlarıma kömək etmək lazımdır!”

**Nəriman Həsənlinin** kövrək xatirələrindən: “Novodeviçye qəbristanlığı. Bu, pravoslav xristian dünyasının Kəbəsi, Məkkəsi, Mədinəsidir. Burada türk dünyasının iki şəxsiyyəti uyuyur: dahi şair Nazim Hikmət... və tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, respublikada səhiyyənin dahi təşkilatçısı, tibb doktoru Əziz Məmmədkərim oğlu Əliyevin qızı, müasir dövrün görkəmli ictimai-siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin həyat yoldaşı.[7]

Hər cümə axşamı xalqımızın unudulmaz, sevimli və möhtərəm qızının qəbrinin üstünə Bakı qərənfilləri, qızılgülləri qoyulur...

Mən o yağışlı, çiskinli günü heç vaxt unutmayacağam. Adama elə gəlirdi ki, Azərbaycan torpağının bütün çiçəkləri Novodeviçye qəbristanlığında həmvətənimizin son mənzili qarşısında fəxri qarovulda dayanıb. Buraya, tanınmış Moskva qəbristanlığına azərbaycanlı ziyalılar, fəhlələr, kəndlilər gəlmişdilər...

Vida mərasimi başa çatanda möhtərəm bir ağsaqqal Heydər Əliyevə yaxınlaşdı və bizim yaşlılara xas olan müdrikcəsinə aramla dedi:

---

[7] Sonradan Zərifə xanım Əliyevanın nəşi Bakıya gətirilmiş və Fəxri xiyabanda dəfn edilmişdir.

- Heydər, oğlum, başını dik tut! Sən böyük millətin fəxri və timsalısan! Mən də müharibədə dörd oğul itirmişəm, başqa itkilərim də az olmayıb... Buna görə də, bir ağsaqqal kimi deyirəm: başını dik tut, dağ zirvəsi kimi, sən türk millətinin əziz oğlusan; Bəxtiyar Vahabzadə Almaniyada iki yüz iyirmi min türk fəhlənin əlində "Türklüyün oğlu - Sovet İttifaqının lideri" transparantları ilə - Maqdeburqda, Bonnda, Frankfurtda nümayişə çıxdıqlarını öz gözləri ilə görmüşdür... İnsan dərdə mətanətlə dözməlidir. Sənin kimi bütün dünyada tanınmış və məşhur dövlət xadimi, adı dillərdə əzbər olan bir şəxsin bir dostu varsa, beş də düşməni var, oğlum! Allah Zərifə xanıma rəhmət eləsin! Qəbri nurla dolsun! Bu qədər adamı Moskvaya sən gətirmisən, mən də yüz minlərlə səni sevənlərdən, adınla fəxr edənlərdən biriyəm..."

Zərifə Əliyevanın qardaşı, **respublikanın Səhiyyə Nazirliyi Onkologiya elmi mərkəzinin direktoru, akademik Cəmil Əliyevin** xatirələrindən:

"Mən bu cür xoşrəftar, qayğıkeş, mehriban bir insan, bu qədər ürəyiyanan bir bacı, şəfqətli və nəvazişli bir ana, sadiq və fədakar həyat yoldaşı, şərəfli, vətənpərvər, ləyaqətli və xeyirxah bir türk qadını tanımıram. Arzu edərdim ki, bütün Azərbaycan qadınları, mənim övladlarım da onun qalxa bildiyi saflıq və təmizlik zirvəsində olsunlar...

Mən hətta bu yaxınlarda onun haqqında yazı yazmaq istəyən "Aydınlıq" qəzetinin redaktoru Dərviş Cavanşirə dedim: "Mən çox istərdim ki, mənim gəlinim də onun kimi olsun. "Can" kəlməsi dilindən düşməzdi. O, mənə bacı yox, ana olub... Hansı insani keyfiyyətindən danışım ki? Məgər onun nəcibliyini, böyük ürəkliliyini, gözəl, yaxşı əməllərini sayıb qurtarmaq olar? Bacım əfsanəvi təbib - loğman kimi səmimi qəlbdən xalqın qeydinə qalırdı, sağaltma vasitələrini axtarırdı və tapırdı...

Mən çətin əməliyyat keçirdim. Appendisit götürüldükdən sonra fəsad əmələ gəlmişdi. Məni həyata qaytaran bacım Zərifə və Heydər Əliyev olmasaydı, mən indi sizinlə söhbət edə bilməzdim. Həmin günlər bacım yuxu və istirahət bilmədən daim yanımda idi, ürək-dirək verir, sakitləşdirirdi. Nəhayət, onun qayğısı, canıyananlığı və şəfqəti sayəsində mən ölümün pəncəsindən xilas ola bildim.

Onun ailə üzvlərinə - Sevilə, İlhama, nəvələrinə (Leylaya, Arzuya) qarşı çox həssas, son dərəcə incə münasibəti var idi. Xəstəliyinin şiddətləndiyi o ağır günlər kino lenti kimi gözümün qabağından keçir. Hamını sakitləşdirirdi: "Mən yaxşıyam, özümü lap yaxşı hiss edirəm, narahat olmayın. İlham, Sevil, Mahmud gedin, işinizlə məşğul olun, işinizdən qalmayın. Mənə görə ürəyinizi sıxmayın..." Yaxınları, qohumları baş çəkməyə gələndə onları sağlam olduğuna inandırmağa çalışırdı, yatağından qalxır, otururdu. Bir həkim kimi, mən bilirəm ki bu, onun üçün nə demək idi. Heç vaxt yadımdan çıxmaz... bacımın zəif, sakit, amma əvvəlki mehribanlığını itirməmiş səslə dediyi son sözləri indiyə qədər qulaqlarımdadır...

O, günü-gündən göz qabağında şam kimi, sakit ulduz kimi əriyirdi. Mənim bacım Zərifə sönürdü. O, yazda dünyaya gəlmişdi və doğum gününə bir ay qalmış sonsuz dərəcədə çox sevdiyi insanlardan ayrılaraq gözlərini əbədi olaraq yumdu...

Hamımız hiss edirdik ki, dünyada onun üçün ayrılmış vaxt başa çatmaq üzrədir, o, son günlərini, saatlarını yaşayır. Yazda dünyaya gəlmiş bacım sevdiyi çiçəklərin əhatəsində idi... Mənə elə gəlir ki, o özü də bu dünyaya haradansa, güllərlə, nərigizlərin ətri ilə dolu, son dərəcə gözəl və təsvirə sığışmayan bir aləmdən gəlmişdi... Və o yaz günü - 15 aprel 1985-ci ildə bacım, Azərbaycan güllərinin əhatəsində Moskva qəbristanlığında əbədi olaraq həmin güllər və çiçəklər səltənətinə geri döndü..."

Həmin aprel günlərində Azərbaycan poeziyası da Zərifə xanıma yas tutmuşdu. Moskvada olan **Azərbaycan xalq şairi Bəxtiyar Vahabzadə** "Mərsiyə-rekviyemində" dərin hüznlə yazırdı:

... Qəmli insan seli axışıb gəlir,
Başlar üstə gül kimi açılmış çətir.
Dolsun, qoy, nur ilə məzarın sənin!
Novodeviçye oldu hüzur məskənin.
Sən halal haqqınla qazandın şərəf,
Şər şöhrət, xeyirsə hörmət gətirər.
İnsandan dünyada qalar əməllər.
Başı üstə izdihamın tabut deyil üzüb gedən,

Nə də əbədi dövrəni bitirən gəmi,
Ruhun ucalan taxtıdır gedən!
Qara geyinibdi səma yaz günü.
Həzin yaş tökülür qəmli gözündən.
Ətrafa yayılır "Sənsiz" sədası,
Sənə ağı deyir Üzeyir romansı.[8]

Bu ağır itkiyə digər dahi şair, Azərbaycan ədəbiyyatının patriarxı Süleyman Rüstəm də biganə qalmamışdı. Zərifə xanımın xatirəsinə həsr olunmuş şerində o, Heydər Əliyevə baş sağlığı və təskinlik ifadə edən sözlərlə müraciət edir:

Hüzn və kədərlə doludur qəlblər,
Səbr diləyirilər sənə, ey əziz Heydər.
Bilirəm, kədərin, dərdin ağırdır,
Amma çalış, əymə dik tut başını.

Bilirəm, qəlbinin yarası dərin
Duyuram canımla, deyir gözlərin,
Ondakı nəciblik, saflıq, təmizlik
Səninçün olacaq daim təskinlik...

**Alimə Əliyeva** bu əvəzsiz itki gününü xatırlayır: "Aprelin 15-ində Moskvadan gələn ağır və qəfil xəbər mənim üçün əməlli-başlı ağır bir zərbə idi. Mənəvi anamın vəfat xəbəri məni ildırım kimi vurdu. Elə bil, dünya boşaldı və mən yetim qaldım. Əziz, sevimli, büllur qədər təmiz, əvəzolunmaz Zərifə xanım dünyasını dəyişmişdi... Mən doğma anam kimi ona yas saxladım.

...Böyük qardaşım Moskvada idi. Mən yasda iştirak edə bilmədim, çünki bir az ondan əvvəl ağır xəstəlik keçirmişdim, ona görə həkimlər təyyarə ilə uçmağa icazə vermədilər. İndiyə qədər ürəyimdə yeri göynəyir bunun. Mən onun ailəsinə və övladlarına teleqram göndərib başsağlığı verdim. Mənə xəbər verdilər ki, dəfni televiziya ilə göstərirlər. Göz yaşı içində baxdım o kadrlara.

Gəlinimlə oğlum Novodeviçye qəbristanlığını ziyarət etmiş, onun məzarı üstünə ailəmiz adından gül qoymuşlar.

---

[8] *Üzeyir Hacıbəyov* - böyük Azərbaycan bəstəkarı

[9] Şeirləri rus dilinə Səyavuş Məmmədzadə tərcümə etmişdir.

Zərifə xanımın qəfil gedişi çox qəlbi dərdlə qovurdu... Mən indiyə qədər inana bilmirəm ki, bir daha onu görə bilməyəcəm, onun doğma, mülayim səsini, məsləhətlərini eşitməyəcəyəm. Amma Zərifə xanım fiziki olaraq yanımda olmasa da, ruhən həmişə mənimlə olacaq.

Təkrar və təkrar Heydər Əliyevə dualar oxuyuram ki, öz həyat yoldaşına məhəbbətini bir daha göstərib onun nəşini doğma torpağına gətirdi və burda əbədi hüzura qovuşdurdu.

Fəxri xiyabana tez-tez gedirəm, məzarı önündə baş əyirəm, onun üçün dua edirəm.

İyirmi dörd il keçir, amma mən hələ də bu itki ilə barışa bilmirəm.

...Ürəyim sıxılanda, darıxanda onun yanına gedirəm. Mərmər heykəlin qarşısında dayanıb ona baxıram. Baxıram, doya bilmirəm. Rahat yat! Qəbrin nurla dolsun! Səni qucağına alan bu doğma torpaq sənin üçün cənnət olsun!”

*On ikinci fəsil*

# İNSANLAR ÜÇÜN MİRAS QOYULMUŞ NUR

*Əbədi atəşdir, heç zaman sönməz*
*Sevgi və səadət, həqiqət, dühа.*

**Səməd Vurğun**

"İki sahil" qəzetinin müxbiri, səksəninci illərdə AzTV xəbərlər redaksiyasında işləmiş **Telman Qafar** Zərifə Əliyeva ilə Moskvada qəmli vidalaşma anlarının şahidlərindən biridir:

"Məlum olanda ki, cənazə Alimlər evində qoyulacaq və dəfn Novodeviçye qəbristanlığında olacaq, Moskvaya təcili surətdə iki operator qrupu göndərildi. Zərifə Əliyeva ilə kədərli vidalaşma və onun dəfn kadrları indiyə qədər gözümün qabağındadır.

Vida mərasiminə Qorbaçovun həyat yoldaşı Raisa Maksimovna da gəlmişdi. Cənazənin baş tərəfində Heydər Əliyev, sağda və solda isə İlham və Sevil durmuşdular. Yüz minlərlə insan bu gözəl qadını son mənzilə yola salırdı.

Zərifə xanım isə Azərbaycandan gətirilmiş qərənfil və qızılgül dənizində qərq olaraq elə bil, gül-çiçəyin içində yuxuya dalmışdı. Bütün ölkəmiz televiziya ekranlarına baxaraq, onun üçün ağlayırdı.

Azərbaycandan gəlmiş, Moskvada və SSRİ-nin müxtəlif şəhərlərində yaşayan on minlərlə insan, həmvətənlərimiz ta qəbristanlığa qədər tabutu çiyinlərində apardılar. Deyirlər, Moskva hələ bu cür izdihamlı dəfn prosesi görməmişdi. Son anlarda mən Zərifə Əliyevanı Müslüm Maqomayevin oxuduğu "Sənsiz" romansının həzin sədaları altında gördüm".

**P. Məlikaslanova** xatirələrində yazır:

"Azərbaycanın elm aləminə, ziyalılarına ağır itki üz vermişdi. Görkəmli oftalmoloq həyatdan vaxtsız getmişdi və

biz bu itkini hələ uzun müddət hiss edəcəyik. Hələ bir az bundan əvvəl Oftalmoloqlar Cəmiyyətinin iclasında biz akademik M.İ. Averbax adına mükafatın laureatı fəxri adını alması münasibəti ilə Zərifə Əliyevanı təbrik edir, ona həmişə belə hallarda olduğu kimi, uzun ömür, yaradıcılıq fəaliyyətində uğurlar diləyirdik... Bizim sevimlimiz Zərifə Əliyeva isə həmişəki sadəliyi və təvazökarlığı ilə hamımıza minnətdarlığını bildirmişdi. Mənim onda heç xəyalıma da gəlməzdi ki, biz əslində, onunla vidalaşırıq, tezliklə o, bizi tərk edəcək...

Mən xəstələrin üzlərindən görürdüm ki, Zərifə xanım onları necə sakitləşdirir, necə ürək-dirək verir, çəkdikləri əzabı unutdurmağa çalışır. Çox güman ki, bir çox pasientin sağalmasında təkcə terapiya yox, onun məntiqinin gücü də, dəlillərinin inamlılığı da böyük rol oynamışdır. Onun nadir inandırma qabiliyyəti var idi, ən çətin məqamda o, xəstəni ayağa duracağına inandıra bilirdi. Mən bunu öz üzərimdə sınaqdan keçirmişəm...

İnsanlar onun yanına cürbəcür xahişlərlə gəlirdilər. Onun necə səbrlə dinlədiyi, gücü çatdıqda kömək etdiyi, heç kəsə qarşı, xüsusilə də yardıma ehtiyacı olanlara qarşı laqeyd qalmadığı mənim yaxşı yadımdadır. Qonşularının qəddarcasına incitdiyi yaşlı bir xadiməmiz vardı. Zərifə Əliyeva həmin qonşuları yanına çağırdı və çox incə şəkildə o qadını bir daha incitməmələrini onlardan xahiş etdi. Sonra həmin qadın Zərifə xanıma təşəkkür etməyə gəlmişdi. Söz-söhbətdən, əziyyətlərdən zinhara gəlmiş qadının üzü gülürdü, özünü yenə də insan hiss edirdi.

Zərifə xanım həmişə tələsirdi, elə bil taleyin ona qarşı simiclik etdiyini və ömrünün az qaldığını hiss edir, buna görə də hələ görülməli çox iş olduğunu düşünürdü. Həqiqətən də, o, istər elm sahəsində, istərsə də praktik həkimlik fəaliyyətində zirvələri qət etmişdi. Zərifə Əliyeva çox gözəl pedaqoq idi, öz bilik və təcrübəsini həvəslə bölüşürdü. Görmə orqanının patologiyasına həsr olunmuş mühazirələri xüsusilə məzmunlu idi, daim tədrisin əyaniliyinə çalışaraq həmin mühazərələrə çox diqqət verirdi. Alim oftalmoloq və gözəl insan, prinsipiallıq, təvazökarlıq, yüksək mədəniyyət, qəlbən mehribanlıq və açıq rəftarlılıq onda çox harmonik şəkildə birləşmişdi. Onun kabinetinin qapıları ondan məslə-

hət, ağıllı bir nəsihət almaq istəyən hər bir kəs üçün taybatay açıq idi. O da həkim klinistin zəngin təcrübəsini ona müraciət edənlərlə səxavətlə bölüşürdü. Yüksək erudisiyalı, dərin tədqiqatçı, maraqlı insan, ağıllı həmsöhbət, incə yumor qabiliyyətinə və intellektə malik - mən Zərifə Əliyevanı belə tanıyırdım. Geniş bilik və təcrübəsi, öz peşəsinə məhəbbət və xeyirxahlığı ilə o, yoldaşları, həmkarları və əməkdaşları arasında nüfuz qazanmışdı. O, büllur qədər saf və təmiz bir insan idi, onun ağ xalatı sona qədər təmiz qaldı, üzərinə zərrəcə də ləkə düşmədi".

**Tibb elmləri doktoru, professor Z.M. Skripnenko** Zərifə Əliyeva ilə uzun illər əməkdaşlıq və yaxın dostluq etmiş bir insan kimi öz memuarlarında bu qeyri-adi qadının, alimin, dostun, sağalmaz xəstəliyin günü gündən əritdiyi, ən çətin günlərində belə çəkdiyi əzabları və ağrıları gizlədərək əzizlərinin və yaxınlarının həyəcan və nigaranlığının qarşısını almağa çalışan bir insanın obrazını canlandırır...

"Zərifə Əliyeva məni Bakıya dəvət etmişdi. Mən onun mehribanlığını, səmimiliyini, dünyagörüşünün genişliyini xüsusilə hiss etdim. Biz apardığımız tədqiqatların nəticələri barədə fikir mübadiləsi etdik. Azərbaycanın kənd təsərrüfatı zəhmətkeşlərinin görmə orqanlarına preparatların təsirinin tədqiq edilməsi üçün geniş klinik eksperimental araşdırma aparılması ideyası ortaya çıxdı. Belə söhbətlərdən birində iştirak edən Heydər Əliyev bu cür araşdırmaların mühümlüyünü və aktuallığını qeyd etdi və dəyərli məsləhətlər verdi. Təbii ki, görmə orqanlarının peşə intoksikasiyası mövzusundan, onun tibbi ədəbiyyata qətiyyən qeyd edilmədiyindən yan keçə bilməzdik. Buna görə də biz professional oftalmotoksikoz məsələləri ilə bağlı monoqrafiya yazmaq qərarına gəldik. Bu elmi əsər həm oftalmoloqları, həm də kimyəvi zavodların sanitar həkimlərini maraqlandırmalı idi.

Mən Bakını yeni yaradıcılıq planları ilə tərk edirdim. Bundan həm sevinirdim, həm də həyəcanlanırdım. Elmi maraqları mənimkilərlə üst-üstə düşən bir alimlə görüşmək mənim üçün çox xoş idi. Üstəlik də o, üzügülər, açıq, xoşrəftar və eyni zamanda da təvazökar insan idi. Bir mütəxəssis kimi, Zərifə Əliyevanın kitabxanasında səhiyyənin müxtəlif məsə-

ləri barədə, hətta oftalmologiyanın hüdudlarından kənara çıxan məsələlər barədə ən yeni nəşrləri görmək xoş idi.

İşinin çox olmasına baxmayaraq o, ailəsinin də qayğısını çəkirdi. Həmin vaxtlar Moskvada oxuyan oğlu İlhamın evdən, ailədən uzaqda olması onu çox narahat edirdi.

Zərifə Əliyeva tibb professoru olan atasını həmişə ehtiramla yad edirdi və onun yaxşı xüsusiyyətlərini övladlarına da aşılamağa çalışırdı. Oğluna hədiyyə etdiyi Əziz Əliyev haqqında kitaba yazdığı kövrək hədiyyə sözləri də buna şahidlik edir.

...Onun elmi maraq dairəsi çox geniş idi. O, xüsusi dəftərə yeni kitab haqqında fikirlərini, toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərin tezislərini, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulmuş mühazirələri yazardı.

Həmin dövrdə biz birgə işimizi - Ukraynada keçiriləcək oftalmoloqlar qurultayı üçün məruzəmizi tamamladıq. Zərifə Əliyeva qurultayın işində mütləq iştirak etmək və Odessa ilə tanış olmaq istəyirdi. Nə mənim, nə də ətrafdakıların heç ağlına da gəlmirdi ki, o ağır xəstədir. Həmişəki kimi gülümsər, işgüzar idi. Üzündən, simasından, xarici görünüşündən xəstə olduğunu deməzdin.

Lakin o, Odessaya, oftalmoloqların qurultayına gələ bilmədi. Məktubundan bildim ki, uzun müddət xəstə olmuş və elmi işini tamamlaya bilməmişdir. Amma o, ümid edirdi ki, tezliklə sağalacaq və Odessaya gələ biləcək. Kitab üzərində işi barədə müfəssəl məlumat verirdi.

1984-cü ilin qışında biz Zərifə Əliyeva ilə yenə də görüşdük. Onu ağır xəstə görəndə ürəyim sıxıldı. Amma əhval-ruhiyyəsindən və davranışından fəlakətin yaxında olduğunu hiss etmək mümkün deyildi. O, yenə özünə xas olan həvəslə Bakı məişət kondisionerləri zavodunda aparılan tədqiqatlar barədə, stirol və tetraxloretilen buxarlanmasının təsirinə məruz qalan işçiləri necə müalicə etdikləri barədə danışırdı. Öz torpağının həqiqi qızı kimi o, Azərbaycanla yaşayırdı, xalq təsərrüfatının aparıcı sahələrində peşə oftalmopatologiya barədə araşdırmalar aparırdı.

Bu çox maraqlı professional söhbət əsnasında o, məni genişlənmiş ailəsinin yeni üzvləri ilə tanış etdi. Onun sözlərindən və üzünün ifadəsindən qeyri-adi hərarət və sevgi oxu-

nurdu. Adaşı balaca Zərifənin qardaşı doğulmuşdu, İlhamın da övladı dünyaya gəlmişdi. Körpəni qucağında tutan Sevil həyəcanını gizlətməyə çalışaraq anasına baxırdı. Balaca Zərifə isə heç cür nənəsindən ayrılmaq istəmirdi. Moskvadan gəlmiş İlham əvvəl anası ilə görüşdü. Düzdür, evdə həyəcan, gərginlik hiss olunurdu, amma heç kim razılaşmaq istəmirdi ki, vəziyyət ümidsizdir. Bu dəfə Zərifə Əliyeva ailəsi haqqında - bütün qəlbilə sevdiyi əri, övladları, nəvələri haqqında daha çox danışdı.

Axşam xudahafizləşəndə o, qızının və nəvələrinin əhatəsində idi. Mən heç təsəvvür də etmirdim ki bu, bizim son görüşümüzdür. Zərifə Əliyeva tezliklə Moskvaya getməli idi. Nəhayət bu, "tezliklə" gəlib çatdı: telefon zəng çaldı və mən öyrəndim ki, o xəstəxanadadır. Gün ərzində biz bir neçə dəfə telefonla danışırdıq. Şərtləşmişdik ki, həkimlər icazə verən kimi mən xəstəxanaya gələcəyəm. Gecədən xeyli keçənə qədər telefonun yanında növbə çəkirdim. Gecə hətta ona məktub yazdım. Səhər artıq başa düşəndə ki, görüşə icazə verməyəcəklər, evə döndüm. Odessadan zəng edib halını soruşduqda isə yalnız bir cavab verirdilər: o, xəstəxanadadır...

1985-ci ilin fevralında son məktubunda Zərifə Əliyeva artıq açıq və ciddi şəkildə xəstəliyi haqqında söz açmışdı. "Xəstələnmək asandır, sağalmaq çətin!" Yaxınlarına əziyyət verdiyinə görə daha çox narahat idi. Əvvəlki kimi, elmə ciddi maraq göstərir, həyata, insanlara sevgi ilə baxırdı... Bildirirdi ki, uzun müddət xəstəxanada qaldıqdan sonra axır ki, həkimlər onu bir həftəliyə evə buraxırlar.

Kitab üzərində bundan sonra işləməyi Zərifə Əliyeva mənə tapşırdı və xahiş etdi ki, materiallar hazır olan kimi, Moskvada və ya Odessada görüş vaxtını müəyyənləşdirmək üçün qabaqcadan ona xəbər verim...

Zərifə Əliyevanın vəfat xəbərini mən gec aldım və inanmadım. Amma təəssüf, dərc olunmuş nekroloq bu acı faktı təsdiq edirdi.

Qəbristanlıqda, onun məzarı önündə durub qəmli-qəmli fikirləşirdim: həyat mənə çox erkən, hələ müharibə illərində dost itkisinin acısını daddırmışdı . Amma belə itkilərə öyrəşmək olmurmuş, il keçdikcə itkini daha artıq hiss edirsən..."

**İlham Əliyevin** 1995-ci ildə "Günay" qəzetinə verdiyi müsahibədən xülasə. Burada oğul məhəbbətindən, sevimli ananın itirilməsindən söhbət gedir, bu sözləri laqeydliklə oxumaq olmur:

" - *Siz dediniz ki, məktəbə altı yaşınızda getmişsiniz. Onda sizi məktəbə kim apardı, əlinizdən kim tutdu?*

- Anam.

- *Zərifə xanım xatirənizdə necə qalıb?*

- Ən əziz adam kimi. O, vəfat edəndən sonra istər mənim həyatım, istərsə də ailəmizin həyatı dəyişdi. Yəni mən daha qabaqkı kimi, onun sağ olduğu vaxtlardakı kimi gülə bilmirəm. Vəfatından on ildən çox keçsə də, indi də həyatımda sevindirici bir şey olanda deyirəm ki, o da kaş buna sevinə biləydi. O, vəfat edəndə mənim böyük qızımın bir yaşı var idi. Mənim qızlarımın nənələrini görməmələri onların tərbiyəsi üçün böyük itkidir..."

**Azərbaycanın Milli Məclisinin deputatı, aqrar siyasət Komitəsinin sədri Eldar İbrahimov** Əliyevlər ailəsini çox yaxından tanıyıb və həmişə ehtiramlarını saxlayıb. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına rəhbərliyini ələ aldığı vaxtlarda Azərbaycanın mərkəzi rəhbərliyinin sərəncamı ilə Naxçıvan ciddi nəzarət altına alındı. Bakı ilə əlaqə saxlamaq çətin idi. Təyyarə ilə Naxçıvandan Bakıya gedən adamlar ciddi yoxlamaya, sorğu-suala məruz qalırdılar, onların telefon danışıqları dinlənirdi.

Eldar İbrahimov Azərbaycan Ali Sovetinin deputatı olduğuna görə bu süründürməçilikdən yan keçə bilirdi. O, yaradılan "Yeni Azərbaycan" partiyası ilə bağlı, Muxtar Respublika rəhbərliyinin müəyyən tapşırıqlarını müvafiq təşkilatlara verməklə bağlı, Ali Sovetin sessiyalarında iştirakla bağlı tez - tez Bakıya gedib gəlirdi...

1993-cü ilin aprelinin sonunda növbəti dəfə Bakıdan Naxçıvana qayıdarkən təyyarədə "Səs" qəzetini nəzərdən keçirən Eldar İbrahimovun gözü akademik Zərifə Əliyevanın 70 illiyinə həsr olunmuş müsahibəyə sataşır. Tamerlan və Cəmil Əliyevlərin unudulmaz bacıları barədə sözlərini oxuyan Eldar İbrahimov, özü dediyinə görə, o qədər kövrəlir ki, göz yaşlarını saxlaya bilmir.

Bu müsahibələrdə qəddar xəstəliyin belə faciəli şəkildə və erkən bitirdiyi həyatını insanlara nəcib xidmətə həsr etmiş böyük və parlaq şəxsiyyətin cazibəsi verilmişdi...

Naxçıvana gəldikdən sonra E. İbrahimov Heydər Əliyevin yanına gəlir, aldığı tapşırıqlar və "Səs" qəzetindəki müsahibə barəsində məlumat verir. Heydər Əliyev mətni ucadan oxumağı xahiş edir. Eldar müəllim təyyarədə oxuyarkən necə qəhərləndiyini etiraf edir və üzr istəyərək deyir ki, ikinci dəfə oxusa, lap pis olacaq... Heydər Əliyev özü oxumağa başlayır. Eldar İbrahimov onun oxuduqca qəhərləndiyini görüb ədəblə kabineti tərk edir. "Bir azdan o, məni yenə də kabinetə çağırdı və niyə çıxdığımı soruşdu və əlavə etdi: "Sən nə həssas qəlbli adamsan, Eldar. Bu müsahibə məni o qədər kədərləndirdi ki, ötən günlər yadıma düşdü..." Mən də məhz onun Zərifə xanım haqqında xatirələri ilə baş-başa qalması üçün kabinetdən çıxdığımı bildirdim..."

Müsahibənin təəssüratı altında Heydər Əliyev həyat yoldaşı haqqında, sevgiləri, hələ Azərbaycan KP MK-nın birinci katibi olduğu vaxtlarda Zərifə xanımın onun qayğısını çəkməsi, ondan həmişə ağıllı məsləhətlər eşitməsi barədə xeyli danışdı. Moskvadakı çətin günlərindən də söhbət açdı və Zərifə xanımın həmin günlərdə ona necə arxa olduğunu, dəstək verdiyini xatırladı.

Eldar İbrahimov deyir: "Bütün danışılanlardan sonra mən qəti əmin oldum ki, Heydər Əliyevlə Zərifə xanımın həyatı bizim hamımız üçün, hər bir azərbaycanlı ailəsi üçün çox gözəl nümunədir".

**A.Brovkina** Zərifə Əliyeva haqqında xatirələrini bizimlə bölüşür:

"Zərifə Əliyevanı mən uzun illər tanımışam. Bizim elmi araşdırmalarımız ayrı-ayrı istiqmətlər üzrə idi, mənim onunla sırf dostluq əlaqələrim var idi. Onun vəfatından çox keçib, amma mənim üçün o, hələ də sağdır. Çox gözəl bir ana idi, iki övlad tərbiyə etmişdi. Mən ana ilə qızının rəfiqə olduğunu çox az görmüşəm, Əliyevlər ailəsində məhz belə idi. Zərifə Əliyeva seçdiyi yola tam sadiq idi, qarşısına qoyduğu məqsəd uğrunda sona qədər mübarizə aparırdı. Gözəl bir təşkilatçı kimi o, zərurət halında rəhbərlik etdiyi

kollektivin qüvvələrini lazım olan istiqamətə yönəltməyi bacarırdı.

Davranışı ilə, işə münasibətilə, ürəyinin təmizliyi ilə o, gözəl nümunə idi. Həmişə insanlarda müsbət cəhətləri - istedadı, saflığı, ədaləti qiymətləndirərdi. Bu nöqteyi-nəzərdən Zərifə Əliyevanın həyatı nəciblik etalonu idi".

Fikirləri bizim hekayətimizdə təqdim edilən **N. Şulpina** gözəl elm xadimi və parlaq şəxsiyyət barədə rusiyalı həmkarlarının fikrini aşağıdakı sözlərlə tamamlayır: "Zərifə Əliyeva bizim gözümüzün nuru, geniş profilli alim idi, o, Azərbaycanın səhiyyə kadrlarının ocağı idi... Xalqının xoşbəxtliyi, tələbə və pasientlərinin sevgisi və təşəkkürü onun var-dövlətidir. Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər də sevəcəyik".

1993-cü ilin iyununda Heydər Əliyev xalqın tələbi ilə Naxçıvandan Bakıya dəvət olundu və ikinci dəfə - artıq müstəqil, suveren Azərbaycanın rəhbərliyinə gətirildi.

Bir ildən sonra Zərifə Əliyevanın nəşi Moskvadan Bakıya gətirildi. Heykəltəraş Ömər Zeynalov tərəfindən doğma torpağındakı son mənzili üzərində yaradılmış ağ mərmərdən olan "Elegiya" və Zərifə xanımın tunc heykəli onun parlaq obrazını - ana, alim, həyat yoldaşı, gözəl Azərbaycan qadını obrazını canlandırır...

*On üçüncü fəsil*

## UNUDULMAZ

*Bəşərin tərbiyəsində qadınların əməyi filosofların əməyindən* çoxdur.

**Tofiq Fikrət (türk şairi)**

28 aprel 1995-ci il.

Zərifə xanımın doğum günü və xatirə günü.

Təntənəli mərasimdə Heydər Əliyev çıxış etdi. Artıq on ildir ki, sadiq həyat yoldaşı, silahdaşı dünyasını dəyişmişdir.

Və necə on il!

Tale yüklü, faciəli və qəhrəmanlıqlarla dolu... Nəhəng dövlətin dağıldığı və milyonlarla insan taleyinin bu dağıntıların altında qaldığı zaman Heydər Əliyev tarixi dalğanın ən zirvəsində idi. Dağıdıcı ehtiraslar lavası vulkan ağzından püskürürmüş kimi ətrafa yayılırdı: azadlıq eyforiyası və vətənpərvərlərin entuziazmı, Yusifi Sərracların cinayətkar demaqogiyası və başqalarının torpaqlarına baş alıb gedən iddialar, qonşularının Azərbaycan torpaqlarına birbaşa müdaxiləsi, qurbanlar, qaçqınlar... Və nəhayət, Heydər Əliyevin səyləri ilə əldə edilən atəşkəs, əvvəl Naxçıvanda, sonra da suveren Azərbaycanın paytaxtında dalğalanan üç rəngli müstəqillik bayrağı.

Bütün bunların hamısı Heydər Əliyevin taleyindən və qəlbindən keçmişdir. O qəlbindən ki, orada yeri dolmayan itkinin ağrısı hələ də yaşayırdı.

Və həmin aprel günü onun sözləri şəxsi və milli, ümumxalq yaddaşın həssas simlərinə toxunaraq, xüsusilə, güclü səslənirdi:

"Bilirsiniz ki, mənim həyatım lap cavanlığımdan dövlət xidməti ilə bağlı olmuşdur. Mən bütün həyatımı buna həsr etmişəm və bu gün də bu sahədə çalışıram. Hesab edirəm ki,

mənim uğurlu xidmətimdə ən böyük rolu ailəm oynamışdır. Zərifə xanım kimi həyat yoldaşım olduğuna görə mən çox xoşbəxt idim, o, mənim ailəmdə çox yüksək mənəvi aura yaratmışdı.

Həyatımın bütün dövrlərində başım işlə qarışdığına görə ailə məsələlərinə vaxt ayırmağa imkanım olmayıb. Bütün bunları Zərifə xanım öz öhdəsinə götürüb və bu işin öhdəsindən layiqincə, çox gözəl şəkildə gələ bilmişdir.

Zərifə xanım böyük alim idi. Biz birgə ailə həyatına təzə-təzə başladığımız zamanlar o, artıq elm sahəsində tanınmış bir insan idi.

Onun elmi fəaliyyəti hamıya məlumdur. O, çox istedadlı, mehriban və çox sadə insan idi. Mən burada çox danışa bilərəm; mən bu gün Zərifə xanımın məzarı önündə baş əyirəm. Ailəmin həyatındakı əvəzsiz roluna görə, mənim ailəmin bu günlərə gəlib çıxamasına görə, övladlarımın tərbiyəsinə görə. Vəfatından on il keçsə də, mən onu unutmuram və heç zaman unutmayacağam. Övladlarım da qəlblərində onun sevgisini və əbədi xatirəsini daşıyırlar. Bu gün bizim üçün müqəddəs gündür.

...Bu gün xoşbəxt gündür, ona görə ki, məni xoşbəxt etmiş, mənə gözəl övladlar vermiş Zərifə xanım kimi böyük bir şəxsiyyətin dünyaya gəldiyi gündür. Digər tərəfdən də kədərli gündür. On il keçməsinə baxmayaraq, mən bu kədəri özümdən uzaqlaşdıra bilmirəm".

15 aprel 1997-ci ildə Zərifə xanımın xatirəsi həyəcan verici bir hadisə ilə - ona həsr olunmuş "Elegiya" mərmər heykəlinin təqdimatı və tanınmış Azərbaycan heykəltəraşı, xalq rəssamı, respublika parlamentinin deputatı Eldar Ömərovun bu əsəri barədə albomun təqdimatı ilə yad edildi.

**Azərbaycan Elmlər Akademiyasının prezidenti, mərhum Fəraməz Maqsudov** mərasimi açarkən dedi: "Adətən heykəli daşda donmuş musiqi adlandırırlar, mən isə deyərdim ki, bu memorial abidə mərmərdə təcəssüm etmiş məhəbbətdir".

Mərmərdə canlanan ülvi məhəbbət, sadiq həyat yoldaşının, qayğıkeş ananın, ziyalı vətənpərvərin, istedadlı həkimin, müdrik alimin mərmər bədəndə döyünən qəlbidir... Bu obraz qəlblərə yol tapan, ruhən saflaşdıran, xeyirə, səmimiyyətə dəvət edən bir nur saçır. Bu nur mahir və istedadlı oftalmo-

loqun bütün həyatı boyu görmə nemətini insanlara qaytardığı gözlərin nurudur...

Adama elə gəlir ki, azacıq dincəlmək üçün kreslonun qoltuqlarına söykənən o əllərdən gələn şəfaverici enerji hələ də əvvəlki kimi yaşayır və təsir edir...

Bəlkə də, bu cür gözəllik dahi Füzulini o coşqun sözləri deməyə sövq etmişdir:

Heyrət, ey büt, surətin
gördükdə lal eylər məni
Bu nə surət kim, görən
surət xəyal eylər məni...

İstedadlı memarımız Ömər Eldarovun "Elegiya" kitabını vərəqlədikcə bu heykəlin yaradılmasının təfərrüatları ilə tanış olursan. Sən demə, bu, təkcə müəllifin öz uğuru deyil, həm də onu Zərifə xanımın poetik və eyni zamanda dəqiq obrazını yaratmağa cəsarətləndirən insanların - həyat yoldaşı Heydər Əliyevin, layiqli övladları Sevil və İlham Əliyevlərin uğuru imiş... Onlar heykəltəraşa öz təsəvvüründə gözəl, sevən və unudulmaz qadının, ananın obrazını canlandırmağa kömək etmişlər. Ömər Eldarov isə öz istedadının və ilhamının gücü ilə mərmərdə bu insanların məhəbbətini, onların vəfat etmiş əzizləri üçün çəkdikləri xiffəti əbədiləşdirmişdir...

Zərifə Əliyevanın elmi fəaliyyətinin miqyasından, oftalmologiyaya göstərdiyi xidmətlərdən, səhiyyənin inkişafına yardımından danışarkən, bu fəaliyyətin geniş ictimaiyyətin o qədər də hiss etmədiyi ailə ocağının keşikçisi, gündəlik analıq qəhrəmanlığı, Heydər Əlirza oğlu Əliyev kimi görkəmli şəxsiyyətin həyat yoldaşı və silahdaşı kimi digər rolu ilə çox gözəl harmoniya təşkil etdiyini də unutmaq olmaz. Bizim bir atalar məsəli var: "Aslanın erkəyi, dişisi olmaz".

"Zərifə" incə, gözəl deməkdir. Və o, özünün zərif qadın çiyinlərində böyük məsuliyyət və fədakar məhəbbət yükünü - millətin lideri, nəhəng bir dövlətin rəhbərləri cərgəsinə daxil olmuş respublika rəhbəri ilə çiyin-çiyinə getmək, ona dayaq olmaq, qayğısını çəkmək və çətin sınaq günlərində onunla birlikdə həyəcanlanmaq yükünü daşıyırdı. Övladların tərbiyəsində əsas qayğını öz üzərinə götürmək, onları Vətə-

nin layiqli və şərəfli vətəndaşı, öz əcdadlarının yüksək mənəvi amallarının davamçısı olaraq yetişdirmək yükünü...

Bu gün də Zərifə xanımın həyatı onun övladlarında və nəvələrində davam edir. “Elegiya” albomunda onun obrazını təcəssüm etdirən iki heykəl var - mərmər və tunc. Onun başqa bir heykəli də var ki, o da insanların, millətin, sevənlərin qəlbində yaşayan mənəvi heykəldir.

Onun məhəbbətinin nuru doğmalarının və yaxınlarının, həmkarlarının və şagirdlərinin yolunu işıqlandırır...

**Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev** 1997-ci ilin həmin aprel mərasimində çıxış edərkən dedi: “Bu gün bizim üçün həm əziz gündür, həm də kədərli. Əzizdir, ona görə ki, bu gün Zərifə xanımın xatirə günüdür. Lakin bu hadisənin mənası çoxdur... Biz həmişə bu günü ailəmiz üçün xatirə günü olaraq qeyd edirik. Eyni zamanda bu gün Zərifə xanımın obrazını əks etdirən gözəl bir sənət əsəri nümayiş olunur... Bununla birlikdə, respublikamızın mədəniyyətində yeni əsərin yaranması nümayiş olunur.

Mənim düşüncələrim subyektiv ola bilər, amma mən həmişə nə fikirləşirəmsə, onu da deyirəm. Ömər Eldarovun yaratdığı heykəl ... həqiqətən, gözəl sənət əsəridir. Hələ on il, iyirmi il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimlərindən hesab edirdim... Ömər Eldarovun yaratdığı heykəltəraşlıq nümunələri Azərbaycan xalqının mənəvi sərvətidir...

... Zərifə xanımın vəfatı ailəmiz üçün, şəxsən mənim üçün və övladlarım üçün çox ağır zərbə oldu. Hər bir ailə üçün itki itkidir... Amma hər bir insanın, hər bir ailənin ona baş vermiş kədərə münasibətini ifadə etmə tərzi var...

On iki il keçib. Biz bu gün də barışa bilmirik ki, onsuz yaşayırıq. Onun xatirəsi bizim qəlbimizdə, təkcə bizim yox, ailəmizin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaq...”

Dörd il keçdi.

28 aprel 2001-ci il. Yenə də Zərifə xanım Əliyevanın xatirəsinə həsr edilmiş gecə. Və yenə **Heydər Əliyev** taleyinin unudulmaz ulduzu barədə həzin və kövrək kəlmələrlə danışır: “... Zərifə xanımı xatırlamaq mənim üçün ola bilsin, daha ağrıdıcıdır. Çünki Zərifə xanım mənim həyat yoldaşım idi. Bəlkə də, mənim qədər onu tanıyan, onu hiss

edən başqa bir insan yoxdur. Əlbəttə, valideynləri ona həyat verib boya-başa çatdırıblar, təhsil veriblər, amma birgə həyatımızdan sonra mənim onun haqqında düşüncələrim onun haqqında deyilənlərdən qat-qat genişdir. Lakin mən burada heç nə dilə gətirmək istəmirəm. Onlar hamısı mənim qəlbimdə, dünyasını dəyişmiş insanı tanıyanların qəlbində yaşayır. Siz isə, əziz incəsənət ustaları, elm xadimləri, Zərifə xanımla bağlı mənim qəlbimdəki duyğuları oyatdınız. Belə fikirləşirəm ki, zəhmət çəkib bu məclisdə iştirak etməyə və bununla da Zərifə xanımın necə gözəl insan olduğunu bir daha təsdiq etmək üçün gəlmiş insanları da həyəcanlandırdınız. Siz onun haqqında çox söz dediniz, hələ çox söz də demək olar. Amma o, mənim üçün ilk növbədə böyük qəlbli insan idi. Zərifə xanım mənim qəlbimdə sadiq bir həyat yoldaşı kimi, mənim ailəmin əziyyətini çəkmiş, övladlarımı, nəvələrimi böyütmüş sevən bir ana kimi, fədakar bir insan kimi yaşayır.

... Bu günü ailədə, yalnız ailə daxilində həmişə qeyd edirik. Bunu xüsusi olaraq, qeyd etmək istəyirəm. Çünki ailəmizdə dəbdəbəli qonaqlıqlar, geniş ad günü mərasimləri keçirmək adəti olmayıb. Yəqin ki bu, Zərifə xanımın xarakterindən, həm də mənim xarakterimdən irəli gəlirdi.

Amma bu gün onun ad günüdür. Allahın qisməti belə imiş, o, apreldə dünyaya gəlmişdi, apreldə də dünyadan getdi.

Yadımdadır, o, Moskvada xəstəxanada müalicə olunarkən artıq sağalmaz bir dərdə mübtəla olduğunu bildikdə mən arzu edirdim ki, heç olmasa ad gününə kimi yaşaya biləydi... Qismət deyilmiş, aprelin on beşində o, dünyasını dəyişdi...

...Mənim qüssəm təbiidir. Amma mən istəməzdim ki, zəhmət çəkib bu xatirə gecəsinə gəlmiş insanlar buradan kədərli qayıtsınlar.

Əksinə, Zərifə xanımı xatırlayaraq, biz, onun övladları, nəvələri, dostları bu gün onun ad gününü qeyd edirik. Buna görə də mən istərdim ki, zalda atmosfer dəyişsin. Ümid edirəm ki, bununla biz onun da ruhunu şad etmiş olarıq".

Zərifə xanıma və onun xatirəsinə tükənməz və incə sevgisini dəfələrlə nümayiş etdirmiş Heydər Əliyev bu hissləri Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikasında onun həyat və fəaliyyətinə həsr olunmuş muzeyin açılış mərasimində ifadə etmişdir. Və rəy kitabında bu sözləri yazmışdır:

"Mənim həyat yoldaşımın adını daşıyan poliklinika ilə tanış olmaq, onun xatirəsinə həsr olunmuş guşəyə baxmaq mənim xatirimdə dərin duyğuları təlatümə gətirdi. Mənim üçün çox əziz olan bir insanın həyat və fəaliyyətini əks etdirən bu guşə məni çox həyəcanlandırdı. Bütün bunlar onun insani keyfiyyətlərinin, böyük elmi və tibbi xidmətlərinin layiqli abidəsidir".

Biz Zərifə xanımın qızı Sevil Əliyevanın anası barədə xatirələrini bu kitabda oxucunun diqqətinə çatdırmışdıq. KİV təmsilçiləri həmişə onunla görüşməyə, onları maraqlandıran suallara cavab almağa çalışmışlar, amma bu, onlara o qədər də ardıcıl nəsib olmamışdır. Sevil xanımın "Panorama" qəzetinin müxbiri ilə müsahibəsindən bəzi fraqmentləri yada salmaq istərdik:

" - *Sizə kimsə kömək edirmi?* (Söhbət uşaqların tərbiyəsindən gedir. - *H.M.)*

- Uşaqlarımla özüm məşğul oluram, çünki heç kəs ananı əvəz edə bilməz.

- *Deyəsən, bu baxımdan ananıza çəkmisiniz. O da evdar xanım idi, eləmi?*

- Mənim "evdar qadın" sözündən xoşum gəlmir. Bu söz nə anama, nə də mənə uyğun gəlir. Sadəcə olaraq, anam özünü bütövlükdə atama və bizə həsr etmişdi. Eyni zamanda o, daim elmi fəaliyyətlə və ictimai işlə də məşğul olurdu.

- *Siz hansı xüsusiyyətlərinizlə ananıza oxşayırsınız?*

- Mənim bir çox xüsusiyyətim anama oxşayır. Məsələ burasındadır ki, mənim valideynlərim xasiyyətcə bir-birinə çox oxşayırdılar. Mənə elə gəlir ki, insanlar arasında bu cür uyğunluq çox nadir hallarda olur. Buna görə də belə fikirləşirəm ki, mən həm atama, həm də anama eyni dərəcədə oxşamışam".

Ola bilsin ki, bəzi oxucular bizim hekayətimizi fraqmentar hesab etsinlər, amma biz güman edirik ki, real insanların, doğmaların, yaxınların, həmkarların xatirələri kitabımızın qəhrəmanının obrazını daha parlaq şəkildə aça, ətrafına saçdığı mənəvi auranı canlandıra bilər.

Söhbətimizə davam edərək, biz Əliyevlər ailəsinin ən kiçik nəslinin nümayəndəsinə, nəvə Leylaya müraciət edəcəyik. Ona öz gözəl nənəsini görmək nəsib olmasa da, həssas körpə qəlbində böyüklərin söhbətlərindən canlanan, kövrək

xatirələrin isti mühitində hiss olunan, Əliyevlər ocağını qızdıran obraz yaşayır... Yaşca balaca olmağına baxmayaraq, ailə musiqisində bu nurlu melodiyanı eşidən, böyüklərin gizlətməyə çalışdığı bu əvəzsiz itkinin sakitləşməyən ağrısını hiss edən dərin düşüncəli və həssas Leyla gənc qəlbi ilə babasına isinişmişdi və onu çox sevirdi, mehriban baba nəvazişində dərk etmədən olsa belə, heç vaxt görməyəcəyi nənəsinin nurunu hiss etməyi arzulayaraq həmişə ona tərəf can atırdı... Ancaq təsəvvür etmək olar ki, Zərifə xanım ilə nəvəsinin arasında nə cür gözəl ünsiyyət ola bilərdi. O, öz həmyaşıdlarından xeyli fərqlərindi, hələ məktəb illərində o, öz fikirlərini şeirlə ifadə edə bilirdi və bu şeirlərin çoxunu babasına həsr etmişdi.

Gənc **Leylanın** "Panorama" qəzetinin müxbiri **Fazil Ələsgəroğluna** müsahibəsinə nəzər salaq:

*" - Gəl, tanış olaq.*

- Mənim adım Leyladır. Leyla İlham qızı Əliyeva. Mən altıncı sinifdə oxuyuram. Mənim babam prezidentdir!

**- Bəs sən ona necə müraciət edirsən?**

- Baba, babacan.

*- Əgər sənə məktəbdə ən sevdiyin insan barədə yazmağı tapşırsalar, sən kimin haqqında yazarsan?*

- Bütün ailəmiz haqqında. Axı, mən ayrı-seçkilik edə bilmərəm.

*- Sən hamını sevirsən?*

- Bəs necə?!. Yox, babamı o birilərindən bir az çox sevirəm.

*- Deyə bilərsənmi, niyə onu hamıdan çox sevirsən?*

- Adamı niyə sevirlər? O, mənim babamdır, vəssalam. Bilirsiniz, o, çox mehribandır, çox ağıllıdır, çox həssas babadır.

*- Yəqin, sən özün də bilirsən ki, sənin baban başqaları kimi deyil. Onun səninlə oynamağa vaxtı azdır, eləmi?*

- Hə, o, həmişə məşğuldur, biz çox az görüşürük.

*- Yəqin, nahar vaxtı və ya şam yeməyi vaxtı bir stol arxasında oturan vaxtlarınız olur. Bir şey haqqında söhbət edirsinizmi?*

- Çox nadir hallarda. O, evə çox gec qayıdır, yuxarıda, öz otağında şam edir. Bayramlarda, ailə şənliklərində bir yerə yığışırıq. Bax, onda əla olur, danışırıq, şənlənirik...

*- Deyəsən, axı, o, həmişə şən olmur? İşdə o qədər şeylər baş verir ki...*

- O, heç vaxt evə işdəki əhvalı ilə gəlmir. Nə olursa-olsun, qapıdan içəri daxil olanda gülümsəyir. Babam öz işindən heç vaxt danışmaz. Amma işində narahatlıq olanda biz dərhal hiss edirik.

*- Siz ikiniz bir yerdə olanda nə ilə məşğul olursunuz?*

- Bilirsiniz, onunla olmaq nə qədər maraqlıdır? O, hər şeyi, hər şeyi, hər şeyi bilir. Nə barədə soruşsan, cavab verir.

*- Ola bilsin, sən də "niyəcik" qızsan. Bir az, düz demirəm?*

- Əslində, hər şey barəsində, xüsusilə də özüm barədə soruşmağı çox xoşlayıram. Babam da danışır: bax, sən lap balaca körpə bir qız idin... Mənimsə heç yadıma gəlmir, o danışdıqca öyrənirəm. Bir də... biz Zuğulbada olanda o danışır ki, oranı necə tikiblər.

*- Heç bir yerdə istirahət etdiyiniz olurmu? O zaman vaxtınızı necə keçirirsiniz?*

- Hə... Dənizdə çimməndə və ya parkda gəzəndə babam onun, ya da dostlarının başına gələn maraqlı əhvalatları danışır. Ümumiyyətlə, gülməli hadisələr onun xoşuna gəlir... o, tez-tez zarafat edir.

*- Aha, deməli belə! Onda o, səninlə də zarafat edir?*

- Yox, yox, siz nə danışırsınız! O, məni çox sevir.

*- Heç o, sənə hədiyyə veribmi? Yadına sala bilərsənmi?*

- Mənim hər şey yadımdadır. Mənim ən sevimli bir gəlinciyim var, onu mənə babam bağışlayıb. Bir də itim var, onu da babam verib.

*- Canlı itdir?*

- Yox, siz nə danışırsınız!.. Babam mənə dovşan da bağışlayıb. Bax dovşanlar canlıdır. Onların o qədər yumşaq, gözəl tükləri var ki... Mən dovşanlarla oynayıram.

*- Ən çox nədən xoşun gəlir?*

- Şeiri çox sevirəm. Özüm də yazıram. Oynamağı isə... ən çox dovşanlarımla oynayıram.

*- Bəs babanın daha çox nə xoşuna gəlir? Boş vaxtında o, nə ilə məşğul olur?*

- Televizora baxır. "Zaman", "Xəbərlər", "Vesti"... Sonra da qəzet oxuyur.

*- Hansı yeməklər onun xoşuna gəlir? Zövqləriniz üst-üstə düşürmü?*

- Hə, üst-üstə düşür. Onun plov, südlü çay xoşuna gəlir.

*- 4 oktyabrda[10] baban televiziya ilə çıxış edəndə sən harada idin? Ən çox kimin üçün qorxurdun?*

- Biz onda Türkiyədə idik. Mən ən çox babam üçün, onun apardığı iş üçün qorxurdum. Sonra öyrəndik ki, xalq onu müdafiə edib, çox sevindik.

*- Sən onunla xaricdə olmusanmı?*

- Biz birlikdə Mərakeşdə səfərdə olmuşuq. Amma onun işdən başı açılmırdı ki... Bir dəfə də biz Türkiyədə olanda o, bizim yanımıza gəlmişdi.

*- Sən şeirdən danışdın. Heç babana şeir həsr etmisənmi?*

- Əlbəttə. İstəyirsiniz, birini deyim?..

Niyə günəş bu qədər parlaqdır,
Niyə Vətənim belə nurludur?
Soruşsan, rahatca deyərəm sənə:
Çünki əziz babam hamımız üçün
Çalışır yorğunluq, dinclik bilmədən.
İşi aşıb-daşır, tükənmək bilmir,
Gecələr gec gəlir, çox yorğun gəlir.
Unudub yuxunu, dincliyi tamam
Xalqın xoş günündə olur o aram.
Dara düşənlərin çatır dadına,
Ümid və xoşbəxtlik verir insana.

Bu şeri mən onun ad günündə yazmışam.

*- Dəcəllik etməyi xoşlayırsanmı?*

- Əlbəttə, ancaq tənəffüsdə.

*- Sənin şıltaqlıqların barədə bəs baban nə deyir? Narazılıq edirmi?*

- Yo-o-ox. O, ancaq necə oxuduğumu soruşur.

*- Heç belə şey olur ki, baban sənə hirslənsin?*

- Heç vaxt. Mən özümü elə aparmaram ki, babam hirslənsin.

*- Bəs sən? Olubmu, babandan inciyəsən? Məsələn, deyək ki, sənin ad günündür, baban isə işdə yubanıb...*

- Heç vaxt. Onsuz da o, məni hamıdan çox sevir.

---

[10] 1994-cü ildə oktyabrın əvvəlində müxalifət tərəfindən qızışdırılan XTMD dəstəsindən bir qrup silahlı dövlət çevrilişinə cəhd etmiş, lakin bu cəhd uğursuzluqla nəticələnmişdir.

- *Sən onun ad gününü necə keçirmək istərdin?*
- Açığını deyə bilərəm?
- *Əlbəttə, de.*
- İstərdim ki, həmin gün onu heç kim narahat etməsin, o, heç yerə tələsməsin, həmin gün xarici qonaq da olmasın və təcili işlər də. Hamımız bir yerdə olaq. Zuğulbaya gedib dəniz kənarında gəzişək, babam çoxlu maraqlı əhvalatlar danışsın, sonra da bayram süfrəsinə yığışıb birlikdə deyək, gülək, şənlənək..."

Bu isə başqa bir müsahibədəndir:

" - *Sən ona bizim qəzet vasitəsilə bir şey demək istərdinmi?*
- Hə. Babacan, mən səni çox sevirəm! Sənə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram! Qoy müharibə qurtarsın! Qaçqınlar evlərinə dönsünlər! Ölkəmizə sülh və əmin-amanlıq gəlsin. Sən də mənimlə daha çox gəzə biləsən, söhbət edə biləsən. Qucaqlayıb öpürəm səni".

Bir neçə il keçdi. Leyla böyüdü. 9 may 1998-ci il "Panorama" qəzetində biz onun yeni müsahibəsini oxuyuruq. Söhbət onun qələm cəhdlərindən düşür:

" - *Babana həsr etdiyin şeirlərdən başqa daha nə haqda yazırsan?*
- Əsasən lirik şeirlər. Mövzular müxtəlif olur. Öz düşüncələrim barədə...
- ... *Hər bir insanın yubileyi, xüsusilə də sənin baban kimi görkəmli bir insanın yubileyi həmişə bayramdır, hadisədir. Düzdür, sənin baban yubileyinin bütün respublikada keçirlməsini istəmir.*[11] *Buna baxmayaraq, yəqin ki, evdə bu günü qeyd edəcəksiniz. Əgər mümkündürsə, de görək, baban üçün nə hədiyyə hazırlamısan?*
- Mənə belə gəlir ki, mənim öz əllərimlə düzəltdiyim hədiyyə babamın çox xoşuna gələrdi. Ona görə də mən kitab yazmışam. Həm yeni, həm də köhnə şeirlərimi bir kitabda cəmlədim və onu babama, onun yubileyinə həsr etdim. Ona bağışlayacağam... Kitabın adı "Azərbaycan"dır. Babam hələlik bu barədə bilmir. Ümid edirəm ki bu, onun üçün sürpriz olacaq.

---

[11] 10 may 1998-ci ildə Heydər Əliyevin 75 yaşı tamam olmuşdur.

*- Bu, sənin birinci kitabındır?*

- Xeyr, ikinci. Birinci kitabım 1995-ci ildə nəşr olunub. Mən səkkiz yaşımdan şeir yazmağa başlamışam. Amma köhnə şeirlər yenilərdən çox fərqlənir...

*- Bakıda olarkən sən yaşıdlarının, hətta səndən yaşlı adamların da sənə prezidentin nəvəsi kimi xüsusi münasibət göstərdiyini hiss edirsənmi? Bu, sənə mane olur, yoxsa kömək edir?*

- Mənə belə gəlir ki, hiss etmirəm. Ola bilsin, bu, onunla bağlıdır ki, biz özümüzü tamam sadə aparırıq. Mən babamla müxtəlif tədbirlərə, konsertlərə getməyi xoşlayıram...

*- Biz bilirik ki, sən ŞHK-nı çox sevirsən. Hətta bu klubda iştirak etmisən. "Bakılı oğlanlar"ın son konsertində necə, olmusanmı?*

- Yox, mən onda Azərbaycanda deyildim. Amma onların son konsertinin kasetinə baxmışam. Çox xoşuma gəlib.

*- Sənin maraq dairən dəyişibmi? Hansı peşə barədə düşünürsən?*

- Əlbəttə, maraqlar əksər hallarda dəyişib. Yuxarı siniflərdə oxumağa başladıqda dərslərə daha çox vaxt ayırmaq lazım gəlirdi. Maraqlar, həvəsə gəlincə isə, şəkil çəkməyi çox sevirəm, kompüterlə maraqlanıram, şeir yazmağa davam edirəm və bilirəm ki, böyüyüb yaşlananda yazacam...

*- Dedin ki, şəkil çəkməkdən xoşun gəlir. Mən bilirəm ki, sizin ailənizdə bu istedad var. Buna görə də mənim üçün maraqlıdır, kitabının illüstrasiyasını özün çəkmisənmi?*

- Bəli, özüm çəkmişəm.

*- Nə ilə çəkməyi xoşlayırsan, qələmlə, flomasterlə, yoxsa boya ilə?*

- Boya ilə. Amma boya ilə işləmək çox çətindir. Buna görə də illüstrasiyanı qələm və flomasterlə çəkdim.

*- Çoxdanmı şəkil çəkirsən? Çəkdiyin şəkilləri babana göstərirsənmi?*

- Bəli, çoxdan və adətən çəkdiyim şəkilləri də yazdığım şeirlər kimi babama göstərirəm.

*- Sənin baban incəsənəti yaxşı bilir. Bundan başqa, mən eşitmişəm ki, o özü də yaxşı şəkil çəkir. Sənin çəkdiyin şəkillər haqqında babanın rəyi necədir?*

- Həmişə baxır və məni tərifləyir.

*- Hansı yaradıcılıq sahəsinə üstünlük verirsən?*

- Hər şey vaxtdan və vəziyyətdən asılıdır. Arada görürsən, şeir yazmaq istəyirəm, arada şəkil çəkmək istəyirəm...

*- Sənin çəkdiyin şəkillər bir qayda olaraq təxəyyül məhsulu olur, yoxsa naturadan çəkirsən?*

- Kitabım üçün illüstrasiyanı özüm fikirləşdim. Onlar şeirlərə uyğun olmalıdır. Ümumiyyətlə, təbiət gəzintilərində vaxt keçirərkən xoşuma gələn mənzərəni çəkməyi xoşlayıram...

*- Sevimli oyuncaqlarından qalıbmı?*

- Düzdür, indi onlarla oynamıram, vaxtım da yoxdur. Amma sevimli oyuncaqlarımı uşaqlığın yadigarı kimi saxlayıram. Arada onları şkafdan çıxarıram, baxıram...

*- Bu oyuncaqlar haqqında bir az ətraflı danışa bilərsənmi? Ən çox gəlinciklərdirmi?*

- Bunlar lap körpə vaxtımdan oynadığım oyuncaqlardır. Oyuncaq nə qədər köhnədirsə, o qədər sənin üçün sevimlidir. Amma bunlar gəlinciklər deyil. Nə üçünsə, heç vaxt gəlinciklərlə oynamamışam. Bu oyuncaqların arasında rezin küçük var...

*- Ən çox oyuncağı sənə kim hədiyyə edib?*

- Ad günlərimdə bir yığın oyuncaq hədiyyə edərdilər. Düzdür, heç də hamısı xoşuma gəlməzdi.

*- Bəs o rezin küçüyü kim bağışlamışdı?*

- Bilmirəm.

*- Yəqin ki, bütün istedadlı insanlar kimi sən də musiqini xoşlayırsan...*

- ... Tez-tez maqnitofonu işə salıb astadan qulaq asıram. Amma deməzdim ki, mənim böyük musiqi istedadım var. Şeir, şəkil çəkmək yaxşı alınır. Ümumiyyətlə, Azərbaycan musiqisini, bir də rus estradasını çox sevirəm.

*- Kitablar haqqında nə deyə bilərsən? Çoxmu oxuyursan? Sevdiyin kitablar varmı?*

- Bəli, kitab çox oxuyuram və daha da çox oxumağa çalışıram. Çünki nə qədər çox oxuyursansa, bir o qədər çox ilham alırsan... Həm rus, həm də Azərbaycan dilində kitablar oxuyuram. Kitab maraqlı olanda uzun müddət yadımda qalır.

*- Uşaqlıqdan yadında qalan nağıl varmı? Sənin elə qəhrəmanın varmı ki, özünü onun yerində təsəvvür edəsən?*

- Mən özüm nağıl yazmağı xoşlayıram, amma bütün nağıllarda oxşar nə isə var, ona görə də hamısı adamın yadında qa-

lır... Amma xüsusi sevdiyim bir nağıl yoxdur. Özümü bir qəhrəmanın yerinə də qoymamışam... Nağıl kitabları adətən, illüstrasiyalı olur. İllüstrasiyasız olsa, daha yaxşıdır. Çünki onda sənin fantaziyan daha yaxşı işləyir...

- *Məktəbdə müəllimlərin və sinif yoldaşların sənin şeir yazdığını bilirlərmi? Onlar buna necə münasibət göstərirlər?*

- Demək olar ki, rəsmdən həmişə yaxşı qiymətlər alıram. Şeir kitabımı müəllimlərə göstərmişəm. Onlar üçün öz şeirlərimi ingilis dilində də oxumuşam. Düzdür, mənə elə gəlir ki, rus dilində şeir yazmaq mənim üçün daha rahatdır və rus dilində daha yaxşı alınır... Fənlərdən ən çox riyaziyyatı, informatikanı və ədəbiyyatı xoşlayıram.

- *Şeirlərini sinifdə oxuyursanmı?*

- Bəli, uşaqların da çox xoşuna gəlir, hətta xahiş edirlər ki, onlara da şeir həsr edim.

- *Amma sən şeirlərini daha çox babana həsr edirsən?*

- Xeyr, mən bütün ailə üzvlərimə şeir həsr edirəm. Anama, atama, Arzuya, qardaşıma... Amma mən bu şeirləri kitaba daxil etməmişəm, çünki onlar ad günləri ilə bağlı olaraq yazılmış şeirlərdir.

- *Zəhmət olmasa, bizə danışa bilərsənmi, qardaşın Heydər dünyaya gələndə sən hansı hissləri keçirdin? Şübhə etmirəm ki, həmin günə aid mütləq bir şeir yazmısan...*

- Mən o gün dünyanın ən xoşbəxt adamı idim. Hətta inana bilmirdim ki, qardaşım olub. Kiçik qardaşımı çox sevirəm. Mən ona çox uzun bir şeir və bir neçə kiçik şeir həsr etmişəm.

- *O şeirləri qardaşın üçün oxumusanmı?*

- O, hələ çox kiçikdir. Mənə belə gəlir ki, heç nə başa düşməz. Arada ona nə isə danışmağı çox sevirəm. Görürəm, qulaq asır, bir az da danışıram. Arzu edirəm ki, tezliklə o da danışmağa başlayaydı...

- *Balaca Heydər danışmağı bacarmasa da, bütün körpələr kimi, o da yəqin ki, hər şeylə maraqlanır. Yəqin ki, babasının onu nə qədər çox sevdiyini hiss edir və yəqin ki, onun da balaca qəlbi bu yubiley günü sevgi və şadlıq hissi ilə doludur...*

- Qardaşım babamı görəndə çox sevinir!

- *Sən ad günlərində ailə üzvlərinin hamısına şeir yazırsan. Bəs heç özünə həsr etdiyin bir şeir varmı?*

- Xeyr, bircə dənə də yoxdur...

*- Adətən, məktəblilər tətili çox sevirlər. Sən necə?*

- Əlbəttə, istirahət gözəldir. Amma oxumağın da lazım olduğunu başa düşürəm. Dərs vaxtı dərslərimlə çox məşğul oluram. Həm evdə, həm də məktəbdə... Arada dərslərdən aralanmaq, dincəlmək, hər şeyi unutmaq istəyirsən.

*- Tez-tez görüşdüyün, oynadığın dostların, rəfiqələrin varmı?*

- İbtidai siniflərdə oxuyanda uşaqlarla çox oynayardıq. İndi isə tənəffüslərdə, adətən, oynamıram.

*- Tez böyüməyi arzulayırsanmı?*

- Mən hələ bilmirəm, böyük olmaq yaxşı şeydir, yoxsa pis şey. Bu barədə, demək olar ki, heç düşünməmişəm. Əlbəttə, böyük olanda daha sərbəst olursan. Bəlkə də, buna görə uşaqların çoxu tez böyümək istəyirlər... Mən isə bunu arzulamamışam. Həyat elə belə də mənim xoşuma gəlir...

*- Ailə üzvləri ilə tez-tez məsləhətləşirsənmi?*

- Bəli. Onlar məndən böyükdür və onların dediyi daha düzgün ola bilər.

*- Yaxınlarından ən çox kiminlə sirlərini bölüşürsən?*

- Məktəb məsələlərinə aiddirsə, bacımla. Bundan başqa, anamdan müəyyən məsləhətlər alıram. Atamla, babamla da məsləhətləşirəm.

*- Paltar seçmək istəyəndə də ananla məsləhətləşirsən, yoxsa öz zövqünə üstünlük verirsən?*

- Adətən, öz zövqümə görə seçirəm. Amma anamla zövqümüz uyğun gəlir. Əlbəttə ki, onun rəyi ilə hesablaşıram.

*- Ailə üzvlərindən kimə oxşamaq istərdin? İdealın varmı?*

- Sözün düzü, bilmirəm! Hər birindən nəyi isə əxz etmək istərdim. Nədə isə anama oxşamaq, başqa bir şeydə atama və ya babama oxşamaq istərdim...

*- Şəkil çəkən adamlar üçün rəng, adətən, böyük əhəmiyyətə malik olur. Sevdiyin rənglər varmı?*

- Mənim sarı rəng xoşuma gəlir. Çünki o, daha açıqdır. Mən hətta sarı rəng barədə şeir də yazmışam. Paltara gəlincə, qəhvəyi və açıq çəhrayı rəngləri xoşlayıram. Paltar üçün qara rəng də çox gözəldir.

*- Şeirlərin barədə kimin tənqidi fikrini qəbul edirsən? Şeirlərini ən birinci oxuduğun insan varmı?*

- Şeir yazanda, adətən, əvvəl özüm yoxlayıram, xoşum gəlməyən yerləri varsa, dəyişirəm. Bəzən, olur ki, istədiyin

kimi alınmır. Balaca düzəliş verirsən, daha yaxşı olur. Adətən, şeirimi yanımda həmin vaxt kim olsa, onun üçün oxuyuram - ilk rəyi eşitmək istəyirsən.

- *Leyla, sən özünü xüsusi, başqalarından nə ilə isə fərqlənən bir insan hesab edirsənmi?*

- Xeyr.

- *Amma mənə elə gəlir ki, sən başqalarından fərqlənirsən. Ona görə yox ki, baban prezidentdir. Ona görə ki, sənin istedadın var. Axı sənin yaşında heç də hamı şeir yaza və rəsm çəkə bilmir.*

- Mənə elə gəlir ki, hər bir insanı başqalarından fərqləndirən bir xüsusiyyəti vardır. İnsanların müxtəlif istedadları ola bilər. Kimsə yaxşı şəkil çəkə bilər, kimsə oxuya, kimi də fortepiano çala bilər. Hər kəsin bir istedadı var.

- *Sevdiyin şairlər varmı?*

- Puşkini çox sevirəm.

- *Necə fikirləşirsən, məşhurluq şair üçün yaxşı şeydirmi? İstərdinmi ki, sənin şeirlərin dildən-dilə, ağızdan-ağıza gəzsin?*

- Bəli. Yəqin ona görə ki, insanlar şeiri oxuyur və ona qiymət verirlər. Amma şair məşhurluğa özü layiq olmalıdır.

- *Leyla, mən çox istərdim ki, babanın yubileyi ilə bağlı ürək sözlərini və arzularını bizim qəzetimiz vasitəsilə ifadə edəsən.*

- Mən ona can sağlığı arzulayıram. Mən onu çox - çox sevirəm... bilirəm ki, o da bizi çox sevir və bizim üçün çox narahatdır.

Mənim əziz babam gözəl insandır,
Ürəyi açıqdır, sevilir, sevir.
Yüz illik bir ömür arzulasam da
Bilirəm, əlbəttə, az olar bu da.
Qəlbi qara insanların əməli də, niyyəti də
Qəlbi kimi həm qaradır, həm də gülünc.
Babam haqqın, ədalətin keşiyində
Əl uzadır Vətəninə çətin gündə.
Həyatı belədir Heydər babamın,
Ömür yollarını gedən babamın!"

*On dördüncü fəsil*

## NURUN DAVAMI

*Bilmədən nə doğum, nə ölüm günün,*
*Doğma vətənimdə min ad altında*
*Əbədi yaşamaq xalqın ölməzliyində,*
*Taxılında və sözündə, çörəyində və şərabında...*

**Səməd Vurğun**

Anton Semyonoviç Makarenko demişdir: "Siz həyata gəlirsiniz, oğlunuzu və ya qızınızı valideynlərin fərəhlənməsi naminə tərbiyə etmirsiniz. Sizin ailənizdə, sizin rəhbərliyiniz altında gələcəyin vətəndaşı, gələcəyin xadimi və gələcəyin mübarizi yetişir".

Qızıl sözlərdir. Valideynlik borcu və missiyası buna görə bu qədər məsuliyyətlidir. Bütün xalqların əxlaqi nizamnamələri, dinlərin nəsihət və ehkamları qədim zamanlardan ananın və atanın doğma ocaqda, cəmiyyətdə rolunu müqəddəs hesab etmişdir. Din müəllimləri təlqin etmişlər: "Atanın hörmətini saxla". Məhəmməd peyğəmbər buyurmuşdur: "Cənnət anaların ayaqları altındadır".

Bir dəfə televizorda Kolumba qədərki Amerika zamanının qəbirlərini aşkar etmiş Çili arxeoloqlarının kəşfi barədə xəbər verdilər: gənc qadının cəsədinin yanında qədim silah var idi. Tarixin şanlı qadınların xalqın, millətin, vətənin taleyində oynadığı böyük rolu təsdiq edən çox nümunələri var. Antik mifologiyada və ədəbiyyatda qadınların müxtəlif hadisələrdə həlledici iştirakı barədə xeyli təsirləndirici əfsanələr və süjetlər vardır.

Azərbaycan xalqının və türk dünyasının gözəl mədəniyyət abidəsi olan qədim Dədə Qorqud rəvayətlərində yüksək və fədakar ana məhəbbətini, qadın ləyaqətini təcəssüm edən heyranedici və qəhrəman Burla xatun obrazı qarşımızda durur.

Epik hekayəni nəql edən və özü də bu hadisələrin bir parçası olan uzaqgörən və müdrik Dədə Qorqud öz tayfasının oğul və qızlarının adını qoyur, özü də hər bir gəncin bir ləyaqətli hərəkəti bu adqoymanın vacib şərti idi. Əsrlər keçdi və şanlı əcdadların adını nəvələrə, nəticələrə qoyma ənənəsi yarandı. Bununla, sanki mənəvi yaddaş, dədə və babaların, ana və nənələrin vəsiyyətləri əbədiləşdi.

Bu ənənə Heydər və Zərifə Əliyevlərin də ailəsində əyani şəkildə görünür. Zərifə xanımın adı onun nəvəsinə - Sevilin qızına verildi. Nənə kiçik adaşını ümmanlar qədər sevirdi. O, oğul nəvə də arzulayırdı. Təəssüf ki, həmin günə qədər yaşaya bilmədi - məşum xəstəlik həyat yoluna sədd qoydu.

Amma İlahi qüvvə Zərifə xanımın arzusunu həyata keçirdi və onun ruhunu sevindirdi. İlhamın oğlu oldu və adını Heydər qoydular. Heydər Əliyevə də balaca Heydər Əliyevi görmək nəsib oldu...

Bir neçə il bundan əvvəl İlham Əliyevin Bakı universitetində tələbələrlə görüşündə söhbət bu hadisədən düşdü və ona belə bir sual verdilər:

- İlham müəllim, bu sualın nə qədər yerində olduğunu bilmirəm, amma yenə də soruşmaq istəyirəm: siz oğlunuzun adını atanızın tövsiyəsi ilə Heydər qoydunuz?

- Bilirsiniz, mən indiyə kimi bu barədə heç yerdə danışmamışam, amma indi sizə deyəcəm. Mənim oğlum 2 avqust 1997-ci ildə doğulmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev rəsmi vizitlə Amerikada idi. Ailədə elə fikrimiz belə idi. Amma, əlbəttə ki, biz bu adı körpənin babasının razılığı ilə qoya bilərdik. Buna görə də atamla söhbət edərkən mən ona dedim ki, uşağın adını Heydər qoymaq istəyirik. Atam da razılıq verdi. Soruşdu ki, bəlkə, ürəyimizdən başqa ad qoymaq keçir? Mən də cavab verdim ki, başqa ad heç fikrimizdə də yoxdur. Bilirsiniz, adətən, uşaq doğulanda valideynlər beş-altı ad fikirləşirlər. Bizim birinci, ikinci övladımız olanda siyahı ilə gəzib öz aramızda məsləhətləşirdik ki, hansı adı qoyaq... Amma bu dəfə elə şey olmadı.

Onda hələ ARDNŞ-nin vitse-prezidenti olan İlham Əliyevlə universitet görüşündə siyasi rəhbərlərin həyat yoldaşlarının sosial aktivliyi ilə bağlı bir problemə də toxunuldu.

Belə bir sual verildi:

- Hamımız bildiyimiz kimi, xaricdə dövlət başçılarının xanımları ölkənin ictimai həyatında mühüm rol oynayırlar. Cənab Əliyev, necə fikirləşirsiniz, sizin xanımınız ictimai həyatda nə qədər iştirak edir?

- Ən əvvəl onu deyim ki, mən dövlət başçısı deyiləm, sadəcə neft şirkətinin vitse-prezidentiyəm. Hesab edirəm ki, həyat yoldaşının öhdəlikləri hansısa stereotiplərlə müəyyənləşmir. Hər bir ailənin öz xüsusiyyətləri var, bir ailə digərinə oxşamır. Bircə onu deyə bilərəm ki, mənim yoldaşım uzun illər oftalmoloji xəstəxanada həkim işləmişdir. Hal-hazırda uşaqlarımız azyaşlı olduqlarına görə işləmir. Əgər sualınıza ümumi şəkildə cavab verəsi olsam, düzü, belə deyərdim: şəxsən mən təkcə dövlət başçısının xanımı olduğuna görə dövlət başçısının həyat yoldaşının hansısa vəzifə tutmasının və ya daim ekranlarda görünməsinin tərəfdarı deyiləm. Hər kəs qabiliyyətinə uyğun gələn və ürəyincə olan işlə məşğul olmalıdır.

Əgər hər hansı bir işi ürəyin istəmədən, yalnız imic xatirinə edəcəksənsə, bu, süni alınacaq. Odur ki, mən bu məsələdə heç bir məhdudiyyət qoya bilmərəm. Belə fikirləşirəm ki, hər bir insan ürəyinin səsi ilə hərəkət etməlidir... Ümumiyyətlə, demək istəyirəm ki, bəzən elə bizim qəzetlərdə və yaxud başqa mətbuat vasitələrində də liderlərin, hər hansı bir təşkilat rəhbərlərinin xanımlarının geniş təbliğatına rast gəlirəm. Bir kişi kimi, bir həyat yoldaşı kimi mən şəxsən bunların əleyhinəyəm. Hesab edirəm ki, ailə ailədir, iş isə işdir. Buna görə onları bir-birinə qatmaq lazım deyil.

Anlamaq çətin deyil ki, İlham Əliyevin təqdim olunan fikirlərində müəyyən şəxslərin fəaliyyətinin süni şişirdilməsi, müəyyən məqsədlər güdən KİV işçilərinin və yaltaq "reklamçıların" piar adlandırılan kampaniyası nəzərdə tutulur. Ümid edirəm ki, Azərbaycanın birinci ledisi, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri, parlamentin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın real ictimai fəaliyyətinin real faktları ilə tanış olduqdan sonra əziz oxucu müəllifi də həmin şəxslərin siyahısına aid etməz...

Yəqin ki, geniş oxucu dairəsinə artıq məlum olan "İlham Əliyev"[12] kitabında biz Azərbaycanın birinci ledisinin ictimai qayğı və işlərinin spektrini işıqlandırmışıq. Buna görə dərc olunmuş faktları təkrarlamadan Mehriban Əliyevanın portretini, humanitar işindən və ümumictimai təşəbbüslərindən yeni ştrixlər və nümunələrlə tamamlamağa çalışacağıq. Hesab edirik ki, həmin epizodlar əlimizdəki kitabın ümumi planında bu ailənin mənəvi və ruh aləmi barəsində, nəsillərin rabitəsi barədə, öz davamında iki digər layiqli nəslin - Paşayevlər və İmanquliyevlərin ənənələri ilə vəhdət əmələ gətirmiş Zərifə xanım Əliyevanın ailəsinin mənəvi mühiti haqqında təsəvvürləri genişləndirəcəkdir.

"Mehriban xanımın qismətinə... gözəl pay çıxmışdır, - **yazıçı-publisist Atababa İsmayıloğlu** yazır. - Əvvəla, bu qismət köklərdən gəlir... Onun ata tərəfdən babası Mir Cəlal (Paşayev), ana tərəfdən babası Nəsir İmanquliyevdir. Mir Cəlal - məşhur yazıçı, Nəsir İmanquliyev isə Azərbaycan jurnalistikasının patriarxlarından biri olmuşdur.

Bu gün Mir Cəlal müəllimi minnətdarlıq hissi ilə xatırlayanlar arasında bir çox yazıçı və filoloq vardır, Nəsir müəllimin tələbələri arasında isə bir neçə jurnalist nəsli vardır. Onlar ikisi də Bakı Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuş, gənc nəslin qəlbinə yol tapmağı, istedadları ayırd etməyi, onların qüvvələrini xalqın və cəmiyyətin rifahına xidmət istiqamətinə yönəltməyi bacarmışlar...

Mənə elə gəlir ki, Mehriban xanımın və onun bacısı, tanınmış filoloq Nərgiz xanımın həyatında görkəmli babalarının nümunəsi mühüm rol oynamışdır. Və əlbəttə ki, ikinci amil valideynlərinin - anası, görkəmli şərqşünas alim Aida İmanquliyevanın və atası, tanınmış fizik, akademik Arif Paşayevin nümunəsidir.

Valideynlərin yüksək meyilləri, nəcib idealları onların övladlarının formalaşmasına təsir etməyə bilməzdi. Mən əminəm ki, bu nəcib ailə nizamnamələri, insani mərhəmət və ürəyiyananlıq ruhu Mehriban xanımı Tibb İnstitutuna gətirmişdir. Sonralar isə qaynanası, tanınmış oftalmoloq Zərifə Əziz qızı

---

[12] Andiriyanov V.İ., Mirələmov H.F. "İlham Əliyev". - M.: Molodaya qvardiya, 2007.

Əliyevanın məsləhəti ilə özünə bu peşəni seçmişdi... Fərqlənmə diplomu alan Mehriban xanım bu sahədə işləyib, şübhəsiz ki, görkəmli həkim oftalmoloqlardan biri ola bilərdi..."

Məqalə müəllifinin sözlərinə əlavə olaraq deyək ki, Mehriban xanım öz gələcək qaynanasının rəhbərliyi altında həkim oftalmoloq işləmişdir. Amma tale ona başqa vəzifə hazırlamışdı...

O, tanınmış ailəyə gəlin olaraq daxil oldu. Gələcək dövlət başçısının həyat yoldaşı, övladlarının anası oldu. Tibbi xidməti, xəstələrə diaqnoz qoymanı, onları müalicə edib gözlərinin işığını qaytarmağı, onlara dünyanın sonsuz gözəlliyini görmək sevincini bəxş etməyi davam etdirmək olardı... İnsanlara işıq bəxş etmək - Zərifə Əziz qızı Əliyevanın bütün həyatı boyu etdiyi kimi...

Amma sonradan Mehriban Əliyeva olmuş Mehriban Paşayeva elə bir ailəyə daxil olmuşdu ki, həmin ailədən dövlət qayğılarının güclü cərəyanları keçirdi, burada ictimai nəbz, millətin arzuları, ümidləri və nigaranlıqları daha aydın eşidilirdi... Bu yeni həyat ritmi, belə demək mümkündürsə, familiya statusu onu sosial həyatda daha aktiv iştirak etməyə sövq etdi, açılmamış şəxsi potensialın enerjisini oyatdı. Ötən əsrin sonunda Azərbaycanın birinci ledisi olmuş Mehriban Əliyevanın ictimai fəaliyyətinin başlanğıcını şəxsən biz belə görürük.

Hələ 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondu yaradılır. Ölüm və dərd gətirmiş, çoxlu şəhər və kəndi xaraba qoymuş dağıdıcı müharibədən yeni çıxmış suveren respublikanın həmin ağır günlərini yada salaq.

Qaçqınlar, boş qalmış yurdlar, səfalət, inflyasiya. Cəmiyyətin konsolidasiyası, nizam-intizamın yaradılması, qanunçuluğun bərqərar edilməsi, dövlətçilik institutlarının normallaşması üçün Heydər Əliyevin göstərdiyi titanik səylər - özü də bütün bunlar fiaskoya uğramış təsadüfən hökumət başına keçənlərin azğın müxalifliyi fonunda.

Vəziyyət, "nə olur olsun, təki sağ qalaq" həddinə çatmışdı.

Mədəni həyat güclə nəfəs alır, mənəvi aşınma və deqradasiya təhlükəsi artır, respublika ərazisinin beşdə birinin işğalından yaranan apatiya və bədbinlik hökm sürürdü, bütün bunlar düşmənlərimizin, onların yaxın və uzaq xaricdəki həmfikirlərinin güclü, yaxşı maliyyələşdirilən və incə dezinformasiyasının müşayiəti ilə baş verirdi...

Belə bir şəraitdə insanlarda inamın yenidən dirçəldilməsi, Azərbaycan mədəniyyətinin dostlarını axtarmaq və cəlb etmək çətin, cəsarətli və həyati dərəcədə zəruri iş idi.

Söhbət Azərbaycanın nüfuzundan, onun təmiz adından, zəngin mənəvi irsinin təbliğindən, dünya ictimaiyyətinin onunla tanış olmasından gedirdi. "Azərbaycan: İrs" jurnalı Fondun tribunası oldu.

On il keçəndən sonra müsahibələrin birində **Mehriban xanım** xatırlayırdı:

"Fondun əsas məqsədi Azərbaycan mədəniyyətinin təbliğatı idi. Mən də məhz həmin vaxt "Azərbaycan: İrs" jurnalını təsis etdim.

Jurnal Fondun fəaliyyətini işıqlandırmaqla məşğul idi və müəyyən mövzuya həsr olunmuş hər bir nömrə həm populyarizator, həm də araşdırma materialı təqdim edirdi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti haqqında bizə qədər heç kəs bu cür həvəslə yazmamışdır. Məsələn, miniatür və ya memarlıq abidələri haqqında yazmaq istəyəndə biz həm akademiyanın alimlərini, həm jurnalistləri, həm də sənətşünasları bu işə cəlb edirdik..."

2004-cü ildə o, Heydər Əliyev adına Fonda rəhbərlik etməyə başlamışdır. Ümummilli liderin siyasi irsinin qorunması və təbliği ilə yanaşı, Fond mədəniyyət ocaqlarının, dağılmış məktəblərin bərpası, yeni məktəblərin tikilməsi, xəstəxanaların yenidən qurulması, yetimlərin qayğısı, diabet və talassemiya ilə bağlı problemlərin həlli missiyasını öz üzərinə götürmüşdür...

Mehriban xanım deyir: "Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, hansı qapını döyürsə, haraya gedirsə, heç nə alınmır. Öz dərdi və problemi ilə baş-başa qalır və ona elə gəlir ki, heç kim və heç nə onun dadına çata bilməz. Onda o, gözünü bizim Fonda dikir. Deyə bilmərəm ki, biz bütün problemləri dərhal həll edirik. Amma o insan burada laqeydliklə, biganəliklə, soyuq və səhlənkar münasibətlə qarşılaşmayacaqdır, onun probleminin həlli üçün bütün mümkün vasitələrdən istifadə olunacaqdır. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, şəfqət Azərbaycan xalqının əsrlər boyu formalaşmış mentalitetinə, mədəniyyətinə, ənənələrimizə xas olan son dərəcə gözəl xüsusiyyətlərdəndir və bu gün biz - Heydər

Əliyev adına Fond bütün qüvvələrimizlə bu ənənələri inkişaf etdirməyə çalşacağıq".

Fondun xeyirli işlərini saymaqla bitməz: bütün respublikamızın ərazisində bərpa edilmiş və tikilmiş gözəl mədəniyyət sarayları, maarif ocaqları... Minlərlə belə misal çəkmək olar. Abşeronun boş çöllərini və əvvəllər şoranlıq olan yerləri canlandıran on minlərlə ağac.

Fondun və onun prezidentinin milli mədəniyyətin mənəvi sərvətlərini yorulmadan, təmənnasız müdafiəsi üçün gördüyü işlər dünya ictimaiyyətinin də diqqətini cəlb etmişdir. Mehriban Əliyevaya YUNESKO-nun, ardınca İSESKO-nun xoş məramlı səfiri kimi məsuliyyətli və fəxri bir missiya etibar edilmişdir və bununla da onun fəaliyyət sferasına həm qərbi, həm də şərqi sivilizasiyanın məkanı daxil olmuşdur...

Dünya musiqi mədəniyyətinin ən nadir hadisəsi olan, Azərbaycanda görünməmiş dərəcədə inkişaf etmiş və dahi ifaçılar, musiqiçi və xanəndələr yetişdirmiş muğamın təbliği sahəsində fəaliyyət Mehriban Əliyevanın bu humanitar missiyasının məntiqi davamı idi. Burada birincilik tacı haqlı olaraq şanlı Qarabağ xanəndələrinə məxsusdur.

Bu yaxınlarda Bakıda Orta Asiya respublikaları və Yaxın Şərq ölkələrinin nümayəndələrinin iştirakı ilə muğam ifaçılarının festivalı keçirildi. Beynəlxalq Muğam mərkəzi tikilmişdir. Muğam təşəbbüsləri barədə deyilənlərə "Qarabağ xanəndələri" musiqi albomunun nəşrini, "Muğam dəstgahları" layihəsini, sonradan hər il keçirilən Muğam - 2005 festivalını da əlavə edə bilərik...

Buraya parlamentdə deputat fəaliyyətini də əlavə edin.

Novruz bayramı ərəfəsində Mehriban Əliyeva müəyyən kateqoriyalı məhbuslara amnistiya verilməsi təşəbbüsü ilə Parlamentdə çıxış etdi. Yüzlərlə insan azadlığa çıxdı və ölkənin tam hüquqlu vətəndaşı kimi əmək fəaliyyətinə başladı. Bu gün deputat Mehriban Əliyevanın Əfv Komissiyasına müraciəti sayəsində azadlığa qovuşan insanların sayı mini keçmişdir.

Bakıda keçirilən beynəlxalq turnirlər, bədii gimnastika üzrə yarışlar idman həyatının yüksək tonusundan xəbər verir və burada Respublika Bədii Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın xidmətləri şübhəsizdir. Onu həyatın sərt üzünü körpə vaxtlarından görmüş və Heydər Əliyev fondu sayəsində sığınacaq tapmış yetim uşaqların əhatə-

sində görmək olar. Respublikanın ən gözəl saraylarından biri olan "Gülüstan" sarayının qapıları xüsusi bayram tədbirləri zamanı bu uşaqların üzünə həmişə açıqdır.

Faciəli doxsanıncı illərin əvvəllərində təsəvvür etmək belə çətin idi ki, müharibənin və səfalətin cəngində didilən bir məmləkət on ildən sonra zəlzələdən əziyyət çəkmiş Pakistana yardım əli uzada bilər və orada məktəb tikə bilər. Bu, eyni zamanda, respublikanın iqtisadi gücündən də xəbər verir.

**Əlibala Zaloğlunun** "Qarabağa gedən yol" məqaləsində oxuyuruq: "Mehriban xanım humanizmin təcəssümüdür. Onun bütün fəaliyyətinin qırmızı xətti xeyirxah əməllərdir... Təsadüfi deyil ki, onun zəhmətləri beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmiş və ona "Qızıl ürək" mükafatı verilmişdir".

"Uşaq evlərinin və internat məktəblərin inkişaf proqramı", "Yenilənən Azərbaycana - yeni məktəblər", "Təhsilə dəstək" layihəsi və digər təşəbbüslər də Mehriban Əliyevanın adı ilə bağlıdır.

Bu xeyirxah təşəbbüs və aksiyalarla yanaşı, Danimarkanın "Nuovo-nordisk" firmasının əməkdaşlığı ilə həyata keçirilən "Şəkər xəstəsi uşaqlara maksimum qayğı" layihəsi, "Talassemiyasız həyat" layihəsi, tibb müəssisələrinin yenidən qurulması və yeni avadanlıqlarla təchiz olunması, səhiyyə ilə bağlı bir çox problemlərin həlli, pakistanlı uşaqlar üçün tikilmiş məktəb, məşhur Versal sarayında heykəllərin restavrasiyası, Mərdəkan qəsəbəsində kitabxana tikintisi, şair və maarifçi Abdulla Şaiqin ev muzeyinin bərpası, Gürcüstanda tarixi abidələrin bərpası və son Gəncə hökmdarı Cavadxanın mavzoleyinin tikintisi, Azərbaycanda müqəddəs ziyarətgahlardan bir neçəsinin bərpası Mehriban Əliyevanın rəhbərliyi altında həyata keçirilmiş xeyirli əməllərin siyahısının yalnız bir qismidir.

Mehriban xanım doğma xalqının ləyaqətli qızı obrazının - gözəl ananın, sevilən və sevən həyat yoldaşının, mədəniyyət qoruyucusunun, böyüyən nəslin qayğısını çəkən qadının təcəssümüdür, onun həyatı, mənəvi və vətəndaşlıq nümunəsi yüksək ailə ənənələrinin canlı təzahürüdür, unudulmaz Zərifə xanım Əliyevanın vəsiyyətlərinin təzahürüdür, Nurun davamıdır...

*On beşinci fəsil*

## İLHAM ƏLİYEV: "O HƏMİŞƏ MƏNİM QƏLBİMDƏDİR"

Jurnalistlərdən birinin: "Sizin üçün ən sevimli insan kimdir?" - sualına Heydər Əliyev qısa cavab vermişdi: "Zərifə xanım".

**İlham Əliyevin** dediklərindən: "Baba kiçik nəvəsini çox sevirdi. O, ümumiyyətlə, bütün nəvələrini çox sevirdi. Demək olar ki, hər gün onunla telefonda danışırdı. Onlar tez-tez babanın yanına gedirdilər. Heydər Əliyev onların nə ilə nəfəs aldığını gözəl bilirdi. Onun nəvə-nəticəsi az deyil: üç mənim, üç də bacımın uşaqları. Düzdür, o biri uşaqlar böyükdürlər, buna görə də baba daha çox mənim oğluma vaxt ayırırdı. Balaca hər gün onu evdən yola salır, adətimizə uyğun olaraq, arxasınca su tökürdü. Balaca Heydər bu "vəzifəsi" ilə fəxr edirdi. Yeri gəlmişkən, onu da deyim ki, bizim balaca həm rus, həm də Azərbaycan dillərində çox səlis danışır. Bizim evdə bütün uşaqlar ikidillidir.

Mehriban mənim arxam, dayağımdır. Mən qəti əminəm ki, ailə hər şeydən əvvəl həmfikir olmalıdır. Ailə - kişi və qadın - iki oxşar həyati və mənəvi prinsipi olan insandır. Buna görə də mənə elə gəlir ki, sözün əsl mənasında ailədə "müxalifət" olmamalıdır. Mənim Mehribanla bir çox məsələdə baxışlarımız uyğun gəlir. Biz təxminən oxşar mühitdə böyümüşük. Biz ikimiz də keçən əsrin bütün çətinliklərinə baxmayaraq, öz ideallarına, mənəvi dəyərlərə, milli ənənələrə sadiqliyi qoruyub saxlaya bilmiş Azərbaycan ziyalısı ailəsindən çıxmışıq. Belə köklərə mənsubluq həqiqi xoşbəxtlikdir.

Qadın prezidentin həyat yoldaşı olsa belə, yenə də qadındır. O, ailədə hüzurun, sahmanın və sevginin təminatçısıdır. Mənim üçün çox mühümdür ki, gərgin iş günündən sonra evə qayıtdıqda məni evdə anlayırlar və dəstəkləyirlər".

Zərifə xanımın yüksək ailə missiyasını davam etdirmək Mehriban xanımın payına düşüb və o, öz vəzifəsinin öhdəsindən ustalıqla gəlir.

Yenə də **İlham Əliyevi** dinləyək: "Anamın həyat fəlsəfəsinin köklərini hər şeydən əvvəl onun uşaqlığında axtarmaq lazımdır. O, bizə tez-tez deyərdi ki, uşaqlıq insan həyatında fövqəladə dərəcədə mühüm dövrdür və onu heç nə əvəz edə bilməz. Uşaqlıq elə bir dünyadır ki, insan ora həmişə boylanır, xatirələrin köhlən atına minib o məmləkətə yollanır. İnsan xeyirxahlığı və ürəyiyananlığı uşaqlıqda öyrənir. Onun çox xoşbəxt uşaqlığı keçib, uşaqlığı onun yaddaşında sevgi ilə dolu bir dövr kimi, ən əziz xatirələrin mənbəyi kimi qalmışdır.

Anamın ailəsi həmin dövrün ən ziyalı təbəqəsinə mənsub olub. Uşaqların yanında edilən söhbətlər əksər hallarda cəmiyyətin mənəvi həyatının bir çox tərəfini əhatə edirdi. Bu ailədə uşaqların tərbiyəsinə xüsusi əhəmiyyət verilmişdir. Dil və musiqi öyrətməkdən əlavə, onlara daxili inkişafa cəhd də öyrədilmişdir.

Atası Əziz Əliyevin qeyri-adi həyatı Zərifə xanım üçün doğma xalqının tarixinin bir hissəsi idi. Həkim peşəsinin etikasına həsr olunmuş kitabının fəsillərindən birini anam "Fədakar insanlar günəş kimi lazımdır" adını vermişdi. Bu frazaya müraciət onun rus mədəniyyətinə münasibəti ilə bağlı idi. Bütün həyatı boyu o, Çexovu və Raxmaninovu sevmişdi. Əgər bir həkim olaraq onun üçün cəmiyyətə Çexov baxışı çox yaxın idisə, Raxmaninovun musiqisi anama daxili hüzur verirdi, boş vurnuxmalardan təmizləyirdi, öz-özü ilə harmoniya yaradırdı.

Ailədə nənəm Leyla xanımın təsiri çox güclü hiss olunurdu. Zərifə xanım ondan çox şey öyrənmişdi. Adama elə gəlirdi ki o, hər şeyi etməyi bacarır: əla kulinar kimi yemək bişirir, elmi işlə məşğul olur, şövqlə oxuyur, incə və sadə olmağı bacarırdı.

Həyat Zərifə xanımı elə bir insanla rastlaşdırdı ki, bu görüş nəticəsində onun bütün həyatı dəyişdi. Bir yerdə olmaq üçün daha hansı sınaqlardan keçmədilər - hakimiyyətin qəzəbinə gəlmiş siyasi xadimin qızı və böyük ümidlər verən dövlət təhlükəsizliyi sisteminin gənc əmkdaşlarından biri! Bu, onların "şəxsi sirridir".

Bizimlə keçirdiyi son günlər, artıq o özü də bilirdi ki, həyatı sona doğrudur, ömrü tükənir, bütün həkimlər kimi özünə qarşı da açıq idi və heç nəyi gizlətmirdi. Qəlbi həmişəki kimi nurlu idi. Ölüm haqqında fikirlər onu qorxutmurdu. Daha çox tərk edib gedəcəyi insanlar üçün nigaran olurdu. Gücü günü-gündən tükənirdi. Bütün həyatını keçirdiyi dilsiz bir qürurla əriyirdi. Bu ölüm özü belə yaşadığı həyat kimi adamda hörmət hissi yaradırdı. O, gözəl anlayırdı ki, əbədiyyətin qarşısında bütün xırda-xuruş, fani, ötəri şeylər geri çəkilir, yalnız xeyir əməllər qalır. Məhz bu, onu sakitləşdirirdi.

Anam əsl alim idi. Təbabətin bütün sirlərini öyrənməyə calışırdı. Üstəlik, mənimlə və Sevillə məşğul olmağa, bizi layiqli Azərbaycan vətəndaşı kimi yetişdirməyə, böyütməyə də vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir".

**Tibb elmləri doktoru, professor Nurəddin Hümbətov** Zərifə xanım haqqında söhbət açanda dərhal onun atasını yada salır: "Əziz Əliyevin xatirəsi minlərlə başqa insanlar kimi, mənim üçün də silinməz və əzizdir. Mən aspiranturaya daxil olarkən Əziz Əliyevin mənə göstərdiyi qayğını və dəstəyi heç zaman unutmayacağam. Onda Əziz Əliyev institutun rektoru idi. Çox sadə və təvazökar insan idi. Mən aspiranturaya sənəd verəndə məndən başqa beş nəfər də ərizə vermişdi. "Daxili xəstəliklər" üçün isə cəmi bir yer ayrılmışdı, çox ciddi müsabiqə var idi. Mən gecə- gündüz imtahanlara hazırlaşırdım.

İmtahana dörd-beş gün qalmış kadrlar şöbəsinin müdiri məni çağırdı. "Sən Gəncədənsən?"- deyə soruşdu. - "Bəli", dedim. Kadrlar şöbəsinin müdiri mənə belə bir məsləhət verdi: "Sənədlərini götür, get, boş yerə vaxt itirmə. Onsuz da keçməyəcəksən". Mən həyəcanlandım: niyə? O cavabında: "Bu yerə bir nazirin bacısı oğlu sənəd verib, o da keçəcək". Mən çox darıxdım. Xeyli fikirləşdikdən sonra gedib dərdimi rektora anlatmağı qərara aldım.

Əziz Əliyevi gözlədim və onun qəbuluna girdim: "Hörmətli rektor, mən öz sənədlərimi geri götürmək istəyirəm". - "Niyə?" Mən hər şeyi olduğu kimi danışdım. Əziz Əliyev dedi: "Sən heç kəsə qulaq asma. Get, imtahanlara yaxşı-yaxşı hazırlaş. Yüksək bilik səviyyəsi göstərsən, keçəcəksən. Heç bir nazir və ya bir başqası imtahana təsir edə bilməz".

Mən bütün fənlərdən "əla" qiymət aldım. Bir az fəlsəfədən qorxurdum. Bilet götürüb cavabı hazırlamaq üçün əyləşdim. Bır azdan imtahanın gedişinə nəzarət etmək üçün Əziz Əliyev gəldi. İmtahan sənədlərini qaytarıb qapıya tərəf yönələndə gözünə mən sataşdım. O, müəllimlərə üzünü çevirib: "Bu gəncəli oğlan, deyəsən, yaxşı hazırlaşıb". - dedi. Və çıxıb getdi.

Mənim biletə cavablarımdan sonra imtahan götürən müəllimlər əlavə sual vermədən "əla" qiymət yazdılar. Beləcə, elmi yüksəlişimdə Əziz Əliyev mənə böyük mənəvi dəstək göstərdi.

Adı çəkilən nazir qohumunun zəif cavab verdiyinə görə "kafi" qiymət aldığını gördükdə mən bir daha əmin oldum ki, Əziz Əliyevin rəhbərlik etdiyi institutda ən yüksək meyar düzlük, zəhmət və ədalətdir.

Zərifə xanımla uzun illər bir yerdə işləmişəm. O, oftalmologiya kafedrasında, mən isə daxili xəstəliklər kafedrasında işləyirdik. Bir alim kimi, qadın kimi, həkim və pedaqoq kimi o, hamının sevimlisi idi. Mən yalnız onun insani keyfiyyətlərindən, sadəliyindən söz açmaq istərdim.

Zərifə xanım böyük alim, respublika rəhbərinin həyat yoldaşı olmasına baxmayaraq, istər işdə, istərsə də cəmiyyətdə özünü çox sadə aparırdı. Həm yaşlılarla, həm də kiçiklərlə səmimi və xoşrəftar idi. Bir həmkar kimi mənə çox yaxşı münasibət göstərirdi. Biz eyni ildə doktorluğu müdafiə etdik, professor adını aldıq. İnstitutun elmi şurasında bizim doktorluq işimiz müzakirə olunduqdan sonra sənədlər Moskvaya göndərilməli idi: o zaman Bakıda Ali Attestasiya Komissiyası yox idi. İclasdan sonra o, məni çağırdı və dedi: "Nurəddin, sənədlərini hazırla, mən onları özümünkülərlə bir yerdə Moskvaya göndərəcəyəm. Moskvada sənin sənədlərini mənim sənədlərimlə bir yerdə görəndə elə fikirləşəcəklər ki, sən ya Heydər Əliyevin qohumusan, ya da yaxın adamısan, onda sənin doktorluq işinin təsdiqi sürətli keçəcək". Heç kim bunu etməzdi. Mən adi adam idim. sıravi bir həkim idim, heç bir yüksək vəzifəli arxam, hamim yox idı. Birinci katibin xanımının belə xoş canıyananlığı məni qanadlandırdı. Tez sənədlərimi hazırlayıb Zərifə xanıma verdim. Heç iki həftə keçmədi ki, Moskvadan xəbər gəldi ki, sənədlərimiz təsdiq olunub.

Elmlər Akademiyasında keçirilən təntənli mərasimdə akademik Topçubaşov doktorluq diplomlarını Zərifə xanıma və mənə təqdim etdi.

Biz kondisioner zavodunda da əməkdaşlıq etmişik. O, yaratdığı laboratoriyada oftalmologiya üzrə, mən isə daxili xəstəliklər üzrə elmi axtarışlar aparırdıq. Zərifə xanım zavodun işçiləri və xidmətçiləri ilə o qədər yumşaq və nəzakətlə davranardı ki, çox adam onun kim olduğunu ağlına belə gətirməzdi. Zavod laboratoriyasında kardiologiya şöbəsi, mədə-bağırsaq, ağciyər, endokrin xəstəlikləri şöbəsi var idi, bu şöbələr mənim və həmkarlarımın tədqiqat sferasına daxil idi.

Vəzifəsindən asılı olmayaraq, zavod işçiləri ilə görüşəndə Zərifə xanım həmişə birinci salam verər, onların əhval-ruhiyyəsi və işləri ilə maraqlanardı. Köməyə ehtiyacı olanlara həmişə yardım edərdi, qəbul edər, dinləyər, məsləhət verər, imkan daxilində kömək edərdi".

**Suğra Babayeva** yarım əsrdən cox indi Zərifə Əliyevanın adını daşıyan göz xəstəlikləri ETİ-də şöbə müdiri, həkim işləmişdir. Zərifə xanımı xatırlayarkən onun səsi kövrəlir, amma eyni zamanda, dolmuş gözləri işıq saçır.

Hekayətimizin qəhrəmanının bacısı Ləzifə xanım Tibb İnstitutunda tələbə Suğra Babayevaya dərs demişdir. Tələbənin göz xəstəliklərinin diaqnostikasına və müalicəsinə xüsusi marağını görüb onu oftalmologiya sahəsində ixtisaslaşmaya həvəsləndirir. Suğranın əməliyyatlarda iştirak etməsinə də kömək edir.

Sonralar Zərifə xanımla tanış olan Suğra Babayeva bütün qəlbi ilə həmkarına və müəllliminə vurulur.

"Zərifə xanım insanlara kömək etmək üçün, yaxşılıq etmək üçün gəlmişdi, - deyir. - Biz onda təcrübəsiz idik, xəstəlik tarixçəsini doldurmağa çətinlik çəkirdik, əsasən də qeydlər rus dilində aparılanda bizim üçün əziyyət olurdu. Zərifə xanım dadımıza çatardı, ifadələrin, şəkilçilərin düzgün işlədilməsinə diqqət edər, redaktə edərdi... İşə gələndə hamı ilə salamlaşar, Ləzifə xanımla isə mütləq öpüşərdi. Mən Əliyevlər ailəsində bacı və qardaşların bir-birinə sevgisinə heyran qalardım.

Bizim Slutski familiyalı bir həmkarımız var idi, təzə mənzil almışdı, biz də onu təbrik etməyə getmişdik. Onun yoldaşı musiqi müəllliməsi idi və evdəki piano Zərifə xanımın diq-

qətini çəkdi. O, alətin arxasına əyləşdi və milli operettalarımızdan, dünya klassikasından fraqmentlər ifa etməyə başladı. Həkimlərimiz də musiqinin ruhunu tutub həvəslə və coşğunluqla rəqs edirdilər.

Yetmişinci illərin sonunda Bakıya sovet oftalmologiyasının dühaları gəlmişdilər, onların arasında Sosialist Əməyi Qəhrəmanları, iri göz mərkəzlərinin rəhbərləri var idi. Tanınmış qonaqları mənim evimə dəvət emək qərara alındı. Zərifə xanım bizdə birinci dəfə olurdu, ailəmlə tanış oldu, uşaqları nəvazişlə öpdü.

Biz qonaqlar üçün Azərbaycan mətbəxinin bütün zənginliyini əks etdirən bir süfrə hazırlamışdıq. Bir neçə növdə plov, ədviyyat, kabablar, toyuq əti, turşular, şirniyyat. Eyvanımızdakı üzüm salxımları qonaqların diqqətini çəkdi. Payızın axır vaxtları idi, salxımlar tam şirəyə dolmuşdu. Biz onları dərdik və qonaqlara payladıq.

Zərifə xanım bizim fortepianoda çaldı və hamımıza sevinc bəxş etdi. Hamının gözəl əhval-rühiyyəsi var idi. Zərifə xanım qəbuldan çox razı qalmışdı, amma gedəndə pianinonun yaxşı köklənmədiyini demək də yadından çıxmadı..."

**Rasim Hacıyev** Zərifə xanımın sevimli aspirantlarından biri idi. Hal-hazırda o, tanınmış oftalmoloq kimi uğurla fəaliyyət göstərir. Müəlliməsini ən sevdiyi insan kimi ehtiramla və məhəbbətlə xatırlayır:

"Mən onunla 1978-ci ildə tanış olmuşam. O zaman o, gənc və istedadlı göz həkimləri axtarırdı. Mənimlə tanış olduqda hətta bu sahə üzrə azacıq imtahan da etdi. Sonra öz yanında işə götürdü. Bir müddət keçdikdən sonra mənə diabetik retinopatiya üzrə namizədlik işi götürməyi təklif etdi. Mövzunun aktuallığını onunla əsaslandırdı ki, bu xəstəlik kor olmanın əsas səbəblərindən biridir. 4 saylı xəstəxananın endokrinologiya şöbəsində xəstə çox idi, şöbə müdiri Tamerlan Əliyev idi (Zərifə Əliyevanın qardaşı - H.M.) və biz həmişə onun məsləhətindən yararlana bilərdik.

Mən bu mövzuda referat hazırladım. Zərifə xanım onunla tanış oldu və müfəssəl rəy yazdı. Onun imzası olan həmin rəy indiyə qədər kafedra muzeyindədir.

O zaman o, belə bir hipotez irəli sürdü ki, diabetik retinopatiyanın səbəbi indiyə qədər hesab olunduğu kimi, damar zədələnməsi deyil, gözün tor qişasının xüsusi hüceyrələrinin

zədələnməsidir. Bu mövzuda onun ilk məqaləsi 1982-ci ildə Azərbaycan səhiyyə jurnalında dərc olundu; bu məqalədə deyilirdi ki, diabetik retinopatiya prosesinin stabilləşməsi üçün gələcəkdə vitreotexnika metodundan istifadə etmək olar. Sonrakı tədqiqatlar onun bu təklifinin əsaslı olduğunu təsdiq etdi.

Gözəl insan, humanist alim, mənim elmi rəhbərim Zərifə xanım Əliyevanın xatirəsi mənim üçün həmişə əziz olacaq".

**Professor, tibb elmləri doktoru Aydın İmaməliyev** yazır:

"İnsan taleləri nə iləsə oxşar olur, amma bir-birini tamamlamır. Bir-birinə tamamilə oxşayan insan tapmaq çətindir. Bu mənada Zərifə Əliyeva və Heydər Əliyev bir istisnadır. Onlar bizim hamımız kimi, övlad tərbiyə etmiş, qayğısını çəkmişlər; bəzən sevinmiş, bəzən də qəmlənmişlər. İşdə də, ictimai işlərdə də uğurları və uğursuzluqları olmuşdur. Amma bütün bunlara baxmayaraq, onlara mənəvi cəhətdən bir-birini tamamlamış, zənginləşdirmiş, həmişə çətinliklərə mətinliklə sinə gərmişlər".

**Keçmiş SovİKP MK Siyasi Bürosunun namizədi Aleksandr Dzasoxov** bizi Zərifə xanımın vəfat etdiyi günlərə qaytarır:

"... Çox kədərli bir gün idi. O gün biz Moskvada Zərifə xanımı son mənzilə yola salırdıq. Hava da, insanlar da qüssəli idi. O, Heydər Əliyevin gox gözəl həyat yoldaşı və sədaqətli dostu idi. O, dünyasını tərk etdi və Heydər Əliyevin həyatında çox şey dəyişdi. Zərifə xanım elmlər doktoru idi, ziyalı, təhsilli ailədə böyümüşdü və təbii ki, Heydər Əliyevi ən gözəl şəkildə tamamlayırdı".

Bu fikirləri davam etdirirmiş kimi, Heydər Əliyevlə görüşdə Zərifə Əliyevanın portretini təqdim edən **Rusiya Rəssamlıq Akademiyasının professoru, rəssam Nikas Safronov** aşağıdakı sözləri dedi:

"Mən, dahi şəxsiyyət olan Heydər Əliyevə mərhum Zərifə xanım Əliyevanın portretini təqdim etdiyimə görə özümü xoşbəxt hiss edirəm. Cənab prezident, Zərifə xanımın sifət cizgilərindən görünür ki, sizinlə birlikdə yaşadığı illər ərzində onun siması daha da gözəlləşmiş və nəcib olmuşdur. Əvvəla, gözləri son dərəcə gözəldir. Mən onları azacıq kədərli vermişəm, onun özünü isə hamının qeydinə qalan qoruyucu mələk kimi təsvir etmişəm. Ümumiyyətlə, sizin ailənizdə

çox nüfuzlu və öz xalqına sadiq şəxsiyyətlər yetişmişdir. Xalq Heydər Əliyevi yüksək məqam sahibi olan bir şəxs kimi deyil, bütün qəlbi ilə ona bağlı bir şəxs olaraq görür".

Tibb Universitetində uzun illər dərs demiş **Fəqumə Bağırlı** xatırlayır:

"Cavan vaxtı mən bir dəfə xəstəxananın uşaq şöbəsində axşam növbəsində növbətçi idim. Xəbər verdilər ki, DTK sədrinin uşağını müayinəyə gətirirlər. Mən bayıra çıxdım və Zərifə xanımın qolları arasında zəifləmiş İlhamı gördüm, Zərifə xanım oğlunun halından çox nigaran idi. O ağlayırdı. Heydər Əliyev isə onu sakitləşdirirdi: "Ağlama, Zərifə. Bizim bircə oğlumuz var, Allah onu bizdən almaz...."

Zərifə xanım həssas ana idi, ürəyi övladlarına qarşı məhəbbətlə dolu idi. Bütün həyatı boyu yalnız mənəvi dəyərlərə üstünlük verərək yaşamışdı. Həyat yoldaşına etibarlı arxa idi, övladlarının sağlamlığı üçün həmişə narahat idi, çalışırdı ki, onlar ləyaqətli vətəndaş olaraq böyüsünlər. Buna görə də onun həyatında qayğısız günlərlə yanaşı, çoxlu nigaranlıq içində keçmiş günlər də var idi.

Onun nəcib insani keyfiyyətləri, həkimlik və elmi fəaliyyəti barəsində çoxlu kitablar yazılmışdır. Və bütün müəlliflər bir fikirdə həmrəydirlər ki, Heydər və Zərifə Əliyevləri bir-birindən ayrı təsəvvür etmək olmaz".

**Mirkazım Seyidovun** və **Məmməd Rzayevin** böyük liderə həsr etdikləri "Zamanı qabaqlamış dahi" kitabında Zərifə xanım Əliyeva haqqında da müfəssəl söhbət açılmışdır. Peşə fəaliyyəti barəsində danışarkən, müəlliflər onun həkim etikasına və tibbi deontologiyaya, kadrların təkcə professional baxımdan deyil, həm də mənəvi baxımdan tərbiyə edilməsinə diqqət verməsini xüsusilə qeyd edirlər. O, həmişə gənc nəslə başa salardı ki, öz elmi diapazonunu genişləndirmək lazımdır, dar çərçivəli mütəxəssis olaraq qalmaq olmaz, amma eyni zamanda təkcə peşə maraqları dairəsində qapanmaq da düzgün deyil. İnsanların həyat və sağlamlığı uğrunda uğurla mübarizə aparmaq üçün hər bir insanı başa düşmək, ona sevgi hissi ilə yanaşmaq lazımdır. Zərifə xanım qeyd edirdi ki, peşə erudisiyası ilə yanaşı, həkim həm də yüksək mədəniyyətli bir insan olmalı, incəsənət, musiqi, ədəbiyyat dünyasını anlamağı öyrənməlidir...

Yalnız elmi-texniki inkişaf şəraitində müasir tədqiqat metodları ilə əldə edilmiş informasiyanı yaradıcı şəkildə istifadə edə bilən həkim zamanın tələblərinə cavab verə bilər.

Cəmiyyətdə rast gəldiyi istənilən nöqsana da Zərifə xanım bir həkim gözü ilə baxırdı. Həkim pasientin xəstəlik tarixçəsini diqqətlə oxuduğu kimi, sosiumda da o, "xəstəliyin simptomunu" axtarırdı, bu xəstəliyin aradan qaldırılması üçün onun yaranmasının ilkin səbəblərini aradan qaldırmağı müalicə şərti bilirdi.

22-24 oktyabr 1977-ci ildə Bakıda Oftalmoloqlar cəmiyyətinin VII Ümumittifaq plenumu keçirilirdi, plenumun işində uşaqların görmə problemi və kəskin göz zədələnmələri, qlaukomanın müalicəsi ilə məşğul olan iki yüz görkəmli alim iştirak edirdi. Forumun materialları ilə tanış olduqda qeyd etmək olar ki, Zərifə Əliyevanın çıxışında irəli sürülən müddəalar və ideyalar yeniliyi və aktuallığı ilə seçilirdi.

Plenumdan sonra qonaqları və iştirakçıları Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev qəbul etdi və onlarla iki saat söhbət etdi.

Qonaqları respublika rəhbərinin iqtisadiyyat, ədəbiyyat və incəsənət, Azərbaycanda tibbin və səhiyyənin vəziyyəti barədə canlı, dəqiq faktlarla zəngin söhbəti valeh etmişdi".

Növbəti, VIII plenum 8-9 oktyabr 1981-ci ildə Yerevanda keçirildi. Zərifə Əliyevanın bu forumdakı çıxışı tibbi deontologiya məsələlərinə həsr olunmuşdu. Onu və səhiyyənin bütün qabaqcıl nümayəndələrini tibb işçiləri arasında əxlaqi meyarların aşağı düşməsi, həkim və xəstə münasibətləri problemi narahat edirdi... Elmi-texniki proqres nəticəsində səhiyyədə baş verən dəyişikliklər, yeni aparat və cihazların tətbiq edilməsi pasientləri müxtəlif profilli həkim, texnik və laborantlar mühitinə cəlb edirdi. Zərifə Əziz qızı Əliyeva bu "konveyer" usulu ilə müalicə metodunu yanlış hesab etməsə də, bu prosesdə düzəldilməsi mümkün olmayan səhvlərin artmasını təhrik edə biləcək həkim təfəkkürünün hamarlanması amilini aydın şəkildə görürdü. O, xəstə ilə həkimin birbaşa, canlı ünsiyyətinə böyük əhəmiyyət verirdi, çünki bu ünsiyyət xəstənin psixi qüvvələrinin və imkanlarının, xəstəliklə mübarizə üçün iradəsinin səfərbər edilməsinə, optimizmin oyanmasına yardım edir. Zərifə xanım dəfələrlə qeyd edirdi ki, nə olursa olsun, bu gün müalicədə onlarla profilli mütəxəssis çalışır,

əsas məsuliyyət müalicə edən həkimin üzərinə düşür. Həkimlərin "qrup məsuliyyəti" isə, mahiyyət etibarilə, işdə meyarların itməsini və məsuliyyətsizlik doğurur.

Zərifə Əliyevanın Moskva Oftalmoloqlar cəmiyyətinin iclasında oxuduğu, sonralar dərc olunmuş məruzədə ali məktəblərdə və Həkimləri Təkmilləşdirmə İnstitutunda kadrların hazırlanması strategiyası irəli sürülür. Zərifə xanım haqlı olaraq qeyd edir ki, xəstə özünə qapandıqda və heç kəsi yaxınına buraxmadıqda, ətrafdakıları özünə dəstək görmür, o, daxilən daha tez qüvvədən düşür, xəstəliyə müqavimət göstərmək üçün bu qədər zəruri olan həyat sevinci hissini və ən nəhayət, həyat enerjisini itirir. Məhz buna görə də həkim peşə borcu olaraq vəzifəsindən, məqamından, maddi vəziyyətindən asılı olmayaraq hər bir xəstə üçün mənəvi dayaq olmalı, onda həyat iradəsini dirçəltməlidir. Zərifə Əliyeva təkrar etməkdən yorulmazdı ki, insan ruhu, onun mənəvi sağlamlığı fiziki sağlamlığı üçün zəmindir və əsasdır. Bu baxımdan, hər bir həkim xəstəni təkcə konkret naxoşluğunun yox, həm də onun ruhunun sağalmasının qeydinə qalmalıdır.

Görkəmli həkim sağlamlığı, o cümlədən də görmə qabiliyyətini qorumağa, nə qədər ki, sənə xidmət edir, qədrini bilməyə, qiymətləndirməyə çağırırdı. O, qeyd edirdi ki, müasir dövrdə təkcə xəstəliyi yaradan amilləri və səbəbləri deyil, eyni zamanda insanların sağlamlığını təmin edən, onları xəstəliklərdən qoruyan, onların xoşbəxt, tam dəyərli yaşayışına yardım edən şəraiti də dərindən tədqiq etmək lazımdır. "Təbabət qədim zamanlardan bəri yalnız əziyyət çəkənlərin müalicəsi və onlara yardım göstərilməsi ilə məşğul olmuşdur, - deyirdi Zərifə Əliyeva. - Bizim zəmanəmizdə isə müxtəlif xəstəliklərə qarşı mübarizə ilə yanaşı, təbiblərin qarşısında həm də insanların sağlamlığının müdafiəsi və qorunması problemi durur". O illərdə respublika rəhbəri tərəfindən aparılan çoxşaxəli və planlı iş səhiyyənin inkişafına güclü təkan vermişdi. Səhiyyə sisteminin əhalinin sağlam hissəsinə tərəf üz tutması dövlətin sosial inkişafı məntiqindən irəli gəlirdi.

Dünyaca tanınmış cərrah, Lenin mükafatı laureatı, akademik F.Q. Uqlov "Adamlar arasında insan" ("Molodaya qvardiya", 1978) kitabında qeyd edirdi ki, yaxşı həkim təkcə bədəni yox, həm də ruhu müalicə etməlidir. Əsl cərrah əməliy-

yat stoluna yaxınlaşmazdan əvvəl xüsusi “skalpellə” insan qəlbinin ən dərin guşələrinə daxil olmaq üçün həyat və insan elmi ilə silahlanmalıdır. Sözlə təkcə məcazi mənada yox, birbaşa, hərfi mənada insanı öldürmək olar. Və elə sözlə də, vaxtında dəstək, ürək-dirək verməklə, insanlıq göstərməklə xəstəni sağaltmaq olar. Öz praktikasında Zərifə Əliyeva məhz bu prinsiplər əsasında hərəkət edirdi.

Ümumiyyətlə, mənəvi, psixoloji, ruhani mənbənin onun sənətə, insanlara, cəmiyyətə münasibətinin əsasını təşkil etdiyini görmək çətin deyil. Qədim zamanlarda deyilirdi: “Sağlam bədəndə sağlam ruh olar”. İndi isə Zərifə xanımın gənc nəslə müraciətlə dediyi sözlərə diqqət edin: “Milli xarakterin ən yaxşı xüsusiyyətlərini, sadəliyi, gözütoxluğu, dostluğa sədaqəti, verilən sözə sadiqliyi, ürək genişliyini qoruyun. Ruhun sağlamlığı fiziki sağlamlığın rəhnidir”. İnsan varlığının harmoniyasını əmələ gətirən iki qütb bu kəlamda bir vəhdət yaradaraq, sanki yerlərini dəyişmişlər.

Onu tanıyan həmkarlarının və yaxın adamların bu kitabda verilmiş çoxsaylı rəyinə və fikrinə əsasən, oxucunun əmin olduğu kimi, Zərifə xanım yüksək əxlaq sahibi olan bir insan idi. O, xəstələri təkcə işlədiyi klinikada deyil, harada zərurət yaranardısa, orada qəbul edir, məsləhətlər verirdi, əgər şərait imkan verirdisə və vəziyyət təxirəsalınmaz müdaxilə tələb edirdisə, əməliyyatlar keçirirdi, heç kəsə kömәkdən imtina etmirdi, heç kəsi ümidsiz qoymurdu.

O, tibbi biliklərin kənd əhalisi arasında təbliğ edilməsi üçün aktiv çalışırdı, “ailə həkimlərinin” rolunu yüksək qiymətləndirirdi, ailə həkimliyi institutunun bərpa edilməsini israrla təkid edirdi. 1983-cü ildə nəşr olunmuş “Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” kitabı nəinki həkimlərin stolüstü kitabı oldu, o, həm də insan münasibətləri, ictimai davranış nizamnaməsi hesab oluna bilər. Həkimin həyat mövqeyini təyin edərkən Zərifə Əliyeva pasientə münasibəti əsas hesab edirdi. O deyirdi ki, əsl həkim xəstənin ağrı və əziyyətlərinə laqeyd qalmamalıdır və onun öz xəstələrinə ürəyi yanmaya bilməz.

Zərifə Əliyevanın Özbəkistanın “Tibb” nəşriyyatı tərəfindən nəşr olunmuş “Şəkər diabeti zamanı göz xəstəlikləri” kitabı Orta Asiyada və Zaqafqaziyada yayılmış bu xəstəliklər-

lə mübarizədə böyük rol oynamışdır. Bu əsər oftalmoloq praktiklərin stolüstü kitabıdır.

Bu kitabın səhifələrində hekayəmizin qəhrəmanının maraq dairəsinin genişliyi, onun musiqi qabiliyyəti, teatra, musiqiyə məhəbbəti barədə az söz açılmamışdır. Söhbətlərimizə Leninqrad (indiki Sankt Peterburq) Sanitar-gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri professor **A.N.Dobrolyubovun** xatirələrini də əlavə edək. O deyirdi ki, Z.Əliyevanın musiqi dinləmək və anlamaq bacarığını onun "danışan" gözlərindən oxumaq olardı. Z. Əliyevanın sözlərinə görə, musiqi, insanı ruhən saflaşdıran sehrli sənətdir.

O, Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Qara Qarayevin, Tofiq Quliyevin, Fikrət Əmirovun və əsərləri təkcə Azərbaycanda deyil, onun hüdudlarından çox-çox kənarda səslənən digər bəstəkarların yaradıcılığı ilə fəxr edirdi və onlardan həzz alırdı.

Onun təbii cazibədarlığı yüksək mədəniyyəti ilə seçilən nitqində təzahür edirdi. Onun həmişə məzmunlu, professional baxımdan dərin mənalı məruzələrinin uğuru bir tərəfdən də dəqiq diksiya, aydın səs, anadangəlmə artistizmlə izah olunur.

Hegel yazırdı ki, "...danışan şəxsin səsinin gözəlliyi ilə onun daxili gözəlliyini, səsin kobudluğuna görə - hissiyyatının da çirkinliyini müəyyən etmək olar..."

Səsin təsirliliyi, intonasiyanın zənginliyi ünsiyyətdə heç də kiçik amil deyil. Zərifə xanım vəziyyətdən asılı olaraq, həmişə lazımi və düzgün ton tapa bilirdi, vəziyyətlər isə, oxucunun anladığı kimi həkimlik praktikasında çox qəliz olur... Bu, xəstə adamla münasibətdə xüsusilə vacibdir, axı pasientlər müxtəlif xarakterdə və yaşda olur, onlar ümumi sağlamlıq vəziyyətinə görə fərqləndikləri kimi, xəstəliyin ağırlığı ilə də fərqlənirlər. Odur ki, həkimin sözünün xəstə üçün psixoterapevtik təsirə malik olduğunu qətiyyən unutmaq olmaz. Belə bir istedad Zərifə xanımda tam həcmdə var idi.

Biz onun musiqiyə məhəbbəti haqqında danışdıq, amma o, poeziyanı və ədəbiyyatı heç də az sevmirdi, şair və yazıçıları mənəvi təbiblər hesab edirdi.

**Azərbaycan Dövlət Tibb Universitetinin fəlsəfə kafedrasının müdiri, (mərhum) professor Adil Nəcəfov** xatirə-

lərində yazırdı ki, Zərifə Əliyeva ədəbiyyatın ali missiyasını, gücünü və ilhamını gözəlliyin və xeyrin böyüklüyündən alan, şərə və ədalətsizliyə qarşı barışmaz olan kamil, nəcib və güclü şəxsiyyətin bərpa olunmasında görürdü.

Hələ 1950-ci illərin əvvəllərində istedadlı **şair və dramaturq İslam Səfərli** "Göz həkimi" pyesi üzərində işləyərkən Zərifə xanım Əliyevadan məsləhət almaq üçün Oftalmologiya İnstitutuna gələrdi. Sonralar o etiraf edirdi ki, Zərifə xanımın qeydləri onun milli və dünya ədəbiyyatını, yaradıcılıq üsullarını çox gözəl bildiyini göstərirdi. Lakin pyesin rəsmi məsləhətçisi olmaq barədə dramaturqun təklifinə o, incə, lakin qəti imtina ilə cavab vermiş və əlavə etmişdi ki, təbabət və ədəbiyyat eyni məqsədə xidmət edir.

Məşğul olmasına baxmayaraq, Zərifə xanım teatr repertuarını izləməyə çalışırdı və deyirdi ki, klassik tamaşalar sehrli təsir gücünə malikdirlər. İncəsənət xadimləri həkimlər kimi, teatrın böyük sehrinin insan rifahı üçün daha səmərəli istifadə yollarını axtarmalıdırlar.

Görkəmli oftalmoloqun daim qeyd etdiyi sözün bir müalicə vasitəsi kimi rolu akademik Dmitri Sergeyeviç Lixaçovun da fikirlərində öz təsdiqini tapır. D. Lixaçov "Sözün çaları" ("Literaturnaya qazeta", 1984, 25 yanvar) kitabında poeziyanı "sonuncu şəfa sənəti" adlandırırdı. Əlbəttə, poeziyanın və incəsənətin şəfaverici rolunu biz metaforik, mənəvi mənada anlayırıq.

Həkimlə xəstə arasında olan məhrəm münasibətə, bəlkə də, başqa heç bir peşədə rast gəlmək olmaz. Və yəqin ki, heç bir peşə sahibi həkim qədər insanın həyatına, onun fiziki və psixi vəziyyətinə, mənəvi dünyasına daxil ola bilməz (inşallah, ədəbiyyat mənsubu həmkarlarımız bizi günahkar saymazlar!)... Sənəti həkim, ruhu söz rəssamı olan Anton Pavloviç Çexov yazırdı: "Əgər həkim geniş təfəkkürü qavraya bilmirsə, o, təbabəti inkar edir". Rus klassiki burada o cəhətlərdən söz açır ki, həmin cəhətləri bizim qəhrəmanımız öz tələbələrinə aşılayırdı.

Zərifə Əliyeva böyüdüyü ailəyə xas olan bütün ali nəciblikləri öz canına və ruhuna hopdurmuşdu. Ziyalılıq, əməksevərlik, təvazökarlıq, doğma ocağa məhəbbət, ümumbəşəri dəyərlərə bağlılıq... Bu xüsusiyyətlər onun gələcək həyatında təzahür edəcəkdi.

Ocağın qoruyucusu olmaq özü özlüyündə az iş deyil. Amma bununla yanaşı, eyni zamanda ictimai həyatın aktiv iştirakçısı olmaq, elm fədaisi olmaq, minlərlə insanı müalicə etmək, onlara dünya işığını, tam yaşayış sevincini qaytarmaq ali və nəcib qismətdir.

Sovet illərində, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi zaman Azərbaycana tez-tez rəhbər işçilər, SSRİ nazirləri gəlirdi və iqtisadiyyatımıza, mədəniyyətimizə böyük maraq göstərirdilər. Çox vaxt yüksək qonaqlar respublikamıza xanımları ilə birlikdə gəlirdilər.

**Müharibə veteranı, SSRİ DTK əməkdaşı, general-mayor Mustafa Nəsirov** xatırlayırdı:

"Keçici Qırmızı Bayrağı təqdim etmək üçün Bakıya Siyasi Büro üzvü, kənd təsərrüfatı üzrə SovİKP MK katibi F.D. Kulakov xanımı ilə birlikdə gəlmişdi. Qonaqların Lənkərana və Astaraya getməsi nəzərdə tutulmuşdu. Biz DTK sədri V.S. Krasilnikov və DİN naziri Arif Heydərovla birlikdə onlardan bir az əvvəl Lənkərana getdik və məlum oldu ki, rayon rəhbəri raykom binası qarşısında zəhmətkeşlərlə görüş təşkil edib. Mən isə astaralılara xəbər vermişdim ki, qonaqlar sərhəd zastavasına gələcək və onun qarşısına toplaşacaqlar. İki nazirliyin əməkdaşları ictimai intizamı təmin etmək üçün orada olmalı idilər. Meydana yaxınlaşırıq, ora boşdur. Astaranın kənarında bir az gözləyib maşını zastavaya sürdük. Həmin vaxt artıq Zərifə xanım və Kulakovun xanımı artıq zastavada idilər və əsgərlərin həyat və məişəti ilə tanış olurdular. Sovet İttifaqı Qəhrəmanı Qujevin portreti asılmış "Qırmızı guşə"nin qarşısında addımlarını yavaşıtdılar və durdular - ana münasibəti hamıya aydındır. Sonra sərhədə tərəf getdilər.

Zastavanın şəxsi heyəti fəxri qonaqları qarşılamaq üçün düzülmüşdü. Sərhədçilər Heydər Əliyevə və Fyodor Dmitriyeviç Kulakova sadə hədiyyələr - yaşıl furajka və müşahidə vışkasının maketini bağışladılar.

Sərhəd körpüsünə çıxmaq vaxtı çatdı. Əsas qapıdan çıxmaq lazım idi, küçə isə respublika rəhbərini və onun qonağını salamlamaq üçün toplaşmış camaatla dolu idi. Darvaza astaralılar tərəfindən "tıxaclanmışdı".

Heydər Əliyev toplaşanları salamlayıb irəli çıxdı və Kulakova müraciət etdi: "Bu insanlar bizə öz hörmətlərini ifadə

etmək üçün toplaşmışlar, sevinclə bizi salamlayırlar". Yerli əhalinin alqışları altında o, aralanıb yol verən dəstənin içərisinə girdi, Kulakov da onun ardınca getdi, mühafizə isə kənardan onları izləməli oldu.

Sərhəd qapılarından qayıtdıqdan sonra Kulakov Zərifə xanıma və yoldaşına dedi: "Təəssüf ki, siz xalqın Heydər Əliyevə və onun qonaqlarına hörmətini və sevgisini görmədiniz, iki sahili birləşdirən körpünü görmədiniz". Amma biləndə ki, xanımlar bütün bunları artıq görüblər və sərhədin ən son nöqtəsində dayanıblar, Kulakov bir də Heydər Əliyevə öz minnətdarlığını bildirdi".

Belə fikirləşirəm ki, **Bayram Hüseynlinin** "Heydər Əliyev: yaşanan və yaşadan həyat" (azərbaycan dilində nəşr olunmuş) kitabının "Siyasi Büro və Zərifə xanım" fəsli ilə tanış olmaq oxucu üçün maraqlı olacaq. Bu fəsildə Heydər Əliyevin siyasi həyatından həyəcanlandırıcı bir epizod verilmişdir:

"Heydər Əliyev Azərbaycan KP MK birinci katibinin kabinetini son dəfə tərk edirdi. Respublika ictimaiyyəti ilə vida görüşündə aparılan söhbətlər, orada deyilən sözlər və qarşıdakı ayrılıqla bağlı çıxışlarda səslənən kədər notları bir insan olaraq ona təsir etmişdi. O, yorğun halda stolun arxasından qalxdı, otağa nəzər saldı. Sükut. O, birdən bütün ruhu ilə hiss etdi ki, doğma diyarından ayrılmaq necə də çətinmiş, amma qismətdən də qaçmaq olmaz. Həvəssiz kabinetdən çıxdı, aşağı düşdü, asta-asta xidməti maşına yaxınlaşıb dayandı, isti baxışlarla Mərkəzi Komitənin hələ tikintisi tamamlanmamış nəhəng binasına baxdı. Nazirlər sovetinin yerləşdiyi kapital binanın MK-nın yeni binası ilə qonşuluğu onda xoş təəssürat yaratdı. Dahi lider öz-özlüyündə fikirləşdi: əgər sadə azərbaycanlı inşaatçı bu cür gözəl bina tikə bilirsə, deməli o, çox irəli gedə bilib. Deməli, mənim xalqımın oğulları gələcəkdə də bu cür möhtəşəm saraylar tikə bilərlər... Ətrafa boylandı: gündüzün qaynar vurnuxmasından, təlaşından sonra sakitlik çökmüşdü. Bu sakitlik Heydər Əliyevi azacıq narahat etdi və yadına nə üçünsə 1969-cu ilin qızmar iyulu düşdü. Amma zaman o deyildi, o sükut bir başqa sükut idi - xalqın sıxıntılı günlərinin apatiyasının sakitliyi idi o... Bu sakit axşam isə gündüz çəkilmiş halal zəhmət-

dən, xeyirli quruculuq işlərindən sonrakı dincəlmənin sakitliyi idi...

Bu fikirlərlə o, maşına əyləşdi.

O, hələ ictimaiyyətlə görüşün təəssüratı altında idi.

Doğma Azərbaycanla ayrılıq ağır gəlirdi. Zərifə xanımın narahatlığı da onu sıxırdı. Hər şeydən hiss olunurdu ki, Heydər Əliyevin Moskvaya, hakimiyyətin ən yuxarı mərtəbəsinə dəvət olunması onun ürəyincə deyil. Başı bu fikirlərə qarışıq olduğundan, evə çatdığından xəbəri olmadı. Həmişəki kimi, onu Zərifə xanım qarşıladı. Yoldaşının üzündən gizlətmək istədiyi əhvalını hiss etdi. Daxilən narahat olduğunu başa düşdü, amma büruzə vermədi, paltarını dəyişib divana əyləşdi və üzünü ona çevirib gülümsəyərək: "Hə, eşidirəm səni..."- dedi.

O, bir an susdu, başını qaldırdı və həyəcanlı baxışlarını həyat yoldaşına zillədi. Sonra gözlərini çəkdi. Heydər Əliyev hiss edirdi ki, o, nə isə demək istəyir, amma nədən başlayacağını bilmir. O, ayağa durdu, xanımına yaxınlaşıb incə hərəkətlə üzünü özünə tərəf çevirdi, gözlərinə baxdı:

Əzizim, Zərifə, nə olub sənə?

- Bilirsən, Heydər... - o rəvan danışmağa çalışırdı, lakin səsindəki həyəcan hiss olunurdu. - Dünənki söhbətdən sonra mən özümə gələ bilmirəm. Düzdür, Moskvaya keçirilməyini əsaslandırmaq üçün sən Nərimanovu istinad gətirdin. Elə Nərimanovun taleyi məni nigaran olmağa sövq edir. Bütün günü onun dəhşətli sıxıntılarla, çalxantılarla dolu karyerası gözümün qabağında canlanıb. Mən sənin siyasi gedişlərini də hiss edirəm, bilirəm ki, Moskvadakı gələcəyin barədə sən az fikirləşməmisən... Amma mən günü bu gün səninlə bəzi fikirlərimi bölüşmək istəyirəm. Vaxtilə sən Bakının ən görkəmli, gözəgəlimli yerlərindən birində Nərimanova heykəl qoydurmaq istədin... Özü də nəhəng heykəl. De görüm, ondan sonra nələr oldu? Sənin üstünə hər tərəfdən hücum çəkməyə başladılar, xəlvətcə, altdan-altdan əleyhinə işə başladılar. Ən çox da ürəyi kinlə dolu əldə böyüdülmüşlər canfəşanlıq etdilər. Düzdür, sən mübarizə aparırdın, vuruşurdun və əziyyət çəksən də axırda tam mənada da olmasa, istədiyinə nail oldun: heykəli sən istəyən yerdə qoydular, amma ölçüsünü kiçik etdilər... Axı bütün bunlar boş yerə deyil, Heydər!

Nəfəsi tıxandı. Birinci dəfə idi ki, bu cür həyəcanlanırdı. Heydər Əliyev sakitcə ona qulaq asır, arada əli ilə alnını silirdi.

- ... Nərimanovu niyə Moskvaya keçirdilər? - Zərifə xanım davam etdi. - Guya vəzifəsini artırdılar. Bəli, vəzifəsini artırdılar. Sonra isə astaca aradan götürdülər... çünki Nərimanov bütün canı ilə Azərbaycan üçün yanırdı. Bəli, Nərimanovun siyasi fəaliyyəti, tərcümeyi-halı zaman yüksəkliyindən hələ tam işıqlandırılmayıb. Amma mən əminəm ki, Nərimanovun və Azərbaycanın bir çox tarixi fiqurunun siyasi baxışları hələ tədqiq olunacaq. Bir də ki, heç bilmirəm, necə izah edim, sənin Moskvaya, Siyasi Büroya gedişin heç mənim ürəyimcə deyil. Mənim ürəyim qadın ürəyidir, ana ürəyidir və... çox nigarandır. Axı sən burada Azərbaycanda xalqın üçün daha böyük işlər görürsən. Ürəyimə damıb, elə buna görə səni Moskva öz "qucağına" çağırır...

- Zərifə, əzizim mənim, narahat olma, o qədər də ürəyinə salma. Sən tarixdə baş verənləri düzgün qiymətləndirirsən, düz danışırsan. Mən fikirləşirdim ki, sən gözəl həkimsən, gözəl anasan, gözəl patriotsan. Sən demə, Zərifə xanım əməlli-başlı siyasətçi imiş... - Heydər Əliyev xanımının nigaranlığını azaltmaq, onu sakitləşdirmək üçün zarafata keçdi və elə tonda da davam etdi: - Sənin narahatlığını başa düşmək olar və o, tərifə layiqdir. Buna görə də siyasi dərsdən sənə bir dənə yağlı "beş"! - və onun gözlərinə baxdı. Onun gözlərindəki həyəcan səmimi marağa çevrildi. - Sən düz deyirsən. Nərimanovu ona görə aradan götürdülər ki, o öz millətinin, xalqının oğlu idi: o, aldandığını başa düşəndə artıq gec idi. İndi bu barədə danışmağın vaxtı deyil, arxivlərdə çoxlu sirlər mürgü vurur... Nə etmək olar, vaxt gələr, çox şey ortaya çıxar. Nərimanov aldandığını başa düşdü və öz xalqı qarşısında borcunu çox gözəl anladığına görə Leninə dörd məktub yazdı. Həmin məktubların hamısında o, Azərbaycanla bərabər hüquqlu respublika kimi rəftar olunmasını tələb edirdi. Ruhu şad olsun... Yazdı, yazdı... və müəmmalı şəkildə dünyasını dəyişdi...

Deyəsən, bu məqamda Heydər Əliyev özü də bir az tutuldu. Hiss edirdi ki, yoldaşına daha çətin şeylər barədə danışmağın vaxtıdır.

- Zərifə, mənə elə gəlir ki, Nərimanov elə bir yol seçdi ki, öz "səhvinin" bahasına xalqını daha betər və dəhşətli bəlalardan qorudu. Tutalım ki, Birinci Respublika Qızıl orduya silahlı müqavimət göstərmişdi... Gənc demokratik respublikanın süqutu təbii ki, qaçılmaz idi. Nərimanov dövrünün siyasi vəziyyətini müdrikliklə qiymətləndirdi. Azərbaycanı 1920-ci ildə kim dəstəkləyə bilərdi ki. Birinci dünya müharibəsindən çıxmış Türkiyənin başı özünə qarışmışdı, öz dərdləri özünə bəs idi. Zaman, necə deyərlər, bolşeviklərə işləyirdi. Nərimanov qüvvələr nisbətini düzgün hesabladı və xalqını dəhşətli faciədən xilas etdi. Vaxt gələr, Nərimanovun şəxsiyyətini onun dövrünün işığında qiymətləndirərlər və onun xalq qarşısında, vətən qarşısında xidmətləri öz haqqını alar... Zərifə, əzizim, realist olmaq lazımdır...

Pauza... Sakitliyi yalnız divar saatının rəvan çaqqıltısı pozurdu. Hər ikisi bu "zaman musiqisi"nə qulaq verdilər və adama elə gəlirdi ki, özündə zamanın ağır yükünü daşıyan saatın kəfkiri, qarşısı alınmaz, yenilməz bir qüvvədir..."

Müharibənin və daxili didişmələrin qüvvədən saldığı Azərbaycana hakimiyyətə qayıdışı "Heydər Əliyev" kitabının oxucularının yaxşı yadındadır. Prezident Heydər Əliyevin rəhbərliyi altında respublikanın yenidən dirçəlməsi, iqtisadiyyatının, dövlət institutlarının, qanunçuluğun bərpa olması və inkişafı, sülh quruculuğunun templəri, dünya səhnəsində Azərbaycanın nüfuzunun artması da oxucuların yaxşı yadındadır.

"Bir taledə iki həyat" kitabında **Teymur Yəhyayev** 1985-ci ilin qəmli aprel gününü, Zərifə xanımın dünyasını dəyişdiyi günü xatırlayır:

"Azərbaycan qadınının obrazını təcəssüm etdirən Zərifə xanımla vida mənzərəsini hər dəfə yaddaşımda canlandıranda mən bu itkini yenidən yaşayıram...

Heydər Əliyevin, onun üçün ən əziz olan, əbədi itirdiyi adamı göz yaşı ilə yola salmasını yazdığıma görə məni qınayan oxucumu anlayıram, amma bu iradı qəbul etmədiyimi bildirirəm. Çünki səmimi kədəri insan üçün təbii hal hesab edirəm. Məgər Leyli və Məcnun haqqında, Romeo və Culyetta haqqında, Əsli və Kərəm haqqında hekayətlərdə göz

yaşının və kədərin adının çəkilməməsi mümkündürmü? Müqəddəs Peyğəmbərimiz göz yaşını "İlahi nur" adlandırmışdır"...

Moskva Alimlər evində vida mərasimi uzun sürdü. Mərhumənin cənazəsini aparanlar arasında onun həyat yoldaşı və oğlu da var idi. Heydər Əliyev Novodeviçye qəbiristanlığına xidməti "Çayka" maşını ilə deyil, mərhumənin tabutu qoyulmuş maşınla getdi. Mən avtobusda idim, əlimdə də Zərifə Əliyevanın portretini tutmuşdum.

Liderimizin həyəcanı dərin sükutla əvəz olunmuşdu. Yol boyu dərin fikirlərə dalıb gözünü bir nöqtəyə zilləmişdi...

Novodeviçye qəbiristanlığı statusuna görə Kreml divarından sonra ən böyük qəbiristanlıqdır. Akademik Zərifə Əliyevanın son mənzili knyazların və filosofların, Sosialist Əməyi Qəhrəmanları və Sovet İttifaqı Qəhrəmanları, görkəmli yazıçı və alimlərin uyuduğu torpaq oldu...

Sonradan mərhumənin nəşi Vətəninə, Bakıya gətirilmişdir, lakin bu qayıdışda Sibir çöllərindəki üstünə nömrə yazılmış qəbrindən qayıdan Hüseyn Cavidin cəsədi üzərində dolaşan uzun müddətli qüssənin və unudulmuşluğun kölgəsi yox idi...

Novodeviçye qəbiristanlığı qəbri cığırı ot basmadı, oraya həmişə Zərifə xanımın həyat yoldaşı, övladları, həmkarları, Moskvada yaşayan azərbaycanlılar, Əliyevlər ailəsini sevən digər millətlərin nümayəndələri gəlirdi və bu qəbirin üstündə güllər solmurdu. Novodeviçye qəbiristanlığının işçiləri deyirdilər ki, Heydər Əliyev bura hər gün gəlir...

İlham Əliyev sadiq dostlarının arasında anasının tərk etdiyi dünya üçün narahat idi, atasına necə təskinlik verəcəyini düşünürdü. Onun payına yeri heç zaman doldurula bilməyəcək bir itkinin ağrısı və sevimli atanın qayğısı düşmüşdü.

Respublikada vəziyyəti daha da pisləşdirən və böyük liderin sağlamlığına zərbə vuran ağır hadisələrin baş verməyinə isə az qalırdı...

1993-cü ilin iyununda Novodeviçye qəbiristanlığında Zərifə xanımın məzarının kənarında məni görən naməlum bir qadın gözlənilmədən yaxınlaşdı və özünü təqdim etdi. Adı Tamara idi və mənim mərhumə ilə necə qohum olduğumu soruşdu. Mənim Əliyevlər ailəsinə məhəbbətim olduğunu və

İlhamla dost olduğumu biləndə qadın kövrəldi. Mən ona bildirdim ki, İTAR-TASS tərəfindən Bakıya ezam olunmuşam və ola bilsin ki, Heydər Əliyevlə də görüşüm. O, məndən xahiş etdi, Əliyevə çatdırım ki, Zərifə xanımın xatirəsini həmişə ehtiramla yad edəcək və onun son mənzilini heç vaxt qayğısız və qulluqsuz qoymayacaq.

Bakıda, yenicə Milli Məclisə sədr seçilmiş Heydər Əliyevin kabinetində söhbətimizin sonunda mən Moskva sakini, o yaşlı qadının sözlərini ona dedim.

Onun baxışları çox uzaqlara getdi. O, kritik məqamda öz çiyinlərinə aldığı Azərbaycanın saysız-hesabsız dərdlərini bir anlığa unudaraq xəyalən ötən günlərə qayıtdı. Təəssüf, onun şəxsi həyatından da itki qüssəsi yan keçməmişdi.

Bəlkə də onun yadına Zərifə xanımın son məktubu düşmüşdü..."

*On altıncı fəsil*

# VƏZİFƏ - QİSMƏT - HƏYAT

*Həyat uzunluğuna görə yox, əhəmiyyətinə görə dəyərləndirilir.*

**Seneka**

**Lənkəran Rayon Partiya Komitəsinin keçmiş birinci katibi Dilruba Camalova** (2009-cu ildə dünyasını dəyişmişdir) Əliyevlər cütlüyünün bu cənub regionuna gəlişi ilə bağlı maraqlı detallar xatırlayıdı. Onlar Lənkərana oğulları İlhamla birlikdə gəlmişdilər. İstirahət və bu diyarın füsunkar təbiəti ilə ünsiyyətdə olmaq üçün bir neçə saat vaxt ayrılmışdı.

"Bu, 1982-ci ildə olmuşdu. Təsərrüfatları gəzdikdən sonra biz Xanbulançay su hövzəsinə getdik. Zərifə xanım İlhamla artıq orada qonaq evində idilər. Burada yaşamaq və istirahət etmək üçün hər şey hazır idi. Heydər müəllim üçün biz bir neçə otaq hazırlamışdıq (biz onları "Kekkenonun apartamentləri" adlandırırdıq). Heydər Əliyevi onun üçün ayrılmış otağa ötürdükdən sonra mətbəxə düşdüm. Gördüm ki, rəhbərin şəxsi aşpazı orada rəhbərlik edir. Biz burada bu qədər şey hazırlamışıq! Mənə dedilər ki, Heydər Əliyev yalnız onun bişirdiyi yeməkləri yeyir. O, həm aşpaz, həm də həkim idi. Sona bildirdi ki, bizim bişirdiyimiz yeməkləri yoxlamalıdır.

- Buyurun, - dedim, - yoxlayın. Heydər müəllim xanımı və oğlu ilə Lənkərana gəlib, o bizim qonağımızdır və deməli, bizim Lənkəran yeməklərinin dadına baxmalıdır.

- Bu, qətiyyən mümkün deyil, - Sona etiraz etdi.

- Mən öz adamlarıma tapşırdım ki, hər şeyi hazır saxlasınlar, amma mənsiz süfrəyə verməsinlər. Özü də hər şeydən az-az versinlər. Biz cürbəcür təamlar hazırlamışdıq və istəyirdik ki, qonaqlarımız onların hamısından yesinlər. Zərifə xanım narahat oldu və dedi:

- Bu, sənə ziyandır, yemək olmaz. Ehtiyatlı ol!

Heydər müəllim isə hər dəfə zarafatla ötüşdürürdü:

- Biz Lənkərana Dilruba xanıma qonaq gəlmişik və ona tabe olmalıyıq.

O zaman bizim gözəl münasibətimiz var idi və mən xahiş etdim:

- Mərci-plovdan da bir az dadın.

- Hə, anam dünyasını dəyişəndən mən belə plov yeməmişdim, - dedi.

- Axı sənə olmaz, - Zərifə xanım yenə narahat oldu.

Həmin dövrlərdə Heydər Əliyevin mədə problemi var idi, ona görə də onun üçün bütün yeməkləri buğda bişirirdilər. Amma bizim təklif etdiyimiz yeməklərin hamısını ləzzətlə və iştahla yedi. Ola bilsin, belə yeməklər üçün darıxmışdı.

- İndi isə icazə verin, süfrəyə qızarmış kütüm gətirilsin, - dedim; hər dəfə yeni bir yemək gətirməzdən əvvəl mən ondan icazə istəyirdim.

- Qoy versinlər. Baxaq, görək...

Kütüm verildi. Qonağımız ondan da daddı.

Mən bilirdim ki, şam və səhər yeməklərini də o, bizdə yeyəcək. Ona görə də menyunu hər dəfə rəngarəng etmək istəyirdim.

Axşam katerlə Xanbulançayı gəzməyə çıxdıq. Onun elə də həvəsi yox idi, amma mən beş-on dəqiqə gəzintiyə vaxt ayırmağa onu razı sala bildim.

Bizim arxamızca mühafizənin kateri gəlirdi. Gəzinti zamanı mən Lənkəran meşələri, bizim nadir ağaclar və faunamız barədə söhbət açdım... Su hövzəsini hər tərəfdən meşə əhatə etmişdi, məftunedici bir mənzərə əmələ gəlmişdi.

- Həqiqətən, bura necə də gözəldir! - heyranlıqla dedi. - Zərifə! Bakıya qayıdan kimi mən səni Seva ilə bura göndərəcəm. Dilruba xanımın qonağı olarsınız, qəşəng istirahət edərsiniz.

Müşayiət edən katerdən İsay Rubençik bizim şəklimizi çəkirdi. Sonralar bu şəkillər prezidentə həsr olunmuş bir çox albomda yer almışdı.

Səhəri gün Heydər Əliyev Astaraya yola düşdü, biz isə Zərifə xanım və İlhamla şəhəri gəzməyə başladıq. İstisuda (kurort zonası) olduq, sonra meşənin dərinliklərinə, bulaq başına getdik. Biz **Finlandiya prezidenti Koyvistonu** və

digər yüksək qonaqları aparmışdıq. Fin qonaq qayıdanda demişdi: "Belə sehrli meşədə maşınla gəzmək olmaz. Burada yalnız piyada gəzmək lazımdır". Bütün dörd kilometrlik yolu o, piyada getmişdi və bizim adamlarımız addımının biri bir metr olan hündürboy prezidentə güclə çatırdılar... Mən həmin yerə Zərifə xanımla İlhamı da apardım. Gözəl qoruq guşəsi, dağ yamacları, sıx meşələr, adamın dişlərini keyidən buz kimi suyu olan bulaq... Heç bir soyuducuya ehtiyac yoxdur - yol üçün götürülən meyvələri suya salmaq kifayətdir.

Bizi artıq çay stolu gözləyirdi: nehrə yağı, bal, təzə-tər kənd nemətləri. Samovar qaynayırdı. Meşə cığırına qədər maşınla getdik. Sonra isə iki yüz metrə yaxın yolu piyada qalxmalı idik.

- Dilruba xanım, ayaqlarım ağrıdı, - Zərifə xanım şikayətləndi. - Gəlin, bir az dincələk, sonra qayıdaq.

Dağ cığırı ilə qalxarkən İlham anasına kömək edirdi. Nəhayət, bulağa gəlib çatdıq.

Meşəbəyi artıq xalça sərmiş, süfrə açmışdı. Hər şey öz qaydasında idi. Oturduq, söhbət etdik. Zərifə xanım meşəbəyidən buranın florası və faunası haqqında, çox qədim ağacların xüsusiyyətləri haqqında soruşudu... Beləcə, çay içib ordan-burdan söhbət edə-edə biz qırx dəqiqə oturduq. İlham yada saldı:

- Ana, sən burada cəmi on dəqiqə olmaq fikrində idin...

- Neyləyəsən, burada hava o qədər gözəl, büllur kimi təmizdir ki, adamı bihuş edir! Özü də yayın ortasında (İyunun 30-u idi)! Su nə qədər gözəldir! Mən adətən çiy su içmirəm, amma burada doyunca içdim.

Xülasə, Zərifə xanım gəzintidən çox razı qaldı. Qızı Sevilə zəng edib təəssüratlarını bölüşdü. Həmin vaxtlar Sevilin qızı olmuşdu.

- Nəvəm hələ çox kiçikdir, - Zərifə xanım bildirdi, - buna görə onları özümlə götürmədim. Düzdür, Heydər Əliyev çox təkid edirdi ki, hamımız gedək, Sevili də körpəsi ilə götürək.

Bakıya qayıdarkən Heydər Əliyev mənə dedi:

- Qoy körpə böyüsün, mütləq qızımı Zərifə ilə sənə qonaq göndərəcəyəm. Sən onları şəhərdə gəzdirərəsən, Xanbulançaya, Qızılağaca (qoruq - H.M.) aparsarsan. Qonaqpərvərliyi-

nə görə çox sağ ol. Mən burada çox gözəl, ürəkdən istirahət etdim..."

Bu kitabın səhifələrində tanınmış həkim, görkəmli tibb alimi Əbülfəz Qarayevin gəlini **Böyükxanım Nəzirovanın** xatirələrinə yer verməmək mümkün deyil. O, rəhmətlik Mürsəl Qarayevin həyat yoldaşı idi. Mürsəl Qarayev də həkim işləmişdi, respublikanın baş cərrahı idi. Bütün dünyada tanınmış bəstəkar Qara Qarayev Mürsəlin qardaşı, Böyükxanım Nəzirovanın qaynı idi. Zərifə xanımın qardaşı Cəmil Əliyev vaxtilə Mürsəl Qarayevin tələbəsi olmuşdur. Digər tərəfdən, Mürsəl Zərifə xanımın əmisi oğlu, tanınmış rəssam, Azərbaycan xalçaçılıq sənətinə qiymətsiz töhfələr vermiş Kamil Əliyevlə yaxın dost olmuşdur. Bu dostlar - rəssam və cərrah - möhkəm ovçu idilər və tez-tez ova gedərdilər. Onların ailələri bir-birinə mehriban münasibətlərlə bağlı idi.

Ötən günləri yada salan Böyükxanım Nəzirovanın çöhrəsinə sakit bir nur qonur.

"Zərifə xanımı və ailəsini sevgi hissi ilə təkcə mən xatırlamıram. Onu hamı tanıyırdı - uşaq da, böyük də. Özü də təkcə tanınmış əsil-nəcabətinə görə tanımırdılar. Zərifə özü qeyri-adi insan idi. Millətimizə xas olan bütün yaxşı cəhətləri siz Zərifə xanımda tapa bilərdiniz. Mən onu tələbəlik illərindən tanıyırdım. Bəstəboy, ağıllı qız idi, adlı-sanlı valideynləri var idi. Buna baxmayaraq o, hamı ilə sadə, səmimi və mehriban davranardı. Hər dəfə onunla görüşəndə elə bilirdim ki, doğma, yaxın bir adamla görüşürəm.

Həyat yoldaşım Mürsəl Qarayev haqqında Bakıda "Doktor Qarayev" adlı kitab nəşr olunmuşdu. Kitaba ön söz yazan yazıçı Anar onu bu sözlərlə başlayır: "Elə ailələr, nəsillər var ki, onlar cəmiyyətin yalnız mühüm bir özəyi, bəlkə əsas yük sütunları olurlar". Anar doğru deyir, bu, həqiqətən belədir. Son yarım əsr çoxlu tanınmış nəsillər ortaya çıxardı ki, onların mənəvi irsi ilə təkcə həmin familiyanın daşıyıcıları deyil, həm də bütün millət, hətta dünya xalqları fəxr edə bilər. Bu familiyaların xatirəsi həm Azərbaycanda, həm də ondan kənarda əziz tutulur: bu Cavanşirin[12], Bakıxanovların,

---

[12] Qədim Azərbaycan hökmdarı, onun törəmələri Qarabağ xanlığının sahibləri olmuşlar.

Rəfibəylilərin, Əliyevlərin, Topçubaşovların, Qarayevlərin, Vəkilovların, Şıxlinskilərin və digərlərinin nəslidir.

Xalq bu familiyaların nümayəndələrinin mənəvi irsindən istifadə edir, onların nəcib əməlləri ilə fəxr edir. Bu cür şəxsiyyətlər xalqın formalaşmasına və ucalmasına, milli dəyərlərin təsdiqinə böyük töhfələr vermiş, vətənə təmənnasız və fədakarcasına xidmətin nümunəsi olmuşlar. Və təbii ki, öz böyük əcdadlarından nümunə götürən yeni nəsillər də özlərindən sonra gələnlər üçün iftixar mənbəyi olacaqlar.

Zərifə iki şanlı nəslin - Əliyevlərin ləyaqətli davamçısı idi. Əziz Əliyevin qızı və digər Əliyevlər ailəsinin gəlini idi. Və hər iki familiyanın şöhrətini artırdı. Mən Zərifə xanımın həm qardaşlarını, həm bacılarını, həm də övladlarını tanıyırdım. Onların hər biri, ailələrinin bütün üzvləri ilə bizim gözəl münasibətimiz var idi.

Zərifə xanımın atası Əziz Əliyevin həyatında çətin, bəzən də dramatik sınaqlar olmuşdur (Kitabımızın əvvəlki fəsillərində biz Əziz Əliyevin həyatının peripetiyalarını ətraflı işıqlandırmışıq. - H.M.).

Zərifə xanımı Heydər Əliyevlə böyük qarşılıqlı sevgi yaxınlaşdırmışdı, özü də elə bir zamanda ki, atası nahaq yerə hakimiyyətin qəzəbinə gəlmişdi. Amma onlar ailə qurdular. Sonralar, Heydər Əliyev hakimiyyətin ən yüksək pilləsinə çıxdığı zaman özü də həmin iftira hücumlarına və yüksək rütbəli paxılların oyunlarına məruz qaldı.

Partiya nomenklaturası Əliyevin əleyhinə Moskvada da, Bakıda da əsl böhtan kampaniyasına başladı. Bu çox ağrıdıcı və acı tarixdir. Həmin günləri yada salarkən deməliyəm ki, Zərifə xanım həm atasının, həm də həyat yoldaşının həyat çətinliklərini görmüş, onlarla birlikdə bu çətinlikləri yaşamışdır.

Çoxları elə güman edir ki, rəhbər şəxslərin həyatı cənnət kimidir. Mən isə başqa cür düşünürəm. Qismət elə gətirdi ki, Zərifə xanımın ata evində öyrəndiyi ailənin şərəfi və təmiz adı üçün məsuliyyət hissi gəlin olaraq daxil olduğu evdə daha da gücləndi. Çünki o, Azərbaycana rəhbərlik edən, sonra da 250 milyonluq nəhəng və qüdrətli bir dövlətin ən yüksək pillələrindən birinə qalxan Heydər Əliyevin həyat yoldaşı idi...

Mən öz əmək həyatımı həkim peşəsinə həsr etmişəm. Buna görə də Zərifə xanımın həkim kimi, istedadlı alim ki-

mi, fədakar səhiyyə təşkilatçısı kimi bütün uğurlarından xəbərim var. Biz onunla fəxr edirik. Amma təkrar edirəm, respublikanın birinci şəxsinin, İttifaqın liderlərindən birinin həyat yoldaşı olmasına baxmayaraq o, bizim hər birimizə öz doğması kimi münasibət göstərirdi. Sadə və səmimi idi. Gizli deyil ki, Əziz Əliyevin qızı və Heydər Əliyevin həyat yoldaşı kimi onun hər bir müraciət edən şəxsə kömək göstərmək, yardım etmək imkanı var idi. Düzdür, hər bir dövlət ərkanının ailəsində olduğu kimi, onların da ailə həyatı konfidensiallıq sferasında idi. Heydər Əliyevin xəbəri və razılığı olmadan heç kəs onun ailə üzvləri ilə kəlmə kəsə bilməzdi. Bununla belə, Zərifə xanım bir çox gənc həmkarımıza professional formalaşmada, elmi inkişafda kömək göstərmiş və dəstək olmuş, müalicəyə, tibbi baxıma ehtiyacı olan minlərlə zəhmətkeşə, sadə adama əl uzatmışdır və biz onun xeyirxah əməllərini minnətdarlıqla yad edirik.

Qaynım Qara Qarayev Əliyevlər ailəsinin sevimlisi idi. Mən dəfələrlə Qarayev haqqında söhbətlərin şahidi olmuşam; gənc bəstəkarın istedadının tam parlaması üçün Heydər daha nələr etməmişdir! Qara Qarayev də bu ailənin yaxşılığından danışanda deməyə söz tapmazdı. O, Zərifə xanımın nəcib insani keyfiyyətlərinə, yüksək mədəniyyətinə valeh idi. Belə bir hadisə yadıma düşür. Bir dəfə yoldaşım, Mürsəl Qarayev, öz rəssam dostları Kamil Əliyev və Tahir Salahovla birlikdə aeroporta qonaq qarşılamağa gedir. Moskvadan gələn təyyarə bir neçə saat gecikirdi. Kamilin təklifi ilə dostlar o zaman DTK-da işləyən Heydər Əliyevin evinə gedirlər. Bir-iki saat otururlar, yeyib-içib yenidən maşınla aeroporta gedirlər. Yolda Tahir Salahov maşını özü sürmək istəyir və sükan arxasına keçir. Sabunçu rayonunda qəza baş verir: onların maşını başqa maşınla toqquşur. Tahirlə Mürsəl zədə alır: birinin ayağı sınır, o birinin isə qolu... Hadisədən xəbər tutan Heydər Əliyev və Zərifə xanım gecə yarısı dərhal xəstəxanaya gəlirlər. Təbii olaraq yaralı xəstələrə hərtərəfli köməklik göstərilir. Onlar tam sağalana qədər Zərifə xanım hər gün xəstəxanaya zəng vurur və xəstələrin halı ilə maraqlanır...

Zərifə xanımın həyatı haqqında danışarkən Cəmil Əliyevi yada salmamaq olmaz. Ailə ənənələrini davam etdirən Cəmil Əliyev Azərbaycan səhiyyəsinə böyük töhfələr vermişdir. O, bir çox ölkədə nəşr olunmuş iki yüz əllidən çox el-

mi əsərin, o cümlədən səkkiz monoqrafiyanın, habelə iyirmi metodik tövsiyənin, ixtira və səmərələşdirici təklifin müəllifidir. Akademik Cəmil Əliyev respublikada onkoloji məktəbin əsasını qoymuşdur. Onun rəhbərliyi altında qırx klinika ordinatoru hazırlıq keçmiş, otuzdan çox gənc tədqiqatçı namizədlik, üç nəfər isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1979-cu ildə həmmüəlliflik əsasında yaradılmış "Dəri şişlərinin müalicəsi" monoqrafiyasına görə Cəmil Əliyev SSRİ TEA-nın N.N.Petrov adına mükafatına layiq görülmüşdür. Cəmil Əliyevin rəhbərliyi altında süd vəzisinin xərçənginin erkən diaqnostikası və kompleks müalicəsi üzrə tədqiqatlar aparılır. Elmi araşdırmalar prosesində xarici onkoloji mərkəzlərlə təcrübə mübadiləsi həyata keçirilir. Bu işlər bəd xassəli şişlərin yaranma və inkişaf səviyyələrinin səbəblərini tədqiq etməyə, onların klinik diaqnostikasına və müalicə profilaktikasına yönəlmişdir.

1994-ci ildən bu günə qədər Cəmil Əliyev Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda onkologiya kafedrasına, Respublika Elmi-Onkoloji mərkəzinə rəhbərlik edir. 1973 - 1978-ci illərdə baş elmi işçi kimi Ümumittifaq Onkoloji Mərkəzində tədqiqat işi aparmış; 1973-cü ildə namizədlik, dörd ildən sonra isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Tibb elminin inkişafında xidmətlərinə görə 1976-cı ildə professor Cəmil Əliyev akademik Yusif Məmmədəliyev adına mükafata layiq görülmüşdür. 2001-ci ildə o, Rusiya Tibb Elmləri Akademiyasının və Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Akademik Cəmil Əliyev respublika onkoloqlarının Elmi-tibbi cəmiyyətinin rəhbəri kimi, Azərbaycan Səhiyyə Nazirliyinin baş onkoloqu kimi, Rusiya və Avropa Onkoloqları Cəmiyyətinin üzvü kimi, RMEA və Nyu-York Elmlər Akademiyasının üzvü kimi, Xammer-Smith Britaniya Kral Universitetinin Professoru kimi təşkilatçılıq və yaradıcılıq fəaliyyəti ilə məşğul olan maraqlı aktiv şəxsiyyət nümunəsidir.

Səhiyyəmizdə Əliyevlərin humanist və nəcib ənənəsi bu gün də davam edir: Cəmil Əliyevin övladları İradə və Əziz də həkimdirlər".

14 aprel 1999-cu ildə Rəşid Behbudov adına mahnı Teatrında "Zərifə xanım Əliyeva" kitab-albomunun təqdimatı ke-

çirildi. **Heydər Əliyev** yenə də Zərifə xanımla yaşadığı işıqlı və xoş günləri xatırladı:

"Bu günkü mərasim məni bir dəfə də on dörd il əvvəlki günlərə qaytardı. Nə qədər il keçirsə keçsin, ailəmiz bu itkinin ağrısını əvvəlki kimi hiss edir. Güman edirəm ki, təkcə biz yox, mənim nəvələrim də bu hisslə yaşayacaqlar. Əziz və hamımız üçün unudulmaz olan Zərifə xanım bizim ürəklərimizdə həmişə yaşayacaq.

... Burada dəfələrlə qeyd olundu ki, Zərifə xanımın ən gözəl cəhətlərindən biri bu idi ki, o, çox nikbin insan idi... Onun üçün əsas şərt insanlara xoş münasibət idi. O, insanları sevirdi və insanlar da onu sevir. Buna görə mən bu gecəni dostluq, vəhdət gecəsi adlandırıram. Və bu Zərifə xanımın xatirəsinə ən gözəl paydır..."

2005-ci ildə Tallində Türk və Qafqaz Xalqları Mədəniyyəti Milli Cəmiyyətləri Assosiasiyasının təşəbbüsü ilə akademik Zərifə Əliyeva adına Şərq Mədəniyyəti Xalq Universiteti yaradılmışdır. Estoniya hökuməti bu barədə xüsusi qətnamə qəbul etdi. Universitetin fəaliyyəti qismən Estoniyanın dövlət büdcəsindən maliyyələşdirilir.

22 may 2009-cu ildə Bakıda akademik Zərifə Əliyeva adına ən müasir tibb avadanlıqları ilə, cihazlarla, laboratoriyalarla təchiz olunmuş göz xəstəlikləri ETİ-nin yeni binasının açılışı olmuşdur. Açılış mərasimindəki çıxışında **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev** dedi:

"Zərifə Əliyeva həm istedadlı, işini bilən alim, həm də peşəkar, qayğıkeş həkim idi. O, bir çox monoqrafiya, elmi iş yazmışdır. Onun elmi fəaliyyəti hələ o vaxt sovet məkanında yüksək qiymətləndirilmişdir. Oftalmologiya sahəsində ən yüksək mükafat olan M.İ. Averbax adına mükafat akademik Zərifə Əliyevaya verilmişdir. Onun fəaliyyəti həm də həkim-tədqiqatçı kimi çoxşaxəlidir. 1970-1980-ci illərdə onun təşəbbüsü ilə bir neçə sənaye müəssisəsində elmi-tədqiqat laboratoriyaları yaradılmışdır. Bu laboratoriyaların əsas məqsədi zərərli istehsalatın insanların görmə qabiliyyətinə təsirinin tədqiq edilməsi olmuşdur və adi insanlar, fəhlələr həmin kiçik mərkəzlərdə peşəkar tibbi yardım alırdılar. Zərifə Əliyevanın səyləri sayəsində minlərlə insanın görmə qabiliyyəti bərpa olunmuşdur. Eyni zamanda o, bizim yaddaşımızda unudulmaz, gözəl insan kimi və çox yaxşı həkim kimi qalmışdır.

Bu gün, onun adını daşıyan bu gözəl mərkəzdə bir dəfə də demək istəyirəm: burada ən mürəkkəb əməliyyatların keçirilməsi üçün bütün şərait vardır. Burada həm də elmi fəaliyyətlə məşğul olmağa imkan vardır. Eyni zamanda burada uşaq şöbəsi də vardır... Bu institut, sözün həqiqi mənasında, region üçün əvəzsiz elmi müəssisədir. Mən istisna etmirəm ki, buraya müalicəyə xarici ölkələrdən də insanlar gələcəkdir".

**Heydər Əliyevin şəxsi foto rəssamı Rafiq Bağırov** Azərbaycanın ümummilli liderinin həm şad, həm kədərli, həm də çətin anlarını şəkillərə həkk edərək tarix üçün çox dəyərli illüstrasiyalı materiallar fondu yaratmışdır. Rafiq müəllim dahi liderin obrazını, həyəcan və sevinc məqamlarında üzünü və qəlb sıxıntısı anlarında yaşla dumanlanmış gözlərini fotoyaddaşa köçürmüşdür. Rafiq Bağırov bu mətanətli insanın Fəxri Xiyabanda Zərifə xanımın məzarını ziyarət edərkən gözlərinin dolduğunu xatırlayır; amma bəzən elə olurdu ki, xoş bir xəbər eşidən Heydər Əliyevin üzü sevincdən işıqlanar, gözlərindən sevinc yaşları gəlirdi...

Rafiq Bağırov nəql edir:

"1997-ci ilin avqustunun ilk günləri idi. Prezident ABŞ-da rəsmi səfərdə idi. Bill Klintonla görüşdən sonra biz Hyustona gəldik və burada şad bir xəbər eşitdik: Heydər Əliyev növbəti dəfə baba olmuşdu. Adətən təmkinli olan Prezident şadlığını bu dəfə gizlətmirdi. Nümayəndə heyətinin bütün üzvləri ilə görüşdü, onların təbriklərini qəbul etdi. Son illər ərzində Heydər Əliyevin bu cür sevindiyi yadımda deyildi. Bakıya qayıdanda o, Londonda dayandı və yeni doğulmuş körpə olan klinikaya getdi. Sözün hərfi mənasında prezident qaça-qaça gedirdi. Nəvəsini ona göstərdiklərində gözlərindən yaş gəldi. Və təntənəli, eyni zamanda titrək səslə dedi: "Bu körpənin adını Heydər qoyuram!" Palatada kim var idisə, gözü doldu..."

İndi biz qüssə ilə fikirləşirik: Zərifə xanım bu günləri görsəydi, o da sevinər və gözü yaşarardı. Çoxdan gözlənən körpəni əzizləyib öpər və həyat yoldaşına deyərdi: "Gözün aydın, Heydər! Nəvən Heydərin doğumu münasibətilə təbrik edirəm!"

Əgər o ocağında iki Heydəri - bir-birinə sonsuz sevgi ilə bağlanmış babanı və nəvəni bir yerdə görə bilsəydi, böyümüş nəvəsinin babasını yola salarkən adət üzrə arxasınca su tökdüyünü görsəydi...

İlk nəvəsi Leylanın toyuna qədər yaşasaydı, onu bəzəkli gəlin paltarında görsəydi, ər evinə yola salanda xeyir-dua versəydi, gənclərə xoşbəxtlik arzulasaydı... Gözəl körpələri - Əlini və Mikayılı görə bilsəydi... Oğlu İlhamın Azərbaycan Respublikasının Prezidenti olduğu günə qədər yaşasaydı, ana qəlbi necə də fəxr və sevinc hissi ilə dolardı! Oğlu İlhamın dövlət rəhbəri kimi layiqli əməllərini, quruculuqla məşğul olan respublikanın yüksəlməsini, nəhəng tikintini, günü-gündən gözəlləşən Bakını görsəydi... Əziz Əliyevin və Heydər Əliyevin riayət etdikləri müqəddəs vəsiyyətə - qəlbinin və ruhunun bütün gücünü xalqına və Vətəninə vermək vəsiyyətinə bu gün oğlunun uğurla əməl etdiyi görsəydi...

Bəli, o, qısa ömür yaşadı. Amma insan mövcudluğunun əhəmiyyəti yaşanan illərin miqdarı ilə deyil, onların faydalı, yaradıcı doluluğu ilə, mənəvi enerji, insanlara və cəmiyyətə gətirilən rifahla müəyyən olunur. Zərifə xanımın yaşadığı hər bir gün xalqa xidmət kimi səmimi və alovlu meyillə doludur. Və təkcə onun yaşadığı xoş günlər deyil, həm də yaxınları, xalqı, Vətəni ilə bağlı hadisələr də onun nəsillərin ölümsüz xatirəsində görünmədən var olan qəlbini sevindirəcəkdir.

Dahi mütəfəkkir Hegel bir zaman insanın özü qarşısında, ailəsi qarşısında, dövləti qarşısında, digər insanlar qarşısında borcu barədə yazmışdır. Daxili borcu hiss etmək, ona riayət etmək, filosofun fikrincə, insanı insan edir, gündəlik qayğılar və işlər arasında ucaldır. Zərifə xanım dünya həyatından payına düşən illər ərzində bu çətin və ali vəzifəni yerinə yetirməyin ən gözəl nümunəsi olmuşdur...

*Son məktub*

"Mənə görə narahat olma, uşaqlara yaxşı bax. Unutma ki, mən səni sevirəm...

Unutma ki, mən səni sevirəm... "

Bakı 2007 - 2010-cu illər.

## ƏBƏDİYYƏT DASTANI

Həqiqətən, bizim həyatımız çox qəribədir... Sağa - sola boylanmağa macal tapmamış o artıq dəftər-kitabı bağlayıb başlayır yekun vurmağa... Həm əlçatmazdır, həm də amansız... Dünyanın ümumi yaşı ilə müqayisədə o, ani bir parıltı kimidir. Kiminsə işığı parlaq olur, kimsə kül altda közərən kül kimi keçib gedir. Və burada məsələ illərin və ya ağarmış saçların sayında da deyil, mühüm olanı odur ki, ömür boş-boşuna ötüb keçməsin, bir iz qalsın sonraya. Əgər özündən sonrakılar üçün, gələcək nəsillər bir iz buraxmadınsa, öz ruhunun, qəlbinin bir parçasını onlar üçün qoyub getmədinsə, deməli, sən heç yanmamısan, yaşamamısan. Boşluq və biveclik qaldı səndən arxaya... Xatırlayan, yada salan da yoxdur.

Tarix səhifələrində adlarını əbədiləşdirmiş şəxsiyyətlər isə tam başqa bir mövzudur. Zərifə Əliyeva belə şəxsiyyətlərdən biri idi, onun həyatı fədakarlıq məşəlinə bənzəyirdi. Təmiz və saf xarakteri ilə o, nurlu bir mələk kimi istər onunla həyat telləri bağlı olan, istərsə də ömründə bircə dəfə ona rast gəlmiş insanların qəlbində silinməz izlər buraxmışdır.

Biz bu dünyada sadəcə qonağıq və insan bu dünyada anıldıqca sağdır. Nə qədər ki, onu yada salan, xatırlayan və xatırlayarkən üzünə təbəssüm qonan insanlar var, deməli, o yaşayır. Gözəl əməlləri ilə, xeyirxahlığı ilə, yaşam tərzi ilə o, öz ölümsüzlüyünü, daha doğrusu, həyatını uzadır. O yaşayır və yaxşılıq etməyə tələsir. Bu yaxşılıq sözlə olsun, işlə olsun, fərqi yoxdur, qəlbi əbədiyyətlə qovuşana qədər o yaxşılıq edəcək.

Görkəmli rus şairi Andrey Voznesenski hind xalqının dahi təmsilçisi İndira Qandinin vəfatı münasibətilə onun sonrakı nəsillərin düşüncəsinə böyük təsirini təsdiq edərək yazmışdı: “Qandi tarixlə qovuşdu”. Heç bundan yüksək missiya da yoxdur - öz xalqının tarixi ilə birləşmək, Tarix adlı bu nə-

həng çayın axarını idarə etmək, öz zəmanəsinin təkcə şahidi yox, həm də yaradıcısı olmaq, özün barədə nurlu xatirələr qoyaraq əbədiyyət əldə etmək.

Zərifə xanım tariximizin əfsanəvi şəxsiyyətləri sırasında ona layiq olan yeri tutaraq bu şanı və şöhrəti qazanmışdı. Buna görə də onun haqqındakı əfsanə tamamlanmamış qalır. Bu əfsanə yeni-yeni nəğmələrdə tərənnüm olunaraq davam edir. Və tarixlə qovuşur. Buna görə də bu kitabda son söz yoxdur. Həm də ki, əbədi dastana son sözü necə yazasan, axı! Xatirələr bitmir, tükənmir... Zərifə xanımı şəxsən tanıyan dostların, müasirlərin yaddaşından oyanıb bu günün səhifələrinə süzülməkdə davam edir. Bu xatirələr o güclü şəxsiyyətə, qəlbləri şəfqətlə və xeyirxahlıqla isitmək üçün doğulmuş insana qarşı məhəbbətlə, sevgi ilə doludur.

Yox, Zərifə xanım tarix yaratmırdı. Onun rolu bu tarixi yazan dahi insanın həyatının əsas məhəbbəti olmaqdan ibarət idi. Bir filosof deyib: "Hər dahi sərkərdənin arxasında bir qadın durur". Zərifə xanım məhz o qadınlardandır ki, onların yanında dahi insanların ulduzu daha parlaq işıq saçır, son şöləsinədək ətrafa nurunu yayır. O bu dünyaya saf və gözəl bir qız kimi gəlmiş, əsil azərbaycanlı ailəsinin bütün mənəvi dəyərlərini özündə cəmləşdirmişdi. Və bir həyat yoldaşı və ana kimi, həkim və alim kimi, birinci xanım və ictimai xadim kimi əfsanəvi talelərin ümumi axarına elə rəvan qoşuldu ki!

Zərifə xanım dindar deyildi, amma öz xalqının dininə dərin ehtiram ruhunda tərbiyə almışdı. Böyüyüb boya-başa çatdığı ailədə ona Allah və vətən sevgisi təlqin olunmuşdu, o, uşaq yaşlarından bilirdi ki, bu vətənin bir zərrəsidir, bu torpağın bir buğdasıdır.

Onun xeyirxah qəlbi çox az rast gəlinən və adamın qəlbini oxşayan nadir təbii sərvət idi. Ona rast gələn hər kəs rahatlıq, inam və asayiş tapırdı və hətta az tanıdığı insanlarla ünsiyyətdə olarkən təbəssümlə nurlanan simasından gələn səmimilikdən və şəfqətdən ruhuna qüvvət toplayırdı. Zərifə xanım mərhəməti Böyük Yaradanın bizə bəxş etdiyi insanlıq və ən üstün ləyaqət timsalı ola bilər. Yalnız çox az adam həyatın sınaqlarına baxmadan həmin keyfiyyətləri saxlaya bilər. Kirli niyyətlər və məramlar çox adamı bu xislətlərdən məhrum edir.

Onun xarakterinin sosial motivləri - xeyirxahlıq, şəfqət o qədər güclü idi ki, o, həkim olmaq və bütün həyatı boyu çox gözəl bacardığı işi etmək - insanlara yardım etmək qərarına gəlir. Çünki bu, onun canında idi, onun amalı idi. O, öz peşəsini sevirdi və bu peşəyə öz qüvvəsini əsirgəmirdi.

Zərifə xanım insanlara dəyər verməyi bacarırdı. Hər bir adamın fikir və düşüncəsi onun üçün əhəmiyyət kəsb edirdi. O eşitməyi və dinləməyi bacarırdı. Xəstələrin ona bəslədiyi ümid və inam onun hər şeyə ayrı-ayrılıqda insani rəftarından, münasibətindən irəli gəlirdi. Bu barədə "Uca amallar" kitabında (2003) Zərifə Əliyeva belə yazır: "Texniki tərəqqi təbabətdə və diaqnostikada heç şübhəsiz öz rolunu oynamışdır, amma yenə də əsas yer əvvəllər olduğu kimi insan sağlamlığını qoruyan canlı həkimə məxsusdur". Zaman keçdikcə Zərifə xanım haqlı olduğu öz təsdiqini tapdı, bu gün də həkim şəxsiyyətinin xəstənin sağlamlığına müsbət təsiri təkzibolunmaz faktdır. Fransua Rable bu fikri belə ifadə etmişdir: "Həkimin əsas vəzifəsi xəstədə nikbin əhval-ruhiyyə yaratmaq, sağalacağına inamı artırmaqdır".

Yəqin ki, Zərifə xanım bunu yaxşı bacarırdı, çünki insansevərlik ona gen-bol əta olunmuşdu, o, insanın qəlbinə nüfuz edə bilirdi və bu onun xəstəyə münasibətinin əsas prinsipi idi. O yazırdı: "Xəstə ilə mehriban, qayğıkeş rəftar etmək həkimlik peşəsinin mahiyyətidir. Həkimin gündəlik əməyi onu əhatə edən insanlarla ünsiyyət formasını qavramağı tələb edir, həm də hər şeydən əvvəl bilmək lazımdır ki, bu insanların yardıma ehtiyacı var".

Həkimlik ülvi istedaddır... Onun çox böyük səbri olmalıdır, dinləməyi bacarmalıdır. Əbəs yerə Şərqdə demirlər: "Səbr on iki elmin zirvəsidir". Bir həkim kimi Zərifə xanım filosoflardan tez-tez iqtibaslar gətirərdi və onun ən sevdiyi kəlamlardan biri qədim Yunan filosofu Əflatunun bu kəlmələri idi: "Həkimlərin yol verdiyi ən böyük xəta odur ki, onlar qəlb haqqında düşünmədən ilk növbədə bədəni müalicə edirlər". Həqiqətən, Zərifə xanım təkcə həkim deyildi, o, həkim-filosof idi. Şərqdə belə həkimlərə təbib deyirlər. Qədim şərq təbiblərinin ənənələri Zərifə xanımın canında və qanında idi və o, XX əsrdə bu ənənələrin carçısı oldu.

O laqeyd və biganə olmağı bacarmırdı, əziyyət çəkən birini görəndə ürəyi həqiqətən yanırdı və həmişə kömək etmə-

yə, çıxış yolu tapmağa can atırdı. Bütün həyatı boyu nurun tərəfində durmuşdu, zülməti heç ağlının ucundan da keçirməmişdi və hətta onu qorxutmağa da nail olmuşdu... "Mənim fəaliyyət spektrim Nurla Zülmətin arasındadır", - belə deyirdi Zərifə xanım.

Peşəsini sevmək, ailəsini, xalqını, vətənini sevmək duyğusu onda vəhdət tapmış və onun nadir təbiətini nurani etmişdi və o, Tanrının ona bəxş etdiyi ömrünün dəyərini bilirdi. Bilirdi ki, hər bir insana verilən müddət o qədər də uzun deyil, bir gün bu yolçuluq başa çatacaq və nə qədər ki, gec deyil, insanlığa xidmət etməyə tələsmək lazımdır.

Əliyevlər ailəsinin qapısından gəlin kimi daxil olan Zərifə xanım hələ onda zəngin insani keyfiyyətlərə malik idi. Təvazökarlıq, intellekt, ailəyə sədaqət, milli qürur, həyat yoldaşına olan tükənməz məhəbbət, sarsılmazlıq və sonsuz vətən sevgisi onun qəlb xəzinəsinin ən saf cavahirlərindən idi.

Bu ailə böyük sevgi üzərində qurulmuşdu. Təsdiq etmək lazımdır ki, Heydər Əliyev kimi iradəli bir şəxsiyyətin məhəbbətinə layiq olmaq təkcə xoşbəxtlik deyil, həm də böyük bir məsuliyyətdir. Belə bir şey hər qadına nəsib olmur. Yalnız seçilmiş bir qadın belə bir şəxsin sevgisinə layiq ola bilərdi! Ömrünün sonlarına yaxın Heydər Əliyev Zərifə xanıma bəslədiyi duyğular haqqında böyük məhəbbətlə söz açır, onun vaxtsız vəfatını böyük hüznlə xatırlayırdı. Onların bu qarşılıqlı məhəbbəti cəsarətlə deyə bilərik ki, müqəddəs ailənin yaranmasının səbəbi olmuşdu. Ona görə müqəddəs ki, bütün millət üçün nümunə və fəxrdir!

Zərifə xanım heç vaxt Heydər Əliyev şəxsiyyətinin arxasında gizlənməmişdir. Əksinə, öz xarakteri ilə, çalışqanlığı, yorulmadan işləməyi ilə, ağlı, iradəsi və xeyirxahlığı ilə o özünün canlı heykəlini ucaldırdı.

Həkimin həyatı adi adamın həyatından uzun və dolğundur. Dahi Homer iddia edirdi ki, "bacarıqlı bir həkimin həyatı xeyli insanın həyatına bərabərdir". Zərifə xanım məhz belə həkim idi və elə ola bilsin ki, bu ona əbədi şöhrət qazandırmışdır. O, dövlət başçısının həyat yoldaşı idi, 1969-cu ildə Azərbaycanın birinci xanımı olmuşdu və sonralar tarix sübut etdi ki, bu şərəfə o layiq idi. Təəssüf ki, Zərifə xanım həyat yoldaşının və oğlunun prezident seçildiyi o xoşbəxt anla-

rın şahidi ola bilmədi. Amma, heç şübhəsiz ki, bir prezidentin həyat yoldaşı, digərinin anası kimi adına tariflər deyilərkən onun ruhu göylərdə sevinmişdir.

Yəqin ki, Zərifə xanımın həyatında ən xoş, yaddaqalan və şad gün yeganə oğlunun evləndiyi gün idi. Məhz həmin gün iki nəcib ailə - Heydər Əliyevlə Zərifə xanımın ailəsi Arif Paşayevlə Aida xanım İmanquliyevanın ailəsi qohum olmuş, tanınmış yazıçı Mircəlalın nəvəsi Mehriban xanım Heydər Əliyevin gəlini, İlham Əliyevin həyat yoldaşı olmuşdu.

Mehriban xanım Azərbaycanın tarixində böyük rol oynamış əfsanəvi ailənin gəlini olmaqla yanaşı, şərəf və ləyaqətlə bu böyük soyadın davamçısı oldu. Prezident İlham Əliyevə sevimli və sədaqətli həyat yoldaşı, etibarlı silahdaş olan Mehriban xanım üç gözəl övlad - iki qız və Heydər Əliyevin adı qoyulmuş bir oğul dünyaya gətirdi.

Mərhəmət qadın qəlbinin böyüklüyünü nümayiş etdirən ən ülvi duyğudur. Və Mehriban xanım qəlbinin istisini və sevgisini təkcə Azərbaycanın böyüməkdə olan nəsli ilə deyil, dünyanın bütün uşaqları ilə paylaşır. Onun bütün fəaliyyəti Prezident İlham Əliyevə sədaqətlə, Heydər Əliyevə ehtiramla doludur. Buna əmin olmaq üçün elə onun özünün yazdığı sətirləri oxumaq kifayət edər: "Heydər Əlirza oğlu qeyri-adi enerjiyə malik idi, radikal dəyişikliklər etməyə qadir adam idi. Onun gəlişi ilə hər şey köklü şəkildə dəyişdi. Fenomenal yaddaşı, qeyri-məhdud intellekti, həyatın nəbzini daim tutmaq bacarığı ən çətin problemlərin belə öhdəsindən gəlməyə imkan verirdi".

Hər dəfə mən Müstəqil Azərbaycanın şanlı tarixinin rəmzi olan Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmə baxdıqca qəlbimdə ən ülvi duyğular baş qaldırır, onun öz həyat yoldaşına olan məhəbbəti məni riqqətə gətirir. Mən onun öz əbədi məhəbbətini - Zərifə Əliyevanı acı göz yaşları ilə yola saldığı səhnəyə baxarkən deyirəm... Zərifə xanım sonsuz məhəbbətlə sevdiyi bir şəxsin göz yaşlarını görmək istəmədiyi üçün o gül dənizinin arasından gözünü açıb arxaya boylanmağa ürək etmir.

Ey Ulu Tanrı, itki ilə barışmaq istəməyən yanıqlı bir qəlbə necə su səpmək olar?.. Bu güclü insan, çətinlik və müsibətlər qarşısında heç vaxt boyun əyməyən, qürur və cəsarət timsalı olan bir şəxs taleyin bu zərbəsinə duruş gətirmək iq-

tidarında deyildi və həyatında ilk dəfə idi ki, göz yaşları leysana dönmüşdü, durmaq bilmirdi. Nə edə bilərdi ki, əlindən heç nə də gəlmirdi, ən çox sevdiyi bir insan, qəlbinin cananı ondan ayrılıb əbədiyyətə doğru yola çıxmışdı, o yolun digər yolçularına qoşulub tarixləşmişdi...

Amma əbədi həyat və əbədi məhəbbət əfsanəsi davam edir. Böyük bir missiyanın yerinə yetirilməsi üçün Tanrının təyin etdiyi dahi şəxsiyyət qısa müddət sonra çox gərgin bir mübarizəyə başlamalı idi. Zərifə xanım bu mübarizədə onu tək qoyub getməmişdi. O, İlhamı layiqli bir oğul kimi böyütmüşdü və bilirdi ki, oğlu atasının şərəfinin hər şeydən üstün olduğunu dərk edən ləyaqətli bir şəxsiyyət kimi yetişmişdir.

Ayrılıq da, görüş də səmalarda müqəddər olub... On səkkiz ildən sonra iki sevən qəlb yenidən əbədi olaraq qovuşdu. Bu gün Fəxri xiyabanda - bütün azərbaycanlılar üçün and yerinə çevrilmiş bu müqəddəs guşədə sanki bir-birini sözə ehtiyac olmadan anlayan, duyan əbədiyyət Əfsanəsinin iki qəhrəmanının məzarı üzərində iki qranit heykəl var... Onlarla, yüzlərlə, bəzən hətta minlərlə həmvətənləri əllərində güllərlə ziyarət etmək və xeyir-dua almaq üçün bu məzarların önünə gəlir... Uzun və xoşbəxt həyat üçün əbədi məhəbbətlə bir-birini sevən iki qəlbin xeyir-duasını...

*Bakı, 2007 - 2010-cu illər.*

## ZƏRİFƏ XANIM ƏLİYEVANIN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS GÜNLƏRİ

*1923, 28 aprel* – Naxçıvanda Şərur rayonunun Şahtaxtı kəndində Zərifə Əziz qızı Əliyeva dünyaya gəlmişdir.

*1932 – 1942* – orta məktəbdə təhsil.

*1942 – 1947* – Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə profilaktika fakültəsinin tələbəsi.

*1948* – Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya ixtisası üzrə kurs

*1949 – 1950* – Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun ordinatoru.

*1950 – 1953* - aspiranturanı başa vurur və Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun elmi işçisi olur.

*1954* – Heydər Əliyevlə ailə qurur.

*1955, 18 oktyabr* – Zərifə və Heydər Əliyevlərin qızı Sevil dünyaya gəlir.

*1960* – Zərifə xanım tibb elmləri namizədi dərəcəsinə layiq görülür.

*1961, 24 dekabr* – Zərifə və Heydər Əliyevlərin oğlu İlham dünyaya gəlir.

*1967* – Zərifə xanım Ə. Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosentidir.

*1977* – Tibb elmləri doktoru.

*1980* – Azərbaycanın əməkdar elm xadimi.

*1981* – M.İ Averbax adına mükafat almış ilk qadın.

*1982* – "Əmək veteranı" medalı ilə təltif olunur, "Vestnik oftalmologiyi" ümumittifaq jurnalının redaksiya heyətinin, oftalmoloqların ümumittifaq elmi cəmiyyətinin və sülhü müdafiə Komitəsinin üzvü olur.

*1983* – Azərbaycan Elmlər Akademiyasının akademiki olur.

*1985, 15 aprel* – Moskvada vəfat edir.

# ƏDƏBİYYAT

## Dövri nəşrlər


Azərbaycan qadını. 1981. № 10.
Azərbaycan dünyası. 1983. № 1.
Azərbaycan kommunisti. 1983. № 1.
Azərbaycan qadını. 1995. № 1.
Elm və həyat. 1982. № 5.


## Kitablar


*Abbasov Vaqif.* "Liderlik fəlsəfəsi". Bakı, 2004.
*Abdullazadə Fatma.* "Zərifə xanım Əliyeva". Fotoalbom. Ankara, 1998.
Akademik Zərifə Əliyeva. Bakı, 1996.
Akademik Zərifə Əliyeva. Xatirələr. Bakı, 2003.
*Əliyeva Alimə.* "Mənim mənəvi anam". Bakı, 2008.
Əliyeva Zərifə xanım. "Ali kredo (Həkim etikası)". Bakı, 2003.
*Axundova Elmira.* "Heydər Əliyev: Şəxsiyyət və zaman". Bakı, 2008.
*Hüseynli Bayram.* "Heydər Əliyev: yaşanmış və yaşadan həyat". Bakı, 2008.
İlyas Hacı. "İlham Əliyev. Mən istənilən mübarizəyə hazıram". Bakı, 2003.
*Qarayev Əbülfəz.* "Heydər Əliyev və mədəniyyət". Bakı, 2008.
*Müslüm Maqomayev.* "Xatirələrim qəlbimdə yaşayır". M., 2009.
*Mehdiyev Ramiz.* "Dünyanı heyrətə salmış insan". Bakı, 2004.
*Ozerov Mixail.* "İlham Əliyev. Mən Azərbaycanıma inanıram". Bakı, 2008.
*Seyidov Mirkazım, Rzayev Məmməd.* "Zamanı qabaqlamış dahi". Bakı, 2008.
Ağsaqqal sözü: Məcmuə / Budaq Budaqovun redaktorluğu ilə. Bakı, 1998.
*Talıblı Tahir.* Əziz Əliyev: dövr, həyat, şəxsiyyət. Bakı, 1997.
*Ülkü İrfan.* "Qırmızı ulduzdan ayparaya qədər: Heydər Əliyevin həyatı". Bakı, 1994.
*Yəhyayev Teymur.* "Bir taledə iki həyat". Bakı, 2007.


Adı çəkilən mənbələrdən əlavə müxtəlif vaxtlarda "Kommunist", "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Panorama", "İki sahil", "Yeni Azərbaycan", "Bakinski raboçi", "Günay", "Şəfqət", "Elm qəzeti", "525-ci qəzet", "Mədəniyyət", "Qarabağa aparan yol" qəzetlərində dərc olunmuş çoxsaylı materiallardan da istifadə edilmişdir.

***Zərifə xanım Əliyeva haqqında kitab üzrərində işdə əməyi olan hər bir kəsə müəllif səmimi minnətdarlığını bildirir:***
*İlk növbədə aşağıda adı çəkilən şəxslərə xüsusi təşəkkür edir:*

***Əliyev İlham Heydər oğlu,***
*Zərifə xanımın oğlu,*
*Azərbaycan Respublikasının prezidenti;*

***Əliyeva Mehriban Arif qızı,***
*Zərifə xanımın gəlini,*
*Milli Məclisin deputatı,*
*Heydər Əliyev Fondunun prezidenti,*
*YUNESKO-nun xoş məramlı səfiri,*
*İSESKO-nun xoş məramlı səfiri;*

***Paşayev Arif Mir Cəlal oğlu,***
*akademik, fizika-riyaziyyat elmləri doktoru,*
*Azərbaycanın Mili Aviasiya Akademiyasının rektoru;*

***Əliyeva Leyla İlham qızı,***
*Zərifə xanımın nəvəsi, MBMİ tələbəsi,*
*Heydər Əliyev Fondunun*
*Rusiya nümayəndəliyinin rəhbəri.*

*Həmçinin:*

***Mehdiyev Ramiz Ənvər oğlu,***
*Azərbaycan Respublikası*
*Prezident Administrasiyasının rəhbəri;*

***Abdullazadə Fatma Hüseyn qızı,***
*Azərbaycan Respublikası Prezident Administrasiyasının humanitar siyasət şöbəsinin müdiri;*

***Əliyev Cəmil Əziz oğlu,***
*akademik, tibb elmləri doktoru,*
*Azərbaycan Səhiyyə Nazirliyinin baş onkoloqu;*

***Qarayev Əbülfəz Mürsəl oğlu,***
*Azərbaycan Respublikası mədəniyyət və turizm naziri;*

***Kərimov Mahmud Kərim oğlu,***
*akademik, Azərbaycanın Milli Elmlər*
*Akademiyasının keçmiş prezidenti;*

***Axundova Elmira Hüseyn qızı,***
*yazıçı, jurnalist,*
*Milli Məclisin deputatı;*

***İbrahimov Eldar Rza oğlu,***
*Milli Məclisin deputatı,*
*Komitə sədri;*

***Bağırov Rafiq,***
*Azərbaycan Respublikası Prezidentinin*
*şəxsi fotorəssamı*

***Mirzəzadə Reyhan Sabir qızı,***
*publisist - politoloq;*

***Mahmudov Əli Əbülfət oğlu (Əli Mahmud),***
*şair publisist;*

*Milli Arxiv İdarəsinin, M.F. Axundov adına kitabxananın və Azərbaycan Milli Elmlər Akademiyasının kitabxanasının əməkdaşlarına göstərdikləri köməyə görə təşəkkür edirik.*

MÜNDƏRİCAT

Dastanın əvvəli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6

*Birinci fəsil.* HİPPOKRAT VƏ OFTALMOLOGİYA . . . . . . . . 8
*İkinci fəsil.* ƏVƏZSİZ İNSAN . . . . . . . . . . . . . . . . . . . . . . . 22
*Üçüncü fəsil.* SƏKKİZ İL DAĞLAR ÖLKƏSİNDƏ . . . . . . . . 37
*Dördüncü fəsil.* İFTİRA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
*Beşinci fəsil.* ZƏRİFƏ VƏ HEYDƏR . . . . . . . . . . . . . . . . . . 53
*Altıncı fəsil.* XATİRƏLƏR, XATİRƏLƏR . . . . . . . . . . . . . . 59
*Yeddinci fəsil.* YAXŞILIQ ETMƏYİ BACARAN . . . . . . . . . . 66
*Səkkizinci fəsil.* KÖKLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81
*Doqquzuncu fəsil.* KONDİSİONERLƏR VƏ...
OFTALMOSKOP . . . . . . . . . . . . . . . . . . . . 92
*Onuncu fəsil.* MƏHƏBBƏT ƏFSANƏSİ . . . . . . . . . . . . . . . 104
*On birinci fəsil.* VİDALAŞMA . . . . . . . . . . . . . . . . . . . . . . 122
*On ikinci fəsil.* İNSANLAR ÜÇÜN MİRAS
QOYULMUŞ NUR . . . . . . . . . . . . . . . . . . . . 134
*On üçüncü fəsil.* UNUDULMAZ . . . . . . . . . . . . . . . . . . . . . 143
*On dördüncü fəsil.* NURUN DAVAMI . . . . . . . . . . . . . . . . . 157
*On beşinci fəsil.* İLHAM ƏLİYEV: “O HƏMİŞƏ MƏNİM
QƏLBİMDƏDİR” . . . . . . . . . . . . . . . . . . . . 165
*On altıncı fəsil.* VƏZİFƏ - QİSMƏT - HƏYAT . . . . . . . . . . . 185

Əbədiyyət dastanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 195
Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinin əsas günləri . . 201
Ədəbiyyat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 202

**Mirələmov H.F.**
ZƏRİFƏ ƏLİYEVA
Bakı - 2013-cü il, 208 səh.

Zərifə Əliyeva (1923-1985) Azərbaycan KP MK-nın birinci katibi (1993-cü ildən prezidenti) Heydər Əliyevin həyat yoldaşı, respublikanın bugünkü prezidenti İlham Əliyevin anası olmuşdur. Lakin o, təkcə bununla tanınmır və təkcə buna görə bütün ölkədə sadə fəhlə və qulluqçudan dövlət və partiya xadimlərinə, elmi və yaradıcı ziyalılara qədər hamının sevimlisi deyildi. Onun bütün həyatı insanlara xidmət etməyə həsr olunmuşdu: görkəmli alim-oftalmoloq, tibb elmləri doktoru, akademik, gözəl alim - və eyni zamanda həssas və qayğıkeş pedaqoq, müəllim, müdrik rəhbər. Bu gözəl qadının həyat yolu haqqında hekayə arxiv materialları, onu yaxından tanıyan insanların xatirələri əsasında qurulmuş və qəhrəmanın obrazını tam açmağa kömək edən fotoşəkillərlə tamamlanmışdır.

**Mirələmov Hüseynbala Fazil oğlu**

ZƏRİFƏ ƏLİYEVA

GÖRKƏMLİ ADAMLARIN HƏYATI

Bioqrafik silsilə

Bu kitab The Language House MMC-nin dəstəyi ilə nəşr olunmuşdur.
www.tlh.az

Tərcüməçi **Kifayət Əhmədqızı**
Baş redaktor **Kifayət Əhmədqızı**
Redaktor **Nahid Hacızadə**
Bədii redaktor **Fərqanə Mirzəyeva**
Texniki redaktor **Nüsrət Quliyev**
Korrektor **Gülnar İsgəndərova**

Çapa imzalanmışdır 06.03.2013. Kağız formatı 84x108 $^{1}/_{32}$. Ofset kağızı.
Qarnituru Times. Fiziki çap vərəqi 7,5. Şərti çap vərəqi 12,60.
Tirajı 1000. Sifariş 721. Müqavilə qiyməti ilə.

---

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 5380010. Faks: (99412) 5380014.
E-mail: azerbneshr@yahoo.com